Azərbaycan Respublikası adından
Qərar

Bakı Apellyasiya Məhkəməsinin
Cinayət Kollegiyası

Bakı şəhəri 1(3-6)-130/2026 19.02.2026-cı il

Hakimlər Mehdiyev Emin Əlixan oğlunun sədrliyi ilə,
Qarayeva Mehriban Cəfər qızı və Rəhimov Elmar Eldar oğlundan ibarət tərkibdə,
məhkəmə iclasının katibi Sadıqov Zülfüqar Rəşadət oğlunun,
Dövlət ittihamçısı Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Ələkbərov Anar Akif oğlunun,
Təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğlunun müdafiəçisi Bakı şəhəri 18 saylı Vəkil Bürosunun vəkili Quliyeva Kamilə Şiraslan qızının iştirakı ilə,

25.09.1954-cü ildə Kürdəmir rayonunda doğulmuş, Fransa Respublikasının vətəndaşı, azərbaycanlı, ali təhsilli, ailəli, əvvəllər məhkum olunmamış, "Azərbaycan Beynəlxalq Universiteti"nin rektoru vəzifəsində işləmiş, sonuncu dəfə Bakı şəhəri, Ş.Şamil küçəsi ev 11, mənzil 11 ünvanında qeydiyyatda olmuş, hazırda Fransa Respublikası Paris şəhərinin Mennesy rayonunun A.Şenner küçəsi 15 ünvanında qeydiyyatda olmaqla yaşayan, Azərbaycan Respublikası CM-in 137.5.1, 137.5.2, 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələrinə əsasən təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində qiyabi həbs qətimkan tədbiri seçilmiş

**Abdullayev Elşad İslam oğlunun** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələri ilə təqsirləndirilməsinə dair Bakı Ağır Cinayətlər Məhkəməsinin 23.12.2025-ci il tarixli, 1(101)-1640/2025 saylı qiyabi hökmündən təqsirləndirilən şəxsin müdafiəçiləri Yusifbəyli Rəsul Rəbbil oğlu, Şükürov Cahangir Məmmədxan oğlu tərəfindən birgə verilmiş apellyasiya şikayətinə Bakı Apellyasiya Məhkəməsinin binasında qapalı məhkəmə iclasında, qiyabi icraat qaydasında baxaraq,

**MÜƏYYƏN ETDİ:**

Bakı Ağır Cinayətlər Məhkəməsinin 23.12.2025-ci il tarixli, 1(101)-1640/2025 saylı qiyabi hökmü ilə aşağıdakılar hökm edilmişdir:

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Abdullayev Elşad İslam oğlu Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələri ilə təqsirli bilinsin, ona Azərbaycan Respublikası CM-nin 137.5.3-cü maddəsi ilə 02 (iki) il müddətə dövlət və yerli özünü idarə etmə orqanlarında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 04 (dörd) il müddətinə azadlıqdan məhrum etmə cəzası, Azərbaycan Respublikası CM-nin 213.2.2-ci maddəsi ilə 02 (iki) il müddətə dövlət və yerli özünü idarə etmə orqanlarında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 04 (dörd) il müddətinə azadlıqdan məhrum etmə cəzası, Azərbaycan Respublikası CM-nin 308.2-ci maddəsi ilə 02 (iki) il müddətə dövlət və yerli özünü idarə etmə orqanlarında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 05 (beş) il 06 (altı) ay müddətinə azadlıqdan məhrum etmə cəzası, Azərbaycan Respublikası CM-nin 311.3.1, 311.3.2, 311.3.3-cü maddələri ilə 10 (on il) 06 (altı) ay müddətinə azadlıqdan məhrum etmə cəzası, Azərbaycan Respublikası CM-nin 29, 312.2-ci maddəsi ilə 05 (beş) il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilsin.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 66.3-cü maddəsinə əsasən təyin olunmuş cəzaları qismən toplamaq yolu ilə Abdullayev Elşad İslam oğluna cinayətlərin məcmusu üzrə qəti olaraq 02 (iki) il 06 (altı) ay müddətə dövlət və yerli özünü idarə etmə orqanlarında müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 15 (on beş) il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilsin.

Cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

Abdullayev Elşad İslam oğlunun barəsində seçilmiş "həbs" qətimkan tədbiri hökm qanuni qüvvəyə minənədək dəyişdirilməsin.

Abdullayev Elşad İslam oğlunun cəzaçəkmə müddətinin əvvəli hazırki hökmün icrası qaydasında faktiki tutulduğu və ya könüllü olaraq özünü cəzanı icra edən orqana təqdim etdiyi vaxtdan hesablansın.

Abdullayev Elşad İslam oğlunun həbsdə saxlanma yeri Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanası müəyyən edilsin.

İş üzrə maddi sübut qismində tanınaraq Baş Prokurorluğun İstintaq idarəsinin maddi sübutlar otağında saxlanılan tələbə qəbulu, təhsil sənədlərinə dair 13 ədəd qovluq, davamiyyət və diplom təhvil jurnalları, Pəsəyərov İxtiyar Möhübbət oğluna, Rüstəmov Sadiq Mənsur oğluna, Məmmədov Elnur Mustafa oğluna, Hümmətov Bəhruz Ehtibar oğluna, Fərəcov Elgiz Novruz oğluna, Fərəcov Mübariz Cabir oğluna məxsus tələbə biletləri, Pəsəyərov İxtiyar Möhübbət oğluna, Şirəliyev Rüfət Qarayeviçə, Həsənov Lətif Elşad oğluna, Fərəcov Elgiz Novruz oğluna, Məmmədov Elnur Mustafa oğluna, Hümmətov Bəhruz Ehtibar oğluna, Rüstəmov Sadiq Mansur oğluna məxsus qiymət kitabçaları, Məmmədov Nicat Vaqif oğluna, Əliyev Razi Niyazi oğluna, İsgəndərov Roman Pirməmməd oğluna, Qasımov Məhərrəm Damət oğluna, Nuriyev Orxan Nəsrəddin oğluna, Həsənov Murad Həşim oğluna, Ağalarov Ruslan Əlağa oğluna, Ağayev Ramil Rafiq oğluna, Hüseynov İbrahim Əliqulu oğluna, Mütəllimli Dilqəm Mehman oğluna, Qurbanov Raqif Rauf oğluna, Sayadov Kamal Lətif oğluna, Aslanov Ehtibar Mübarək oğluna diplomlar, Rabil Amanov, Xudayar Həsənov və Tavat Şirvanovun ifadələrinə əlavə olunmuş 03 ədəd DVD disk, 03 ədəd "Kitabxana", "Kassa H2" və ingilis, rus, azərbaycan dillərində "Azərbaycan Beynəlxalq Universiteti" məzmunlu mətn olan ştamplar, içərisində azərbaycan dilində "Dəftərxana", rus dilində "Beynəlxalq hüquq" və "cinayət işi" məzmunlu mətn olan

dairəvi möhürlər, rus dilincə "Daxil olma" məzmunlu mətn olan düzbucaqlı möhür hökm qanuni qüvvəyə mindikdən sonra cinayət işinin materiallarına əlavə edilərək saxlanılsın.

Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 13.06.2025-ci il tarixli və 04.07.2025-ci il tarixli qərarları ilə üzərlərinə həbs qoyulmuş, 16.500.000 – 18.100.000 manat dəyərində Azərbaycan Beynəlxalq Universitetini təşkil edən 1) Bakı şəhəri, Binəqədi rayonu, 7-ci mkr, X.Dairəvi küçəsi 179 ünvanında 34349,7 kv. metr ölçüdə torpaq sahəsi (4092,7+30257) və 1757.6 kv.metr ölçüdə tikilidən ibarət daşınmaz əmlak (hazırda istifadəsiz), 2) Bakı şəhəri Nərimanov rayonu A.M.Cümə küçəsi 16 ünvanında yerləşən 4718.9 kv.metr ölçüdə tikili və 2522.6 kv.metr ölçüdə torpaq sahəsindən ibarət daşınmaz əmlak (hazırda Aristokrat tibb mərkəzi) və 3) Bakı şəhəri Binəqədi rayonu 7-ci mikrorayon X.Dairəvi küçəsi 3123-cü məhəllə 1604-cü keçid 11 ünvanında yerləşən 5334.5 kv.metr ölçüdə tikili və 7629.2 kv.metr ölçüdə torpaq sahəsindən ibarət daşınmaz əmlak (hazırda Era tam orta məktəb və baxça), 8.846.746 – 9.581.746 manat dəyərində faktiki olaraq Elşad Abdullayevə məxsus - 4) Bakı şəhəri Səbail rayonu Ş.Şamil küçəsi ev 11 mənzil 8, 5) Bakı şəhəri Xəzər rayonu Dübəndi bağ sahəsində yerləşən 26 saylı bağ sahəsi, 6) Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 609 saylı bağ evi, 7) Bakı şəhəri Səbail rayonu Qədirli küçəsi 8a (birləşdiriləndək 8a və 8b) ünvanında yerləşən fərdi yaşayış evi, 8) Bakı şəhəri Səbail rayonu Cəfərov qardaşları küçəsi ev 12 mənzil 15/3, 9) Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 707D saylı bağ evi, 10) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə 10 ünvanında yerləşən qeyri-yaşayış sahəsi, 11) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə 10 ünvanında yerləşən qeyri-yaşayış sahəsi, 12) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə ev 10 mənzil 52, 13) Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4,6 mənzil 23 (yeni qaydalarla Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4 M8 mənzil 3), 14) Bakı şəhəri Sabunçu rayonu Vişnyovka-1 bağ sahəsində yerləşən 1234 saylı bağ sahəsi, 15) "ERA" şirkətinin adına rəsmiləşdirilmiş Bakı şəhəri Nərimanov rayonu Aerodrom küçəsi 2093-cü məhəllə 20/94 ünvanında yerləşən 33142 kv.metr ölçüdə olan torpaq sahəsi, 16) eləcə də «Azərbaycan Beynəlxalq Universitetinin Moskva filialı»nın adına rəsmiləşdirilmiş Rusiya Federasiyasının Moskva şəhəri Odinsovu rayonunun Marfino kəndində 26B ünvanında yerləşən 20000 kv.metr torpaq sahəsi və 1000 kv.metr tikilidən ibarət daşınmaz əmlak xüsusi müsadirə tətbiq edilməklə dövlət nəfinə alınsın.

Abdullayev Elşad İslam oğlu hazırki hökm qanuni qüvvəyə mindikdən sonra könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə, qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə təqdimatla Bakı Ağır Cinayətlər Məhkəməsinə müraciət etmək vəzifəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin müvafiq cəzaçəkmə müəssisəsinə həvalə edilsin.

Abdullayev Elşad İslam oğlu və onun müdafiəçisinə izah edilsin ki, Abdullayev Elşad İslam oğlu könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə, qiyabi hökmün ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə vermək və 10 gün müddətində cinayət işinin materialları ilə tanış olmaq hüququ vardır.

Hökmə əsasən müəyyən edilmişdir ki, Abdullayev Elşad İslam oğlu vəzifəli şəxs olmaqla özü və üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edərək

xidməti vəzifəsinin icrası ilə əlaqədar qabaqcadan əlbir olduğu bir qrup şəxslə qanunsuz hərəkətlərə görə birbaşa və dolayı yolla, şəxsən və vasitəçidən istifadə etməklə külli miqdarda maddi neməti pul şəklində təkrarən rüşvət kimi istəmiş və almış, dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vuraraq həmin əməli ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən təkrar suiistifadə etmiş, eləcə də ayrı-ayrı vəzifəli şəxslər tərəfindən bilə-bilə qanunsuz hərəkətlər etmələrinə görə onlara təkrarən külli miqdarda rüşvət verməyə cəhd etmiş, həmçinin qabaqcadan əlbir olduğu bir qrup şəxslə təkrarən insanların onlardan maddi cəhətdən asılı olmasından istifadə etməklə donor orqanlarının alqı-satqısı, transplantasiya məqsədilə götürülməsi və transplantasiyasının həyata keçirilməsini təşkil etmiş və külli miqdarda vergiləri ödəməkdən yayınmışdır.

Belə ki, Elşad Abdullayev ali təhsil müəssisəsi təsis edib dövlət qeydiyyatına aldırmaqla və Təhsil Nazirliyindən müvafiq lisenziya əldə etməklə cəmiyyətdə həmin universitetin qanuni əsaslarla təhsil sahəsində elmi və pedaqoji fəaliyyət həyata keçirməsi görüntüsü yaradaraq, əsl həqiqətdə qabaqcadan əlbir olduğu şəxsləri fakültələr üzrə dekan vəzifələrinə yerləşdirmək və tələbələrin universitetə qəbulu, köçürülmələri, semestr və dövlət buraxılış attestasiya imtahanlarından müvəffəq qiymətlər almaları, diplom əldə etmələri müqabilində hər bir fakültə üzrə fərdi pul məbləğləri müəyyən etmək və göstərilən xidmətlərin təşkil edilməsi müqabilində həmin pul məbləğlərini şəxsən və ya özünün yerləşdirdiyi dekanların vasitəsilə külli miqdarda rüşvət kimi əldə etmək qərarına gələrək, həmin cinayətkar niyyətinin həyata keçirilməsini təmin etmək məqsədilə ilkin mərhələdə 17.10.1997-ci il tarixdə Rusiya Federasiyası Beynəlxalq İdarəetmə, Biznes və Hüquq İnstitutu"nun Bakı filialının bazasında "Azərbaycan Beynəlxalq Universiteti" adlı qeyri-dövlət ali tədris müəssisəsini təsis edib, nizamnaməsini qəbul edib Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 07.11.1997-ci il tarixdə rəsmi dövlət qeydiyyatına aldırmaqla və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 04.12.1997-ci il tarixli 48-11- 4058/16 №-li qərarını, yeni qaydaların tətbiqindən sonra isə 11.06.1999-cu il tarixli 019002 nömrəli və 30.06.2005-ci il tarixli 3283 nömrəli lisenziyalarını əldə etməklə, həmçinin 26.02.2001-ci il tarixli 134 №-li mülkiyyət hüququna dair şəhadətnamə ilə Bakı şəhəri Binəqədi rayonu Xarici Dairəvi küçəsi 179 ünvanında yerləşən 76313,0 kvadrat metr torpaq sahəsini universitetin xüsusi mülkiyyətinə keçirməklə, növbəti şəhadətnamələr ilə universitetin balansında olan torpaq sahələri və tikililərin miqdarını artırmaqla nəticədə tələbələrdən külli miqdarda rüşvət alma cinayətinin törədilməsi vasitəsi kimi ali təhsil müəssisəsinin, yəni "Azərbaycan Beynəlxalq Universiteti"nin həmin ərazidə fəaliyyətə başlamasına nail olmuşdur. Daha sonra cinayətkar planına uyğun olaraq qabaqcadan əlbir olduğu Amanov Rabil Amanulla oğlunu maliyyə və kredit fakültəsinin dekanı, eyni zamanda başqa ali məktəblərdən tələbələrin köçürülmə komissiyasının sədri, Həsənov Xudayar İsmayıl oğlunu müalicə işi fakültəsinin dekanı, Əfəndiyev Mahmud Paşa oğlunu neft-qaz yataqlarının istismarı və işlənməsi fakültəsinin dekanı, Məmmədov İsmayıl Məhəmməd oğlunu dövlət və bələdiyyə idarəetməsi, tarix və ictimaiyyət fakültələrinin dekanı və digərlərini müxtəlif vəzifələrə təyin edib hər bir fakültə üzrə fərdi olaraq tələbə işləri (qəbul, köçürülmə, sessiya imtahanları, diplom işi və s.) müqabilində alınacaq rüşvətlərin məbləğlərini müəyyən etmişdir. Qabaqcadan planlaşdırılmış külli miqdarda rüşvət alma cinayətinin törədilməsi üçün əlverişli şərait yaratdıqdan sonra Azərbaycan Beynəlxalq Universitetinin rektoru vəzifəsində işlədiyi 1997-2010-cu illərdə ABU-nin 25.05.1996-cı il tarixli Nizamnaməsinə uyğun olaraq universitetin işinin nəticələri üçün tam

məsuliyyət daşımaq, onun adından fəaliyyət göstərmək, bütün orqanlarda, idarə və müəssisələrdə təmsil etmək, universitetin əmlakı barədə sərəncam vermək, müqavilələr bağlamaq, etibarnamələr vermək, banklarda hesab açmaq, bütün işçiləri, tələbələri və digər müdavimləri üçün məcburi əmrlər və göstərişlər vermək və digər səlahiyyətlərə malik vəzifəli şəxs kimi vəzifəsindən sui-istifadə edərək rəhbərlik etdiyi universitetin maliyyə və kredit fakültəsinin dekanı, eyni zamanda başqa ali məktəblərdən tələbələrin köçürülmə komissiyasının sədri Amanov Rabil Amanulla oğlu, müalicə işi fakültəsinin dekanı Həsənov Xudayar İsmayıl oğlu, neft-qaz yataqlarının istismarı və işlənməsi fakültəsinin dekanı Əfəndiyev Mahmud Paşa oğlu, dövlət və bələdiyyə idarəetməsi, tarix və ictimaiyyət fakültələrinin dekanı Məmmədov İsmayıl Məhəmməd oğlu, bacısı oğlu Mursaliyev Araz Oqtay oğlu və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əlaqəsinə girərək şəxsən və onların vasitəçiliyi ilə, Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının xətti ilə imtahan verərək ali məktəblərə qəbul oluna bilməyən ayrı-ayrı şəxslərdən qanunsuz hərəkətlərinə görə külli miqdarda rüşvət alaraq Rusiya Federasiyası Dağıstan Respublikasının Mahaçqala şəhərində yerləşən Maliyyə və Hüquq Universitetində, Qafqaz Xalqları Universitetində, Cənubi Rusiya Humanitar İnstitutunda, Dərbənd şəhərində yerləşən S.Stalski adına Açıq Sosial Universitetində, Dərbənd Humanitar İnstitutunda təhsil almadıqları halda, guya onların göstərilən təhsil müəssisələrinə tələbə kimi qəbul olunmaları və çıxarılmaları barədə əmrlərdən və qiymət kitabçalarından çıxarışların, akademik arayışların - məzmununa bilə-bilə yalan məlumatlar daxil edilmiş rəsmi sənədlərin tərtib olunaraq təhsil almaları rəsmiləşdirildikdən sonra, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin razılığı olmadan II kursdan Azərbaycan Beynəlxalq Universitetinin müvafiq fakültələrinə qanunsuz köçürülmələrini təşkil etmişdir.

Bundan sonra maliyyə və kredit fakültəsinin dekanı, eyni zamanda başqa ali məktəblərdən tələbələrin köçürülmə komissiyasının sədri Amanov Rabil Amanulla oğlunun vasitəçiliyi ilə həmin tələbələrdən, eyni zamanda Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanlarının nəticələrinə əsasən ABU-ya qanunamüvafiq şəkildə qəbul olunmuş tələbələrdən, o cümlədən Cəlilov Tural Eldar oğlundan 2002-ci ilin avqust ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1500 ABŞ dolları, Nuriyev Fərid Kəyan oğlundan 2002-ci ilin sentyabr ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 600 ABŞ dolları, 2002-2006-cı illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 800 ABŞ dolları və dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 400 manat, Hacıyev Cavid Şakir oğlundan 2002-ci ilin sentyabr ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 600 ABŞ dolları, 2002-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla cəmi 1500 ABŞ dolları, Əliyev Samir Əjdər oğlundan 2003-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı dövrdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla cəmi 1500 ABŞ dolları və diplomun alınması üçün 500 ABŞ dolları, Quliyev Nurəddin Fəxrəddin oğlundan 2002-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı dövrdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 1000 ABŞ dolları və dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 400 ABŞ dolları, Piriyev Tural Ələddin oğlundan 2002- 2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı dövrdə sessiya

imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla cəmi 2000 ABŞ dolları və 2007-ci ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 600 ABŞ dolları, Həsənov Yaşar Həsənəli oğlundan 2002-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1500 ABŞ dolları, 2002-2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 manat olmaqla cəmi 1000 manat və 2007-ci ilin may ayında diplomun alınması üçün 600 ABŞ dolları, Mərdəliyev Pərviz Məmmədrəsul oğlundan 2002-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 50 ABŞ dolları olmaqla cəmi 500 ABŞ dolları, məşğələlərdə iştirak etmədiyinə görə hər semestr sonu 20 manat olmaqla cəmi 200 manat və diplomun alınması üçün 150 ABŞ dolları, Mirzəyev Elvin Sahib oğlundan 2002-2007-ci illərdə Maliyyə və kredit fakültəsində tədris aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 50 ABŞ dolları olmaqla cəmi 500 ABŞ dolları və diplomun alınması üçün 500 ABŞ dolları, Abaslı Azad Ağaqulu oğlundan 2002-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1500 manat, 2002- 2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 manat olmaqla cəmi 1000 manat və diplomun alınması üçün 600 manat, Bağıyev Elşad Müslümağa oğlundan 2003-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı dövrdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 50 ABŞ dolları olmaqla 400 ABŞ dolları və 2007-ci ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 800 manat, Seyidov Urman Vaqif oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə qəbul olunmasına görə 1500 ABŞ dolları, 2003-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 2000 manat, Musayev Elşad Eldar oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 800 ABŞ dolları, 2003-2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla cəmi 1600 ABŞ dolları, Quliyev Siyavuş Fazil oğlundan 2003-cü ilin sentyabr ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 700 ABŞ dolları, 2003-2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla cəmi 1200 ABŞ dolları və 2007-ci ilin may ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 500 ABŞ dolları, Həsənov Rəfael Əfsər oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 600 ABŞ dolları, 2003-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 1000 ABŞ dolları və diplomun alınması üçün 20 manat, Məmmədov Ramid Ramiz oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1500 ABŞ dolları, 2003-2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 800 ABŞ dolları və diplomun alınması üçün 1000 manat, Rzayev Rəşad Aydın oğlundan 2003-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla cəmi 1600 ABŞ dolları və diplomun alınması üçün 600 ABŞ dolları, Bəkirov İlham İlyas oğlundan 2003-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 manat olmaqla cəmi 800 manat,

Əliyev Əjdər Rafiq oğlundan 2003-2007- ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 800 ABŞ dolları, Mustafayev Samir Hümbət oğlundan 2003-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla cəmi 1200 ABŞ dolları, Fərəcullayev Xaqan Vaqif oğlundan 2003-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla cəmi 1600 ABŞ dolları və diplomun alınması üçün 400 ABŞ dolları, Ədilov Şeydulla Vaqif oğlundan 2003-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 80 ABŞ dolları olmaqla cəmi 840 ABŞ dolları, 2007-ci ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 400 ABŞ dolları, Baxışov Aydın İsax oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 500 ABŞ dolları, 2003-2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 800 ABŞ dolları, dövlət imtahanına buraxılması üçün 200 ABŞ dolları və diplomun alınması üçün 400 ABŞ dolları, Məhəmmədov Məhəmməd Şahin oğlundan 2003-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 800 ABŞ dolları və diplomun alınması üçün 500 ABŞ dolları, Rzayev Roman Elman oğlundan 2003-2007-ci ildə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 50 ABŞ dolları olmaqla cəmi 400 ABŞ dolları və diplomun alınması üçün 500 ABŞ dolları, Fərhadov Zaur Səlim oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 300 ABŞ dolları, 2003-2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 800 ABŞ dolları, Abdullayev İlqar Vidadi oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 3000 ABŞ dolları, 2003-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 250 ABŞ dolları olmaqla cəmi 2500 ABŞ dolları və diplomun alınması üçün 1000 manat, Abdullayev Vüsal Vidadi oğlundan 2006-cı ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 5000 manat və 2007-2010-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 250 manat olmaqla cəmi 1500 manat, Seyidov Sahib Tofiq oğlundan 2003-2007-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 manat olmaqla cəmi 1200 manat, Sadıqov Fərid Arif oğlundan 2003-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla cəmi 1500 ABŞ dolları və 2008-ci ilin iyun ayında diplomun alınması üçün 500 manat, Nəsibova Tahirə Valeh qızından 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 2000 ABŞ dolları, 2003-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla 1500 ABŞ dolları və diplomun alınması üçün 600 ABŞ dolları, Əliyev Eldar Nəbi oğlundan 2003-cü ildə universitet Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 2000 ABŞ dolları, 2003-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat

olmaqla cəmi 2000 manat, Məmmədzadə Türkan Adışirin qızından 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1000 manat, 2003-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 1000 ABŞ dolları, Əfəndiyeva Yasəmən Həmid qızından 2003-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 manat olmaqla cəmi 1500 manat və diplomun alınması üçün 500 manat, Rəhimova Elnarə Nəriman qızından 2003-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 1000 ABŞ dolları və diplomun alınması üçün 800 ABŞ dolları, Müslümov Mikayıl İlçibəy oğlundan 2003-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 1000 ABŞ dolları və 2008-ci ilin may ayında diplomun alınması üçün 250 ABŞ dolları, İbadov Vüsal Akif oğlundan 2003- 2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 50 ABŞ dolları olmaqla cəmi 500 ABŞ dolları və diplomun alınması üçün 500 ABŞ dolları, Məhərrəmov Nicat Şəfaqət oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1000 ABŞ dolları, 2003-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla cəmi 1500 ABŞ dolları, Rzayev Əfqan Cavanşir oğlundan 2003-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla cəmi 1600 ABŞ dolları və diplomun alınması üçün 800 ABŞ dolları, Hüseynov Rüfət Tahir oğlundan 2004-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1000 ABŞ dolları, 2004-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 ABŞ dolları olmaqla cəmi 800 ABŞ dolları və 2008-ci ilin avqust ayında diplomun alınması üçün 1000 ABŞ dolları, Xəlilov Famil Vahid oğlundan 2004-cü ilin avqust ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1000 ABŞ dolları, 2004-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün 2400 ABŞ dolları və 2008-ci ilin iyun ayında diplomun alınması üçün 1000 manat, Axundov Azad Sərraf oğlundan 2004-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1500 manat, 2004-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla cəmi 1200 ABŞ dolları və diplomun alınması üçün 1000 manat, Hüseynov Əli Rafiq oğlundan 2001-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 400 ABŞ dolları, 2001-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 250 ABŞ dolları olmaqla cəmi 2500 ABŞ dolları və diplomun alınması üçün 1300 manat, Hümmətov Şamo Hümmət oğlundan 2004-cü ildə universitetin Riyaziyyat və informatika fakültəsinə qəbul olunmasına görə 2000 manat, 2005-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 1600 manat, Səfərov Rəşad Möhsün oğlundan 2004-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1000 ABŞ dolları, 2004- 2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 1600 manat, Ələsgərov Mehman Abbas oğlundan 2008-2009-cu illərdə Maliyyə və kredit

fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla 400 manat, 2009-cu ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 400 manat və diplomun alınması üçün 1500 manat, Əsgərov Əlixan Əlixan oğlundan 2004-cü ilin oktyabr ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1500 ABŞ dolları, 2006-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün cəmi 1450 ABŞ dolları, Pənahov Elmar Bəxtiyar oğlundan 2004-2008-ci illərdə Maliyyə və kredit fakültəsində tədris aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla cəmi 1600 ABŞ dolları və diplomun alınması üçün 1000 ABŞ dolları, Həmidov Vilayət Riqaif oğlundan 2004-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 1600 manat və 2008-ci ilin iyun ayında diplomun alınması üçün 1000 ABŞ dolları, Babayev Nadir Məhərrəm oğlundan 2004-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150-200 manat olmaqla cəmi 1200 manat və 2008-ci ildə diplomun alınması üçün 1000 ABŞ dolları, Abdullayev Tural Qurban oğlundan 2004-2008- ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla cəmi 1200 ABŞ dolları və diplomun alınması üçün 600 manat, Məmmədov Fərhad Firudin oğlundan 2004- 2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 300 manat olmaqla cəmi 2400 manat və diplomun alınması üçün 1000 manat, Dostuyev Dilqəm Mayıl oğlundan 2004-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 3000 manat, 2004-2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 300 manat olmaqla cəmi 2400 manat, 2008-ci ilin iyun ayında diplomun alınması üçün 1500 manat, Əliyev Anar Tofiq oğlundan 2003-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla cəmi 1600 ABŞ dolları və diplomun alınması üçün 700 ABŞ dolları, Məmmədov Elnur Telman oğlundan 2004-cü ildə universitetin Aqronomluq fakültəsinə qəbul olunmasına görə 800 ABŞ dolları, 2006-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 manat olmaqla cəmi 900 manat və 2008-ci ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 1000 ABŞ dolları, Qurbanov Emil Famil oğlundan 2004-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 1600 manat, 2006-2008-ci illərdə dərslərdə iştirak etməmək müqabilində hər imtahan sessiyasında 200 manat olmaqla 800 manat, Səmədov Emil Məhəbbət oğlundan 2004-2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla cəmi 1600 ABŞ dolları və diplomun alınması üçün 2000 manat, Əliyev Elşən Yasin oğlundan 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 2500 ABŞ dolları, 2005-2009-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 250 manat olmaqla cəmi 2000 manat və diplomun alınması üçün 1500 manat, Həsənov Nazim Çingiz oğlundan 2005-ci ilin avqust ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 2500

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

ABŞ dolları, 2005-2009-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün 2-ci kursda 200 ABŞ dolları, 3-4-cü kurslarda 250 manat olmaqla cəmi 400 ABŞ dolları və 1500 manat, 2009-cu ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər alması və diplomun alınması üçün 1300 manat, Zeynalov Şahin Elbəyi oğlundan 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1700 ABŞ dolları, 2005-2009-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 250 manat olmaqla cəmi 2000 manat və 2009-cu ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün üçün 1300 manat, Qasımova Cəmilə Mazahir qızından 2002-2007-ci illərdə 1 və 2-ci kurslarda Riyaziyyat və informatika, 3, 4 və 5-ci kurslarda Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla cəmi 2000 ABŞ dolları və 2007-ci ilin iyun ayında diplomun alınması üçün 400 manat, Musayev Nail Zülfəli oğlundan 2004-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 5000 ABŞ dolları, 2005-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün 2000 ABŞ dolları, Alıyev Zahir Xanlar oğlundan 2005- 2008-ci illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 manat olmaqla cəmi 600 manat və 2008-ci ilin fevral ayında diplomun alınması üçün 500 ABŞ dolları, Əlaslanova Ceyhunə Möhübbət qızından 2004-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 2500 ABŞ dolları, 2005-2010-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 manat olmaqla cəmi 900 manat və diplomun alınması üçün 1000 manat, Babayev Fikrət Camaləddin oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1000 manat, 2005-2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 ABŞ dolları olmaqla cəmi 600 ABŞ dolları, Heybətova Nailə Əzizağa qızından 2005-ci ilin avqust ayında universitetin Riyaziyyat informatika fakültəsinə qəbul olunmasına görə 1700 ABŞ dolları, Muradov Abbas Valeh oğlundan 2004-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1500 manat, 2005-2009-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün cəmi 850 manat, Həsənova Afaq Hüseyn qızından 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1500 ABŞ dolları, 2005-2009-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150-200 manat olmaqla cəmi 1400 manat, Həsənov Rövşən Mais oğlundan 2005-2009-cu illərdə təhsil aldığı universitetin Maliyyə və kredit fakültəsində sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün 300 manat olmaqla 2400 manat, 2009-cu ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 1300 manat, Ağayev Emin Şakir oğlundan 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 5000 ABŞ dolları, 2005-2009-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 250 manat olmaqla cəmi 2000 manat və diplomun alınması üçün 1300 manat, Eminov Namiq Aydın oğlundan 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 2500 ABŞ dolları, 2005 və 2007- 2010-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 250 manat olmaqla cəmi 2000 manat, Balayev Kənan Sərvər oğlundan 2006-cı ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 6000 manat, 2010-cu iildə Universitet

bağlandıqdan sonra başqa universitetə köçürülməsi üçün 2000 manat, Abdullayev Ramin Ramiz oğlundan 2003-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1200 ABŞ dolları, 2003-2007-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları və 200 manat olmaqla cəmi 1200 ABŞ dolları və 400 manat, eləcə də diplomun alınması üçün 1000 manat, Yusubov Seymur Binnət oğlundan 2005-ci ilin oktyabr ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 3000 ABŞ dolları, 2009-cu ilin iyul ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 2000 ABŞ dolları və 2010-cu ildə əlavə olaraq 1300 manat, Hüseynov Rövşən Səməd oğlundan 2006-cı ildə universitetin Gömrük işinin təşkili fakültəsinə qəbul olunmasına görə 5000 ABŞ dolları, Hüseynov Sabit Raqif oğlundan 2004-cü ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 2000 ABŞ dolları, 2006-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 300 manat olmaqla cəmi 1800 manat və dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 1000 ABŞ dolları, Əlizadə Anar Hüseynağa oğlundan 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 3000 manat, 2006-2009-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 500 manat olmaqla cəmi 3000 manat, Əliyev Elşən Cəmil oğlundan 2006- 2009-cu illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150 manat olmaqla cəmi 900 manat və 2009-cu ilin may ayında diplomun alınması üçün 1500 manat, Bəşirov Bəşir Lətif oğlundan 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 2500 ABŞ dolları, 2006-2009-cu illərdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 1200 manat və diplomun alınması üçün 800 manat, Mikayılov Elvin Nizami oğlundan 2006-2010-cu illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 1600 manat, Cavadov Fuad Nizami oğlundan 2006-2010-cu illərdə universitetin Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 300 manat olmaqla cəmi 2400 manat və dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 1200 manat, Hüseynov Nicat Çingiz oğlundan 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 7500 ABŞ dolları, 2007-2010-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 300 manat olmaqla 1800 manat, Alıyev Samir Rza oğlundan 2007-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 5000 manat, 2007-2009-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün 1500 manat, 2009-cu ildə dövlət imtahanından müvəffəq qiymətlər alması və diplomun alınması üçün 1200 manat, Tağıyev Muraz İsmayıl oğlundan 2007-ci ilin iyun ayında təhsil aldığı Maliyyə və kredit fakültəsində diplomun alınması üçün 500 ABŞ dolları, Rüstəmov Zaur Rövşən oğlundan 2007-ci ilin iyun ayında təhsil aldığı Maliyyə və kredit fakültəsində diplomun alınması üçün 600 ABŞ dolları, Budayev Elşən Əmirxan oğlundan 2008-ci ildə təhsil aldığı Maliyyə və kredit fakültəsindən diplomun alınması üçün 500 ABŞ dolları, Hüseynov Sərxan Tofiq oğlundan 2008-ci ildə təhsil aldığı Maliyyə və kredit fakültəsində diplomun alınması üçün 1000 ABŞ dolları, Fərəcov Mübariz Cabir oğlundan 2007-ci ilin iyun ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 4000 ABŞ dolları, 2007-ci ilin dekabr ayından 2008-ci ilin iyun ayına kimi olan müddətdə sessiya imtahanlarından müvəffəq

qiymətlər alması üçün hər sessiyada 700 manat olmaqla 2100 manat, Pəsəyərov İxtiyar Möhübbət oğlundan 2008-ci ilin iyulavqust aylarında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 12000 manat və 2009-cu ildə əlavə olaraq 3000 manat, Rüstəmov Sadiq Mənsur oğlundan 2007-ci ilin avqust ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 5000 manat, Yusifov Rəsul İlham oğlundan 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 3500 ABŞ dolları, 2008-2010-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 400 manat olmaqla cəmi 1600 manat, Tağıyeva Gülyan Fərhad qızından 2008-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 5000 manat, 2008- 2010-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 350 manat olmaqla 1400 manat, Çarivnaya Karina Vladimirovnadan 2005-ci ildə universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 2000 ABŞ dolları və 2009-cu ildə diplomun alınması üçün 2000 manat, Fərəcov Elgiz Novruz oğlundan 2007-ci ilin iyun ayında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 7000 manat və sessiya imtahanından müvəffəq qiymətlər alması üçün 700 manat, Mahmudova Firəngiz Fizuli qızından 2010-cu ilin yay aylarında universitetin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 5800 manat olmaqla Rabil Amanovla birlikdə həmin dövrün məzənnəsi ilə 141974,5 manata bərabər 154690 ABŞ dolları və 164270 manat olmaqla cəmi 306244,5 manat, bundan başqa müalicə işi fakültəsinin dekanı Həsənov Xudayar İsmayıl oğlunun vasitəçiliyi ilə həmin fakültənin tələbələri Muradov Vüsal Ağamurad oğlundan 2005-2007-ci illərdə Müalicə işi fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 250 ABŞ dolları olmaqla cəmi 1000 ABŞ dolları və dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 500 ABŞ dolları, Novruzov Əli Ənvər oğlundan 2008-ci ilin iyun ayında təhsil aldığı Müalicə işi fakültəsindən "Anestezioloq" tibb ixtisasını götürmək üçün 2000 manat, 2009-cu ilin iyul ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 2500 manat və internatura mərhələsinə buraxılması üçün 100 manat, Həsənov Amil Teyyub oğlundan 2008-ci ilin iyul ayında təhsil aldığı Müalicə işi fakültəsində "Anestezioloq-reanimatoloq" ixtisasının götürülməsi üçün 2000 ABŞ dolları, 2009-cu ilin iyul ayında diplomun alınması üçün 2400 manat və 2009-cu ilin oktyabr-dekabr aylarında internaturaya buraxılış vərəqəsi almaq üçün 100 manat, Əsgərova Aysel Şair qızından 2009-cu ildə təhsil aldığı Müalicə işi fakültəsindən dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 3000 manat, Hacıyev Kənan Fərrux oğlundan 2009-cu ildə təhsil aldığı Müalicə işi fakültəsində dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 2600 manat, Əsədova Təhminə Azadxan qızından 2009-cu ildə təhsil aldığı Müalicə işi fakültəsində dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 2500 manat, Naibov Samir Cəlal oğlundan 2009-2010-cu illərdə universitetin Müalicə işi fakültəsində təhsilini başa vurduqdan sonra dövlət buraxılış imtahanına buxarılması üçün 2000 ABŞ dolları, Ağayev Ruslan Faiq oğlundan 2009-cu ildə təhsil aldığı Müalicə işi fakültəsindən dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 2000 manat və 2010-cu ildə diplomun alınması üçün 1500 manat olmaqla Xudayar Həsənovla birlikdə həmin dövrün məzənnəsi ilə 5047,9 manata bərabər 5500 ABŞ dolları və 18700 manat olmaqla cəmi 23747,9 manat, bundan əlavə neft-qaz yataqlarının istismarı və işlənməsi fakültəsinin dekanı Əfəndiyev Mahmud Paşa oğlunun vasitəçiliyi ilə həmin fakültənin tələbələri Əliyev Yəhya Canbaxış oğlundan 2004-cü ildə universitetin Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə köçürülməsinə görə 400 manat,

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

2004-2009-cu illərdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 150-200 olmaqla cəmi 1500 manat, Əsədov Əsəd Elton oğlundan 2006-2009-cu illərdə Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün cəmi 1900 manat, Fətullayev Aqil İntiqam oğlundan 2004-cü ilin sentyabr ayında universitetin Neft-qaz yataqlarının istismarı və təşkili fakültəsinə qəbul olunmasına görə 1700 ABŞ dolları, Həsənov Vasif Hafiz oğlundan 2006-cı ildə universitetin Neft-Qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə qəbul olunmasına görə 1500 ABŞ dolları, 2006-2010-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 100 manat olmaqla cəmi 600 manat, Mehdiyev Tərlan Tahir oğlundan 2004-cü ildə universitetin Neft-qaz yataqlarının istismarı və təşkili fakültəsinə qəbul olunmasına görə 400 manat, 2004-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 1600 manat və dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 1500 manat, Əcəmov Orxan Cavid oğlundan 2004-cü ildə universitetin Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə qəbul olunmasına görə 2000 ABŞ dolları, 2004-2008-ci illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 1600 manat və diplomun alınması üçün 1000 manat, Əhmədov Bəxtiyar Xanlar oğlundan 2004-cü ildə universitetin Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə qəbul olunmasına görə 1200 ABŞ dolları, 2005-ci ildə daxili köçürülməsi üçün 400 manat və 2005-2010-cu illərdə təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 manat olmaqla cəmi 1600 manat, Hüseynov Pərviz Möhübbət oğlundan 2005-2006 və 2008-2010-cu illərdə Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün 2-ci kursun I semestrında 200 ABŞ dolları və II semestrında, eləcə də 3-cü kursun I və II semestrlarında 250 ABŞ dolları olmaqla cəmi 950 ABŞ dolları, Əhmədov Rəsul Emin oğlundan 2005-ci ildə universitetin Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə qəbul olunmasına görə 2000 ABŞ dolları, 2005-2010-cu illərdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması və dərslərdə iştirak etməməyi üçün ümumilikdə 3000 ABŞ dolları, Cəfərov İsgəndər Rəsul oğlundan 2004-2010-cu illərdə Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün 2-ci kursda 500 manat, 3-cü kursda 400 manat və 4-cü kursda 180 manat olmaqla cəmi 1080 manat, Rzayev Fəxri Ələsgər oğlundan 2008-2010-cu illərdə Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər il 400 manat olmaqla cəmi 800 manat, Zərbalıyev Elgün Alay oğlundan 2007-2010-cu illərdə Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsində təhsil aldığı müddətdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün hər sessiyada 400 manat olmaqla cəmi 800 manat, Adıgözəlov Müslüm Mürşüd oğlundan 2003-cü ilin avqust ayında universitetin Vergi işinin təşkili fakültəsinə qəbul olunmasına görə 1000 ABŞ dolları və 2008-ci ilin iyun-iyul aylarında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 1000 manat, Əliyev Anar Sabir oğlundan 2005-ci ildə universitetin Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə qəbul olunmasına görə 2000 ABŞ dolları və 2009-cu ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər alması üçün 2000 manat, Əliyev Fərid Fəxrəddin oğlundan 2004-cü ildə universitetin Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə qəbul olunmasına görə 1500 ABŞ

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
xidməti vəzifələrinin icrası ilə əlaqədar üçüncü şəxslər olan resipiyentlər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq təkrar istifadə edərək onların Azərbaycan Beynəlxalq Universitetinin Tibb mərkəzində insan orqanlarının qanunsuz alqı-satqısı, böyrəklərin transplantasiyası ilə bağlı cərrahiyyə əməliyyatlarının keçirilməsinə pul müqabilində şərait yaradılması təklifinə razılıq verərək əməllərini örtbasdır etmək üçün böyrək transplantasiyası ilə bağlı «Spektrum» şirkəti ilə Azərbaycan Beynəlxalq Universitetinin tibb mərkəzi arasında müqavilə layihəsinin hazırlanmasını tapşırıb, ödəniləcək pul müqabilində böyrəklərinin satışına razılıq verən donorların onlardan maddi cəhətdən asılı olmalarından istifadə etməklə «İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında» Azərbaycan Respublikasının 28.10.1999-cu il tarixli Qanununda orqanların və ya toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və saxlanılmasının yalnız ixtisaslaşdırılmış dövlət tibb müəssisəsində aparılması nəzərdə tutulduğu, Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən insan orqan və toxumalarının transplantasiyası qaydaları və şərtlərinin müəyyən edilmədiyi, onları həyata keçirməli olan ixtisaslaşdırılmış tibb müəssisələrinin siyahısı təsdiq edilmədiyi halda qanunvericiliyin bu tələblərinə zidd olaraq, habelə Azərbaycan Beynəlxalq Universitetinin Tibb mərkəzinə bu növ tibbi xidmətlərin keçirilməsi üçün xüsusi razılıq (lisenziya) verilmədiyi halda, Dilarə İsmayılova ilə birlikdə qanunsuz olaraq transplantasiya əməliyyatlarının keçirilməsinin təmin edilməsi üçün Tibb mərkəzinin əməliyyat blokunu, reanimasiya şöbəsini, palatalarını, zəruri tibbi personalı, avadanlıqları, cihazları, dərman preparatlarını Yuri Katsman və Boris Volfmanın sərəncamına verərək, donor və respiyentlərin adlarına xəstəlik tarixlərinin tərtib olunmasını, qidalanmalarını təşkil etmiş, Yuri Katsman və Boris Volfmanın rəhbərliyi ilə 2009-ci ilin mart ayından dekabr ayınadək olan dövrdə Ukrayna vətəndaşları Yakovenko Ruslan Anatolyeviç, Slyusarçuk Yevgeni Romanoviç həmin dövlətin ərazisində yaşayan Svyatoslav Qujva, Anatoli Severov, Aleksey Şkarlet, Aleksey Qriqorenko, Oksana Qrişenko, Aleksandr Qorilko, Aleksey Çubarov, Alyona Suskaya, Sergey Boyko, Sergey Kaltsev, Vitali Çayka, Artyom Bayev, Lyubov Sendetskayanı donor qismində müəyyənləşdirib böyrəklərinin alqısatqısı üçün onlara ödəniləcək pul vəsaitlərinin məbləğlərini razılaşdırdıqdan sonra onların ayrı-ayrı vaxtlarda Bakı şəhərinə gəlmələrini təşkil etmiş, cərrah Zakordonets Vladislav Filippoviç, anestezioloqlar Romaniv Yaroslav Vladimiroviç, Zayçenko Petro Aleksandroviç və digərləri tərəfindən Azərbaycan Beynəlxalq Universitetinin Tibb mərkəzində cərrahiyyə əməliyyatları keçirilməklə donorların insan orqanları olan böyrəkləri çıxarılıb 16 mart 2009-cu il tarixdə resipiyentlər olan İsrail vətəndaşları Prizment Toubiyə, Şahar Ram Eliyahuya, 29 may 2009-cu il tarixdə Amnon Beriyə, ABŞ vətəndaşı Henri Davidə, 24 iyun 2009-cu il tarixdə İsrail vətəndaşı Peles Amirə, Solomon Mişayevə, Şlomo Sintova, Fransa Respublikasının vətəndaşı Millul Fradiyə, 28 iyul 2009- cu il tarixdə İsrail vətəndaşı Rot Esterə, 13 dekabr 2009-cu il tarixdə İsrail vətəndaşları Hemo Hanaya, Raham Bella, Ron Mendef və Mariya Anapaza köçürülərək ümumilikdə 13 nəfər donordan 11 nəfər İsrail, 1 nəfər Fransa və 1 nəfər ABŞ vətəndaşları olan resipiyentlərə böyrəklərin köçürülməsi ilə insan orqanlarının qanunsuz alqı-satqısı həyata keçirilmiş, Boris Volfman və Yuri Katsmanın hər bir əməliyyata görə resipiyentlərdən aldıqları pul vəsaitlərindən bölgüyə əsasən öz payına düşən 10.000 ABŞ dolları, cəmi müvafiq dövrün rəsmi məzənnəsi ilə 104.676 manata bərabər 130.000 ABŞ dolları məbləğində pul vəsaitini Tibb mərkəzinin baş həkimi Dilarə İsmayılovadan qəbul edib rəhbərlik etdiyi qurumların xəzinəsinə

mədaxilini rəsmiləşdirmədən özü üçün götürmüş, həmin əməlləri ilə vəzifəli şəxs olaraq vəzifə səlahiyyətlərindən təkrar sui-istifadə etməklə qabaqcadan əlbir olduğu bir qrup şəxslə təkrar insanların onlardan maddi cəhətdən asılı olmasından istifadə etməklə donor orqanlarının alqı-satqısı, transplantasiya məqsədilə götürülməsi və transplantasiyasının həyata keçirilməsini təşkil edib əhalinin sağlamlığının qorunması sahəsində dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmuşdur.

Bundan başqa Elşad Abdullayev rəhbərlik etdiyi Azərbaycan Beynəlxalq Universitetinin fəaliyyətində aşkarlanmış nöqsanlara görə 2010-2011-ci tədris ili üçün tələbə qəbulu planını qanuni yolla əldə edə bilməyəcəyini güman etməsi səbəbindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında Baş Nazirin müavininin köməkçisi vəzifəsində işləyən tanışı Hüseyn Vaqif Əbdülhüseyn oğlunun müxtəlif dövlət orqanlarında işləyən yüksək vəzifəli şəxslərlə yaxın münasibətlərinin olmasını əsas gətirərək Azərbaycan Beynəlxalq Universitetinin fəaliyyətinin növbəti tədris ilində davam etdirilməsinin təmin edilməsi üçün rüşvət kimi verəcəyi pulu yaxın münasibətdə olduğu həmin vəzifəli şəxslərə çatdıracağı barədə vədlərinə inanaraq, universitetin fəaliyyətinin davam etdirilməsi üçün həmin vəzifəli şəxslərə bilə-bilə qanunsuz hərəkətləri etmələrinə görə Vaqif Hüseynin vasitəsi ilə rüşvət vermək məqsədilə 2009-cu ilin avqust-oktyabr aylarında Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 8 ünvanında yerləşən evində Vaqif Hüseynlə görüşüb sonuncuya müvafiq dövrün rəsmi valyuta məzənnəsinə əsasən 804.300 manata bərabər 1.000.000 ABŞ dolları məbləğində maddi nemət olan pul vəsaitini təkrar rüşvət kimi vermiş, lakin Vaqif Hüseynin qəbul etdiyi həmin pul vəsaitlərini aldatma yolu ilə ələ keçirib müvafiq vəzifəli şəxslərə vermədiyindən, bilavasitə həmin cinayəti törətməyə yönəldilmiş qəsdən edilən əməlini iradəsindən asılı olmayan səbəblərə görə başa çatdıra bilməyərək vəzifəli şəxslərə bilə-bilə qanunsuz hərəkətlər etməyə görə təkrarən külli miqdarda rüşvət verməyə cəhd etmişdir.

Bundan başqa Elşad Abdullayev uzun müddət ərzində tanıdığı Bakı şəhər İcra Hakimiyyəti başçısı Aparatının Kino xidməti idarəsinin rəisi vəzifəsində işləyən Ağayev Nəriman Salman oğlunun müxtəlif dövlət orqanlarında işləyən vəzifəli şəxslərlə yaxın münasibətlərinin olmasını əsas gətirərək onun yaşadığı Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 8a ünvanında yerləşən evinin sənədlərinin hazırlanması və həmin evin qarşısındakı torpaq sahəsinin alınması üçün rüşvət kimi verəcəyi pulu yaxın münasibətdə olduğu həmin vəzifəli şəxslərə çatdıracağı barədə vədlərinə inanaraq, həmin vəzifəli şəxslərə bilə-bilə qanunsuz hərəkətləri etmələrinə görə Nəriman Ağayevin vasitəsi ilə rüşvət vermək məqsədilə 2010-cu ilin əvvəllərində Bakı şəhərində istintaqla müəyyən edilməyən ünvanda sonuncuya müvafiq dövrün rəsmi valyuta məzənnəsinə uyğun 104403 manata bərabər 130.000 ABŞ dolları məbləğində maddi nemət olan pul vəsaitini təkrar rüşvət kimi vermiş, növbəti görüşlərində onun rəhbərlik etdiyi Azərbaycan Beynəlxalq Universitetinin idman kompleksinin sökülməməsindən ötrü orada tikilməsi nəzərdə tutulan Bakı Metropoliteninin yeni xəttinin kənardan keçirilməsi, sonra isə universitetin fəaliyyətində aşkarlanmış nöqsanlara görə 2010-2011-ci tədris ili üçün tələbə qəbulu planını qanuni yolla əldə edə bilməyəcəyi səbəbindən, Vaqif Hüseynin müxtəlif dövlət orqanlarında işləyən vəzifəli şəxslərlə yaxın münasibətlərinin olmasını əsas gətirərək tələbə qəbulu planını və universitetin fəaliyyətinin davam etdirilməsini təmin etmək üçün rüşvət kimi verəcəyi pulu yaxın münasibətdə olduğu həmin vəzifəli şəxslərə çatdıracağı barədə vədlərinə inanaraq, həmin vəzifəli şəxslərə bilə-bilə qanunsuz hərəkətləri etmələrinə

görə Nəriman Ağayevin vasitəsi ilə rüşvət vermək məqsədilə 2010- cu ilin aprel ayında Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küşəsi 9 ünvanında yerləşən çoxmərtəbəli yaşayış binasının 1-ci mərtəbəsində özünə məxsus ofisdə sonuncuya 500.000 manat məbləğində maddi nemət olan pul vəsaitini təkrar rüşvət kimi vermiş, lakin Nəriman Ağayevin qəbul etdiyi həmin pul vəsaitlərini aldatma yolu ilə ələ keçirib müvafiq vəzifəli şəxslərə vermədiyindən, bilavasitə həmin cinayəti törətməyə yönəldilmiş qəsdən edilən əməlini iradəsindən asılı olmayan səbəblərə görə başa çatdıra bilməyərək vəzifəli şəxslərə bilə-bilə qanunsuz hərəkətlər etməyə görə təkrarən külli miqdarda rüşvət verməyə cəhd etmişdir.

Bundan başqa Elşad Abdullayev rəhbərlik etdiyi Azərbaycan Beynəlxalq Universitetinin fəaliyyətində aşkarlanmış nöqsanlara görə 2010-2011-ci tədris ilində tələbə qəbulu planını qanuni yolla əldə edə bilməyəcəyini güman etməsi səbəbindən tanışı Bakı şəhəri, Binəqədi rayon prokuroru vəzifəsində işləyən Seyidov Mirələkbər Mirismayıl oğlunun müxtəlif dövlət orqanlarında işləyən vəzifəli şəxslərlə yaxın münasibətlərinin olmasını əsas gətirərək tələbə qəbulu planını və universitetin fəaliyyətinin davam etdirilməsini təmin etmək üçün rüşvət kimi verəcəyi pulu yaxın münasibətdə olduğu həmin vəzifəli şəxslərə çatdıracağı barədə vədlərinə inanaraq, həmin vəzifəli şəxslərə bilə-bilə qanunsuz hərəkətləri etmələrinə görə Mirələkbər Seyidovun vasitəsi ilə rüşvət vermək məqsədilə sonuncuya 2010-cu ilin aprel ayı ərzində günorta saatlarında Azərbaycan Beynəlxalq Universitetindəki xidməti otağında 500.000 ABŞ dolları, habelə həmin gün axşam saatlarında Azərbaycan Beynəlxalq Universitetin yaxınlığında əlavə 500.000 ABŞ dolları olmaqla ümumilikdə müvafiq dövrün rəsmi valyuta məzənnəsinə uyğun 803.000 manata bərabər 1.000.000 ABŞ dolları məbləğində maddi nemət olan pul vəsaitini təkrar rüşvət kimi vermiş, lakin Mirələkbər Seyidovun qəbul etdiyi həmin pul vəsaitini aldatma yolu ilə ələ keçirib müvafiq vəzifəli şəxslərə vermədiyindən, bilavasitə həmin cinayəti törətməyə yönəldilmiş qəsdən edilən əməlini iradəsindən asılı olmayan səbəblərə görə başa çatdıra bilməyərək vəzifəli şəxslərə bilə-bilə qanunsuz hərəkətlər etməyə görə təkrarən külli miqdarda rüşvət verməyə cəhd etmişdir.

Bundan başqa Elşad Abdullayev Azərbaycan Beynəlxalq Universitetinin rektoru vəzifəsində işlədiyi 2007-2011-ci illər ərzində Azərbaycan Beynəlxalq Universitetinin Nizamnaməsinə uyğun olaraq universitetin işinin nəticələri üçün tam məsuliyyət daşımaq, onun adından fəaliyyət göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, vergitutma obyekti olan və vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsini nəzərdə tutan əməliyyatlar apararaq rəsmiləşdirmiş, bununla əlaqədar vergi ödəyicisinin fəaliyyətinə məsuliyyət daşıyan və müvafiq vergilərin ödənilməsinin təmin edilməsinə cavabdeh şəxs olduğu halda, müvafiq qanunvericiliyin tələblərini pozaraq, qeyd olunan təhsil müəssisəsinin fəaliyyəti ilə bağlı vergi orqanlarına təqdim etdiyi vergi bəyənamələrinə bilə-bilə təhrif olunmuş məlumatları daxil etməklə, o cümlədən universitetin balansında olan nəqliyyat vasitələrinə görə yol vergisi üzrə - 2007-ci il üçün 366,00 manat, 2008-ci il üçün 396,00 manat, 2009-cu il üçün 488,00 manat, 2010-cu il üçün 375,00 manat, 2011 - ci il üçün 315,00 manat olmaqla cəmi 1940,00 manat hesablanmalı olduğu halda, həmin illərə görə cəmi 1277,00 manat ödənilməklə, ümumilikdə 663,00 manat, torpaq vergisi üzrə - 2007, 2008, 2009, 2010 və 2011-ci il üçün hər ay üzrə 10388,11 manat olmaqla cəmi 51940,55 manat ödənilməli olduğu halda, 2007-ci il üçün 9711,70 manat, 2008-ci il üçün 9711,70 manat, 2009-cu il üçün 9711,70 manat, 2010-cu il üçün 9711,70 manat, 2011 -ci il üçün 9711,70 manat olmaqla cəmi 48558.5 manat ödənilməklə, ümumilikdə 3382,05

manat, mənfəət vergisi üzrə vergi orqanlarına təqdim olunan mənfəət vergi bəyannamələrində əks etdirilən məlumatlara əsasən - 2007-ci il üçün 143909,56 manat, 2008-ci il üçün 562493,19 manat, 2009-cu il üçün 613582,02 manat, 2010-cu il üçün 260620,87 manat, 2011-ci il üçün 3822,32 manat olmaqla cəmi 1584427,96 manat ödənilməli olduğu halda, 2007-ci il üçün 84113,79 manat, 2008-ci il üçün 82523,96 manat, 2009-cu il üçün 79988,56 manat, 2010-2011-ci illər üçün isə mənfəət olmadığı göstərilərək cəmi 246626,31 manat hesablanaraq ödənilməklə, ümumilikdə 1337801,65 manat, qeyd edilən dövr üzrə cəmi vergi borcu 1.341.846,7 manat müəyyən olunduğu halda, əlavə dəyər vergisi üzrə 10999,53 manat və torpaq vergisi üzrə 11074,87 manat olmaqla cəmi 22074,40 manat pulun dövlət büdcəsinə ödəndiyi nəzərə alınmaqla, yekun olaraq 1.319.772,3 manat məbləğində külli miqdarda vergilərini dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

**Apellyasiya şikayətinin dəlilləri:**

Hökmdən təqsirləndirilən şəxsin müdafiəçiləri Yusifbəyli Rəsul Rəbbil oğlu və Şükürov Cahangir Məmmədxan oğlu birgə apellyasiya şikayəti verərək, apellyasiya şikayətinə tam məhkəmə istintaqı aparılmaqla baxılmasını, təqsirləndirilən şəxs Elşad İslam oğlu Abdullayevin məhkəmə baxışında iştirakının təmin edilməsini, Bakı Ağır Cinayətlər Məhkəməsinin təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğlunun barəsində çıxarılmış 23.12.2025-ci il tarixli, 1(101)-1640/2025 saylı qiyabi hökmünün ləğv edilməsini, barəsində bəraət hökmünün çıxarılmasını xahiş etmişdir.

Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, birtərəfli qaydada toplanmış dəlillər əsasında tərtib edilmiş bu əsassız ittihamlar üzrə hüquqlarını müdafiə etdiyimiz şəxs dindirilməmiş, yəni Elşad Abdullayev bu ittihama öz münasibətini bildirməmişdir. Bu səbəbdən də qeyd edilən dəlillərin özündə həqiqəti ehtiva edib-etməməsi, habelə yalan olub-olmaması üzrə yekun hüquqi nəticəyə gəlinməsi mümkünsüzdür. Elşad Abdullayevə elan olunmuş ittihamın təməlində dayanan sübutlar kobud qanun pozuntuları ilə, o cümlədən onun müdafiə hüququnun pozulması ilə əldə edilmişdir. Belə ki, məhkəmə istintaqı zamanı dindirilmiş şəxslər Elşad Abdullayev barəsində eşitsələr də demək olar ki, onunla təmasda olmamış, ifadələrində qeyd etdikləri pulları birbaşa ona təqdim etməmiş və ya pul verdikləri vəzifəli şəxslər tərəfindən həmin pulların ona verilməsində iştirak etməmiş, habelə həmin pulların ona verilməsi ilə əlaqədar mötəbər məlumatlarının olmamasını bildirmişlər. Əlbəttə ki, bu halların mötəbər olmasının sübut edilməsi üçün qeyd edilən şəxslərin iştirakından əlavə onlarla Elşad Abdullayev arasında üzləşdirmə istintaq hərəkətləri aparıldıqdan sonra verilən məlumatların mötəbərliyi sübuta yetirilmiş olardı. Lakin həm ibtidai istintaq, həm də məhkəmə istintaqı zamanı qeyd edilən istintaq hərəkətlərin yerinə yetirilməsi mümkün olmamışdır. Bu səbəbdən də həmin halları tam sübut olunmuş hal kimi qiymətləndirmək mümkünsüzdür. Buna görə də, məhkəmə mütləq təqsirləndirilən şəxsin məhkəmə iclaslarında iştirakını təmin etməlidir. Əks halda isə şəxs barəsində bəraət hökmü çıxarılmalıdır. Xüsusilə qeyd edilməlidir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində bu iş üzrə dövlət ittihamını müdafiə edən prokuror və məhkəmə kollegiyasının tərkibi dəyişdi. Sədrlik edən onlara bu çoxcildli və mürəkkəb işlə tanış olmağa vaxt vermədi. Cinayət işinin ədalətli həlli üçün dəyişən hakimlər və dövlət ittihamçısı 166 (yüz altmış altı) cildlik cinayət işi materialı və məhkəmə iclas protokolları ilə mütləq tam şəkildə tanış olmalı idi. Lakin məhkəmə kollegiyası buna şərait yaratmadan, yəni cinayət işini əhatəli araşdırmadan əsassız və qanunsuz ittiham

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

hökmü çıxarmışdır. Cinayət işinin materialları ilə tanışlıq zamanı müəyyən edilmişdir ki, ibtidai istintaq hərtərəfli, tam, obyektiv, vaxtında, fasiləsiz və ardıcıl deyil, sadəcə ittiham meyilli aparılaraq yekunlaşdırılmışdır. Həm ibtidai istintaq, həm də məhkəmə istintaqı zamanı iş üzrə prosessual tərəf olaraq heç kimi zərərçəkmiş şəxs qismində müəyyən edilib tanınmamış və zərərçəkmiş şəxs qismində dindirilməmişlər. Toplanmış istintaq sənədlərindən belə məlum olur ki, iş üzrə prosessual tərəf yoxdur, halbuki, Azərbaycan Respublikası CPM-nin 32-ci maddəsinə görə cinayət mühakimə icraatı prosessual tərəflərin çəkişməsi əsasında həyata keçirilməlidir. Bundan başqa qiyabi qaydada hüquqlarını müdafiə etdikləri şəxsə verilmiş rüşvət ittihamları üzrə cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçmişdir. Ona görə də həmin hissədə Azərbaycan Respublikası CM-nin 75.1.3-cü maddəsi tətbiq edilməlidir. Bu isə o deməkdir ki, həmin ittihamlar üzrə birinci instansiya məhkəməsi mütləq ona bəraət verməli idi. Lakin məhkəmə ibtidai istintaqın birtərəfli mövqeyini davam etdirərək, şəxsə bəraət vermək yerinə ona azadlıqdan məhrumetmə cəzası vermişdir.

**Proses iştirakçılarının çıxışları:**

Məhkəmə iclasında iştirak edən təqsirləndirilən şəxsin müdafiəçisi apellyasiya şikayətinin məzmununa uyğun izahat verərək, onun təmin edilməsini xahiş etdi.

Məhkəmə iclasında çıxış edən dövlət ittihamçısı apellyasiya şikayətinin təmin edilməməsini xahiş etdi.

**İşin hüquqi məsələləri:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 397.1-ci maddəsinə əsasən apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsi tərəfindən işin faktiki hallarının müəyyən edilməsinin, habelə cinayət qanununun və bu Məcəllənin normalarının tətbiq edilməsinin düzgünlüyünü yoxlayır.

Həmin Məcəllənin 397.2-ci maddəsinin tələbinə görə isə birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş faktiki hallar apellyasiya instansiyası məhkəməsi tərəfindən yalnız apellyasiya şikayətinin və ya apellyasiya protestinin hüdudlarında yoxlanılır. Birinci instansiya məhkəməsi tərəfindən cinayət qanununa və bu Məcəllənin normalarına riayət edilməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən apellyasiya şikayətinin və ya apellyasiya protestinin dəlillərindən asılı olmayaraq yoxlanılır.

Qeyd edilən prosessual normaların mənasına görə birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş faktiki hallar apellyasiya instansiyası məhkəməsi tərəfindən yalnız apellyasiya şikayətinin və ya apellyasiya protestinin hüdudlarında yoxlanılmalıdır. Başqa sözlə, işin faktiki halları yalnız apellyasiya tələbi ilə bağlı olan hissədə yəni apellyasiya tələbinin təsdiq və ya təkzib edilməsi zərurəti ilə əlaqədar yoxlanılır. Burada işin faktiki halları dedikdə, konkret cinayət əməli üzrə sübut edilməli olan və məhkəmənin hökmünün və ya başqa qərarının qəbul edilməsi üçün mühüm əhəmiyyət kəsb edən xüsusatların məcmusu başa düşülməlidir. Birinci instansiya məhkəməsi tərəfindən cinayət qanununun və CPM-nin normalarına riayət edilməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən apellyasiya şikayətinin və ya apellyasiya protestinin dəlillərindən asılı olmayaraq yoxlanılması o deməkdir ki, hökmün və ya qərarın qanuni və əsaslı olmasını yoxlayarkən apellyasiya instansiya məhkəməsi qanunla müəyyən edilmiş hüquqları həddində apellyasiya şikayəti və apellyasiya protestində göstərilib-göstərilməməsindən asılı olmayaraq, birinci instansiya məhkəməsinin tətbiq etdiyi

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

cinayət və cinayət-prosessual hüquq normalarının, habelə bu normalarla bağlı olaraq başqa hüquq sahələrinə aid normaların düzgün tətbiq edilib edilməməsini yoxlamalıdır. Başqa sözlə apellyasiya instansiya məhkəməsi məhkəmə baxışı zamanı hüquq məsələsini hər bir halda və tam həcmdə yoxlamalıdır.

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 397.1 və 397.2-ci maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenimunun 12 may 2009-cu il tarixli Qərarına əsasən, apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsi tərəfindən cinayət və cinayət-prosessual qanunvericiliyinin normalarına riayət edilməsini hər bir halda, o cümlədən müvafiq olaraq apellyasiya şikayətinin və ya protestinin dəlillərində bu barədə tələb irəli sürülməsə də yoxlamalıdır. Cinayət və cinayət-prosessual qanunvericiliyinin normalarına riayət edilməsinin yoxlanılmasından sonra Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 403-405-ci maddələrində nəzərdə tutulmuş hallar və səbəblər müəyyən edildikdə: - apellyasiya icraatı məhkum edilmiş və ya bəraət almış şəxsin və ya onun müdafiəçisinin verdiyi apellyasiya şikayəti və yaxud mahiyyətcə həmin şəxslərdən hər hansı birinin xeyrinə dövlət ittihamçısının verdiyi apellyasiya protesti üzrə keçirilərsə, apellyasiya instansiyası məhkəməsi göstərilən şəxsin vəziyyətini yaxşılaşdırmaqla birinci instansiya məhkəməsinin yekun qərarını dəyişdirə və ya ləğv edərək yeni qərar qəbul edə bilər; - apellyasiya icraatı mahiyyətcə məhkum edilmiş və ya bəraət almış şəxsin ziyanına dövlət ittihamçısının verdiyi apellyasiya protesti və ya xüsusi ittihamçının verdiyi apellyasiya şikayəti üzrə keçirilərsə, apellyasiya instansiyası məhkəməsi apellyasiya müraciətinin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin yekun qərarını məhkum edilmiş və ya bəraət almış şəxsin vəziyyətini ağırlaşdırmaqla da dəyişdirə və ya ləğv edərək yeni qərar qəbul edə bilər; lakin bunun üçün əsas apellyasiya müraciətinin dəlillərində göstərilməmişdirsə, qərar işə baxan apellyasiya instansiyası məhkəməsinin bütün hakimləri tərəfindən yalnız yekdilliklə qəbul oluna bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII bəndinə əsasən isə məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 8-ci maddəsinə görə cinayət mühakimə icraatının vəzifələri - cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq; cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək; cinayət törətməkdə ittiham olunan şəxslərin təqsirini müəyyən edərək onları cəzalandırmaq və təqsirsiz şəxslərə bəraət vermək məqsədi ilə ədalət mühakiməsini həyata keçirməkdən ibarətdir.

Məhkəmə kollegiyası apellyasiya şikayətinin dəlillərini cinayət işinin materialları ilə əlaqəli surətdə, hərtərəfli, tam və obyektiv araşdırıb, proses iştirakçılarının çıxışlarını dinləyərək hesab edir ki, apellyasiya şikayəti təmin edilməməli, Bakı Ağır Cinayətlər Məhkəməsinin 23.12.2025-ci il tarixli, 1(101)-1640/2025 saylı qiyabi hökmü verilmiş apellyasiya şikayətinə münasibətdə dəyişdirilmədən saxlanılmalıdır.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Əcəmov Orxan Cavid oğlu ifadəsində göstərmişdir ki, o 2004-cü ildə ABU-ya daxil olmuş, 2008-ci ildə həmin universiteti bitirsə də, diplomunu ala bilməmişdir. Diplomu alacağı dövrdə rektor Elşad Abdullayevə cinayət işi açılması səbəbilə heç bir sənədlər verilməmişdir. O, neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsində oxumuş, dekanları Mahmud müəllim olmuşdur. Sonradan o attestatını götürmək istəmişdir. Onu attestatını götürmək üçün Korrupsiyaya qarşı mübarizə orqanına çağırmışlar. O Elşad Abdullayevlə şəxsən görüşməmişdir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Əcəmov Orxan Cavid oğlu bildirmişdir ki, o universitetə pul verib qəbul olmuşdur, pulu tanışı olan Aydın müəllimə vermişdir. O 1500 manat pul vermişdir. Universitetdə 4 il təhsil almış, illik ödənişləri vaxtlı-vaxtında etmişdir. Hər sessiya vaxtı imtahanlardan keçmək üçün dekan Mahmud müəllimə 300-400 manat pul vermişdir. Universiteti bitirib diplomu almalı olduğu ərəfədə rektora cinayət işi açıldığına görə diplomunu ala bilməmişdir. Sonradan attestatını almaq üçün Təhsil Nazirliyinə müraciət etmiş, ona attestatının Korrupsiyaya qarşı Mübarizə İdarəsində olduğunu bildirmişlər, o da həmin İdarəyə gedib attestatını götürmüşdür. Onun tələbə yoldaşlarından kiminsə bu cür yolla universitetə qəbul olduğundan məlumatı yoxdur. O, universitetə arada bir gedirmiş.

Şahid Əcəmov Orxan Cavid oğlunun ibtidai istintaq zamanı verdiyi ifadəsindən görünür ki, 2004-cü ildə rəhmətlik nənəsi Səmayə özünün tanışları vasitəsilə 2000 ABŞ dolları müqabilində onun əvvəlcə Dağıstanda hansısa universitetə qəbul olunması sonra isə 2005-ci ildə ABU-nun Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə köçürülməsini təşkil etmiş, ABU ilə onun arasında müqavilə bağlanmış, ona tələbə bileti və qiymət kitabçası verilmişdir. O, 2004-2008-ci illərdə sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün hər sessiyada fakultənin dekanı Mahmud Əfəndiyevə 200 manat olmaqla ümumilikdə 1600 manat pul vermişdir. Həmçinin, o, 2008-ci ilin iyun ayında dövlət imtahanının yazılması və diplomun alınması üçün Mahmud Əfəndiyevə 1000 manat pul vermişdir. (cild 98, iş vərəqə 109-112)

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Əskərova Aysel Şair qızı ifadəsində göstərmişdir ki, o, 2003-cü ildə dövlət xətti ilə yüksək balla ABU-ya müalicə işi fakültəsinə daxil olmuşdur. O məhz müalicə işi fakültəsində təhsil almaq istədiyi üçün buraya qəbul olmuş, lakin bir müddət sonra universitet həyatında gördükləri onu məyus etmişdir. Belə ki, tələbələrdən pul verərək universitetə qəbul olanlar olmuşdur, amma o öz yolu ilə getmişdir. Müəyyən müddətdən sonra sonuncu kursda oxuyan zaman problemlərlə qarşılaşmış və diplomu gecikmişdir. O bununla bağlı dekanlarından soruşmuş, dekan ona gözləməyi məsləhət bilmişdir. Daha sonra mətbuatda universitetin lisenziyasının ləğv olunduğunu eşitmişdir. Bununla bağlı onun anası rəsmi olaraq müvafiq qurumlara müraciət etmişdir. Onun dövlət xəstəxanasında təcrübə keçdiyini, imtahana girmək üçün diplomunun verilməli olduğunu demiş, bir müddət sonra isə onun diplomu verilmişdir.

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Əskərova Aysel Şair qızı bildirmişdir ki, onların fakültələrinin dekanı Xudayar Həsənov olmuşdur. Sonuncu diplomu vermək üçün onlardan rüşvət istəmişdir. Xudayar müəllimin istədiyi rüşvətin məbləğini xatırlamır. Xudayar müəllim ilə bu barədə onun anası danışmış, anası isə hazırda rəhmətə getmişdir. Səhv etmirsə, 3 000 manat pul istəmişdir. Deyəsən onun valideyni həmin dövrdə pulu vermişdir. O, 2009-cu ildə diplomunu almalı imiş, lakin 2011-ci ildə almışdır. Müraciətlərinə cavab olaraq Təhsil Nazirliyi onu yenidən univeristetə yerləşdirəcəklərini və onun diplom alacağını bildirmişdir. Həqiqətən də, onu Odlar yurdu Universitetinə yerləşdirmişlər və o yenidən dövlət imtahanı verib diplomunu almışdır.

Şahid Əskərova Aysel Şair qızının ibtidai istintaq zamanı verdiyi ifadəsindən görünür ki, 2003-cü ildə test üsulu ilə imtahan verərək 309 bal toplayıb "Azərbaycan Beynəlxalq Universiteti"nin Müalicə işi fakültəsinə qəbul olunmuşdur. 2009-cu ildə dövlət imtahanından keçmək və diplom almaq üçün fakültənin dekanı Xudayar Həsənova tələb etdiyi 3000 manat pul vermiş, lakin hazırki vaxta qədər diplomu ala bilməmişdir. (cild 162, iş vərəqə 213-217)

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Rzayev Əfqan Cavanşir oğlu ifadəsində göstərmişdir ki, o ABU-da 5 il qiyabi təhsil almış, ildə iki dəfə dərslərdə iştirak etmişdir. Universiteti bitirdikdən sonra diplomunu götürməyə gəlmiş, onu təbrik etmişlər və diplomunun gəldiyini bildirmişlər. O isə diplomun onsuzda gəlməli olduğunu, nəyə görə təbrik etdiklərini soruşduqda, bir çox şəxsin diplomlarını ala bilmədiklərini ona demişlər.

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Rzayev Əfqan Cavanşir oğlu bildirmişdir ki, o universitetə daxili qaydada qəbul olmuşdur. Universitetə qəbul olan zaman pul verməmişdir.

Şahid Rzayev Əfqan Cavanşir oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan olunaraq tədqiq edilmiş ifadəsindən görünür ki, 2003-cü ildə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunmuşdur. Təhsil aldığı 2003-2008-ci illərdə fakültənin dekan müavini Sevincə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 200 ABŞ dolları olmaqla 1600 ABŞ dolları məbləğində pul vermişdir. Əlavə olaraq da diplomun alınması üçün dekan müavini Sevincin tələbi ilə sonuncuya iş otağında 800 ABŞ dolları pul vermişdir. (cild 62, iş vərəqə 135-137)

İbtidai istintaq zamanı verdiyi ifadəsi məhkəmə iclasında elan edildikdən sonra şahid Rzayev Əfqan Cavanşir oğlu məhkəmədə verilən əlavə suallara cavab olaraq bildirmişdir ki, ibtidai istintaq zamanı verdiyi ifadəsini təsdiq edir. O, pulları verən zaman bu pulun Elşad Abdullayevə çatacağından məlumatı olmamışdır.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Alıyev Samir Rza oğlu ifadəsində göstərmişdir ki, o 2003-cü ildə daxili imtahan yolu ilə ABU-ya qəbul olmaq üçün imtahan vermiş, lakin balı çatmamışdır. Balı çatmadığı üçün qəbul olmaq üçün pul istəmişlər. Bu pulun bir hissəsi dekan Rabil Amanova, bir hissəsi isə rektora verilmişdir. Rabil Amanovun məhkəməsi zamanı ona dəymiş maddi ziyanın bir qismi qaytarılmışdır. Lakin pulun Elşad Abdullayevə çatan hissəsi qaytarılmamışdır. Onun ABU-da oxumağını təsdiq edən bütün sənədləri yanındadır. Bu günə qədər bir çox dövlət orqanlarına diplomunu almaq üçün müraciət etmişdir. Ən sonda Elm və Təhsil Nazirliyinə müraciət edən zaman ona universitet tərəfindən göndərilən siyahıda adının olmadığı bildirilmişdir.

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Alıyev Samir Rza oğlu bildirmişdir ki, o Rabil Amanovla üzləşdirilmişdir. Hazırda verdiyi ifadəsini Rabil Amanovun üzünə qarşı da demişdir. Ona dəymiş ziyandan 8 000 dollar Elşad Abdullayev, 8 000 dollar isə Rabil Amanov ona qaytarmışdır. Təhsil aldığı dövrdə qrup nümayəndəsi olmamışdır. O qiyabi təhsil alırmış, onunla birlikdə 15-20 nəfər təhsil alırmış. Onu sonradan təhsilini davam etdirmək üçün heç bir yerə yerləşdirməmişlər. Hazırda ali təhsili yoxdur. O, universitetdən həmin universitetin 5-ci kursunda oxumağına dair arayış almışdır.

Şahid Alıyev Samir Rza oğlunun ibtidai istintaq zamanı verdiyi ifadəsindən görünür ki, 2002-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanından lazım olan keçid balını toplaya bilmədiyinə görə heç bir ali məktəbə qəbul oluna bilməmişdir. 2003-cü ilin sentyabr ayında daxili test imtahanları verməklə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunmuşdur. 2006-cı ildə fakültənin dekanı Rabil Amanov ona universitetə daxil olarkən digər tələbələrdən fərqli olaraq pul vermədiyi üçün universiteti bitirməyə imkan verməyəcəyini bildirmiş, bu məsələ ilə bağlı rektor Elşad Abdullayevin qəbulunda olduqda sonuncu ona Rabil Amanovun yanına getməyi məsləhət gördüyü üçün Rabillə

yenidən görüşüb universitetə bərpa etməyi xahiş etdikdə sonuncu ondan bu məsələnin həlli üçün 5000 manat pul istəmişdir. O, 2007-ci ilin əvvəllərində Rabil Amanova istədiyi 5000 manat pulu vermiş, bundan sonra onun adına olan tələbə biletini və qiymət kitabçasını ona göstərmiş, lakin ona verməyib özündə saxlamışdır. 2007-ci ilin yay imtahan sessiyasından 2009-cu ilin qış imtahan sessiyasına kimi müxtəlif vaxtlarda əlavə olaraq Rabil Amanova 1500 manat məbləğində pul vermiş, 2009-cu ilin qış aylarında dövlət imtahanlarından müvəffəq qiymətlərin yazılması və diplom verilməsi üçün ondan 1500 manat pul tələb etmiş, lakin o, həmin məbləğə razı olmadığı üçün məbləği aşağı salaraq Rabil Amanova 1200 manat pul vermişdir. O, dövlət imtahanlarında iştirak edib müsbət nəticə əldə etsə də ona ali təhsil haqqında diplom verilməmişdir. (cild 52, iş vərəqə 231-234)

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Məmmədov Fərhad Firudin oğlu ifadəsində göstərmişdir ki, o ABU-da maliyyə-kredit fakültəsində təhsil almış və diplomunu almışdır. O diplomunu almaqla bağlı 1000 manat pul vermişdir.

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Məmmədov Fərhad Firudin oğlu bildirmişdir ki, o, 1000 manatı Rabil müəllimə vermişdir. Pulu dekan müavini Sevinc xanıma verməmişdir. O, sessiyalarda müvəffəq qiymətlər almaq üçün Sevinc xanıma 300 manat pul verməmişdir.

Şahid Məmmədov Fərhad Firudin oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan olunaraq tədqiq edilmiş ifadəsindən görünür ki, 2004-2008-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsində təhsil aldığı müddətdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə fakültənin dekan müavini Sevinc xanıma 300 manat olmaqla cəmi 2400 manat, yekunda diplom almaq üçün isə 1000 manat pul vermişdir. (cild 61, iş vərəqə 163-165)

İbtidai istintaq zamanı verdiyi ifadəsi məhkəmə iclasında elan edildikdən sonra şahid Məmmədov Fərhad Firudin oğlu məhkəmədə verilən əlavə suallara cavab olaraq bildirmişdir ki, o 2004-cü ildə Müstəqil Azərbaycan Universitetində oxuyurmuş, daha sonra bu universitet bağlandığı üçün ABU-ya köçürülmüşdür. O, diplom almışdır. Həmin dövrdə əsgərlikdə olmuşdur. Ailə üzvləri diplom almaq üçün 1000 manat pul vermişlər.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Əliyev Eldar Nəbi oğlu ifadəsində göstərmişdir ki, ABU-da oxumuş və diplomunu da almışdır.

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Əliyev Eldar Nəbi oğlu bildirmişdir ki, o 2003-cü ildə universitetin "Maliyyə-kredit" fakültəsinə daxil olmuşdur. Universitetə daxili imtahanla qəbul olmuşdur. Universitetə daxil olmaq üçün pul verməmişdir.

Şahid Əliyev Eldar Nəbi oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan olunaraq tədqiq edilmiş ifadəsindən görünür ki, 2003-cü ildə Azərbaycan Beynəlxalq Universitetinin Bakı şəhəri 7-ci mikrorayonda yerləşən tədris korpusuna getmiş, orda tanımadığı 50 yaşlı bir kişi ilə universitetə testdənkənar yolla qəbulla bağlı görüşmüşdür. Həmin şəxs ondan Universitetin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunmasına görə 2000 ABŞ dollari pul istəmiş, onunla razılaşıb bir neçə gün sonra tələb olunan sənədləri və 2000 ABŞ dollari məbləğində pulu həmin şəxsə təqdim etdikdən təxminən bir ay sonra mobil telefonuna zəng vurub onun Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunduğunu bildirmişlər. O, həmin fakültədə təhsil aldığı 2003-2008-ci illərdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə 200 – 300 manat olmaqla cəmi 3000

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

manat pulu dekan Rabil Amanova vermiş, bundan sonra ona imtahanlardan müvəffəq qiymətlər yazılmış, 2008-ci ildə dövlət imtahanını verib universiteti bitirmişdir. (cild 26, iş vərəqə 231-235)

İbtidai istintaq zamanı verdiyi ifadəsi məhkəmə iclasında elan edildikdən sonra şahid Əliyev Eldar Nəbi oğlu məhkəmədə verilən əlavə suallara cavab olaraq bildirmişdir ki, ibtidai istintaq zamanı verdiyi ifadəsini təsdiq edir. Pulu Məhəmmədəmin müəllimə vermişdir, həmin şəxs rəhmətə getmişdir.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Əliyev Fərid Fəxrəddin oğlu ifadəsində göstərmişdir ki, o Elşad Abdullayevi görməmiş və tanımır. Azərbaycan Beynəlxalq Universitetində "Neft-qaz yataqlarının istismarı və işlənməsi" fakültəsində oxumuş, lakin diplomunu ala bilməmişdir. O oxuduğu müddətdə heç kəsə pul verməmişdir.

Şahid Əliyev Fərid Fəxrəddin oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan olunaraq tədqiq edilmiş ifadəsindən görünür ki, 2004- cü ilin avqust ayında TQDK imtahanlarında uğurlu nəticə əldə edə bilmədikdə soruşub maraqlanaraq ABU-ya testdənkənar qəbulun mümkün olduğunu eşitmiş və bu məqsədlə ABU-ya gedərək orada işləyən Bənövşə adlı qadınla tanış olmuşdur. Bənövşə ona 1500 ABŞ dolları pul qarşılığında ABU-ya qəbul oluna biləcəyini bildirmiş, o da razılaşaraq bir müddət sonra Bənövşəyə istədiyi məbləğdə pulu ABU-nun binasında vermiş və 2005-ci ildən ABU-nun Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinin II kursundan təhsilinə başlamışdır. 2004-2009-cu illərdə təhsil alarkən 2 və 3-cü kurs sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün fakültənin dekanı Mahmud Əfəndiyevə 200 manat olmaqla 1200 manat, diplomun alınması üçün 2009-cu ildə 250 manat pul vermişdir.

İbtidai istintaq zamanı verdiyi ifadəsi məhkəmə iclasında elan edildikdən sonra şahid Əliyev Fərid Fəxrəddin oğlu məhkəmədə verilən əlavə suallara cavab olaraq bildirmişdir ki, o univeristetə getmədiyi üçün qaibləri ilə bağlı pul vermişdir.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Piriyev Tural Ələddin oğlu ifadəsində göstərmişdir ki, o 2007-2008-ci illərdə əsgərlikdə olmuşdur. Əsgərlikdə olduğu müddətdə diplomu əldə etməkdə çətinliyi olmuşdur. Əsgərlikdən qayıtdıqdan təxminən bir il sonra universitetdən ona zəng vuraraq diplomunun hazır olduğunu və gedib götürə biləcəyini demişlər.

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Piriyev Tural Ələddin oğlu bildirmişdir ki, 2003-cü ildə ABU-ya TQDK imtahanı verməklə "Maliyyə-kredit" fakültəsinə daxil olmuşdur. Həmin dövrdə fakültənin dekanı Rabil Amanov olmuşdur. Universitetdə oxuduğu dövrdə sessiyalarda 500-600 dollar pul veririmiş. Rektor Elşad Abdullayevi universitetə gedəndə görmüşdür. Ondan Elşad Abdullayev adından pul istəməmişlər. O, dövlət imtahanı üçün pul verməmişdir.

Şahid Piriyev Tural Ələddin oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan olunaraq tədqiq edilmiş ifadəsindən görünür ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanını müvəffəqiyyətlə verərək Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsinə qəbul olunmuş, həmin fakültədə təhsil aldığı 2002-2007-ci illərdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 150 – 200 ABŞ dolları olmaqla 2000 ABŞ dolları, 2007-ci ilin iyun ayında isə dövlət imtahanından müvəffəq qiymət alması üçün 600 ABŞ dolları məbləğində pulu Maliyyə və kredit fakültəsinin dekanı Rabil Amanova iş otağında vermiş, buna baxmayaraq yalnız iki ildən sonra universitetdən diplom almışdır. (cild 26, iş vərəqə 217-219)

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

İbtidai istintaq zamanı verdiyi ifadəsi məhkəmə iclasında elan edildikdən sonra şahid Piriyev Tural Ələddin oğlu məhkəmədə verilən əlavə suallara cavab olaraq bildirmişdir ki, ibtidai istintaq zamanı verdiyi ifadəsini təsdiq edir.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Mahmudov Fizuli Xanəli oğlu ifadəsində göstərmişdir ki, onun qızı universitetə qəbul imtahanlarda aşağı bal toplamışdır. Daha sonra onlara demişlər ki, belə olan halda ABU-ya qəbul olmaq olur. Buna görə onlar həmin universitetə müraciət etmişlər. Lakin universitetdə "hörmət" etməyən şəxsin universitetə qəbul edilmədiyini görmüşlər. Qəbul olmaq istəyənlərin sayı çox, yerlər isə məhdud olmuşdur. Daha sonra qızının universitetə qəbul olması üçün Rabil müəllimlə danışmışdır. Rabil müəllimə səhv etmirsə, 6 000 - 6 500 manat rüşvət şəklində pul ödəmişdir. Daha sonra 1-2 il gözləmişlər, lakin qızı universitetdə dərslərə başlamamışdır. Rabil müəllimlə aralarında konflikt yaranmasının əsas səbəbi qızının növbəti qəbul imtahanlarında iştirak etməsi üçün attestatını universitetdən geri almaq istəsə də, attestatın verilməməsi olmuşdur.

Şahid Mahmudov Fizuli Xanəli oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan olunaraq tədqiq edilmiş ifadəsindən görünür ki, 2009 və 2010-cu illərdə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi imtahanlarda iştirak edərək heç bir ali məktəbə qəbul olunmayan övladı Mahmudova Firəngiz Fizuli qızının 2010-cu ilin yay aylarında Beynəlxalq Universitetin Maliyyə və kredit fakültəsinə qəbul etdirmək üçün 5800 manat pul və qızının attestatını razılaşmalarına əsasən Rabil Amanova vermiş, sonuncu ona qızının 2010-cu ilin sentyabr ayından dərslərə başlayacağına söz versə də vədinə əməl etməmiş və verdiyi 5800 manat pulu geri qaytarmamışdır. (cild 89, iş vərəqə 22-26)

İbtidai istintaq zamanı verdiyi ifadəsi məhkəmə iclasında elan edildikdən sonra şahid Mahmudov Fizuli Xanəli oğlu məhkəmədə verilən əlavə suallara cavab olaraq bildirmişdir ki, o, qızının maliyyə və kredit fakültəsinə qəbul etdirmək üçün Rabil Amanov pul vermişdir. İbtidai istintaq zamanı verdiyi ifadəsini təsdiq edir. Qızı ABU-da oxuya bilməmişdir. Pulu ona geri qaytarmamışlar. Rabil Amanov pulu kimin üçün aldığını deməmişdir. Rabil Amanovla qızını universitetə qəbul etmək barədə danışan zaman sonuncu Elşad Abdullayevin adını çəkməmişdir.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Həmidov Vilayət Riqaif oğlu ifadəsində göstərmişdir ki, o ABU-də 2004-2008-ci illərdə təhsil almışdır. Universitetə TQDK imtahanı yolu ilə qanuni şəkildə qəbul olmuş, diplomunu da almışdır.

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Həmidov Vilayət Riqaif oğlu bildirmişdir ki, o, universitetə qanuni əsaslarla daxil olmuşdur. Sevinc xanım dekan müavini olmuşdur. Sessiya imtahanlarında qiymət yazdırmaq üçün Sevinc xanıma hər sessiyada 150 manat pul vermişdir. Diplom işi zamanı da 1000 manat pul vermişdir. Onun illik təhsil haqqı 480 dollar olmuşdur.

Şahid Həmidov Vilayət Riqaif oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan olunaraq tədqiq edilmiş ifadəsindən görünür ki, tələbə Qəbulu üzrə Dövlət Komissiyasının xətti ilə 2-ci ixtisas qrupu üzrə ali məktəbə qəbul olmaq üçün test imtahanı verib 285 bal toplayıb Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsinə qəbul olunmuşdur. Dərslərdə mütəmadi iştirak edərək imtahanlara hazırlaşıb ildə iki dəfə qış və yay semestr imtahanlarında iştirak edib suallara cavabları yazmasına baxmayaraq, imtahanlardan məqbul qiymətlər almaq üçün fakültənin dekan müavini vəzifəsində işləyən Sevinc xanımla danışmaq lazım olmuşdur. O da digər qrup yoldaşları kimi

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

imtahanları yazdırmaq üçün Sevinc xanımla danışıb ona hər sessiyada 200 manat olmaqla ümumilikdə 1600 manat pul vermiş, yalnız bundan sonra imtahanlardan müvəffəq qiymətlər yazılmışdır. 2008-ci ilin iyun ayında yekun dövlət buraxılış imtahanlarını vermək üçün həm fakültənin dekanı Rabil Amanovla, həm də dekan müavini Sevinc xanımla danışdıqda onlar hər ikisi dövlət imtahanı vermək və diplom almaq üçün 1000 dollar pul vermək lazım olduğunu, əgər pul verilməsə imtahandan kəsiləcəyini bildirmişlər. O, dövlət imtahanlarında iştirak etsə də, məcbur qalıb, bir neçə gün sonra 1000 ABŞ dolları pulu Sevinc xanıma verdikdən sonra ona qiymətlər yazılmışdır. Bundan başqa hər il təhsil haqqı kimi 480 ABŞ dollar məbləğində pulu ABU-nun xəzinədarlığına ödəmişdir. (cild 61, iş vərəqə 121-123)

İbtidai istintaq zamanı verdiyi ifadəsi məhkəmə iclasında elan edildikdən sonra şahid Həmidov Vilayət Riqaif oğlu məhkəmədə verilən əlavə suallara cavab olaraq bildirmişdir ki, ibtidai istintaq zamanı verdiyi ifadəsini təsdiq edir. Diplomu o əsgərlikdə olduğu üçün valideynləri gedib götürmüşdür. O, pulu ancaq Sevinc xanıma vermişdir. Sevinc xanımın pulu Elşad Abdullayevə verdiyi barədə məlumatı yoxdur. Hazırda heç bir pul tələbi yoxdur.

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Dostuyev Dilqəm Mayıl oğlu ifadəsində göstərmişdir ki, o 2004-2008-ci illərdə ABU-da oxumuşdur. Universitetə qəbul olan zaman, eləcə də sessiya imtahanlarında pul vermişdir. Bundan başqa diplomu almaq üçün də pul vermişdir. Lakin sonra ona diplom verilməmişdir.

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Dostuyev Dilqəm Mayıl oğlu bildirmişdir ki, o “Maliyyə-kredit” fakültəsinə daxil olmuşdur. O, ABU-ya ikinci kursdan daxil olmuşdur. ABU-ya daxil olmaq üçün atası Mayıl Dostuyevlə birlikdə 3 000 dollar pul vermişdir. Təhsil aldığı dövrdə Sevinc xanıma sessiyalarda 300 manat pul verirmiş. Diplomu almaq üçün 1500 manat pul vermişdir. Diplom almamışdır. Sonradan heç bir yerdə təhsil almamışdır. O, verdiyi pulun geri qaytarılmasını istəyir. Sonuncu dəfə diplom almaq üçün pulu Rabil Amanova vermişdir. O, pulu verən zaman Rabil Amanov Elşad Abdullayevin adını çəkməmişdir.

Şahid Dostuyev Dilqəm Mayıl oğlunun ibtidai istintaq zamanı verdiyi ifadəsindən görünür ki, 2004-cü ildə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsinə qəbul olunmasına görə 3000 manat, təhsil aldığı illərdə fakültənin dekan müavini Sevinc xanıma hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə 300 manat olmaqla 2400 manat, 2008-ci ilin may ayında fakültənin dekanı Rabil Amanova dövlət imtahanı və diplom almaq üçün 1500 manat məbləğində pul vermişdir. (cild 65, iş vərəqə 106-109)

Birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş Məmmədov Elnur Telman oğlu ifadəsində göstərmişdir ki, ABU-da təhsil aldıqdan sonra diplomunu da almışdır.

Məhkəmədə verilən əlavə suallara cavab olaraq şahid Məmmədov Elnur Telman oğlu bildirmişdir ki, TQDK imtahanında az bal yığmışdır və universitetə qəbul ola bilməmişdir. O, bir tanışının vasitəsilə ABU-nun aqronomluq fakültəsinə qəbul olmuş, sonra isə maliyyə-kredit fakültəsinə köçürülmüşdür. O, bazarda işləyən zaman orada bir tanışı ABU-ya daxil ola biləcəyini demişdir. Sessiyalar vaxtı Sevinc xanıma 150 manat pul vermişdir. O, bazarda çanta satırmış. Universitetə qəbul olmaq üçün imtahan versə də, kifayət qədər bal yığa bilməmişdir. O orta məktəbi Şuşa rayon Malıbəyli kənd məktəbində bitirmişdir. Təhsil almışdır, sonra da diplomunu almışdır.

Şahid Məmmədov Elnur Telman oğlunun ibtidai istintaq zamanı verdiyi ifadəsindən görünür ki, 2004-cü ildə TQDK tərəfindən keçirilən imtahanlarda uğurlu

nəticə toplaya bilməmiş, həmin ərəfədə Azərbaycan Beynəlxalq Universitetinin testdənkənar, daxili imtahan yolu ilə qəbul həyata keçirdiyini eşidib bu məqsədlə dayısı Cəbrayıl Quliyev özünün tanışı vasitəsilə 800 ABŞ dolları müqabilində onun ABU-nun Aqronomluq fakültəsinə qəbul olunmasına nail olmuşdur. O, ikinci kursu bitirdikdən sonra Maliyyə və kredit fakültəsinə köçürülmüş və orada təhsil aldığı 2006-2008-ci illərdə fakültənin dekan müavini Sevincə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə 150 manat olmaqla 900 manat, 2008-ci ilin iyun ayında dövlət imtahanı üçün 1000 ABŞ dolları pul vermişdir. (cild 65, iş vərəqə 193-196)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Babayev Nadir Məhərrəm oğlu teleqramla məhkəməyə müraciət edərək səhətində olan problemlərə görə məhkəmə iclasında iştirak edə bimədiyini, əvvəlki ifadəsini təsdiq etdiyini bildirmişdir.

Şahid Babayev Nadir Məhərrəm oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan edilərək tədqiq edilmiş ifadəsindən görünür ki, 2004-2008-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsində təhsil almış və həmin müddətdə imtahanlardan müvəffəq qiymətlər alması üçün fakültənin dekan müavini Sevinc xanıma hər sessiyada 150-200 manat olmaqla cəmi 1200 manat, diplom işinin müdafiəsi və diplom almaq üçün 1000 ABŞ dolları məbləğində pul vermiş, yalnız bundan sonra qiymətləri yazılmış və universiteti bitirməsinə dair diplom almışdır. (cild 61, iş vərəqə 157-159).

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Ağayev Emin Şakir oğlu telegramla məhkəməyə müraciət edərək ailə problemlərə görə məhkəmə iclasında iştirak edə bimədiyini, ibtidai istintaq zamanı ifadəsini təsdiq etdiyini bildirmişdir.

Şahid Ağayev Emin Şakir oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan edilərək tədqiq edilmiş ifadəsindən görünür ki, 2005-ci ildə TQDK imtahanlarında uğurlu nəticə əldə edə bilməmişdir. O, tanışlarından ABU-nə test imtahanı vermədən, kənar yolla qəbul olunmağın mümkün olduğunu eşitmişdir. O, maraqlanaraq əslən 2-ci Nügədi kəndindən olan Ramin adlı şəxsin ABU-də işlədiyini öyrənmiş, 2005-ci ilin payız ayında ABU-nə gedərək Ramin adlı şəxslə görüşüb ABU-nin maliyyə-kredit fakültəsinə qəbul olunmaq istədiyini bildirmişdir. Ramin ona həmin fakültənin 1-ci kursuna testdənkənar qəbul olunmaq üçün 5000 manat pul verməsini, bundan başqa hər il əlavə təhsil haqqını universitetə ödənilməsini bildirmişdir. O, Raminin təklifi ilə razılaşıb bir neçə gün sonra onunla mobil telefon vasitəsi ilə əlaqə saxlayaraq Bakı şəhərində “20 yanvar” metrostansiyasının yaxınlığında görüşmüş, sonra isə 5000 manat pulu və tələb olunan sənədləri ona vermişdir. O, 2005-ci ilin oktyabr ayından maliyyə-kredit fakültəsində dərslərə başlasa da ona tələbə bileti və qiymət kitabcası 2006- cı ilin sonlarında verilmişdir. Həmin vaxt o, 1-ci kursda, yəni 2005-2006 tədris ilində Dağıstan Respublikasında yerləşən Qafqaz Xalqları Universitetinin maliyyə-kredit fakültəsində təhsil aldığının rəsmləşdirildiyini bilmişdir. Lakin o, Qafqaz Xalqları Universitetinə ümumiyyətlə getməmişdir. 2006-cı ildə Azərbaycan Beynəlxalq Universitetində maliyyə-kredit fakültəsinin 2-ci kursundan təhsilini davam etdirmişdir. Təhsil aldığı müddətdə rektor Elşad Abdullayevin müəyyən etdiyi qaydalara əsasən tələbələrdən sessiyalarda dekanatlıq tərəfindən pul toplanırdı. ABU-nun maliyyə-kredit fakültəsində təhsil alarkən 2005-2009-cu ildə dörd illik təhsil

haqqı kimi hər ili 600 manat olmaqla ümumilikdə 2400 manat, universitetə qəbul olunmasına görə 2005-ci ildə 5000 manat, həmin dövrlərdə sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün dekan Rabil Amanova iş otağında hər sessiyada 250 manat olmaqla ümumilikdə 2000 manat, 2009-cu ilin iyun ayında diplomun alınması üçün 1300 manat pul vermişdir. Buna baxmayaraq dövlət imtahanı verməmiş və ali təhsil haqqında diplom ala bilməmişdir. (cild 91, iş vərəqə 16-19)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Rəhimova Elnarə Nəriman qızı ərizə ilə məhkəməyə müraciət edərək məhkəmə iclasında iştirak edə bimədiyini, ibtidai istintaq zamanı ifadəsini təsdiq etdiyini bildirmişdir.

Şahid Rəhimova Elnarə Nəriman qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan edilərək tədqiq edilmiş ifadəsindən görünür ki, 2003-2008-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsində təhsil alarkən sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün hər sessiyada fakültənin dekan müavini Sevincə 100 ABŞ dolları olmaqla ümumilikdə 1000 ABŞ dolları, eləcə də 2008-ci ildə diplomun alınması üçün 800 ABŞ dolları pul vermişdir. (cild 61, iş vərəqə 169-171)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Sadıqov Fərid Arif oğlu telegramla məhkəməyə müraciət edərək məhkəmə iclasında iştirak edə bimədiyini, ibtidai istintaq zamanı ifadəsini təsdiq etdiyini bildirmişdir.

Şahid Sadıqov Fərid Arif oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan edilərək tədqiq edilmiş ifadəsindən görünür ki, 2003- 2008-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsində təhsil aldığı müddətdə fakültənin dekan müavini Sevincə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə 150 ABŞ dolları olmaqla 1500 ABŞ dolları, 2008-ci ilin iyun ayında isə dövlət imtahanlarını vermək üçün dekan Rabil Amanova 500 manat məbləğində pul vermişdir. (cild 61, iş vərəqə 215-217)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Məmmədov Elşad Ələddin oğlu telegramla məhkəməyə müraciət edərək məhkəmə iclasında iştirak edə bimədiyini, ibtidai istintaq zamanı ifadəsini təsdiq etdiyini bildirmişdir.

Şahid Məmmədov Elşad Ələddin oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan edilərək tədqiq edilmiş ifadəsindən görünür ki, 2005-ci ilin avqust ayında TQDK imtahanlarında uğurlu nəticə əldə edə bilmədikdə TQDK-nın inzibati binasının qarşısında Əli adlı bir şəxslə tanış olmuşdur. Əli onlara ABUda fakültənin dekanı işləyən Adil adlı qohumu vasitəsilə 3500 ABŞ dolları pul müqabilində onun testdənkənar üsulla ABU-ya qəbul edilə biləcəyi bildirmiş və razılaşıb bir neçə gün sonra ABU-nun binasının yaxınlığında Əli və Adil ilə görüşüb pulu və sənədləri sonuncuya vermişdir. Bundan sonra o, əvvəlcə bir il əvvəlki tarixə Dağıstanda hansısa universitetə qəbul edilmiş və 2005-ci ilin sentyabr ayında ABU-nun Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə köçürülərək təhsilinə başlamışdır. 2005-2007-ci illərdə təhsil alarkən həmin dövrlərdə sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün hər sessiyada Adil müəllimə 200 manat

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

olmaqla ümumilikdə 800 manat, 2008-ci ildə isə həmin fakültənin dekanı Mahmud müəllimə sessiya imtahanlardan müvəffəq qiymətlər alması üçün 200 manat və diplomun alınması üçün 1200 ABŞ dolları pul vermişdir. Mahmud Əfəndiyevlə şahid Elşad Məmmədovun arasında keçirilmiş üzləşdirmə zamanı da sonuncu ifadəsində göstərdiyi xüsusatları bir daha təsdiq edərək Mahmud üzünə qarşı səsləndirmişdir. (cild 98, iş vərəqə 80-840).

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Mərdəliyev Pərviz Məmmədrəsul oğlu ərizə ilə məhkəməyə müraciət edərək ibtidai istintaq zamanı ifadəsini təsdiq etdiyini bildirmişdir.

Şahid Mərdəliyev Pərviz Məmmədrəsul oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan edilərək tədqiq edilmiş ifadəsindən görünür ki, 2002-ci ildə TQDK xətti ilə imtahan yolu ilə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunmuş, 2002-2007-ci illərdə fakültənin dekanı Rabil Amanova hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə 50 ABŞ dolları olmaqla 500 ABŞ dolları, məşğələlərdə iştirak etmədiyinə görə hər semestr sonu 20 manat olmaqla cəmi 200 manat, 2008-ci ilin sentyabr ayında diplom almaq üçün 150 ABŞ dolları məbləğində pul vermiş və diplomunu almışdır. (cild 63, iş vərəqə 17-20)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Həsənov Yaşar Həsənəli oğlu teleqramla məhkəməyə müraciət edərək ibtidai istintaq zamanı verdiyi ifadəsini təsdiq etdiyini bildirmişdir.

Şahid Həsənov Yaşar Həsənəli oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan edilərək tədqiq edilmiş ifadəsindən görünür ki, rəhmətlik atası Həsənəli Həsənov 2002-ci il tarixdə onun ABU-nun Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə tanımadığı tanışına 1500 ABŞ dolları pul vermişdir. O, 2002-2007-ci illərdə təhsil alarkən sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün hər sessiyada fakültənin dekanı Rabil Amanova 100 manat olmaqla ümumilikdə 1000 manat, eləcə də 2007-ci ilin aprel – may aylarında diplomun alınması üçün 600 ABŞ dolları pul vermişdir. (cild 63, iş vərəqə 4-6)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Cavadov Fuad Nizami oğlu ərizə ilə məhkəməyə müraciət edərək bildirmişdir ki, 2005-ci ildə Dağıstan Respublikası Xasavyurt şəhərində yerləşən İmam Şamil adına Qafqaz Xalqları Universitetin 1-ci kursuna daxil olmuşdur. 2006-ci ildən həmin univeristetdən köçürmə yolu ilə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə Kredit fakültəsində təhsilini qiyabi davam etdirmiş və 2010-cu ilin may ayında həmin universiteti bitirmişdir. Sözü gedən universitetdə aldığı 4 il təhsil müddəti ərzində hər il illik təhsil haqqını ödəmişdir. Buna baxmayaraq 2010-cu il təxminən sentyabr ayında Azərbaycan Beynəlxalq Universitetinin lisenziyası ləğv edildiyindən diplom ala bilməmişdir. Bununla bağlı təxminən 2013 ildə o vaxt ki, Baş Prokuroru Zakir Qaralova müraciət etmişdir. Müraciətinə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində baxılmışdır. Həmin prorsesdə onu təhsil aldığı fakültənin dekanı ilə üzləşdirmişlər. Bir müddət sonra Bakı Ağır Cinayətlər məhkəməsində eyni qaydada həmi dekanla

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

üzləşdirilmişdir. Bundan sonra həmin prosesdən çıxmışdır. Bundan başqa Baş Prokuror yanında Korrupsiyaya qarşı mübarizə baş idarəsində verdiyi ilkin istintaq zamanı ifadəsini təsdiqləyir. Bundan başqa Elşad Abdullayevdən tələbi onun diplomunun verilməsidir və yaxudda ona dəymiş olan maddi və mənəvi ziyanın ödənilməsidir.

Şahid Cavadov Fuad Nizami oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə məhkəmə iclasında elan edilərək tədqiq edilmiş ifadəsindən görünür ki, 2005-ci ildə TQDK imtahanlarında uğurlu nəticə əldə edə bilmədikdə atası Nizami kiminsə vasitəsi ilə danışıb onu testdənkənar Azərbaycan Beynəlxalq Universitetinin maliyyə və kredit fakültəsinə qəbul etdirmişdir. Belə ki, atası Nizami 2005-ci ildə kiminləsə danışıb pul müqabilində əvvəlcə onun adını Rusiya Federasiyasının Dağıstan Respublikasında yerləşən İmam Şamil adına Qafqaz Xalq Universitetinin maliyyə və kredit fakültəsinə qəbul etdirmiş, lakin o, həmin universitetə getməmiş, bir il həmin universitetdə təhsil aldığı rəsmiləşdirildikdən sonra, 2006-cı ildə Azərbaycan Beynəlxalq Universitetinə köçürülərək maliyyə və kredit fakültəsinin 2-ci kursundan təhsilini 2010-cu ilədək orada davam etdirmişdir. Təhsil aldığı müddətdə rektor Elşad Abdullayevin müəyyən etdiyi qaydalara əsasən tələbələrdən sessiyalarda dekanatlıq tərəfindən pul toplanırdı. O, fakültənin dekan Rabil Amanova iş otağında 2006-2010-cu illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsində təhsil aldığı müddətdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 300 manat olmaqla 2400 manat və 2010-cu ilin iyun ayında dövlət imtahanı üçün 1200 manat məbləğində pul vermişdir. (cild 90, iş vərəqə 33-36)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Həsənov Vasif Hafiz oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2005-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanında iştirak edərək ali məktəbə qəbul oluna bilməmiş, həmin ilin avqust ayında testdənkənar yolla Azərbaycan Beynəlxalq Universitetinin «Dağıstan filialına» qəbul olunmaq, 2-ci kursdan ABU-nin neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə köçürülmək üçün həmin fakültənin dekanı Mahmud Əfəndiyevə 1500 ABŞ dolları pul vermiş, bundan başqa həmin fakültədə təhsil aldığı 2006-2009-cu illərdə sonuncuya hər sessiyada imtahanlardan müvəffəq qiymətlər yazılması üçün 100 manat olmaqla cəmi 800 manat pul vermişdir. (cild 26, iş vərəqə 89-92)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Qasımova Cəmilə Məzahir qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, o 2002-ci ildə Azərbaycan Beynəlxalq Universitetinin riyaziyyatinformatika fakültəsinə qəbul olunmuş, 3-cü kursdan isə maliyyə kredit fakültəsinə köçürülmüşdür. Həmin fakültədə təhsil aldığı müddətdə hər semestrdə imtahanların verilməsi üçün dekan Rabil Amanova və onun müavini Sevincə hər dəfə 200 ABŞ dolları olmaqla ümumilikdə 2000 ABŞ dolları pul vermişdir. Bundan başqa dövlət imtahanının yazılması və diplomun alınması üçün fakültənin dekanı Rabil Amanova iş otağında 400 (dörd yüz) manat pul vermişdir. (cild 26, iş vərəqə 177-178)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Əliyev Samir Əjdər oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

görünür ki, 2003-cü ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanını müvəffəqiyyətlə verərək Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunmuş, 2003-2008-ci illərdə həmin fakültədə təhsil aldığı müddətdə fakültənin dekanı Rabil Amanov tərəfindən hər sessiyada imtahanların yazılması üçün bütün tələbələrdən 100 dollardan 200 dollara kimi məbləğlərdə pullar alınmış, o da digərləri kimi hər ildə iki dəfə 150 ABŞ dolları olmaqla 5 il ərzində 1500 ABŞ dolları, 2007-ci iyun ayında diplomun alınması üçün 500 ABŞ dolları məbləğində pulu Maliyyə və kredit fakültəsinin dekanı Rabil Amanova iş otağında vermiş, təxminən iki il sonra 2009-cu ilin əvvəllərində universiteti bitirməsinə dair diplom almışdır. (cild 26, iş vərəqə 199-201, cild 68, iş vərəqə 178-182)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Quliyev Nurəddin Fəxrəddin oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2002-ci ilin may ayında Beynəlxalq Universitetə sənədlərini təqdim edib formal olaraq daxili test imtahanı verdikdən sonra ona universitetin Dağıstan filialının Maliyyə və kredit fakültəsinin əyani şöbəsinə qəbul olunduğunu, bir il sonra Azərbaycan Beynəlxalq Universitetinin eyni fakültəsinə 2-ci kursa köçürüləcəyini bildirmişlər. O, birinci kursda dərslərdə iştirak etməmiş, amma zaçot-imtahan sessiyasında dekanlıqdan onu çağırmışlar. Universitetin Dağıstan filialının harda yerləşməsini bilməmiş, heç vaxt Dağıstan filialında dərslərdə iştirak etməmiş, bir il sonra onu təhsilini davam etdirməsi üçün Dağıstan filialından ABU-ya köçürülmüşdür. 2004-cü ildə 3-cü kursda təhsil alarkən öz xahişi ilə həmin fakültənin qiyabi şöbəsinə keçirilmişdir. Əyani oxuduğu müddətdə təhsil haqqı kimi 480 ABŞ dolları, qiyabi oxuduğu müddətdə isə 240 ABŞ dolları pulu ABU-nun xəzinədarlığına ödəmiş, ödənişlərə dair ona kassa-mədaxil orderləri təqdim olunmuşdur. Əyani şöbədə oxuyanda mütəmadi olmasa da bəzi vaxtlar dərslərdə iştirak etmiş, amma qiyabi şöbədə oxuyanda dərslərdə iştirak etməmiş, lakin zaçot-imtahan vaxtı universitetə getmişdir. O, Maliyyə və kredit fakültəsində təhsil aldığı 2002-2007-ci illərdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə 100 ABŞ dolları olmaqla 1000 ABŞ dolları, dövlət imtahanının yazılması üçün 400 ABŞ dolları məbləğində pulu Maliyyə və kredit fakültəsinin dekan müavini Sevinc xanıma iş otağında vermiş, buna baxmayaraq universiteti bitirməsinə dair diplomu iki il sonra 2009-cu ilin axırlarında almışdır. (cild 26, iş vərəq 204-207)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Bağıyev Elşad Müslümağa oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanını müvəffəqiyyətlə verərək Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsinə qəbul olunmuş, həmin fakültədə təhsil aldığı 2003-2007-ci illərdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 50 ABŞ dolları olmaqla 400 ABŞ dolları, 2007-ci ilin iyun ayında isə dövlət imtahanından müvəffəq qiymət alması üçün 800 manat məbləğində pulu Maliyyə və kredit fakültəsinin dekanı Rabil Amanova iş otağında vermiş, buna baxmayaraq diplom ala bilməmişdir. Ona görə bir il yarım hərbi xidmətdə olmuş, xidməti bitirdikdən sonra Rabil Amanov diplom verilməsi üçün ondan 2000 manat əlavə pul istəmiş, lakin artıq ona inanmadığı üçün həmin pulu verməmiş və diplom almamışdır. (cild 26, iş vərəq 209-212)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Nəsibova Tahirə Valeh qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, o Azərbaycan Beynəlxalq Universitetinə qəbul olunmaq istədiyinə görə 2003- cü ildə həmin universitetə gedib orada işləyən tanımadığı şəxslə görüşmüş, həmin şəxs ona universitetə qəbul olunmaq üçün 2000 (iki min) ABŞ dolları vermək lazım olduğunu bildirmiş, həmin şəxslə razılaşıb 2000 (iki min) ABŞ dollarını ona vermiş və universitetin maliyyə-kredit fakültəsinə qəbul olunmuşdur. Həmin fakültədə təhsil aldığı müddətdə hər semestrdə imtahanların verilməsi üçün bir nəfər tələbənin vasitəsi ilə həmin fakültənin Rabil adlı dekana və onun müavini Sevincə hər dəfə 150 (yüz əlli) – 200 (iki yüz) ABŞ dolları olmaqla ümumilikdə 2000 ABŞ dolları pul vermişdir. Həmçinin digər tələbələr də həmin məqsədlə həmin şəxslərə 150 (yüz əlli) – 200 (iki yüz) ABŞ dolları vermişlər. Bundan başqa 2007-ci ildə fakültənin dekanı Rabilə dövlət imtahanının yazılması və diplomun alınması üçün 600 (altı yüz) ABŞ dolları vermiş, lakin diplomu bir il sonra almışdır. (cild 26, iş vərəq 225-228)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Ağayev Ruslan Faiq oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, "Azərbaycan Beynəlxalq Universiteti"nin "Müalicə işi" fakültəsinin 6-cı kursunda təhsil aldığı zaman 2009-cu ilin iyun ayında dövlət imtahanını vermək üçün dekan Xudayar Həsənovla görüşmüş və Xudayar Həsənov ondan dövlət imtahanı üçün 2000 manat məbləğində pul tələb etmişdir. O, bu barədə Rusiyanın Moskva şəhərində olan atası Faiqlə danışmış və atasının bank vasitəsi ilə hissə-hissə göndərdiyi 2000 manat pulu Xudayar Həsənovun iş otağında ona vermişdir. Xudayar Həsənov ona qiymətlərinin yazılacağını bildirməsinə baxmayaraq ona diplom verilməmişdir. O, 2010-cu ilin yanvar ayında hərbi xidmətə çağırılmış və diplomu olmadığına görə 1 il 6 ay müddətində hərbi xidmətdə olmuşdur. O, hərbi xidmətdə olduğu müddətdə isə Xudayar Həsənov diplom veriləcəyinə söz verərək atasından əlavə 1500 manat da pul almışdır. (cild 54, vərəq 87-91, cild 162, vərəq 213-217)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Mamedov İsa Musa oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, övladı Mamedova Şahidə İsa qızını Azərbaycan Beynəlxalq Universitetinin tarix və ictimaiyyət fakültəsinə qəbul etdirmək üçün 2006-cı ilin avqust ayında həmin fakültənin dekanı kimi tanıdığı İsmayıl Məmmədovla iş otağında görüşmüş, ona qızı Şahidənin test imtahanı verib ali məktəbə qəbul olunmadığını demiş, buna görə testdənkənar yolla Beynəlxalq Universitetin Tarix və ictimaiyyət fakültəsinə qəbul etdirmək istədiyini bildirmişdir. Həmin vaxt sonuncu ABU-nə testdənkənar yolla birbaşa qəbul olmadığını, lakin köçürmə yolu ilə, yəni qızın sənədlərini Rusiya Federasiyasının Dağıstan Respublikasının Mahaçqala şəhərində yerləşən universitetlərdən birinə göndərəcəyini, bir il sonra 2-ci kursdan Beynəlxalq Universitetin tarix və ictimaiyyət fakültəsinə köçürüləcəyini, buna görə qızının Dağıstana getməsinə ehtiyac olmadığını, köçürmənin rəsmiləşdirilməsi üçün 2500 manat pul verməsini demişdir. O, İsmayıl müəllimlə razılaşıb rayona qayıtmış, təxminən 15-20 gün sonra 2006-cı ilin sentyabr ayında yenidən Bakı şəhərinə gəlib Beynəlxalq Universitetin binasında İsmayıl

müəllimlə görüşmüş, ona tələb olunan sənədləri - qızı Şahidənin orta təhsil haqqında attestatını, fotoşəkillərini, şəxsiyyət vəsiqəsinin surətini və 2500 manat məbləğində pulu vermişdir. İsmayıl Məmmədovla razılaşdıqları kimi Şahidə 1-ci kursda dərslərə getməmiş, bir il sonra 2-ci kursdan ABU-nin tarix və ictimaiyyət fakültəsinə köçürüldükdən sonra dərslərdə iştirak etmişdir. Qızı Şahidə təhsil aldığı müddətdə hər sessiyada imtahanlardan məqbul qiymətlərin yazılması üçün fakültənin dekanı İsmayıl Məmmədov 150 manat pul tələb etmiş, tələbənin pis və ya yaxşı oxumasından asılı olmayaraq tələb olunan pul verilməsə qiymətləri yazılmayacağını bildirmişdir. Buna görə də o, da hamı kimi məcbur qalıb İsmayıl Məmmədova 2007-2010- cu illər ərzində hər sessiyada imtahanlardan müvəffəq qiymətlər yazılması üçün 150 manat olmaqla, ümumilikdə 3 il ərzində 900 manat pulu Universitetin inzibati binasındakı xidməti otağında vermiş, bundan sonra qızının imtahan qiymətləri yazılmış və o növbəti kursa keçmişdir. Qızı Şahidənin 2010-cu ilin iyun ayında dövlət imtahanını verib tarix və ictimaiyyət fakültəsinin əyani şöbəsini bitirməsinə baxmayaraq hazırki vaxta kimi ali təhsil haqqında diplom ala bilmədiyini bildirmişdir. (cild 26, iş vərəqə 200-210)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Pəsəyərov İxtiyar Möhübbət oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, o, Bakı şəhərində anadan olduğu vaxtdan yaşayır. 2008-ci ildə Xırdalan şəhərində olan 1 saylı orta məktəbi bitirdikdən sonra instituta daxil olmaq üçün TQDK tərəfindən təşkil edilmiş test imtahanlarında iştirak etmiş, lakin az hal toplandığından heç bir ali məktəbə qəbul olunmamışdır. Daha sonra anası Mahira Azərbaycan Beynəlxalq universitetinin maliyyə-kredit fakültəsinin dekanı Rabil Amanovun yanına gətmiş və sonuncunun təklifi ilə dekana 12 min manat pul verməklə onu göstərilən universitetə qəbul etdirmişdir. Belə ki, 2008-ci ilin yay aylarında anası Rabil Amanovla ABU-nun binasında gürüşdüyü zaman sonuncu bildirmişdir ki, onu bir il müddətə Rusiya Federasiyasının Dağıstan Respublikasında fəaliyyət göstərilən universitetlərin birinə qəbul etdirib bir ildən sonra onu köçürmə yolu ilə Azərbaycan Beynəlxalq Universitetinin maliyə-kredit fakültəsinə qəbul etdiriləcəkdir. Bildiyinə görə, anası Rabil Amanovla iki dəfə görüşüb, hər dəfə görüşdüyü zaman sonuncuya 6 min manat pul vermişdir. Anası tərəfindən verilmiş pulların mənbəyini o dəqiq bilmir, lakin bilir ki, göstərilən məbləğdən 3000 manat bacısı Vüsalənin toyundan qalan və rəhmətə gedən nənəsi Sofa xanımın pullar olmuşdur. Pulların Rabil Amanova verilməsində o iştirak etməmiş, lakin anasının dediklərindən bu barədə onun kifayət qədər məlumatı olmuşdur. Daha sonra Rabilin təklifi ilə o anası ilə birlikdə 2008-ci ilin noyabr ayında Azərbaycan Respublikasının dövlət sərhədini rəsmi şəkildə keçmiş, Dərbənt şəhərinə gətmişdir. Orada 4 gün qalmışlar. Sözsüz ki, orada olduğu vaxt ərzində o heç bir Dağıstandaki institutda oxumamış, heç bir ali məktəbdə olmamışdır. Yuxarıda göstərdiyi kimi 4 gündən sonra onlar Azərbaycana qayıtmış və anası onun xarici pasportunu Rabil Amanova aparıb vermişdir. Pasportunda dövlət sərhədi keçdiyinə dair möhürlər olmuşdur. Bir ildən sonra, yəni 2009-cu ildə ABU- dan zəng vurub oraya dəvət etmişlər. Ona zəng vuran şəxsi tanımır. O ABU-ya gəlib Rabil Amanovun köməkçisi Sevinc-xanımdan tələbə bileti və qiymət kitabçasını almışdır. Həmin sənədlərdə onun 2-ci kurs tələbəsi olduğu göstərilmişdir. Bir neçə ay müddət ərzində dərsə gəlib iştirak etmiş, həmin vaxt ərzində Sevinc xanım vasitəsi ilə anasını universitetə çağırıb və təhsil haqqı kimi 300 və 250, cəmi 550 manat pul almış, lakin heç bir qəbz verməmişdir. Eyni zamanda Sevincin iştirakı ilə onunla müqavilə

bağlanılmış, ona təqdim edilən müqavilənin surətinə baxıb göstərir ki, soyadı qarışısında olan imza onun imzasıdır. Daha sonra Rabil Amanov yenə də anasını çağırıb əlavə 3000 manat almışdır. 2010-cu ildə dərsə gələn şəxslərin sayı birdən azalmış və bir neçə gündən sonra ABUnun bağlanılmasını eşitmişdir. Daha sonra anası Rabil Amanovla görüşməyə çalışmış, lakin həmin şəxs anasının telefon zənglərinə cavab verməmiş və bunun nəticəsində anası Rabil Amanovla görüşə bilməmişdir. O özü Rabil Amanovla axırıncı 2 il müddət ərzində görüşməmiş və heç bir söhbət aparmamışdır. Bildiyinə görə ABU-nu bağladıqdan sonra rəsmi şəkildə ABU-ya köçürülmüş şəxslər başqa özəl məktəblərdə yerləşdirilmiş və təhsil almağı davam etmişlər. Onunla birlikdə oxumuş şəxslərdən bir neçəsi hal-hazırda Azərbaycan kooperasiya institutunda oxuyurlar, lakin bildiyinə görə onu heç bir özəl instituta köçürməmişlər. Bildiyinə görə anası Azərbaycan Respublikası Təhsil Nazirliyinə rəsmi müraciət etmiş, lakin orada da heç bir müsbət nəticə olmamışdır. (cild 52, iş vərəqə 48-51)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Əliyev Anar Sabir oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2005-ci ildə qohumu Mehman Əliyev vasitəsi ilə sonuncunun da iştirakı və atası Sabir Əliyevlə birlikdə ABU-nun rektoru Elşad Abdullayevin qardaşı Eldəniz Abdullayevlə ABU-da görüşmüşdür. Atası Sabir Əliyev onun sənədlərini Eldəniz Abdullayevə təqdim etmişdir. Eldəniz Abdullayev onların istəyi ilə həmin universitetin neftqaz yataqlarının işlənməsi və istismarı fakültəsinə qəbul etdirəcəyini deyərək 2.000 ABŞ dolları pul istəmişdir. Atası onun yanında ABU-ya qəbul məsələsi ilə bağlı Eldəniz Abdullayevin otağında sonuncuya 2.000 ABŞ dolları pul vermişdir. Bundan sonra onun adı 1 il ABU-nun Dağıstan filialında getmiş, daha sonra 2006-cı ilin sentyabr ayından 2-ci kurs tələbəsi kimi ABU-nun əsas filialında dərslərə başlamışdır. 2009-cu ilin iyun ayında yekun dövlət buraxılış imtahanından müvəffəq qiymət yazılması üçün fakültənin dekanı Mahmud Əfəndiyev iş otağında ondan 2000 manat pul tələb etmiş, bundan bir neçə gün sonra həmin məbləği Mahmud Əfəndiyevə vermiş, lakin universiteti bitirməsinə dair diplom verilməmiş, yalnız bu barədə arayış verilmişdir. (cild 53, iş vərəqə 94-100)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Naibov Samir Cəlal oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, orta məktəbi bitirdikdən sonra 2002-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanını müvəffəqiyyətlə verərək “Azərbaycan Beynəlxalq Universiteti”nin “Müalicə işi” fakültəsinə qəbul olunub 2002-2008-ci illərdə həmin fakültədə təhsil almışdır. 2008-ci ildə universiteti bitirsə də yekun dövlət buraxılış imtahanlarına buraxılmamışdır. 2009-cu ilin iyun ayında dövlət imtahanlarına buraxılması üçün fakültənin dekanı Xudayar Həsənovun tələb etdiyi 500 ABŞ dolları pulu vermiş, 2010-cu ildə sonuncunun yerinə təyin olunan yeni dekan Məhəbbət Azakovanın tələb etdiyi 1500 ABŞ dolları pulu da vermiş, lakin az sonra həmin Universitetin fəaliyyəti dayandırıldıqdan sonra «Odlar Yurdu» Universitetinə köçürülmüş və həmin universiteti bitirməsinə dair diplom almışdır. (cild 54, vərəq 115-118, cild 162, vərəq 213-217)

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Hacıyev Kənan Fərrux oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, “Azərbaycan Beynəlxalq Universiteti”nin “Müalicə işi” fakültəsini 2009-cu ilin iyul ayında bitirmişdir. Həmin ərəfədə fakültənin dekanı Xudayar Həsənov ondan və fakültənin 6-cı kursunu bitirmiş bütün tələbələrindən diplom almaq üçün 3000 manat, ixtisas almaq üçün əlavə 2000 manat pul verməyi tələb etmişdir. O, Xudayar Həsənova iş otağında 3000 manat pul verməyə imkanı olmadığını bildirdikdə, sonuncu ona 2600 manat pul tapıb bir gün ərzində ona çatdırmağı tələb etmiş, o, da məcbur qalıb 2600 manat pulu səhəri gün aparıb Xudayar Həsənova iş otağında vermişdir. Buna baxmayaraq o, diplom almamış və bu günə qədər də ala bilməmişdir. (cild 55, vərəq 12- 16, cild 162, vərəq 213-217)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Həsənov Amil Teyyub oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2003-cü ildə test üsulu ilə imtahan versə də, ali məktəbə qəbul ola bilməmiş və daxili imtahanla “Azərbaycan Beynəlxalq Universiteti”nin “Müalicə işi” fakültəsinə qəbul olunmuşdur. 2008-ci ildə 5-ci kursda oxuduğu zaman fakültədə ixtisas bölgüsü aparılarkən fakültənin dekanı Xudayar Həsənova «Anestezioloq-reanimatoloq» ixtisasını götürmək istədiyini bildirdikdə sonuncu, həmin ixtisasın qiymətinin 2000 ABŞ dolları olduğunu bildirmişdir. O, da məcbur olub 2008-ci ilin iyun ayında semestr imtahanları ərəfəsində 2000 ABŞ dolları pulu aparıb Xudayara iş otağında vermişdir. 2009-cu ilin iyul ayında özü və digər qrup yoldaşları - 15 nəfər tələbə birinci dövlət imtahanına buraxılmadıqda Xudayar Həsənovun iş otağında olub ondan bunun səbəbini soruşduqda sonuncu diplomun alınması üçün 2400 manat və internaturaya buraxılış vərəqəsi almaq üçün 100 manat olmaqla 2500 manat pul verməyi tələb etmişdir. Bir neçə gün sonra əmisi Atakişiyev Əhliman İbrahim oğlu ilə birlikdə dekanatlığa gəlib Xudayarla bu barədə danışmışlar və Xudayar Həsənov dövlət imtahanı və diplom verilməsi üçün ona çatacaq puldan 100 manatını onlara güzəştə getdiyini, lakin qalan 2.400 manatı isə vermələrini bildirmişdir. Buna görə əmisi Əhliman Xudayar Həsənova 2400 manat pul vermişdir. (cild 55, vərəq 17-22, cild 162, vərəq 213-217).

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Əsədova Təhminə Azadxan qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, orta məktəbi bitirdikdən sonra 2003-cü ildə 4-cü qrup üzrə test imtahanı versə də, kifayət qədər bal toplaya bilmədiyi üçün ali məktəbə qəbul ola bilməmişdir. Bu səbəbdən, atası Azadxan onu “Azərbaycan Beynəlxalq Universiteti”nin “Müalicə işi” fakültəsinə qəbul etdirmiş, lakin qəbul olunmaq üçün imtahan verməmişdir. 2009-cu ilin iyul ayında həmin fakültəni bitirmişdir. Dövlət imtahanlarını verib diplom almaq üçün fakültənin dekanı Xudayar Həsənovun qəbulunda olduqda sonuncu ona və qrup yoldaşlarına dövlət imtahanları və diplom almaq üçün 2500 manat, əlavə ixtisas üçün 2000 manat pul vermələrini, əgər bu məbləğdə pulları verməsələr, dövlət imtahanından keçməyəcəklərini və onlara diplom və əlavə ixtisas verilməyəcəyini bildirmişdir. O, dövlət imtahanları və diplom üçün bir həftə sonra atasının ona verdiyi

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

2500 manat pulu aparıb Xudayar Həsənova otağında vermişdir. Fakültədə oxuyan tələbələrdən eşitmişdir ki, tələbələrin əksəriyyəti Xudayar Həsənova diplom üçün 2500 manat, bəziləri bundan əlavə ixtisas üçün də 2000 manat pul vermişlər. O, həm də İnternatura dərslərində iştirak etməməyi üçün 500 manat pul vermişdir. Lakin hazırki vaxta qədər dəfələrlə Xudayar Həsənova diploma görə müraciət etsələr də nə diplomu, nə də ki, diploma görə verdiyi pulu geri ala bilməmişdir. (cild 55, vərəq 71-75, 113-116)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Məmmədov Ramid Ramiz oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2003-cü ildə TQDK imtahanından kənar yolla Azərbaycan Beynləxalq Universitetinin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə 1500 ABŞ dolları pul vermiş, bundan sonra 2003-2007-ci illərdə təhsil alarkən dörd illik təhsil haqqı kimi 480 ABŞ dolları olmaqla ümumilikdə 1920 ABŞ dolları pulu universitetin kassasına ödəmişdir. Eləcə də qeyd olunan illərdə Maliyyə və kredit fakültəsinin dekanı Rabil Amanova sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün hər sessiyada 200 ABŞ dolları olmaqla ümumilikdə 1600 ABŞ dolları və 2007-ci ilin iyun ayında dövlət imtahanından müvəffəq qiymətlər almaq üçün 1000 manat məbləğində pulları vermiş, lakin sonda təhsili başa çatdırsa da, ona diplom verilməmişdir. (cild 61, iş vərəqə 5-8)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Nuriyev Fərid Kəyan oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2002-ci ilin sentyabr ayında Azərbaycan Beynləxalq Universitetinin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə universitetə gəlib fakültənin dekanı Rabil Amanovla görüşmüş, sonuncu ona qəbul üçün 600 ABŞ dolları vermək lazım olduğunu bildirmişdir. O bununla bağlı valideynləri ilə məsləhətləşdikdən sonra 600 ABŞ dolları məbləğində pulu tələb olunan sənədlərlə birlikdə Universitetin binasında Rabil Amanova vermiş, bundan sonra əyani şöbədə dərslərə başlamışdır. O, 2002-2006-cı illərdə Maliyyə və kredit fakültəsində təhsil aldığı müddətdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 100 ABŞ dolları olmaqla 800 ABŞ dolları, 2006-cı ilin iyun ayında dövlət imtahanı üçün 400 manat pulu Rabil Amanova vermiş, universiteti bitirməsinə dair diplomu isə 2007-ci ildə almışdır. (cild 61, iş vərəqə 13-16)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Hacıyev Cavid Şakir oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2002-ci ilin sentyabr ayında Azərbaycan Beynləxalq Universitetinin Maliyyə və kredit fakültəsinə qəbul olunmasına görə həmin fakültənin dekanı Rabil Amanova 600 ABŞ dolları, təhsil aldığı 2002-2008-ci illərdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün dekan müavini Sevinc xanıma 150 ABŞ dolları olmaqla ümumilikdə 1500 ABŞ dolları pul vermiş, bundan sonra sessiya zamanı imtahanlardan ona müvəffəq qiymətlər yazılmışdır. (cild 61, iş vərəqə 21-23)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Mirzəyev Elvin Sahib

oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2002-2007-ci illərdə ABU-nun Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsində təhsil aldığı müddətdə imtahanlardan müvəffəq qiymətlər alması üçün fakültənin dekan müavini Sevinc xanıma hər sessiyada 100 ABŞ dolları olmaqla ümumilikdə 1000 ABŞ dolları pul vermiş, 2007-ci ilin iyun ayında isə dövlət imtahanlarının yazılması və diplom alması üçün fakültənin dekanı Rabil Amanova 500 manat məbləğində pul vermişdir. (cild 162, vərəq 219-244)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, Bəxtiyar oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2004-2008-ci illərdə ABU-nun Maliyyə və kredit fakültəsinin əyani şöbəsində təhsil aldığı müddətdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün dekan müavini Sevinc xanıma 200 ABŞ dolları olmaqla 1600 ABŞ dolları, 2008-ci ilin iyun ayında dövlət imtahanı üçün 1000 ABŞ dolları məbləğində pul vermişdir. (cild 61, vərəq 99-101)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Məmmədzadə Türkan Adışirin qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2003-cü ilin sentyabr ayında TQDK imtahanından kənar yolla Beynəlxalq Universitetin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunması üçün 1000 manat pul vermiş, 2003-2008-ci illərdə sessiya imtahanlarından müvəffəq qiymətlər alması üçün fakültənin dekanı Rabil Amanova hər sessiyada 200 ABŞ dolları olmaqla ümumilikdə 2000 ABŞ dolları məbləğində pul vermiş, 2008-ci ildə yekun dövlət buraxılış imtahanlarını müvəffəqiyyətlə verərək universiteti bitirməsinə dair diplom almışdır. (cild 61, vərəq 114-117)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Abdullayev Tural Qurban oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2004-2008-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsində təhsil aldığı müddətdə fakültənin dekan müavini Sevinc xanıma hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə 200 ABŞ dolları olmaqla ümumilikdə 1600 ABŞ dolları, yekunda isə diplom almaq üçün 600 manat pul vermişdir. (cild 61, iş vərəq 160-162)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Rzayev Rəşad Aydın oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2003-2007-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsində təhsil aldığı müddətdə fakültənin dekanı Rabil Amanova hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə 200 ABŞ dolları olmaqla 1600 ABŞ dolları, yekunda isə dövlət imtahanı və diplom almaq üçün 600 ABŞ dolları məbləğində pul vermişdir. (cild 61, iş vərəqə 174-178)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Əliyev Əjdər Rafiq oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

görünür ki, 2003-2007-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsində təhsil aldığı müddətdə fakültənin dekanı Rabil Amanova hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə 100 ABŞ dolları olmaqla 800 ABŞ dolları məbləğində pul vermişdir. (cild 61, iş vərəq 203-205)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Budayev Elşən Əmirxan oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2008-ci ilin iyun ayında Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsini bitirməsinə dair dövlət imtahanının yazılması, diplom işinin müdafiəsi və diplom almaq üçün fakültənin dekan müavini Sevinc Kərimovaya 500 ABŞ dolları məbləğində pul vermişdir. (cild 61, iş vərəqə 221-223)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Əliyev Anar Tofiq oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2003-2008-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsində təhsil aldığı müddətdə fakültənin dekan müavini Sevincə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 200 ABŞ dolları olmaqla ümumilikdə 1600 ABŞ dolları, dövlət imtahanı və diplom almaq üçün 700 ABŞ dolları məbləğində pul vermişdir. (cild 61, vərəq 227-229)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Əfəndiyeva Yasəmən Həmid qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2003-2008-ci illərdə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsində təhsil aldığı müddətdə fakültənin dekan müavini Sevincə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 150 manat olmaqla 1500 manat, yekunda da dövlət imtahanı və diplom almaq üçün 500 manat məbləğində pul vermişdir. (cild 61, vərəq 244-246)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Musayev Elşad Eldar oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2003-cü ilin avqust ayında Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsinə testdənkənar yolla qəbul olunmaq üçün həmin fakültənin dekanı Rabil Amanova 800 manat, təhsil aldığı 2002-2007-ci illərdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 200 ABŞ dolları olmaqla 1600 ABŞ dolları məbləğində pul vermişdir. (cild 61, vərəq 235-239)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Məhərrəmov Nicat Şəfəqət oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2003-cü ildə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunmasına görə 1000 ABŞ dolları pul vermiş, təhsil aldığı 2003-2008-ci illərdə fakültənin dekan müavini Sevincə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 150 ABŞ dolları olmaqla ümumilikdə

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

1500 ABŞ dolları məbləğində pul vermişdir. 2010-cu ildə o, diplomunu təhvil almışdır. (cild 62, vərəq 132-134)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Əlizadə Anar Hüseynağa oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2005-ci ilin avqust ayında TQDK tərəfindən keçirilən imtahanlarda uğurlu nəticə toplaya bilməmiş, həmin ərəfədə Azərbaycan Beynəlxalq Universitetinin testdənkənar, daxili imtahan yolu ilə qəbul həyata keçirdiyini eşidib bu məqsədlə universitetə getmiş və orada qəbul məsələlərini "BMVV" markalı 505 nömrəli avtomobili idarə edən Anar adlı şəxsin (Elşad Abdullayevin bacısı oğlu) həll etdiyini öyrənmiş, aralarındakı razılaşmaya əsasən əvvəlcə onun Dağıstan Respublikasında yerləşən Qafqaz Xalqları Universitetinin dilçilik fakültəsinə qəbul edilməsi və bir il sonra isə Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə köçürülməsinə görə Anar ondan 3000 manat pul istəmiş və almışdır. Bundan başqa o, təhsil aldığı 2006-2009-ci illərdə isə fakültənin dekan müavini Sevincə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 500 manat olmaqla 3000 manat məbləğində pul vermişdir. (cild 62, iş vərəq 151-154)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Axundov Azad Sərraf oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2004-cü ildə TQDK imtahanlarında uğurlu nəticə əldə edə bilməmişdir. O, qohumu Sabitdən ABU-nə test imtahanı vermədən, kənar yolla qəbul olunmağın mümkün olduğunu eşitmişdir. O, 2004-cü ilin avqust ayında ABU-nə gedərək orada Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin dekanı Rabil Amanovla görüşərək ona ABU-nin maliyyə-kredit fakültəsinə qəbul olunmaq istədiyini bildirmiş, Rabil Amanov ona ABU-nə birbaşa qəbulun olmadığını, yalnız köçürmə yolu ilə qəbulun mümkün olduğunu, yəni bir semestr Dağıstan Respublikasında yerləşən ali məktəblərdən birinə yazılacağını, birinci semestrdən sonra ABU-nə köçürüləcəyini bildirmiş və bunun müqabilində ondan 1500 manat pul istəmişdir. Bundan bir neçə gün sonra o, 1500 manat pulu Rabil Amanovun iş otağında ona vermişdir. 2004-cü ilin sentyabr ayında təhsil haqqı adı altında 480 ABŞ dollarını Rabil Amanovun iş otağında ona vermişdir. 2005-ci ilin aprel ayında o, ABU-nə getmiş və orada ona artıq həmin universitetə köçürüldüyünü bildirmişlər. Bundan sonra o, həmin universitetdə üç il təhsil almış və hər gün dərslərdə iştirak etmişdir. Təhsil aldığı müddətdə rektor Elşad Abdullayevin müəyyən etdiyi qaydalara əsasən tələbələrdən sessiyalarda dekanatlıq tərəfindən pul toplanırdı. O, hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün Rabil Amanova iş otağnda 150 ABŞ dolları olmaqla 4 il ərzində 1200 ABŞ dollar, 2008-ci ilin iyun ayında isə dövlət imtahanı üçün 1000 manat pul vermişdir. 2010-cu ildə ABU fəaliyyətini dayandırdığına görə o, ali təhsil haqqında diplomunu ala bilməmişdir. (cild 91, vərəq 114-117)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Zeynalov Şahin Elbəyi oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, o, 2004-cü ildə tanışlarının vasitəsi ilə Moskva Maliyyə-Hüquq İnstitutunun maliyyə-kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunmuşdur. 2004-2005-ci illərdə həmin institutda qiyabi təhsil almışdır. 2005-ci ilin iyun ayında Moskva Maliyyə-Hüquq İnstitutundan ona dərslərə gəlib-getməsini bildirmişlər. O, da Moskva şəhərinə gedibgəlmək çətin olduğundan köçürülmə yolu ilə Apərbaycanda yerləşən universitetlərdən birinə gəlmək qərarı vermiş, tanışları ona Azərbaycan Beynəlxalq Universitetinə köçürmə yolu ilə gəlməyin asan olduğunu bildirmişlər. O, 2005-ci ilin iyul ayında ABU-nə gedib orada universitetin maliyyə-kredit fakültəsinin dekanı Rabil

Amanovla iş otağında görüşərək ona Moskva Maliyyə-Hüquq İnstitutunun maliyyə-kredit fakültəsinin ABU-nin maliyyə-kredit fakültəsinə köçürülmək istədiyini bildirmiş, Rabil Amanov ona 1700 ABŞ dolları müqabilində onu ABU-nin maliyyə-kredit fakültəsinə köçürə biləcəyini bildirmiş, bundan təxminən iki ay keçdikdən sonra o, yenidən Rabil Amanov ilə sonuncunun iş otağında görüşərək 1700 ABŞ dollarını ona vermişdir. 2005-ci ilin sentyabr ayından ABUnin maliyyə-kredit fakültəsinin qiyabi şöbəsinə köçürülərək 2-ci kursdan təhsilini davam etdirməyə başlamışdır. O, hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün Rabil Amanova, o, olmadıqda isə müavini Sevinc xanıma 250 manat pul vermişdir. O, 2009-cu ilin yay ayında dövlət imtahanının və diplomun verilməsi məqsədi ilə Rabil Amanovun tələb etdiyi 1300 manat pulu sonuncuya iş otağında vermişdir. O, dövlət imtahanını versə də ona diplomu verilməmişdir. (cild 92, vərəq 105-109)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Muradov Vüsal Ağamurad oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2001-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi IV qrup üzrə ali məktəblərə qəbul imtahanlarında iştirak edərək “Azərbaycan Beynəlxalq Universiteti”nin “Müalicə işi” fakültəsinə qəbul olunmuş və 2001-2007-ci illərdə həmin Universitetdə təhsil almışdır. Həmin fakültədə təhsil aldığı ilk dörd il ərzində dərslərdə mütəmadi iştirak etmiş və hər ildə iki dəfə keçirilən sessiya imtahanlarını verib növbəti kursa keçmişdir. Lakin 5-ci və 6-cı kurslarda oxumağa marağı azaldığından dərslərdə mütəmadi iştirak etməmiş və imtahanlara hazırlaşmamışdır. Həmin dövrdə tələbələrdən sessiya imtahanlarının yazılması üçün 250-300 ABŞ dolları və daha artıq pul vermək lazım olduğunu, əgər pul verilməsə imtahanlardan müvəffəq qiymətlər yazılmayacağı və növbəti kursa keçməyəcəyi barədə eşitmişdir. Buna görə başqa çıxış yolu olmadığından o da digərləri kimi imtahanlardan müvəffəq qiymətlər yazdırmaq üçün 2005-2006, 2006- 2007-ci tədris illərində imtahanların yazılması üçün hər sessiyada fakültənin dekanı Xudayar Həsənova 250 ABŞ dolları olmaqla cəmi 1000 ABŞ dolları pul vermişdir. Bundan sonra, ona imtahanlardan məqbul qiymətlər yazılmış və o, növbəti kursa keçmişdir. Yekunda dövlət imtahanı üçün fakültənin dekanı Xudayar Həsənov əlavə 500 ABŞ dolları pul da vermiş, ona imtahandan uğurla keçdiyi bildirimiş və 2009-cu ildə diplomunu almışdır. (cild 97, vərəq 168-171, cild 162, vərəq 213-217)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Babayeva Röyalə Zakir qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2005-ci ilin avqust ayında universitetin Beynəlxalq İqtisadi münasibətlər fakültəsinə qəbul olunmasına görə anası Əlibəyova Həcər Ayaz qızı neft-qaz yataqlarının istismarı və işlənməsi fakültəsinin dekanı Mahmud Əfəndiyevə həmin universietin iş otağında 2500 ABŞ dolları, 2005-2009-cu illər dörd illik təhsil haqqı kimi 500 manat olmaqla ümumilikdə 2000 manat, həmin dövrlərdə sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün hər sessiyada fakültənin dekanı Elşad müəllimə 300 manat olmaqla ümumilikdə 2400 manat pul vermişdir. (cild 98, iş vərəqə 41-44)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş,

məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Babayev Röyal Zakir oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2005-ci ildə ABU-nun Riyaziyyat və İnformatika fakültəsinə qəbul olunmasına görə 2500 ABŞ dolları, təhsil alarkən 2005-2010-cu ildə dörd illik təhsil haqqı kimi 200 manat olmaqla ümumilikdə 800 manat, həmin dövrlərdə sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün hər sessiyada dekanlığda əyləşən cavan oğlana 200 ABŞ dolları olmaqla cəmi 1600 ABŞ dolları və diplom alması üçün 3000 manat pul vermişdir. (cild 105, vərəq 120-122)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Tağıyev Vüqar Afət oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2004-cü ildə orta məktəbi bitirdikdən sonra ali məktəbə qəbul olunmaq üçün Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanında iştirak etsə də kifayət qədər bal toplamadığına görə heç bir ali məktəbə qəbul oluna bilməmişdir.

Azərbaycan Beynəlxalq Universitetində təhsil alan həmyerlilərinin məsləhəti ilə testdənkənar yolla ali məktəbə qəbul olunmaq üçün 2004-cü ilin avqust ayında həmin universitetin neft-qaz yataqlarının istismarı və işlənməsi fakültəsinin dekanı Mahmud Əfəndiyevə müraciət etmiş, sonuncu onu 1500 manat müqabilində əvvəlcə Rusiyanın Dağıstan Respublikasının Dərbənd şəhərində yerləşən Stalski adına Açıq Sosial Universitetinin riyaziyyat informatika qəbul etdirib, bir il orada təhsil alması rəsmiləşdirildikdən sonra 2-ci kursdan ABU-nin nəqliyyatda daşımaların və idarəetmənin təşkili fakültəsinə köçürüləcəyini vəd etmiş, onunla razılaşıb 1500 manat məbləğində pulu Mahmud Əfəndiyevə verdikdən sonra Dağıstana getməmiş, yalnız bir il sonra 2005-2006 tədris ilindən həmin fakültədə təhsilini davam etdirib 2010-cu ildə universiteti bitirsə də ali təhsil haqqında diplom ala bilməmişdir. (cild 98, vərəq 133-136)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Zərbalıyev Elgün Alay oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2007-ci ildə TQDK imtahanlarında uğurlu nəticə əldə edə bilmədikdə soruşub maraqlanaraq ABU-ya testdənkənar qəbulun mümkün olduğunu eşitmiş və bu məqsədlə ABU-ya gedərək qəbul şöbəsindən daxili test imtahanı yolu ilə ABU-ya qəbulun mümkün olduğunu öyrənmişdir. Daxili testdən uğurla keçib əvvəlcə Dağıstanta hansısa universitetə qəbul olunmuş 2008-ci ildə isə ABU-nun Neft-qaz yataqlarının işlənməsi və istismarı fakültəsinə köçürülmüş, onunla müqavilə bağlanmış və ona qiymət kitabçası verilmişdir. 2008-2010-cu illərdə təhsil alarkən sessiyalarda imtahanlardan müvəffəq qiymətlər alması üçün ildə bir dəfə dekan Mahmud Əfəndiyevə 400 manat olmaqla ümumilikdə 800 manat pul vermişdir. Daha sonra ABU bağlandığına görə diplomunu ala bilməmişdir. (cild 98, vərəq 160-163)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Fətullayev İntiqam Hacıbaba oğlunun ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanında iştirak edərək ali məktəbə qəbul oluna bilməyən oğlu Aqil Fətullayevi ABUnin neft-qaz yataqlarının istismarı və təşkili fakültəsinə Dağıstanın Mahaçqala

şəhərində yerləşən Maliyyə və hüquq institutundan köçürmə yolu ilə qəbul etdirmək üçün 2004-cü ilin sentyabr ayında həmin fakültənin dekanı Mahmud Əfəndiyevə 1700 ABŞ dolları məbləğində pul vermişdir. Oğlu Aqil 2005-2010-cu illərdə həmin fakültədə təhsil aldığı müddətdə hər il təhsil haqqı olaraq 480 ABŞ dolları vəsaiti universitetin hesabına ödəmişdir. Aqil 2010-cu ildə universiteti bitirsə də, ona diplom verilməmişdir. (cild 87, vərəq 172-200)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Abdullayeva Bağdagül Həsən qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, övladı Abdullayev İlqar Vidadi oğlu 2003-cü ildə TQDK vasitəsi ilə imtahan verərək İncəsənət Universitetinə qəbul olunmuş, lakin təhsilini davam etdirməmişdir. O, oğlunun digər universitetlərdən birinə qəbul etdirmək üçün maraqlanmış və dost-tanışlarından TQDK-nın test imtahanlarından kənar yolla ABU-nə qəbul olunmağın mümkün olduğunu və bu işləri ABU-nun maliyyə-kredit fakültəsinin dekanı Rabil Amanovun həll etdiyini eşitmiş, sonra isə Rabil Amanovun iş otağına gedərək ona oğlunu ABU-nə qəbul etdirmək istədiyini bildirmiş. Rabil Amanov ona 3000 ABŞ dolları müqabilində oğlu İlqarı daxili testlə ABU-nin maliyyə-kredit fakültəsinə qəbul etdirəcəyini bildirmiş, bundan bir neçə gün sonra, o, İlqarın sənədlərini və 3000 ABŞ dollarını Rabil Amanovun iş otağında sonuncuya təqdim etmişdir. İlqar formal olaraq daxili test imtahanı verib ABU-nin maliyyə-kredit fakültəsinə qəbul olunmuş və 2008-ci il tarixədək həmin universitetdə qiyabi təhsil almışdır. Digər övladı Abdullayev Vüsal Vidadi oğlu da 2006-cı ildə TQDK vasitəsi ilə test imtahanı verərək uğurlu nəticə əldə edə bilməmiş, o, Vüsalı da ABU-nə qəbul etdirmək qərarına gələrək ABU-nun maliyyə-kredit fakültəsinin dekanı Rabil Amanovun iş otağına gedərək ona oğlu Vüsalı ABU-nə qəbul etdirmək istədiyini bildirmiş, Rabil Amanov ona ABU-nə birbaşa qəbulun olmadığını, yalnız köçürmə yolu ilə qəbulun mümkün olduğunu, yəni adının bir il Dağıstan Respublikasında yerləşən ali məktəblərdən birinə yazılacağını, bir ildən sonra isə 2-ci kursdan ABU-nə köçürüləcəyini bildirmiş, sonra isə bunun müqabilində ondan 5000 manat pul istəmişdir. O, ailəsi ilə məsləhətləşdikdən sonra oğlu Vüsalın sənədlərini və 5000 manat pulu Rabil Amanovun iş otağında ona təqdim etmişdir. Vüsal Dağıstan Respublikasında yerləşən universitetə getməmiş, bir il həmin universitetdə təhsil aldığı rəsmiləşdirildikdən sonra, 2007-ci ildə Azərbaycan Beynəlxalq Universitetinə köçürülərək maliyyə-kredit fakültəsinin 2-ci kursundan təhsilini davam etdirmişdir. Təhsil aldığı müddətdə Rektor Elşad Abdullayevin müəyyən etdiyi qaydalara əsasən tələbələrdən sessiyalarda dekanatlıq tərəfindən pul toplanırdı. O, həmçinin bildirmişdir ki, İlqar Abdullayevin 2003-cü ilin avqust ayında ABU-nin Maliyyə və kredit fakültəsinə testdənkənar yolla qəbul etdirmək üçün həmin fakültənin dekanı Rabil Amanova 3000 ABŞ dolları, 2003-2008-ci illərdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 250 ABŞ dolları olmaqla 2500 ABŞ dolları, diplomun alınması üçün 1000 manat və ikinci oğlu Vüsal Abdullayevin 2006-cı ilin avqust ayında Universitetə qəbul olunmasına görə 5000 manat, 2007-2010-cu illərdə hər sessiyada imtahanlardan müvəffəq qiymətlər alması üçün 250 manat olmaqla 1500 manat məbləğində pul vermiş, lakin hazırkı vaxta kimi onlardan heç biri diplom ala bilməmişdir. (cild 90, iş vərəqə 113-116)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Ələsgərova Elmira

Ağamalı qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, övladı Ələsgərov Mehman Abbas oğlu TQDK vasitəsi ilə imtahan vermiş, lakin uğurlu nəticə əldə edə bilməmişdir. O, oğlunun digər universitetlərdən birinə qəbul etdirmək üçün qonşuluğunda yaşayan Azərbaycan Texniki Universitetində dekan vəzifəsində işləyən Eldar Qocayev adlı şəxsdən oğlunu hansı universitetə və necə qəbul etdirə biləcəyini soruşmuş, Eldar Qocayev ona oğlunu ABU-ya köçürmə yolu ilə qəbul etdirə biləcəyini bildirmiş, o da ABU-ya gedib orada oğlunun universitetə necə qəbul etdirəcəyi barədə maraqlanmış, sonra isə oğlu Mehmanın sənədlərini binanın 3-cü mərtəbəsində yerləşən bir otaqda tanımadığı şəxsə vermişdir. 2008-ci ildə oğlu Mehman ABU-nin maliyyə-kredit fakültəsinin əyani şöbəsində dərslərə getməyə başlamışdır. 2008- 2009-cu illərdə Mehman Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinin əyani şöbəsində təhsil aldığı müddətdə fakültənin dekan müavini Sevinc Kərimovaya hər sessiyada imtahanlardan müvəffəq qiymətlər yazılmasına görə 200 manat olmaqla 400 manat, dekan Rabil Amanova 2009-cu ilin iyun ayında dövlət imtahanı üçün 400 manat və diplom almaq üçün 1500 manat məbləğində pul vermiş, lakin hazırkı vaxta kimi onlardan heç biri diplom ala bilməmişdir. (cild 90, iş vərəqə 134-137)

Qanunla müəyyən olunan qaydada məhkəmənin vaxtı və yeri barədə məlumatlandırılmasına baxmayaraq məhkəmə baxışı zamanı iştirak etməmiş, məhkəməyədək icraat zamanı iş üzrə şahid qismində dindirilmiş Muradova Zərifə Dövlət qızının ibtidai istintaq zamanı verdiyi və tərəflərin razılığı ilə elan edilmiş ifadəsindən görünür ki, 2004-cü ildə övladı Muradov Abbas Valeh oğlu TQDK tərəfindən keçirilən imtahanlarda uğurlu nəticə toplaya bilməmiş, həmin ərəfədə Azərbaycan Beynəlxalq Universitetinin testdənkənar, daxili imtahan yolu ilə qəbul həyata keçirdiyini eşidib bu məqsədlə universitetə getmiş və orada ABU-nun riyaziyyat fakültəsinin müəllimi Samirə adlı şəxslər tanış olmuş, razılaşmalarına əsasən Abbasın ABU-nin Maliyyə və kredit fakültəsinin qiyabi şöbəsinə qəbul olunmasına görə Samirəyə 1500 manat pul vermiş, Abbasın təhsil aldığı 2005-2008-ci tədris illərində hər sessiyada imtahanlardan müvəffəq qiymətlər almasına görə fakültənin dekan müavini Sevinc xanıma 100 manat olmaqla cəmi 600 manat, 2008-2009-cu tədris ilində isə 250 manat məbləğində pul vermişdir. (cild 61, iş vərəqə 206-209)

Cinayət işinin materiallarından görünür ki, cinayət işi 01.07.2025-ci il tarixdə Azərbaycan Beynəlxalq Universitetinin (ABU) sabir rektoru Abdullayev Elşad İslam oğlu və digər vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə istintaqı aparılan 98765 nömrəli cinayət işindən Abdullayev Elşad İslam oğlunun barəsində Azərbaycan Respublikası CMnin 137.5.1, 137.5.2, 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələri ilə ayrıca icraata ayrılmışdır.

Cinayət işinin materiallarından görünür ki, 20.08.2013-cü il tarixdə 98765 №-li cinayət işi üzrə Abdullayev Elşad İslam oğlunun Azərbaycan Respublikası CM-in 137.3 və 308.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilmiş, lakin istintaqdan gizləndiyinə görə həmin tarixdə sonuncunun barəsində axtarış elan edilməklə Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin 4(006)-732/2013 saylı qərarı ilə 03 (üç) ay müddətinə həbs qətimkan tədbiri seçilmiş və “İnterpol” vasitəsilə beynəlxalq axtarışa verilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 15.12.2014-cü il tarixdə cinayət işi üzrə icraat Azərbaycan Respublikası CPM-in 53.1.3-cü maddəsinə əsasən dayandırılmışdır.

Cinayət işinin materiallarından görünür ki, 12.08.2024-cü il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin

(KQMBİ) icraatında olan 162026244 №-li cinayət işi istintaq aidiyyəti üzrə Baş Prokurorluğun İstintaq idarəsinə göndərilmiş, 15.08.2024-cü il tarixdə 98765 №-li və 162026244 №-li cinayət işlərinin icraatı təzələnməklə 162026244 №-li cinayət işi 98765 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 22.01.2013-cü il tarixdə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Elşad Abdullayevin qardaşı Abdullayev Mahir İslam oğlunun qəsdən öldürülməsi faktı üzrə istintaqı aparılan 105157 №-li cinayət işindən Azərbaycan Respublikasının sabiq Baş prokuroru tərəfindən Azərbaycan Beynəlxalq Universitetində aşkar olunan korrupsiya cinayətləri ilə bağlı epizodlar üzrə Azərbaycan Respublikası CM-in 308.1, 311.3.1, 311.3.2 və 311.3.3-cü maddələri ilə 132006004 №-li cinayət işi ayrıca icraata ayrılaraq istintaqın aparılması üçün KQMBİ-yə göndərilmiş, həmin cinayət işindən müxtəlif tarixlərdə ayrı-ayrı şəxslərin barəsində müxtəlif nömrəli cinayət işləri ayrılaraq aidiyyəti üzrə məhkəməyə göndərilmiş, sonuncu dəfə 24.11.2016-cı il tarixdə 162026081 №-li cinayət işindən Elşad Abdullayev və ABU-nin digər vəzifəli şəxslərinin barəsində Azərbaycan Respublikası CM-in 178.2.4, 213.2.2, 308.1, 308.2, 311.3.1, 311.3.2, 311.3.3, 29,312.2, 320.1 və 320.2-ci maddələri ilə 162026244 №-li cinayət işi ayrılmışdır.

Cinayət işinin materiallarından görünür ki, 26.04.2006-cı il tarixdə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) tərəfindən Azərbaycan Beynəlxalq Universitetində aparılmış yoxlama nəticəsində aşkar edilmiş - 1999-cu ildə 29 nəfər, 2000-ci ildə 143 nəfər, 2001-ci ildə 70 nəfər, 2002-ci ildə 26 nəfər, 2003-cü ildə 422 nəfər tələbələrin qanunvericiliyə zidd olaraq TQDK-nin əmri olmadan daxili əmrlərə əsasən Universitetə qəbul edilmələri faktları üzrə Azərbaycan Respublikasının sabiq Baş prokuroru tərəfindən Azərbaycan Respublikası CM-in 308.1 və 313-cü maddələri ilə 76723 №-li cinayət işi başlanaraq istintaqının aparılması əvvəlcə KQMBİ-nə həvalə edilmiş, 08.09.2006-cı il tarixdə isə KQMBİ-dən Ağır cinayətlərə dair istintaq idarəsinə göndərilməklə 105157 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 11.02.2013-cü il tarixdə Azərbaycan Respublikasının sabiq Baş prokuroru tərəfindən 105157 №-li cinayət işindən ABU-nun fəaliyyətinin davam etdirilməsini təmin edəcəyi vədi ilə 2009-cu ilin avqust-sentyabr aylarında Elşad Abdullayevə qarşı dələduzluq etmiş Baş nazirinin müavininin köməkçisi Hüseyn Vaqif Əbdülhüseyn oğlunun Azərbaycan Respublikası CM-in 178.3.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair 132006009 №-li cinayət işi ayrılaraq istintaqın aparılması üçün KQMBİ-nə göndərilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 25.02.2013-cü il tarixdə 132006009 №-li cinayət işindən Abdullayev Elşad İslam oğlunun 804.300 manata bərabər 1.000.000 ABŞ dolları məbləğində rüşvət verməyə cəhd etməsi faktı üzrə Azərbaycan Respublikası CMin 29, 312.2-ci maddəsi ilə 132006010 №-li cinayət işi ayrılmış və icraata qəbul edilməklə 132006004 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 132006009 №-li cinayət işi üzrə Bakı Ağır Məhkəməsinin 22.05.2013-cü il tarixli qanuni qüvvəyə minmiş hökmündən görünür ki, Hüseyn Vaqif Əbdülhüseyn oğlu Azərbaycan Respublikası CM-in 178.3.2-ci maddəsi ilə təqsirli bilinərək 04 (dörd) il müddətə azadlıqdan məhrum edilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 23.04.2013-cü il tarixdə Azərbaycan Respublikasının sabiq Baş prokuroru tərəfindən 105157 №-li cinayət işindən Elşad Abdullayevin yaşadığı evin qarşısındakı torpaq sahəsinin özəlləşdirilməsi adı ilə ona qarşı dələduzluq etmiş Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının Kino xidməti

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

idarəsinin rəisi Ağayev Nəriman Salman oğlunun Azərbaycan Respublikası CM-in 178.3.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair 132006027 №-li cinayət işi ayrılaraq istintaqın aparılması üçün KQMBİ-yə göndərilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 132006027 №-li cinayət işindən Abdullayev Elşad İslam oğlunun 104.403 manata bərabər 130.000 ABŞ dolları və 500.000 manat məbləğlərində rüşvət verməyə cəhd etməsi faktı üzrə Azərbaycan Respublikası CM-in 29, 312.2-ci maddəsi ilə 132006028 №-li cinayət işi ayrılaraq istintaqın davam etdirilməsi üçün KQMBİ-nə göndərilmiş və icraata qəbul edilməklə 132006004 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 132006027 №-li cinayət işi üzrə Bakı Ağır Məhkəməsinin 01.07.2013-cü il tarixli, 1(101)-559/13 saylı qanuni qüvvəyə minmiş hökmündən görünür ki, Ağayev Nəriman Salman oğlu Azərbaycan Respublikası CM-in 178.3.2-ci maddəsi ilə təqsirli bilinərək 04 (dörd) il müddətə azadlıqdan məhrum edilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 20.05.2013-cü il tarixdə Baş prokuror tərəfindən 105157 №-li cinayət işindən itkin düşmüş Mahir Abdullayevin axtarışı ilə əlaqədar DİN-in vəzifəli şəxslərinə rüşvət verəcəyi vədi ilə 2003-cu ilin dekabr və 2004-cü ilin mart ayında Elşad Abdullayevə qarşı dələduzluq etmiş Kazımov Arzu Firudin oğlunun Azərbaycan Respublikası CM-in 178.3.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair 132006031 №-li cinayət işi ayrılaraq istintaqın aparılması üçün KQMBİ-nə göndərilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 20.05.2013-cü il tarixdə Kazımov Arzu Firudin oğlunun Azərbaycan Respublikası CM-in 178.3.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair 132006031 №-li cinayət işindən Abdullayev Elşad İslam oğlunun 987.200 manata bərabər 1.000.000 ABŞ dolları və 492.300 manata bərabər 500.000 ABŞ dolları məbləğlərində rüşvət verməyə cəhd etməsi faktı üzrə Azərbaycan Respublikası CM-in 29, 312.2-ci maddəsi ilə 132006032 №-li cinayət işi ayrılaraq istintaqın davam etdirilməsi üçün KQMBİ-nə göndərilmiş və İstintaq şöbəsinin sabiq rəisi Əli Quliyev tərəfindən icraatına qəbul edilməklə 132006004 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 132006031 №-li cinayət işi üzrə Bakı Ağır Məhkəməsinin 05.07.2013-cü il tarixli 1(101)-617/13 saylı qanuni qüvvəyə minmiş hökmündən görünür ki, Kazımov Arzu Firudin oğlu Azərbaycan Respublikası CM-in 178.3.2-ci maddəsi ilə təqsirli bilinərək 03 (üç) il müddətə azadlıqdan məhrum edilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 03.06.2013-cü il tarixdə 105157 №-li cinayət işindən ABU-nun fəaliyyətinin davam etdirilməsini təmin edəcəyi vədi ilə 2010-cu ilin aprel ayında Elşad Abdullayevə qarşı dələduzluq etmiş Binəqədi rayonunun sabiq prokuroru Seyidov Mirismayıl Mirələkbər oğlunun Azərbaycan Respublikası CM-in 178.3.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair 132006036 №-li cinayət işi ayrılaraq istintaqın aparılması üçün KQMBİ-nə göndərilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 06.06.2013-cü il tarixdə 132006036 №-li cinayət işindən Abdullayev Elşad İslam oğlunun 804.300 manata bərabər 1.000.000 ABŞ dolları məbləğində rüşvət verməyə cəhd etməsi faktı üzrə Azərbaycan Respublikası CMin 29, 312.2-ci maddəsi ilə 132006037 №-li cinayət işi ayrılmış və 10.06.2013-cü il tarixdə İstintaq şöbəsinin sabiq rəisi Əli Quliyev tərəfindən icraatına qəbul edilməklə 132006004 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 132006036 №-li cinayət işi üzrə Bakı Ağır Məhkəməsinin 05.07.2013-cü il tarixli, 1(101)-656/13 saylı qanuni qüvvəyə minmiş hökmündən görünür ki, Seyidov Mirismayıl Mirələkbər oğlu Azərbaycan Respublikası CMin 178.3.2-ci maddəsi ilə təqsirli bilinərək 07 (dörd) il müddətə azadlıqdan məhrum edilməklə 02 il sınaq müddəti müəyyən edilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 25.09.2012-ci il tarixdə Bakı şəhər prokuroru tərəfindən ABU-nun rektoru Elşad Abdullayev tərəfindən Milli Məclisə deputat seçilməsi üçün Əhmədova Gülər Mikayıl qızına 918.950 manata bərabər 1.000.000 ABŞ dolları məbləğində pul verməsi faktı üzrə Azərbaycan Respublikası CM-in 178.3.2-ci maddəsi ilə 120206055 №-li cinayət işi başlanmışdır.

Cinayət işinin materiallarından görünür ki, 16.08.2013-cü il tarixdə 120206055 №-li cinayət işindən Abdullayev Elşad İslam oğlunun Gülər Əhmədovaya rüşvət verməyə cəhd etməsi faktı üzrə Azərbaycan Respublikası CM-in 29, 312.1-ci maddəsi ilə 130206044 №- li cinayət işi ayrılmaqla Bakı şəhər prokurorluğunda istintaqı davam etdirilmiş, 02.10.2013- cü il tarixdə 132006004 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 120206055 №-li cinayət işi üzrə Bakı Ağır Məhkəməsinin 02.12.2013-cü il tarixli, 1(101)-962/13 saylı qanuni qüvvəyə minmiş hökmündən görünür ki, Əhmədova Gülər Mikayıl qızı Azərbaycan Respublikası CM-in 178.3.2 və 307.2-ci maddələri ilə təqsirli bilinərək 03 (üç) il müddətə azadlıqdan məhrum edilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 19.11.2013-cü il tarixdə Allahverdiyev Minarə Məhəmməd qızının Azərbaycan Respublikası CM-in 178.2.2, 178.2.4 və 320.1-ci maddələri ilə təqsirləndirilməsinə dair 132026066 №-li cinayət işindən Qaraşov Elxan Azay oğlunun barəsində Azərbaycan Beynəlxalq Universitetinə məxsus saxta sənədi (diplomu) bilə-bilə hazırlaması və istifadə etməsi epizodları üzrə Azərbaycan Respublikası CM-in 320.1 və 320.2-ci maddələri ilə 132026213 №-li cinayət işi ayrılmış və həmin tarixdə 132006004 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 10.12.2013-cü il tarixdə Əliyev Nohəl Əlqəmə oğlunun Azərbaycan Respublikası CM-in 320.1 və 320.2-ci maddələri ilə təqsirləndirilməsinə dair 132026176 №-li cinayət işindən sonuncunun istintaqa məlum olmayan şəxsdən Azərbaycan Beynəlxalq Universitetinə məxsus saxta sənədi əldə etməsi epizodu üzrə Azərbaycan Respublikası CM-in 308.1-ci maddəsi ilə 132026223 №- li cinayət işi ayrılmış və həmin tarixdə 132006004 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 25.12.2013-cü il tarixdə Həsənov Yunis Sədi oğlunun Azərbaycan Beynəlxalq Universitetinə məxsus saxta diplom təqdim etməsi faktı üzrə Azərbaycan Respublikası CM-in 178.2.1, 178.2.4 və 320.1-ci maddələri ilə 132026229 №-li cinayət işi başlanaraq 03.03.2014-cü il tarixdə 132006004 №-li cinayət işinə birləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 18.02.2014-cü il tarixdə 132006004 №-li cinayət işi üzrə Abdullayev Elşad İslam oğlunun barəsində Azərbaycan Respublikası CMnin 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilmiş, istintaqdan gizləndiyi üçün ona ittiham elan olunması mümkün olmamış və Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində sonuncunun barəsində həbsli axtarışın elan edilməsi nəzərə alınmışdır.

Cinayət işinin materiallarından görünür ki, 25.06.2014-cü il tarixdə Abdullayev Elşad İslam oğlunun barəsində yeni məzmunlu Azərbaycan Respublikası CM-nin 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilmişdir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Cinayət işinin materiallarından görünür ki, 19.05.2017-ci il tarixdə Abdullayev Elşad İslam oğlunun barəsində yeni məzmunlu Azərbaycan Respublikası CM-nin 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilmişdir.

Cinayət işinin materiallarından görünür ki, 18.02.2014-cü il tarixdə 132006004 №-li cinayət işi üzrə Amanov Rabil Amanulla oğlunun barəsində Azərbaycan Respublikası CM-nin 311.3.1, 311.3.2 və 311.3.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə ona ittiham elan olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 20.02.2014-cü il tarixdə 132006004 №-li cinayət işindən Elşad Abdullayev, Xudayar Həsənov və qeyrilərinin barəsində 142026048 №-li cinayət işi ayrılaraq icraatına qəbul olunmuş, Rabil Amanovun barəsində cinayət təqibi isə 132006004 №-li cinayət işində davam etdirilmiş və istintaq tamamlanaraq cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

Cinayət işinin materiallarından görünür ki, məhkəmənin qanuni qüvvəyə minmiş 1(101)-446/14 saylı 15.07.2014-cü il tarixli hökmü ilə Amanov Rabil Amanulla oğlu Azərbaycan Respublikası CM-nin 308.2, 311.3.1, 311.3.2 və 311.3.3-cü maddələri ilə təqsirli hesab edilmiş və 09 (doqquz) il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 23.04.2014-cü il tarixdə 142026048 №-li cinayət işi üzrə Həsənov Xudayar oğlunun barəsində Azərbaycan Respublikası CM-nin 308.2, 311.3.1 və 311.3.3-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə ona ittiham elan olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 23.04.2014-cü il tarixdə 142026048 №-li cinayət işindən Elşad Abdullayevin və qeyrilərinin barəsində 142026093 №-li cinayət işi ayrılaraq icraatına qəbul olunmuş, Xudayar Həsənovun barəsində cinayət təqibi isə 142026048 №-li cinayət işində davam etdirilmiş və istintaq tamamlanaraq cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

Cinayət işinin materiallarından görünür ki, məhkəmənin qanuni qüvvəyə minmiş 1(101)-636/2014 saylı 29.10.2014-cü il tarixli hökmü ilə Həsənov Xudayar İsmayıl oğlu Azərbaycan Respublikası CM-nin 308.2, 311.3.1 və 311.3.3-cü maddələri ilə təqsirli hesab edilmiş və 04 (dörd) il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 25.06.2014-cü il tarixdə 142026093 №-li cinayət işindən Elşad Abdullayev və ABU-nin digər vəzifəli şəxsləri barəsində Azərbaycan Respublikası CM-in 178.2.4, 308.1, 308.2, 311.31, 311.3.2, 311.3.3, 29,312.2, 320.1 və 320.2-ci maddələri ilə 142026143 №-li cinayət işi ayrılaraq icraatına qəbul olunmuş, Mahmud Əfəndiyevin barəsində cinayət təqibi isə 142026093 №-li cinayət işində davam etdirilmiş və istintaq tamamlanaraq cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

Cinayət işinin materiallarından görünür ki, məhkəmənin qanuni qüvvəyə minmiş 1(101)-846/2014 saylı 05.12.2014-cü il tarixli hökmü ilə Əfəndiyev Mahmud Paşa oğlu Azərbaycan Respublikası CM-nin 308.2, 311.3.1 və 311.3.3-cü maddələri ilə təqsirli hesab edilmiş və 08 (səkkiz) il 06 (altı) ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 24.11.2014-cü il tarixdə 142026211 №-li cinayət işindən Elşad Abdullayev və ABU-nin digər vəzifəli şəxsləri barəsində Azərbaycan Respublikası CM-in 178.2.4, 213.2.2, 308.1, 308.2, 311.31, 311.3.2,

311.3.3, 29,312.2, 320.1 və 320.2-ci maddələri ilə 142026256 №-li cinayət işi ayrılaraq icraatına qəbul olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 24.11.2014-cü il tarixdə 142026211 №-li cinayət işi üzrə tərəfindən Məmmədov İsmayıl Məhəmməd oğlunun barəsində Azərbaycan Respublikası CM-nin 308.2, 311.3.1 və 311.3.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə ona həmin maddələrlə ittiham elan olunmuş və barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilmişdir.

Cinayət işinin materiallarından görünür ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin qanuni qüvvəyə minmiş 1(101)-64/2016 saylı 18.05.2016-cı il tarixli hökmü ilə Məmmədov İsmayıl Məhəmməd oğlu Azərbaycan Respublikası CM-nin 308.2, 311.3.1 və 311.3.3-cü maddələri ilə təqsirli hesab edilmiş və 08 (səkkiz) il 06 (altı) ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 19.06.2015-ci il tarixdə 142026256 №-li cinayət işindən Elşad Abdullayev və ABU-nin digər vəzifəli şəxsləri barəsində Azərbaycan Respublikası CM-in 178.2.4, 213.2.2, 308.1, 308.2, 311.31, 311.3.2, 311.3.3, 29,312.2, 320.1 və 320.2-ci maddələri ilə 152026106 №-li cinayət işi ayrılaraq icraata qəbul olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 14.04.2016-cı il tarixdə 152026106 №-li cinayət işindən Elşad Abdullayev və ABU-nin digər vəzifəli şəxsləri barəsində Azərbaycan Respublikası CM-in 178.2.4, 213.2.2, 308.1, 308.2, 311.31, 311.3.2, 311.3.3, 29,312.2, 320.1 və 320.2-ci maddələri ilə 162026081 №-li cinayət işi ayrılaraq icraatına qəbul olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 24.11.2016-cı il tarixdə 162026081 №-li cinayət işindən Elşad Abdullayev və ABU-nin digər vəzifəli şəxsləri barəsində Azərbaycan Respublikası CM-in 178.2.4, 213.2.2, 308.1, 308.2, 311.31, 311.3.2, 311.3.3, 29,312.2, 320.1 və 320.2-ci maddələri ilə 162026244 №-li cinayət işi ayrılaraq icraata qəbul olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, 01.09.2024-cü il tarixdə təqsirləndirilən şəxs Elşad Abdullayevin əməlləri Azərbaycan Respublikası CM-nin 137.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələrindən həmin Məcəllənin 137.5.1, 137.5.2, 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələrinə tövsif edilmiş və cinayət işinin ibtidai istintaqı Azərbaycan Respublikası CM-nin 137.5.1, 137.5.2, 137.5.3, 178.2.4, 213.2.2, 308.1, 308.2, 311.3.1, 311.3.2, 311.3.3, 29,312.2, 320.1 və 320.2-ci maddələri ilə davam etdirilmişdir.

Həmin tarixdə Abdullayev Elşad İslam oğlunun barəsində Azərbaycan Respublikası CM-nin 137.5.1, 137.5.2, 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilmiş, istintaqdan gizləndiyi üçün ona ittiham elan olunması mümkün olmamış və sonuncunun barəsində həbsli axtarışın elan edilməsi nəzərə alınmışdır.

Cinayət işinin materiallarından görünür ki, cinayət işi üzrə ibtidai istintaq müddəti sonuncu dəfə isə 21.10.2024-cü il tarixdə Azərbaycan Respublikası Baş prokuroru cinayət işinin müstəsna mürəkkəbliyini nəzərə alınmaqla 03 ay, 23.01.2025-ci il tarixədək uzadılmışdır.

Cinayət işinin materiallarından görünür ki, 23.11.2024-cü il tarixdə cinayət işi üzrə icraat Azərbaycan Respublikası CPM-nin 53.1.3-cü maddəsinə əsasən dayandırılmışdır.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Cinayət işinin materiallarından görünür ki, Azərbaycan Respublikası CPM-in 54-1-54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada Elşad Abdullayevin Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsinə dəvət olunması barədə 09.10.2024- cü il tarixli çağırış vərəqəsi və həmin tarixli Fransa Respublikasının səlahiyyətli orqanlarına beynəlxalq hüquqi yardım göstərilməsi dair tapşırıq tərtib olunmuşdur. Çağırış vərəqəsində Elşad Abdullayevə bildirilmişdir ki, Baş Prokurorluğun İstintaq idarəsində ibtidai istintaqı aparılan 98765 nömrəli cinayət işi üzrə 01.09.2024-cü il tarixdə barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137.5.1, 137.5.2, 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar qəbul edilmiş, həmin tarixdə ona ittiham elan edilməsi məqsədi ilə barəsində axtarış elan edilmiş və Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin eyni tarixli qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir. Habelə Azərbaycan Respublikası CPM-in 54-2.1.7-ci və 467-13.3-cü maddələrinin tələbinə əsasən, ona xəbərdarlıq edilmişdir ki, həmin Məcəllə ilə müəyyən edilmiş qaydada barəsində qiyabi icraat açıla bilər və bu barəsində qiyabi hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarıla biləcəyi ilə nəticələnə bilər. Həmçinin Elşad Abdullayevə izah edilmişdir ki, özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququ var. Müdafiəçidən istifadə etmək istədiyi halda, müdafiəçi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməlidir. Elşad Abdullayevin Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsinə dəvət olunması barədə qeyd olunan çağırış vərəqəsi beynəlxalq hüquqi yardım göstərilməsinə dair tapşırıqla Elşad Abdullayevin yaşadığı Fransa Respublikasına göndərilmişdir. İstintaqdan qaçıb gizlənən təqsirləndirilən şəxs Elşad Abdullayevə ittiham elan edilməsi üçün onun tutulması, axtarışı və eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada verilməsi (ekstradisiyası) ilə əlaqədar tədbirlər görülməsi üçün 10.03.2025-ci il tarixdə Fransa Respublikasının səlahiyyətli orqanlarına müraciət olunmuşdur. Azərbaycan Respublikası CPM-nin 467-13.4-cü maddəsinin tələblərinə əsasən qeyd edilən tədbirlər nəticə vermədiyindən, təqsirsizlik prezumpsiyasına riayət etməklə, Elşad Abdullayevin barəsində Azərbaycan Respublikası CPM-nin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məlumatlar (çağırış vərəqəsinin verilməli olduğu şəxsin ünvanı istisna olmaqla) 12.04.2025-ci il tarixdə Azərbaycan Respublikasının ictimai televiziyası və radiosu vasitəsilə yayımlanmış və həmin tarixdə televiziyanın rəsmi internet səhifəsində (İTV.az), habelə ictimai televiziyanın rəsmi kanalında dərc edilməklə, Elşad Abdullayev 05.05.2025-ci il tarixdə istintaqa dəvət olunmuşdur. 29.05.2025-ci il tarixdə cinayət işi üzrə icraat təzələnməklə təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğlunun barəsində qiyabi icraatın açılması üçün Bakı şəhəri Binəqədi rayon məhkəməsinə müraciət edilmiş, 31.05.2025-ci il tarixdə Bakı Şəhəri Binəqədi Rayon Məhkəməsinin qərarı ilə təqsirləndirilən şəxs Elşad Abdullayevin barəsində qiyabi icraat açılmışdır.

Cinayət işinin materiallarından görünür ki, 04.06.2025-ci il tarixdə təqsirləndirilən şəxs Elşad Abdullayev elektron qaydada müraciət edərək Fransa Respublikasının Paris şəhərinin Mennesy rayonunun Andree Şenner 15 ünvanında qeydiyyatda olmaqla yaşadığını qeyd etmiş və onun barəsində çıxarılacaq qiyabi məhkəmə qərarının, Bakı şəhərində ABU-nun inzibati binası və torpaq sahələri, eləcə də Moskva şəhərində yerləşən ABU-nun Moskva filialının və Bakı şəhərində yerləşən bütün əmlaklarının Azərbaycan dövlətinin hesabına keçirilməsinə (müsadirəsinə) etiraz etmədiyini göstərmişdir.

Cinayət işinin materiallarından görünür ki, 30.06.2025-ci il tarixdə Abdullayev Elşad İslam oğlunun barəsində Azərbaycan Respublikası CM-nin 137.5.1, 137.5.2, 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələri ilə yekun ittihamı nəzərdə tutan təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilmiş və ittihamın mahiyyəti təqsirləndirilən şəxsin dövlət hesabına təyin edilmiş müdafiəçisinə izah edilməklə həmin qərarın surəti sonuncuya təqdim edilmişdir.

Cinayət işinin materiallarından görünür ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin qanuni qüvvəyə minmiş 23.08.2013-cü il tarixli, 1(101)-617/2013 saylı hökmü ilə Arzu Kazımov ABU-nun rektoru Elşad Abdullayevin ona itkin düşmüş qardaşının tapılmasına nail olmaq üçün vəzifəli şəxslərə çatdırması məqsədi ilə verdiyi 1.479.500 manat məbləğində külli miqdarda rüşvəti aldatma yolu ilə ələ keçirdiyinə görə Azərbaycan Respublikası CM-nin 178.3.2-ci maddəsi ilə təqsirli hesab edilmiş və 03 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

Cinayət işinin materiallarından görünür ki, Kazımov Arzu Firudin oğlunun barəsində olan cinayət işi üzrə ibtidai istintaq zamanı şahid qismində dindirilmiş Abdullayev Elşad İslam oğlu ifadəsində göstərmişdir ki, 13 oktyabr 2003-cü il tarixdə qardaşı Mahir Abdullayev itkin düşəndən sonra "Roşka" ləqəbli, əsl adı Rövşanə olan qızdan itkin düşmüş qardaşını Daxili İşlər nazirinin sabiq birinci müavini Zahid Dünyamalıyevin və Arzu Kazımov adlı metal alveri ilə məşğul olan bir şəxsin tapa biləcəyini öyrənmiş, Rövşanənin ona dediyi sözləri şərti işarə kimi başa düşmüş, sonuncu söhbətində Arzu Kazımovun Zahid Dünyamalıyevlə iş birliyinin olması barədə ona çox mühüm məlumatlar vermiş, Rövşanənin etdiyi söhbətləri o, videokamera ilə çəkmişdir. O, 18 oktyabr 2003-cü il tarixdə əvvəllər tanımadığı Arzu Kazımovla iş otağında görüşmüş, Arzu qardaşı Mahirin adam oğrularının əlindən azad olunması işinə köməklik edəcəklərini demiş, bu işdən heç kimin məlumatı olmaması haqqında onu xəbərdar etmiş, əks təqdirdə Mahiri görməyəcəyi ilə hədələmişdir, ikilikdə söhbət edərkən Arzu Kazımov ona konkret olaraq qardaşı Mahirin kim tərəfindən oğurlanmasını bildiyini birinci görüş vaxtı deməmiş, lakin Daxili işlər nazirinin sabiq birinci müavini Zahid Dünyamalıyevlə çox yaxın əlaqələrinin olduğunu, bu əlaqələrdən istifadə edib onun qardaşı Mahir Abdullayevin azad olunması məsələsini həll edəcəyini bildirmişdir. Onun dediklərinə görə Mahir itkin düşəndən 1 gün sonra, yəni 14 oktyabr 2003-cü il tarixdə o, qardaşı Elsevər Abdullayevlə birlikdə Daxili işlər nazirinin qəbulunda olmuş, nazir onları dinləyəndən sonra, Zahid Dünyamalıyevı çağırıb bu işi araşdırmağı sonuncuya tapşırmış, nazirin qəbulundan çıxandan sonra onlar təxminən 30 dəqiqə Zahid Dünyamalıyevin otağında olaraq qardaşları Mahir Abdullayev haqqında generala məlumat vermişlər, işin Zahid Dünyamalıyevə tapşırılması, digər tərəfdən Arzu Kazımovun onunla söhbətində Zahid Dünyamalıyevin adını çəkməsi və Mahirin yalnız general Zahid Dünyamalıyev tərəfindən geri qaytarıla bilməsi barədə dedikləri onu Arzu Kazımova inanmağa sövq etmişdir. Bu söhbətdən sonra Zahid Dünyamalıyevlə sonuncunun iş otağında və Arzu Kazımovun şirkətində dəfələrlə söhbətləri olmuş, o, qardaşı Mahirə xələl yetirilməsin deyə Arzunun bütün şərtlərini yerinə yetirmişdir. Arzu Kazımov Mahirə görə pulun alınması vaxtını qəsdən uzatmış, o, şəxsən Arzu Kazımovla Mahirin qaytarılması üçün veriləcək pulun məbləği barədə dəfələrlə söhbətlər aparmış, bununla bağlı qohum-əqrabadan məcbur olub yığdığı ümumi 1.500.000 ABŞ dolları məbləğində pulu rəsmi qaydada Arzu Kazımova vermişdir. Arzu Kazımov onu Bakı şəhəri, Süleyman Rəhimov küçəsi 195 ünvanında yerləşən ofisinə dəvət edərək Mahirin qaytarılması üçün ondan pul istəmiş, Mahirin sağ - salamat qaytarılması üçün onu inandırmağa çalışaraq pulları özünə məxsus olan

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

«İnşaat-Servis» MTK-nın möhürü və şəxsi imzası ilə təsdiq edərək müqavilə bağlamaqla alacağını bildirmişdir. 27 dekabr 2003-cü il tarixdə o, Arzu Kazımovun dəvəti ilə 500.000 ABŞ dolları ilə birlikdə Bakı şəhəri, Qız qalasının yaxınlığında yerləşən ofisə getmiş, onunla birlikdə qohumu Sabir Hüseynov da olmuş, onu Arzu özü qarşılamış, o, pulu ofisdə Arzuya verməmişdən qabaq aralarında müqavilə bağlanmasını və tərəflər kimi həmin müqaviləni imzalamağı bildirmiş, Arzu Kazımov heç bir narahatçılıq keçirmədən müqaviləni gətirərək bir tərəfdən özü, digər tərəfdən isə onun qohumu Sabir Hüseynov müqaviləni imzalamışlar. Onun bildirdiyinə görə imzalanmış həmin müqavilədə formal olaraq qohumu Sabirin Arzu Kazımovdan 500.000 ABŞ dollarına yaşayış evi alması göstərilsə də, həmin pul faktiki olaraq yalnız Mahirin qaytarılması üçün Arzu Kazımova verilmiş və bu müqavilə ilə rəsmiləşdirilmiş, Arzu onu inandırmaq üçün Sabirin iştirakı ilə müqaviləyə imza atmışdır. Arzu Kazımov Mahiri 28 dekabr 2003-cü il tarixdə qaytaracaqlarını və səs-küy olmasın deyə qardaşlarından birinin evində müvəqqəti olaraq yerləşdirmək lazım olduğunu bildirmiş, o, qardaşları ilə sövdələşdikdən sonra gətiriləcək Mahiri müvəqqəti digər qardaşı Elsevərin evində saxlamağı qərarlaşdırmışlar. Səhərisi gün axşam saat 24 radələrində onlar həyətdə Mahiri gözləyərkən Arzu Elsevərin yaşadığı evin yanına gələrək ona Mahirin işinin bir az gecikdiyini, bu işin çox çətin bir iş olduğunu və yenə də pul tələb edildiyini demiş, sabah ofisə gəlməyi məsləhət görmüşdür. Səhərisi gün o, yenə də Arzu Kazımovun ofisində görüşərkən sonuncu bu işin çox çətin olduğunu bildirərək məsələnin həll olunmasından ötrü daha 1.000.000 ABŞ dolları pul lazım olduğunu deyərək həmin pulu inansın deyə yazılı sənəd əsasında öz imzası ilə təsdiq edib alacağını bildirmiş, bununla da işin artıq başa çatdığını və Mahirin sağ-salamat evinə qayıdacağını söyləmişdir. O, yenə də pul əldə etmək üçün qohumlarına ağız açaraq 2 ay müddətində topladığı 1.000.000 ABŞ dollarını özü ilə götürməklə 05 mart 2004-cü il tarixdə bir tərəfdən “ERA” ATSC-nin rəhbəri kimi özü ilə digər tərəfdən «inşaat-2002» şirkətinin rəhbəri Arzu Kazımov arasında həmin pulun guya «inşaat-2002» şirkətinin Bakı şəhəri Nərimanov rayonu ərazisində inşa etdiyi ümumi dəyəri 1.000.000 ABŞ dolları olan 50 ədəd mənzilin “ERA” ATSC tərəfindən alınması üçün həmin şirkətin rəhbəri Arzu Kazımova 1.000.000 ABŞ dolları məbləğində pul verməsi kimi rəsmiləşdirmiş, lakin faktiki olaraq qeyd edilən məbləği qardaşı Mahir Abdullayevin axtarılması üçün vermişdir. O, pulu Arzu Kazımova verəndən onra Arzunun ona gələn zəngləri tədricən azalmağa başlamış, sonra bu zənglər kəsilmiş, yenə də Arzunun ofisinə gedərək Mahirin niyə qaytarılmadığı sualı ilə müraciət edəndə Arzu Kazımov ondan gizlənməyə çalışmış, hər dəfə də görüşəndə ona narahat olmamağı, hər şeyin yoluna düşəcəyini və Mahirin tapılıb evinə qayıdacağını demişdir. Lakin vaxt uzandıqca o, çox narahat olduğundan, yenidən Arzuya müraciət etmiş, sonuncu isə bu adamların 10 nəfər olduğunu, hərəsinə 1.000.000 ABŞ dolları verməli olduğunu, bu şəxslərin işinə gücü çatmadığını bildirmişdir. Bundan sonra o, qərara gəlmişdir ki, verdiyi pulu nə qədər gec deyil geri alsın. Odur ki, dəfələrlə Arzu Kazımovun yanına gedərək verdiyi 1.500.000 ABŞ dollarını tələb etmiş, Arzu Kazımov ondan aldığı pulların əvəzinə şikayət etməyəcəyi təqdirdə Bakı şəhəri, Əhməd Cavad küçəsində yerləşən özünə məxsus olan binadakı mənzilləri verəcəyini təklif etmiş, amma o, Arzuya verdiyi pulların əvəzinə təklif edilən mənzillərdən qəti olaraq imtina etmiş və pullarını geri istəmişdir. Belə olduqda Arzu Kazımov ona özünün xüsusi mülkiyyətində olan 2 hektar torpaq sahəsini verməyi təklif etmiş, o, edilən bu təkliflə razılaşdıqdan sonra bu məsələ rəsmi olaraq Bakı şəhəri 1 №-li Dövlət Notariat Kontorunda qohumları Hüseyn Əhmədov, Sabir Hüseynov, qardaşları ismayıl və Eldəniz, köməkçisi Şamil, Arzunun özü, qardaşı

Kazımov Nizami Firuddin oğlu və Nurlan Həsənovun iştirakı ilə notariusda 2 hektar torpaq sahəsi rəsmiləşdirilərək ona verilmişdir. Belə bir müqavilənin Arzu ilə arasında notarial qaydada rəsmiləşdirilməsi heç də həqiqi mənada onların torpaq alqısatqısı ilə bağlı olmamış, əslində Arzunu ifşa etmək üçün ondan alınan pulun notariusun yanında hüquqi cəhətdən rəsmiləşdirilməsi olmuşdur.

Cinayət işinin materiallarında olan 12 oktyabr 2012-ci il tarixli baxış protokolundan görünür ki, 1) «№24 Rövşanə (Arzu Kazımovski)» yazıları olan diskdəki videoyazının müddəti 18.32 dəqiqədir. Rövşanə Eldəniz Abdullayevlə bərabər otağa daxil olur, Elşad Abdullayevlə görüşür və onlar masa arxasında əyləşirlər. Elşad Abdullayev öz yerində Eldəniz və Rövşanə qabağda olan masa arxasında üzbəüz əyləşirlər.

Rövşanə: xəstəyəm

E.Abdullayev: Otur qadan alım.

R.Nətərsən, nə var nə yox.

E.A. Necə olacam bibim.

R.Sən vəfasız çıxdın, bir dəfə zəng vurmadın. Çoxu hər söz deyir. Axı bu qız sənə kömək eləmək istəyib. Bu günlərim bir «Nazikə» bilmirdi bunun işçisi nətər adamdı, Mən də sənə yaxşılıqla apardım da bu adamın yanına düzdürmü qardaş?

E.A. Hə.

R. Mən nə bilim ki, bunun dalı belə oyun olacaq. Qurban olum sənə. Mən bilməzdim ki, bu oyun nətər olacaq. İkinci də özün də dedin ki, yox da heç kim qatışmasın. Dedim, əşşi, bəlkə kimsə narahatçılıq verir, kimsə düzgün hərəkət eləmir. Düzgün requlirovka vermir. İndi bizim nəyimizə lazımdır, mən 100 dənə adam tanıyıram. Sənə işi düşən adam olsa, mən sənin yanına gətirərəm. Deyərəm ki, Elşad müəllim həll eləyər. O curna da ona xahiş elədik. İndi, Vallah, Elşad müəllim, Eldəniz mənə danışır. Deyirəm, mən bunu eşidəndə çox təəsüfləndim. Yəni inanmırdım ki, belə bir hadisə olacaqdır. Çox təəsüfləndim. Gözəl bir insan, kriminalist. Sizə də lazım idi. Mənim onunla heç bir problemim yoxdur. Mənə nəyə lazım olacaq. Amma haif oldu dostumuz.

E.A.Kimi deyirsən?

R.Dostumuzu

E.A.hansı dostunu.

R. Obirisi dostumu.

E.A. Kimi də? (Rövşanə telefonla danışır)

R. Mən səhərdən doxtura neçə dəfə otkaz eləmişəm sizdən ötrü, hamısı qurban olsun Sizə. Mən Allah haqqı, Elşad müəllim, inan ki, deyirdim ki, Mahir gələcək heç bunların (işarə edir Eldənizə) yanına getməyəcəm, gedəcəm Mahirin yanına görəcəm. O nəzirləri ki, mən eləmişəm ona. Mən o cür düşünürdüm. Mənim bu kişi oyunlarından xəbərim yoxdur. Mən general deyiləm, mən polis mayoru deyiləm, mən prokuror deyiləm ki, onlar mənə belə şişirtdi. Sən gördün ki, bir damcı şeyə görə bu buna atdı, o ona atdı, o onu taptaladı, biri adımı dəli qoydu, biri dedi ki, ona yaxın getməyin. Adama deyərlər «Vətən xayinidir»? Nə olubdur?

E.A. Adam oğurlusudur?

R. Adam oğurlusudur? Nə qayırıbdır. Yetim bir qızdır. Eldənizdən çörəyim keçirdi. Gəlirdim, mənə kömək eləyirdi. Ümumi qaydada. Korrupsiya eləməmişik ki. Ümumi qaydada. Ay Eldəniz, bu yetim uşaqdır, ona kömək elə. Biz belə dost olmuşuq. Mən səndən mərdimazarlıq görməmişəm. Mən sənə pislik eləyirdim? Nəyə görə sənə pislik etməliyəm?

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

E.A.: Gərək biz də pislik eləyək də. Görünür yaxşı olmuşuq, pislik eləyirlər, bunlar kimi oğraş olaq.

R.: Bəzən mən düşünürdüm ki, bax inanmırsınız mənə, mən əvvəl elə düşünürdüm ki, deyirdim ki, Mahir, tək səbir gəldi, görürsən Allah deyir səbr eləyək. Mən təzə bir şey deyim. Mənim intuisiyam sən bilirsən. Bu işdə Allahdan hardasa bir balaca işıq gəldi. Bu iş illərlə gedə bilərdi, sürünə bilərdi. Yəni hardasa bura bir işıq düşəcəkdir. Bu iş belə qalmaz. Sən narahat olma. Eldəniz bəyaq hirslənib, mən də öz hirsimi özüm bilirəm necə deyəcəm. Ama Siz də o kişi ilə də görüşün, dostumuzla da. Görüşün, nə qədər özü söhbət edir obirisi ilə də. Denən sənin deməklə deyil, filankəsin yanına getmə. Özün telefonlaşıb oturursan filan yerdə. İndi bu belə işdi, düzdü, eləmi Eldəniz? Səndən, məndən keçib. Üçümüz oturaq qardaşyanı səninlə gəlmişik də sənin yanına. Burada nə var? Qardaş kimi də söhbət edək. Demədi ki, buradan ayrılın, ayrıldıq. Mənası nə oldu? Heç bir şey. Gözlə. Amma bu gözləmənin bir sonu var. Vaxtı da. Nə qədər olar? Bir gün gözlə, iki gün gözlə. Vallah, Elşad müəllim, Eldəniz mənə səhərdən bir abırlar verib. Onun özündə abır yoxdur. Sən inteliqent adamsan. Parlament seçkiləri gələndə. Mən o gün ATƏTİN parlament şurasından..

Eldəniz Abdullayev söyüş söyür, Rövşanə ilə Eldəniz arasında sözlə mübahisə gedir.

Rövşanə təzədən müraciət edir Elşad Abdullayevə

R.: Sabah sən parlamentdə də təmsil oluna bilərsən, yəni ki, sən də bir sözü oturub bir adama deyərsən ki, mənim başıma bu oyun gəlib

Eldəniz: Nağıl danışma. Yenidən Eldənizlə Rövşanə arasında sözlü mübahisə gedir.

R: Kişi də deyir ki, 9 aydır Elşad mənə zəng eləmir. Bəs niyə zəng vurmursan? Eldəniz Rövşanəyə söyüş söyür. Rövşanə Elşada: Niyə zəngj vurmursan?

E.A.: Mən onu gözləyirəm. Mən bu gün də onu gözləyirəm.

R.: Nə danışırsan? E.A.: Vallah. Mən bu gün danışdım. 3-4 gündür tapmırdım. Dedim Arzu salam, nə var, nə yox? Dedi, get filankəsin yanına. Dedim, mən səni gözləyirəm, nə filankəs? Mən şirin çay sizinlə içmişəm, mən filankəsin yanına niyə getməliyəm? Sən olan yerdə niyə getməliyəm? Zahidin yanına getmişdim 3-4 gün qabaq, dedi ki, bu işi Arzu həll edəcək.

R.: (Təəcüblə) Arzu həll edəcək?

E.A.: Hə. R.: Arzu niyə həll eləyir?

E.A.: Mən Arzunu gözləyirəm. R: Ba? Bu boyda general? Bəlkəm, Elşad müəllim, Arzu generaldı?

E.A.: Qulaq as

(televizorda Hacı Məmmədovun dəstəsinin zərərsizləşdirilməsindən və souncunun MTN-nin İstintaq təcridxanasında intihar etmək cəhdi bildirilir, Prokurorluğun MTN-ilə birgə bəyanatı oxunulur 24 ya 25 mart 2005-ci il)

R.: Vallah, Elşad müəllim, dəfələrlə Arzu Sizə zəng vurub, telefonu götürmürsən. Bir para arada o düşmən kimi gəzən adamlar səni mənə vurdurdu, məni sənə vurdurdu.

E.A.Üzr istəyirəm (TV gedən məlumatı qulaq asır)

Bir müddətdən sonra

R.: qurban olum, Hacı da bunların adamıdır. Hacı yerdən gəlmişdi?

E.A.: Sakit ol (televizora baxmağa davam edirlər)

R.: Məni həkim gözləyir. Sən mənə konkret sözünü de mənə. Arzu ilə bu gün danışdın. Hə danışdın dana.(Eldənizə müraciət edir) Sən də özünü niyə öldürürsən?

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

E.A.: Bir dayan dana, Qulaq as nə deyir.

Televizorda gedən məlumat müzakirə olunur, Zahid Dünyamalıyevin işdən azad olunması barədə məlumat verilir. Rövşanə deyir ki, Ağa Əliyevi tanımır. Söhbətləri dəqiq başa düşmək olmur.
R.: Müəllim sən sözünü de, bunlar məni maraqlandırmır.
E.A.: Mən dünən Arzu ilə danışdım. Dedim biz səni gözləyirik, sən hara baxırsan?
R.: Mən sağlığıvı görüm. Keçən il nətər Eldəniz sənə telefonumu otboy elədi, götürmədi, mən bir dənə sözümü dedim, qurtardı getdi. Mən indiyə kimi adam oğrusu axtarmışam?
Eldəniz: Sən izahat verməlisən.
R.: Mən getmişəm... Siz Mahirə nə ad qoymusuz?
Eldəniz: Data (ya Mata)
R.: Arzu..
Eldəniz: Arzu ... yeyir.
R.: Eldəniz, sən belə deyirsən. Bax Elşad müəllim. Deyəsən ki, xəbərçilik elədim. Mən də gedəcəm deyəcəm: «Arzu müəllim, deyir pul vermişəm, pulumu istəyirəm.»
Eldəniz: Bəs nədir?
R.: Bax, Eldənizin dediyini deyirəm ha.
E.A.: Əzizim, mən Arzunu gözləyirəm.
Eldəniz.: Səninlə, gətirmisən indi de apar. E.A.:Mənim dədəmin Arzunun dədəsinə borcu yoxdur, nə də ki, mənim Arzuya borcum yoxdur. İndidə o vaxt deyil. Nə o vaxt o məni aldada bilib, nə də ki, bu gün məni aldada bilməz.
R.: Mən bilmirəm, Elşad müəllim, münasibətləriniz necə olub.
E.A.: Münasibət belədir ki, mən (TV baxırlar) burada məsələ belədir ki, Rövşanə xanım, vəziyyət göz qabağındadır.
R.: Siz niyə danışırsınız, camaat bəyəm yerdən zaddan çıxıb.
Eldəniz: Sakit ol.
E.A.: Hər şey göz qabağıdadır. Gəlmişik, etibar eləmişik sənə, qardaş, elə deyil? Mənim sənə dədəmin dədəsinə borcu var? Belə şey olmaz axı.
Eldəniz: (başa düşmək olmur)
E.A.: Sən hüquq elmləri doktoru ilə danışırsan.
R.: Mən Vallah, Elşad müəllim, bu prosesdə olmamışam.
E.A.: Akademiklə danışırsan əzizim. O başa düşmür hüquq elmlər doktoru nədir. O indi başa düşür bu nədir.
R.: Elşad müəllim, mən bu prosesdə olmamışam.
E.A.: O, mənim yanıma çox adam göndərir, çox adamlar salır, gələn adamların hamısı məni tanıyır, münasibətimiz olub. Ay Rövşanə xanım məni... Biz adam oğrusu deyilik, pis adam deyilik, halal adamıq.
Eldəniz Rövşanəyə nəsə deyir (başa düşülmür)
R.: (Eldənizə müraciət edir) Mən Allahı nəzərdə tutub dedim. Dedim ki, Eldəniz sən ki, otboy eləmisən, gör sənin başına nə oyun açacağam.
Eldəniz: Gör nələr gəldi yanıva, gör kimlər gəlir. Gör sizi sökürlər?... dedi ki, cavan qızdır bu adam oğurlusunda iştirak edib.
R: Eldəniz, sən bu sözləri mənə az eşitdir. Nə Rövşanə adam oğurlamayıb. Gəl hardan istəyirsən görüş, o qardaşın, o da sən, o da Arzu..
Rövşanə ilə Eldəniz arasında sözlə mübahisə gedir, yüksək tonla danışıb, qışqırırlar.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

R.: ... Bu nə danışır?

E.A.: Bura bax, birinci onun danışmağa haqqı var onun qardaşını oğurlayıblar. İkincisi Arzunu sən gətirmisən sənə etibar eləmişik.

R.: Ay Elşad müəllim, bu Eldənizi də mən sənin yanına gətirə bilərəm. Mən nə dedim?

E.A.: Sən gətirmisən, sənə etibar eləmişik. Belə qışqırmaq lazım deyil. Qışqırmaqla heç nə olmur.

R.: Qışqırmaqla nə olur? Arzu Amerikaya köçməyib ki, sənin istefa verdiyin adamlardan işi keçir də bu gün. Sən sabah onunla görüşməlisən də. Pri çom Rövşanə xanım?

Eldəniz... gətirmisən, gətir cavab versin.

R.: Mən niyə gətirməliyəm? Arzu ilə qardaşın danışıb (E.Abdullayevə işarə edir) sabah gedib danışsın.

Eldəniz: Sən gətiribsən, sən də cavab verməlisən.

R.: Mən niyə cavab verməliyəm. Özünü yığışdır (Eldənizə deyir).... Mən, Elşad müəllim, başa düşürəm sənin istəyini. Amma Eldənizin danışdığını ... (aydın deyil)..

E.A.: Sənin qardaşını oğurlamayıblar, Eldənizin qardaşını oğurlayıblar.

R.: Mən başa düşürəm Eldənizin qardaşını oğurlayıblar.

E.A.: Eldənizi də oğurlamaq istəyiblər, Elşad müəllimi də oğurlamaq istəyiblər. Axmaq adam başa düşmür ki, özündən ağıllı adamı dolamaq istəyən həmməşə pis vəziyyətə düşür. Axmağlığı da göz qabağındadır.

R.: Elşad müəllim, mən bu gün gəldim sənin xətrini çox istəyirəm.

Bu da (Eldənizə işarə edir) mənə dedi, gəldim. Yenidən Eldənizlə Rövşanə arasında sözlü mübahisə olur.

E.A.: Bu 4 divar arasında əl qol keçmir. Hacını mən tanıyırdım, gəlmişdi bura, öz vizitkasını mənə verdi, göylə gəlirdi ... (Hacı Məmmədovun düşdüyü vəziyyəti misal çəkir)

R.: Kim göylə gedirsə ona denən.

E.A.: Cinayətin var.!

R.: Mənim cinayətim var?!

E.A.: Bəs bu boyda cinayəti eləmisən!

R.: Mən başa düşmürəm, mənim cinayətim var

E.A.: Sən bura bax. Hacı Məmmədov da deyir ki, onun cinayəti yoxdur.

R.: Mən nə qayırmışam. Mən Hacı Məmmədov deyiləm. Arzu müəllimlə telefonla danışmısan, Arzu müəllimlə də həll eləyərsən

Yenidən Eldənizlə Rövşanə arasında sözlü mübahisə olur. Rövşanə qışqırır, yüksək tonla danışdıqları üçün dəqiq sözləri başa düşmək olmur.

E.A.: Az, həyasızlıq eləmə, niyə qışqırırsan. Camaatın başına bu qədər oyun gətirmisiz, bəs camaatın ürəyi yoxdur?

Yazının 18.07-ci dəqiqədə Rövşanə görüntüdən kənara gedir, otağı tərk etmək istəyərkən Eldəniz arxasınca gedir, onu saxlamaq istəyir, E.Abdullayev Eldənizi geri çağırır.

E.A.: (Eldənizə) Elə o idi ona zəng eləyən.

Videoyazı bitir.

2) üzərində «№26 Arzu Kazımovski Şamil Şahkərimov 14.V.2004 12:00 14:00» yazıları olan diskdəki videoyazının müddəti 2 saat 07.28 dəqiqədir. Videoyazı başlandıqda ekranın şaquli 2 hissəyə bölünməsi, hər hissənin eyni vaxt eyni yerdə

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

çəkilməsi müşahidə edilir, lakin elə təsəvvür yaranır ki, sağ və sol hissədə olan yazılar ayrı-ayrı kameralarla çəkilmiş və sonra ekranda birləşdirilmişdir. Videoyazının ilk kadrlarından göründüyü kimi çəkiliş hansısa bir otaqda aparılmış. Otaqda əsas masaya bitişik masa arxasında istintaqa məlum olan Şamil Şahməmmədovun oturması, əsas masa arxasında da səsi eşidilən, lakin görüntüsü görünməyən şəxsin oturması, üçüncü bir şəxsin əsas masaya bitişik masa arxasına Şamil Şahməmmədovla üzbəüz oturması müşahidə edilir. Aparılan söhbətlərin məzmunundan üçüncü şəxsin Arzu Kazımov, əsas masa arxasında oturan şəxsin isə Elşad Abdullayevin olması müəyyən edilmişdir. Hər üç şəxsin arasında dialoqun aparılması müşahidə edilir. Videoyazıda səslənən dialoqun əsas mövzusu və məzmunu Mahir Abdullayevin itkin düşməsi, onun tapılması üçün görülmüş işlər, pul məbləğinin verilməsinə baxmayaraq sonuncunun hələki tapılmaması, qaytarılmamasıdır. Videoyazıda səslənən dialoqdan bir sıra çıxarışlar:

Elşad Abdullayev: Şamil müəllim belə ki, Arzu bizim dostumuzdur, qardaşımızdır. Bizim Mahirin məsələsinə köməklik edən adamdır. ...Şamil müəllimdə Mahirin qaynatasıdır.

Şamil Şahməmmədov: Dünən 7 ay tamam oldu, bu gün 8 aya keçdi... Köməklik nədən ibarətdir.

Arzu Kazımov: ... Burda elə incə məsələlərlə bağlıdır ki, burda adicə Mahirin sağlamlığından, ... xələl yetirməməkdən gedir ... Burda demək olar ki hər gün Zahid müəllimlə görüşürük ...elə incə məsələlər var ki, bunu qabartmaq qeyri-mümkündür. ...bu məsələ üç-dörd nəfərin içərisindədir.

Elşad Abdullayev: Vot-votdadı şamil müəllim, Allaha and olsun. ...Zahid müəllim deyir ki, mən onu qardaşım kimi axtarıram.

Arzu Kazımov: Bu işi biz birinci dəfə gedib deyəndə, Zahid müəllim belə tərəddüd elədi, ya burda o qədər qəliz ... dezinformasiyadı, ya doğurdan elə həqiqətə uyğundur ... məsələn onlar da qaldılar məhəttəl... Burda bu incə məsələ nədir, nəyin üzərindədir. Aparırlar ya pul üstündə, ya namus üstündə. ...adam oğurluğu olanda iki gündən sonra zəng vurub pul istəyirlər, burda pul istəməyiblər, başqa məsələlər yoxlanılıb, ...o da yoxdur, burda bir məsələ var özü gedi, özü qayıdıb. ... məsələ maraqlıdır ki, əgər gedibqayıdıbsa onda bunu... deyirlər ki, Şixova gedib... posta dayananlar

Şamil Şahməmmədov: ...mən sizə təmkinlə qulaq asıram, amma məntiq görmürəm sizin danışığınızda. ...7 aydır mən bunlar (əl ilə işarə Elşad Abdullayevin oturduğu istiqamətə) mənim başıma oyun açırlar sabah gələcək, bürüsügün gələcək, ...danışmışıq iki günə gələcək, beş günə gələcək... Siz (Arzu Kazımova) bu işə qoşulmusuz... yaxşı Zahid müəllim qoşulub...

Arzu Kazımov: Mən bu kişinin (Elşad Abdullayev) dostuyam

Şamil Şahməmmədov: Yaxşı qoşulmusuz niyə nəticə yoxdur

Elşad Abdullayev: Şamil müəllim olacaq...

Şamil Şahməmmədov: ...nə vaxt yaxşı olacaq

Elşad Abdullayev: ... sən Mahiri məndən istə də, mən gətirəcəm ... qardaşım dööl mən gətirəcəm

Şamil Şahməmmədov: ...mən bunun (Arzu Kazımov) sözlərindən başa düşdüm ki, ortada bir şey yoxdur...axtarırıq... bilinmir ki bu adam ölübdür, yoxsa sağdır ... bir kəlmə desinki o sağdı, məndə bilim ki sağdır... yoxdu axı bu söhbət. Bilirsən mən bura dava etməyə gəlməmişəm... amma bilməliyəm ki bu vəziyyət nə yerdədir

Arzu Kazımov: ... Zahid müəllim dəfələrlə Elşada da deyib ki, sənin qardaşın sağdır, sağ-salamatda sənə verəcəyik

Şamil Şahməmmədov: ...mənim Sizin (Arzu Kazımov) haqqınızda tam təsəvvürüm var, kimsiniz, nəçisiniz, hansı deputatın oğlusunuz, öz oğlunuz kimdir, indiyə qədər nəynən məşğul olmusunuz, indi nəynən... hamısını mən bilirəm... İndi mən konkret olaraq bilməy istəyirəm Sizin rolunuz, bizə köməkliyiniz nədən ibarət olacaq... yox yoxdursa kömək, mən onu da bilim. ...mən hara getmək istəyirəm, məni qoymursuz (Abdullayevlər) ki, Mahirin işinə xələl gələr

Elşad Abdullayev: ...vallah az qalıb

Arzu Kazımov: Elşad müəllim qoy hara istəyir getsin

Elşad Abdullayev: ...bir az səbr elə, Mahiri bizdən istə də

Arzu Kazımov: ...mənim rolum ondan ibarətdir ki, əlaqələrimdən istifadə edib hara lazımdır gedim... Mahir sağdır... Zahid müəllim deyib ...hamımızın ağsaqqalı Zahid müəllimdir

Elşad Abdullayev: ...işin başında Zahid müəllimdir.

Şamil Şahməmmədov: ... mənə hər dəfə deyirsiz ki, sağdır, bir günə, iki günə, məndən istə. Bu sözləri nəyə əsasən deyirsiz

Elşad Abdullayev: ...vallah Zahid müəllim nə deyibsə məndə onu sizə deyirəm.

Arzu Kazımov: Elşada müraciət edərək gəl danışaq yığışaq gedək oturaq yanında deyək bu nədi bu nədi

Şamil Şahməmmədov: Siz (Arzu Kazımov) Elşada müraciət etmisiniz ki, mən taparam ... müraciət etmisiniz ya yox... nəyə güvənib müraciət etmisiniz

Arzu Kazımov: ...mən Zahid müəllimə güvənib müraciət etmişəm... Elşad mənə müraciət edib ki köməklik elə məndə köməklik edirəm

Elşad Abdullayev:... Arzu müəllimin gücünə, Zahid müəllimin gücünə qurtaracağıq bu məsələni

Arzu Kazımov: ...mən gedib adam axtaran deyiləm... mən Elşadın dostiu kimi bu məsələyə qoşulmuşam

Elşad Abdullayev: Şamil müəllimdə Arzu müəllim, canında qoyub malında qoyub mülkündə qoyub

Şamil Şahməmmədov: ...mən camaata borclu düşmüşəm... nəyim var qoymuşam ortalığa ...day mənim bir şeyim yoxdur

Elşad Abdullayev: ...vallah sağ-salamatdır, gəlib çıxacaq...

Arzu Kazımov: ...bunu Zahid müəllimdə deyib mənim yanımda

Elşad Abdullayev: ...Zahid müəllim mənə deyib ki 100% ha, 99% yox, salamatçılıqdır, arxayın ol...

Arzu Kazımov: ...Elşad müəllim gəl danışaq sabah gedək Zahid müəllimin yanına

Elşad Abdullayev: ...gəl danışaq bu gün gedək

Arzu Kazımov: ... bu gün Zahid müəllimin bacısının qızının ilidir

Şamil Şahməmmədov: ...ay kişi başa düşmək lazımdır ki, mən səhv addım ata bilmərəm. ...mən bu saat iş bu yerə çıxanda ora getsəm o Mahiri öldürə bilərlər izi itirmək üçün...

Arzu Kazımov: ... mən Zahid müəllimə deyə bilmərəm ki, siz nə edirsinizsə mənə otçot verin ...onlar üçün Mahir hər şey aydındır yığıblar bir yerə ... bəlkəmdə komanda gözləyirlər onudakı bü gün verərlər, sabah verərlər ... uşaqlar deyirlər ki biz komanda gözləyirik

Şamil Şahməmmədov: ...mən nə lazımdır mənim tərəfimdən eləmişəm, sən də (Elşad üçün) eləmisən ...əgər o aparan adam məlum deyilsə o ( pula işarə) nəyə görə qabaqcadan alınıb ...burda məntiq var e, əgər sizə də, sizə də məlum deyilsə bunu kim

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

eləyib, ...bunun məbləği nə qədərdir, nə qədər istəyirlər...bu (yenədə pula işarə) niyə qabaqcadan olub

Arzu Kazımov: ... o pul dəstənin müəyyən adamlarını ələ almaq üçün ...ona əl vurulmayıb ...səhər deyirlərsə səhər ...orda Elşadın bir manatına dəyilə bilməz ...yəni o mənada ki bu gün lazım olsa həll edib qurtarsınlar Elşad Abdullayev: Allaha and olsun vermişik

Şamil Şahməmmədov: ...qabaqcadan pulu vermisiniz. Demək məlumdur ki bu kimdir ...kimdirsə kim döyülsə bu pulu niyə alır ...bunları Zahid müəllimə demək lazım deyil onu pul məsələsinə qatmaq lazım deyil. O elə kişilərdən döyül.... apran adam niyə vermir. Əgər gözləyirsə üstünə bir şey gələcək mənim heç nəyim yoxdur

Elşad Abdullayev: Allaha and olsun nə deyilib vermişik ... ondan sonra Arzu müəllimdə burdadır bir təklif zad gəlməyib ki ...nə sə əlavə bir şey ...əlavə...olsa deyərdilər məndə Sizə deyərdim ki köməklik edin

Arzu Kazımov: ... Şamil müəllim arada elə məsələ çıxacaq ki, heç adamın ağlına belə gəlməz ...Şamil müəllim Siz necə fikirləşirsiniz bunu niyə aparıblar Şamil Şahməmmədov: Mən fikirləşirəm ki aparıblar ki pul alsınlar Arzu Kazımov: Axı pul istəməyiblər

Elşad Abdullayev: Pul istəməyiblərsə (çevrilir Elşad tərəfə) pulu kimə vermisən, niyə vermisən?

Şamil Şahməmmədov: ... bu qədər uzatmaqlarının məqsədi nədir, məntiqlə belə çıxır ki, əlavə pul istəyirlər, məndə də o pul yoxdur

Arzu Kazımov: Şamil müəllim Allaha and olsun ...nə olubsa odur, orada əlavə söhbət yoxdur ...əlavə pul söbəti olmayıb ...mən Elşada da demişəm orada pula əldə vurmayıblar...deyiblər ki bir manat üstündən xərcləsik deyərsən ki pula görə edibsiz...deyiblər ki adamları əla almaq üçün lazım gəlsə verəcəklər

Şamil Şahməmmədov: Yani Siz deyirsiniz ki Daxili işlər nazirinin birinci müavini pulu götürüb adam oğurluğu ilə məşğul olan adamlara götürüb pul verəcək ...Zahid müəllim mənə deməyib ki, sağdır. Mənə dedi ki, axtarırıq harasa gedib çıxacağıq.

Elşad Abdullayev: ...Şamil müəllim elə bilin ki, Siz elədiyinizin üstünə mən üç dəfə artıq qoyub eləmişəm

Arzu Kazımov: ...Mahirin mənə yaxşılığı keçib, qızımı bura qəbul elətdiriblər, burda oxuyub ... deyərəm ki bütün oğruları tanıyıram ...hamısı ilə Elşad gedib görüşüb niyə qorxuruq ki

Elşad Abdullayev: Bu gün yeddi ay bir gündür ...sağdır ...məndə Zahid müəllimin sözü əsasında deyirəm

Arzu Kazımov: Bu işlə (Mahirin) bir-birindən məlumatlı olmayan üç qrup işləyir. Mən görürəm ki, sizə də mənim barəmdə düz informasiya vermirlər.

Yazının 1 saat 31.17-ci dəqiqədə Eldaş Abdullayev və Arzu Kazımov Şamil Şahməmmədovu yola salırlar vidalaşıllar. Ş.Şahməmmədovu ötürdükdən sonra A.Kazımov və E.Abdullayev masa arxasına qayıdırlar və söhbəti davam etdirilər:

Arzu Kazımov:... Mənim nəyimə lazımdır desin mən pul almışam, aparmışam... lazım deyil hamısı pulları gətirib qoyacağam. Lazım deyil, 1 manatı da. Mənimlə özün biləcəksən nə verərsən. Nə eləmişəm uşaqlara, nəsə qardaşım, halal eləyirəm Mahirə. Mənə lazım deyil. Mən bu niyyətlə, nəyimə lazımdır, gəlsin desin pul vermişəm sənə.

Elşad Abdullayev: Onun bu vəziyyətdə bir oğlunun evi var, desən ver, verəcək.

Arzu Kazımov: Mən bunu demirəm, Elşad, sən axı işin içindəsən.

Elşad Abdullayev: Biz bu probelmin içindəyik. 7 aydır.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Arzu Kazımov: mən səninlə bərabər, hər üzündə.

Elşad Abdullayev:...(başa düşülmür) Bu da mənə kömək edib, Amma bu filan qədər deyil ki.

Arzu Kazımov: Mən səninlə kişi söhbəti eləmişəm.

Elşad Abdullayev: Kişi söhbəti.

Arzu Kazımov: Sən bu birincini gətirəndə dedin ... (eşidilmir) ikincini gətirəndə dedin ki, ikimizin arasında olan söhbətdir.

Elşad Abdullayev: onun bu barədə söhbət getməyib.

Arzu Kazımov:... (başa düşülmür) 500 min verirəm özünə apar ver özünə.

Elşad Abdullayev: 500 min hamısı Şamil müəllimin deyil ki, Şamil müəlliminki azdır. Şamilinki orada 180 mindir.

Arzu Kazımov: Apar ver özünə denən ki, mən sənin bir manatına göz tiksəm, balalarım ölsün. Mən, özün bilirsən, mənim oradan 5-4 manatım olubsa., mənə, heç lazım deyil. Pul alıblar nə məqsədlə. Mən sənə açıq deyim ... (başadüşülmür) dəstəsi ... bu gün oraya girə bilmirlər. Bu gün bunları belə saxlayırlar (əllərinin barmağlarını birləşdirərək sıxır)

Elşad Abdullayev: Mən nə eləyim, 7 aydır.

Arzu Kazımov: Mən səninlə razıyam.

Elşad Abdullayev: İndi Zahid, əvvəl məsələni qoymuşdur 2 gün... Sənə baxma, qardaşsan... Arzu müəlli, biz dostuq. Bu pulunun adı çəkən namərddir. Söhbət nədən gedir. Biz pul vermişik Mahir üçün.

Arzu Kazımov: Mən sənə başqa şey demirəm.

Elşad Abdullayev: Oğluna görə gəlmişdi də.

Arzu Kazımov: Axı mən sənə başqa çöz demirəm. Sən bu işi bilirsən. Mən də sənə bu işin əvvəlində dedim ki...

Elşad Abdullayev: (dəqiq başa düşülmür) ... sənə qurban olum, bir dənə Rövşanənin telefonuna de ki, ... bu məsələ yuxarıya gedir. Jurnalist adamdır, təmiz adamdır.

Arzu Kazımov: Mən hiss elədim, gözəl adamdı.

Elşad Abdullayev: Bizə baxma biz əlinin papağını vəlini başına qoyuruq. Ordan pul qazanırıq, burdan pul qazanırıq. Özü də iki oğlu var, amma onu marağlandıran Mahirdi. Mahir gəlsin. Çünki, oğlanlardan 1 qəpik xeyir görməyib. Mahir kimi adamdan kim narazı qalar? Bu tikdiyi bağı satdı, mənim də xəbərim olmayıb. Heç mən ondan pul götürərəm?

Arzu Kazımov: Mən sənə bir söz deyim, Elşad. Həyatda bilirsən nətərdi... mən sənə istəmirəm deyim pul söhbətləri çıxıbdı. Bu söhbəti də bilirəm.

Elşad Abdullayev: Əlavə söhbət varsa, bəlkə (200 min) onu eləyək.

Arzu Kazımov: A, sən mənim qardaşımsan

Elşad Abdullayev: Qardaş söhbəti eləyirik də.

Arzu Kazımov: ... Elə məsələ olsa, çəkinmirəm ki, açıq danışaram. Deyərəm ki, 500 min ver həll elə.

Elşad Abdullayev: Nə yazdına, bunu da elədim. Əgər ehtiyac var, yenə eləyim. Arzu Kazımov: qulaq as, sənə bir söz deyim...

Elşad Abdullayev: Amma bu özü də bilir ki, (işarə edir oturduğu oturacağa, harda ki, əvvəl Ş.Şahməmmədov əyləşib) bu iş 100-lə, 200-lə həll olunan deyil.

Arzu Kazımov: Ə, bunu demək lazım deyil.

Elşad Abdullayev: Bir dəqiqə də, əvvəla təmiz adamdır.

Arzu Kazımov: Bu saatlarım bizə deyəcək ki, .. pul alıblar.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Elşad Abdullayev: qulaq as, biz həyat akademikik o başqa. Biz yerlə gedirik, bunlar göylə gedirlər.

Arzu Kazımov: Mən hər şeyi başa düşürəm. Bu deyir ki, Prezidentə qədər...

Elşad Abdullayev: Mən buna başa sala bilmirəm ki, Prezidentə getsə yenə Zahid müəllimdən asılı olacaq.

Arzu Kazımov: Bütün Azərbaycanın ölüm işlərini Zahid müəllim aparır. Mənə deyir ki, Prezidentə deyəcəm. Prezident də Ramilə deyəcək, Ramil də bütün günü gözləyir Zahid müəllim ona nə deyəcək Zahid müəllimlikdir də. Zahid müəllim bilir bu işi. Zahid müəllim bu işi səmimi görür. Mən görsəm ki, kimsə başqa söz deyir, gedib deyərəm ki, başqa cürdü.

Elşad Abdullayev: Bu böyük faciədir.

Arzu Kazımov: Çox böyük faciədir. Arzu Kazımov telefonla danışır.

Arzu Kazımov: Kişi ağıllı kişidir. Bilir hara getsə Mahiri... Bunlar məsələnin bir tərəfini eləmirlər ki, belə şey yaransın, zəng eləsinlər, pulu gətirin götürün .. (başa düşülmür)

A.Kazımov və E.Abdullayev məsələnin sülh yolu ilə həll olunması barədə qərarlaşma barədə danışırlar.

Elşad Abdullayev: Mən sənsiz gedərəm, Sənanı qoyaram baltanı qoluna deyərəm, demirsən onu kəsərəm, demirsən qulağını kəsərəm. Olmur axı o.

Arzu Kazımov: Söhbət ondan gedir ki, ... (başa düşülmür) iki başlı oyundur.... Bu məsələnin ucu hardandır, bir sən bilirsən, bir də Allah. Görürsən Şamil də deyib, bu məsələ bilinsə sənə də pis olar.

Elşad Abdullayev: Əsgərin oğlunu azad edilməsi üçün polis rəislərinin pul yığdığlarını söhləyir) 2000 dollar pul aldı Zaqatala rəisi. Mən öz qohumumun azad edilməsi üçün pul verirəm. Bu kişi başa düşmür ki, bu iş hüquqla, generallıqla deyil.

Arzu Kazımov: Bu kişi elə fikirləşir ki, polisin əli var, polisə pul aparıb vermisiz.

Elşad Abdullayev: Mən şəxsən elə fikirləşirəm ki, sən burdan bir kitab oğurlasan, polis səni tutar. Polislə bunun bağlılığı olmasa.

Arzu Kazımov: Olsa deyərlər

Elşad Abdullayev: Yəni kimsə bu (çiyinlərini göstərir) professional adam olub.

Arzu Kazımov: O da ola bilər. Görürsən sən fikirləşdin ki, burada Aqil Əliyevin əli ola bilər, bunların nə marağı var burada?

Elşad Abdullayev: Bu adamlar... Amierika kinosu var orada 99% adam oğurluğlarını polkovnik ya general eləyir. Otstavkada olan general ya polkovnik. Bu da onların işidir. Niyə görə onların işidir? Çünki, biz hamını tanıyırıq, bizi da hamı tanıyır, salaməleykimiz var, çörək yemişik, çörək vermişik, çörək almışıq. Bakıda 10 nəfərdən biri bizdən yararlanır. Yerin altını 41 eşələmişik. Yəni bunu elə professional eləyib ki, səsi çıxmır.

Arzu Kazımov: Bunlar deyir ki, biz hələ belə qurumsaq işə rast gəlməmişik.

Elşad Abdullayev: Professional adamdır da.

Arzu Kazımov: (əllərini qaldırır göyə) elə biz belə iş görməmişik. Sən onu fikirləş.

Elşad Abdullayev: Sənə pis təsir eləməsin... (birgə danışırlar, başa düşmək olmur)

Arzu Kazımov: Bu gün görürsən bu mənimlə elə danışır ki,...

Elşad Abdullayev: Bu adam necə Heydər Əliyevin vaxtında olubsa elədir. (Ş.Şahməmmədov barədə danışır, onu tərifləyir) bir dənə bağ yeri olub, onu da satıb. Heç istəməmişəm, özü gətirib verib. Ağır yükdür, çox ağır yükdür.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Arzu Kazımov: Bilirəm ağır yükdür. Mən sənə başqa şey deyirəm. Sən elə fikirləşirsən söhbət puldan gedir. Söhbət puldan getmir ki. Məsələni də şişirtmək lazım deyil. Özün görmədin kişi dedi məndən çox Elşada pis olacaq. O hədə qorxusuz gəlməyib (gəlib)

Elşad Abdullayev: Məsələ belədir (ağzına əli ilə çəkib susmaq barədə işarə verir) Burada məsələ nədir, iş həll olunsun, (hansısa işi danışır, işdən heç bir səsin çıxmadığını deyir)

Arzu Kazımov: Elşad, ola bilər Şamil belə fikirləşir, hər halda Sən biznesin, bu işin içindəsən. Bu olsa ...

Elşad Abdullayev: Sənin o ... qardaşın var, Allaha and olsun, o qədər iş görmüşük (yenə də susmaq işarəsini edir) mən bilirəm, o bilir. Eşitmisən mənim barəmdə?

Arzu Kazımov: Mənə deyir, yaxşı, sənin nəyə görə bu işdə marağın var?

Elşad Abdullayev: Biz dostuq, mən sənə inanmışam.

Arzu Kazımov: Mənim məsələm deyil, Elşad. Mən uzağ vaşı nədir, cərimıəni... Vermisən 5 manat, səninlə 2-cisini danışmışam. Bu gün lazım olsa çıxardıram işdən qoyuram. Kişi söhbəti eləyirik. Mən də səninlə kişi söhbəti eləmişəm. Bu biri pul oradadır. Bu gün gedib deyirəm, gələn həftə pul gətirin. Gətirim verim sənə. Mənim sənə qarşı bir başqa şeyim yoxdur ki sənə?

Elşad Abdullayev: O pul getmir yerə, o pul verilib ki, işi düzəldək. Mən kişi ilə iş görmüşəm.

Arzu Kazımov: Ay Elşad, Qurban olum sənə, Sənin nə marağın var ki, deyir sən bu işə şey eləmisən?

Elşad Abdullayev: Sən mənin qardaşımsanq, dedik də.

Arzu Kazımov: Mən gedib oğrularla da söhbət eləmişəm, niyə qorxuram ki. Bu elə fikirləşir ki, .. sənin oğrularla əlaqən var.

Elşad Abdullayev: Mən də Bakının bütün oğurlarını tanımışam. Bir dənə tanımamışam, amma Mahirin məsələsindən sonra hamısını tanıyıram. Salaməleyküm var.

Arzu Kazımov: Gördün ki, bunlarlıq deyil.

Elşad Abdullayev: (TV gedən veriliş haqqında danışır.)

Arzu Kazımov: Hamısına deyilib. Dünən bir adam var idi... bəlkə filankəsdir... başqa cür çıxar... Dedi Arzu mənim onunla nə işim var? Dedim, elə bil ki, mən sizdən söz soruşuram.

Birgə Ş.Şahməmədovun tərifləyir, hansısa 75 yaşlı kişi barədə söhbət edirlər.

Arzu Kazımov: Gedim Zahid müəllimə nə deyim?

Elşad Abdullayev: Ged yapış da ondan.

Arzu Kazımov: Yalvarıram.

Elşad Abdullayev: Denən, Elşad müəllimə kömək elə bu işdə. Kiminlə düşmənçilik eləmişik? Kimə pislik eləmişik? Denən, işi çəksin qabağa. Əlavə nə lazımdırsa eləyək.

Arzu Kazımov: Elə bir şey olsa deyərəm. Bizim aramızda səmimiyyət var. Mən səndən gizlətmirəm ki, çəkinmirəm. Mən deyəndə, mən dedim, Elşad bu qədər.

Elşad Abdullayev: Eləmişəm, mən də ona namyok eləmişəm, özü 180 min gətirib. Sonra mənə deyib ki, bağı satmışam.

Yenə də Ş.Şahməmmədovu tərifləyirlər

Elşad Abdullayev: Mənim böyük bacımın yoldaşı var, kömək eləməyib. Başqa bacımın yoldaşı var - bu işdə mənə kömək eləyib. Bütün qardaşlarım hamısı. Mahirin 2-3 yaxın dostu var kömək eləyiblər. Axşam Qəbələdən bir oğlan var, zəng eləyib, 700

borcum var, nə vaxt deyirsiz gətirib verərəm. Mahirin dostudur, mənim dostup deyil. Hüseyn mənə zəng eləmişdi, kömək lazımdırsa de.

Təkrar qohumlar haqqında danışılır, Ş.Şahməmmədov haqqında söhbət edirlər.

Arzu Kazımov: Elşad, onlar ora girə bilmirlər. Orada elədir (yenidən əllərinin barmağlarını birləşdirib sıxır) gedib oraya pul verib məsələni həll edərdik.

Elşad Abdullayev: Zahid müəllimin bilmədiyi şey ola bilməz. Deməsin.

Arzu Kazımov: Mahirə ora qarantiya versinlər

Elşad Abdullayev: Əlavə nə lazımdır eləsinlər.

Cinayət işinin materiallarında olan Məhkəmə-fonoskopik ekspertizasının 25 fevral 2013-cü il tarixli 19447 nömrəli rəyindən görünür ki, ekspertizaya təqdim olunmuş 01 ədəd üzərində «№26 Arzu Kazımovski Şamil Şahkərimov 14.V.2004 12:00 14:00» yazıları olan zərfin içərisinə qoyulmuş “Verbatim” markalı DVD-R diskə yazılmış mübahisəli fonoqramdakı danışığın rəyin tədqiqi hissəsində verilmiş yazılı mətnində K3 kimi işarə olunmuş kişi diktorunun səsi və nitqi - Kazımov Arzu Firudin oğluna məxsusdur.

Cinayət işinin materiallarında olan məhkəmə-portret ekspertizasının 13 dekabr 2012-ci il tarixli 19449 nömrəli rəyindən görünür ki, tədqiqata təqdim edilmiş üzərində «19 №26 Arzu Kazımovski Şamil Şahməmmədov 14.V.2004» yazıları olan zərfin içərisinə qoyulmuş diskdə əks olunmuş 04:30-32-ci saniyələrdə gələrək stol ətrafında əyləşən kişi cinsli şəxsin video görüntülərində və video görüntülərindən çıxarılmış fotoşəkillərdə əks olunmuş bir sıra xarici görünüş elementlərinin xüsusiyyətləri və əlamətləri eyniləşdirmə tədqiqatı üçün yararlıdır, video görüntülərində, video görüntülərindən çıxarılmış fotoşəkillərdə, Kazımov Arzu Firudin oğlunun eksperimental video çəkilişində və video çəkilişindən çıxarılmış fotokşəkillərində eyni bir şəxs əks olunmuşdur.

Cinayət işinin materiallarında olan məhkəmə-əmtəəşünaslıq və tikinti-texniki ekspertizasının 05 aprel 2013-cü il tarixli 5666 nömrəli rəyindən görünür ki, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz əmlakın dövlət reyestri xidmətinin Bakı şəhər Ərazi idarəsi ilə «Ekspert Audit» MMC arasında bağlanmış müqaviləyə əsasən tərtib edilmiş rəyin nəticələrini nəzərə alaraq, 2005-cı ilin aprel ayı tarixinə Bakı şəhəri, Sabunçu rayonu, Yeni Ramana qəsəbəsinin şimal qərbində yerləşən 2 ha torpaq sahəsinin və onun üzərində mövcud olan tikililərin ümumilikdə təxmini bazar dəyəri 307.000 manat məbləğində müəyyən edilmişdir. Qeyd edilənlər rəyləri nəzərə alaraq, 2013-cü ilin mart ayı tarixinə Bakı şəhəri, Sabunçu rayonu, Yeni Ramana qəsəbəsinin şimal qərbində yerləşən 2 ha torpaq sahəsinin və onun üzərində mövcud olan tikililərin ümumilikdə təxmini bazar dəyəri 384.000 manat məbləği təşkil edir.

Cinayət işinə əlavə edilmiş 27.12.2003-cü il tarixli müqavilədə qeyd olunur ki, Hüseyinov Sabir Əmir oğlu «İnşaat 2002» şirkətinin inşa etdiyi, dəyəri 500 000 (beş yüz min) ABŞ dolları olan mənzilin alınması üçün «İnşaat 2002» şirkətinin rəhbəri Kazımov Arzu Firudin oğluna 500 000 (beş yüz min ) ABŞ dolları məbləğində pul vermişdir.

Cinayət işinə əlavə edilmiş 05.03.2004-cü il tarixli müqavilədə qeyd olunur ki, “ERA” ATSC-nin rəhbəri-Abdullayev Elşad İslam oğlu “İnşaat 2002” şirkətinin Bakı şəhəri Nərimanov rayonunda inşa etdiyi, ümumi dəyəri 1. 000. 000 (bir milyon ) ABŞ dolları olan 50 ədəd mənzilin alınması üçün “İnşaat 2002” şirkətinin rəhbəri Kazımov

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Arzu Firudin oğluna, şirkət üzvlərinin şəxsi vəsaiti olan, 1. 000.000 (bir milyon) ABŞ dolları məbləğində pul vermişdir

Cinayət işinə əlavə edilmiş 09.04.2005-ci il tarixli müqavilədə qeyd olunur ki, Arzu Kazımovla Nizami Kazımov razılığa gəlirlər ki, onların arasında olan qohumluq (qardaşlıq) münasibətlərinə görə Arzu Kazımovun Elşad Abdullayev və Sabir Hüseyinovun qarşısında olan cəmi 1.500.000 (bir milyon beş yüz min) ABŞ dolları məbləğində öhədəliklərini Nizami Kazımov özünün xüsusi mülkiyyətində olan hüquqi şəxsin Hüseyn Mustafa oğlu Əhmədovun xüsusi mülkiyyətinə verilməsi yolu ilə əvəzləşdirəcəkdir.

Cinayət işinin materiallarında olan məhkəmə-xətşünaslıq ekspertizasının 15 fevral 2013-cü il tarixli 1898 №-li rəyindən görünür ki, ekspertizaya təqdim olunmuş 27 dekabr 2003-cü il tarixli müqavilədə «1.1»-ci qrafada yerləşən «Pasport XVII-JQ № 673915 09.XII.82 ildən Binəqədi (Kirov) RDİŞ tərəfindən verilib» əlyazmaları; 05.03.2004-cü il tarixli müqavilədə «1.1 »-ci qrafada yerləşən «Pasport, VII-JQ № 691591» əlyazmaları və «1.2»-ci qrafada yerləşən «Pasport, XXVI-JQ № 640452» əlyazmaları; 05 mart 2004-cü il tarixli müqavilədə «imzalar: 1.«ERA» ATSC-nin rəhbəri» qrafasında «Abdullayev E.İ.» yazıları qarşısındakı imza; 09 aprel 2005-ci il tarixli müqavilədə «4.1.Birinci tərəf: İmzası:» qrafasındakı imza və «Abdullayev E.İ.» yazısı Abdullayev Elşad islam oğlu tərəfindən icra olunmuşdur:

- ekspertizaya təqdim olunmuş 27 dekabr 2003-cü il tarixli müqavilədə «imzalar» qrafasında «2.Kazımov Arzu Firudin oğlu» sözlərinin qarşısındakı imza; 05 mart 2004-cü il tarixli müqavilədə «imzalar 2.«inşaat-2002 şirkətinin rəhbəri» qrafasında «Kazımov A.F.» sözlərinin qarşısındakı imza; 09 aprel 2005-ci il tarixli müqavilədə «4.3.Üçüncü tərəf:» qrafasındakı imza və «Kazımov» yazısı - Kazımov Arzu Firudin oğlu tərəfindən icra olunmuşdur:

- ekspertizaya təqdim olunmuş 09 aprel 2005-ci il tarixli müqavilədə «4.4.Dördüncü tərəf:» qrafasındakı imza və «Əhmədov» yazısı Əhmədov Hüseyn Mustafa oğlu tərəfindən icra olunmuşdur:

- ekspertizaya təqdim olunmuş 09 aprel 2005-ci il tarixli müqavilədə «4.5.Beşinci tərəf:» qrafasındakı imza və «Kazımov N.F.» yazısı Kazımov Nizami Firudin oğlu tərəfindən icra olunmuşdur:

- ekspertizaya təqdim olunmuş 27 dekabr 2003-cü il tarixli müqavilədə «Imzalar» qrafasında «1.Hüseynov Sabir Əmir oğlu» sözlərinin qarşısındakı imza; 09 aprel 2005-ci il tarixli müqavilədə «4.2.ikinci tərəf:» qrafasındakı imza və «Hüseynov» yazısı Hüseynov Sabir Əmir oğlu tərəfindən icra olunmuşdur:

Cinayət işinin materiallarında olan Məhkəmə-texniki ekspertizasının 25 fevral 2013- cü il tarixli 1899 nömrəli rəyindən görünür ki, tədqiqata təqdim edilmiş 27 dekabr 2003-cü il tarixli və 05 mart 2004-cü il tarixli müqavilələrin üzərindəki möhür əksi relyef klişedən sənəd üzərinə birbaşa vurulmuşdur. Qeyd edilən müqavilələrin üzərindəki möhür əkslərinin ekspertizaya təqdim edilmiş «ERA» ATSC-nə və «inşaat Servis 2002» Mənziltikinti kooperativinə məxsus möhürlərin eksperimental əks nümunələri ilə eynilik təşkil edirlər.

Cinayət işinin materiallarında olan Bakı Ağır Cinayətlər Məhkəməsinin qanuni qüvvəyə minmiş 1(101)-962/2013 saylı 02.12.2013-cü il tarixli hökmü ilə Gülər Əhmədova ABU-nun rektoru Elşad Abdullayevin millət vəkili seçilməsinə nail olmaq üçün vəzifəli şəxslərə çatdırması məqsədi ilə verdiyi 918.950 manat məbləğində külli miqdarda rüşvəti aldatma yolu ilə ələ keçirdiyinə görə Azərbaycan Respublikası CM-nin

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

178.3.2 və 307.2-ci maddələri ilə təqsirli hesab edilmiş və 03 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

Cinayət işinin materiallarında olan Gülər Əhmədovadan götürülmüş 01 ədəd diskə baxış keçirilməsi haqqında 11 iyun 2013-cü il tarixli protokoldan görünür ki, baxış keçirilmişdir. Gülər Əhmədovanın skype proqramında məxfi "n.g.patrusheva" loginli ad altında, köməkçisi olmuş Əhməd Şahidovun məxfi "d.i.sobolevDmitriy İvanoviç Sobolev" skype logini arasında danışıqları və iş üçün əhəmiyyət kəsb edən yazışmaları müəyyən edilmişdir. Gülər Əhmədova 02.11.2012-ci il tarixli "skype" görüşməsində Ə.Şahidova "Bu qeder xeyirxah ish gormushem, etrafimdan dostlarim qacib ay kishi" yazmış, Əhməd Şahidov ona "sen ozuvu zeif gosterende, hec kim sene yaxin durmaq istemeyecek" cavabını vermiş, Gülər Əhmədova 07.12.2012-ci il tarixli "skype" görüşməsində Ə.Şahidova "2005 de neyladim ki?)))))" yazır, Əhməd Şahidov ona "mandativin elden getmesine sebeb olacaq davranis eledin" cavabını vermişdir. Əhməd Şahidovun 02.11.2012-ci il tarixdə saat 01:55:48-dən, 02:05:27-yə kimi Gülər Əhmədovaya "xeyanet deyendeki durub seni mudafie edesi deyildi ki", "ortada tekzibolunmaz video var", "sen oz sehhetinden cox vezifeni zadi dusunursen", "el ile gelen derd toy bayram olar", "evvel narahat idin ki, ay meni hebs elemesinler, ay ne bilim balalarima deymesinler, indi baslamisan ki, yazmasinlar", "tutub basmayiblar kı seni?", "vsyo da, rahat yasa da", "cix heyata bax", "dincel", "istirahət ele", "idman ele", "sen pis bir is gormemisen", "siyasetdir, blatnoy hereket elemisen vesselam" "skype" mesajları, 15.12.2012-ci il tarixdə saat 01:26:01-dən, 01:28:02-yə kimi Gülər Əhmədovaya "senin etdiklerin adi şeydir menimcun", "senden qat qat agir cinayet edib azadliqda gezenler var", "men seni etdiyin herekete gore yox", "danisdigin menasiz sozlere gore qinayiram", "ozuvu de gunahsiz kimi gosterme", "en azindan mene", "senin danisdiqlarin senin dilinden deyilenlerdir oten videolarda", "o yetərlidir!", "sevinci qoy bir kenara" və "senin ozuvun danisdiqlari beşdir ki senin ustunden xett cekmeye" məzmunlu mesajlar göndərmişdir.

Cinayət işinin materiallarında olan elektron-maqnit daşıyıcı olan diskdəki məlumatlara baxış keçirilməsi haqqında baxış protokolundan və protokola əlavə edilmiş çıxarışlardan görünür ki, 26.09.2012-ci il tarixdə saat 03:08, 03:13, 03:22 və 03:24-də Gülər Əhmədovanın oğlu Toğrul Əhmədovun dostu Rüfət Hüseynova məxsus 0552192949 nömrədən Sevinc Babayevanın istifadəsində olmuş 0554650144 nömrəsinə zənglər edilərək 89, 37, 23 və 13 saniyə danışıq olmuşdur ki, bu da iş üzrə şahid qismində dindirilmiş Rüfət Hüseynovun 26.09.2012-ci il tarixdə Sevinc Babayevaya bilet aldığını təsdiq etmişdir.

Cinayət işinin materiallarında olan elektron-maqnit daşıyıcısına baxış keçirilməsi haqqında 08 fevral 2013-cü il tarixli protokolundan və protokola əlavə edilmiş çıxarışlardan görünür ki, baxış 0553095201 və 0552192949 abonent nömrələri ilə bağlı məlumatlar əks olunmuş keçirilmiş, 0553095201 nömrəsindən Sevinc Babayevanın bacısı Təranə Səfərova istifadə etmiş, 2012-ci il noyabr ayının 18- dən Təranə Səfərovanın Gülər Əhmədovanın bacısı Gülnarın istifadəsində olan 0502320848 nömrəsi, oğlu Toğrul Əhmədovun istifadəsində olan 0519933636 nömrəsi və nümayəndəsi Zülfiyyə Bayramovanın istifadəsində olan 0555317007 nömrəsi arasında qarşılıqlı danışıqları və mesaj mübadiləsi olmuşdur. Hüseynov Rüfət Əbülfət oğlunun 0552192949 nömrəsinin sorğu verilən müddət ərzində danışıqlarına baxış keçirilən zaman müəyyən edilir ki, Rüfət Hüseynovun Toğrul Əhmədovun istifadəsində olan 0519933636, 0502227373 nömrələri və Ülvü Mövlayevin 0505742086 nömrəsi arasında kifayət qədər danışıq və mesaj mübadiləsi vardır.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Cinayət işinin materiallarında olan elektron-maqnit daşıyıcısına baxış keçirilməsi haqqında 09 fevral 2013-cü il tarixli protokolundan və protokola əlavə edilmiş çıxarışlardan görünür ki, baxış 0705490800 və 0703337793 abonent nömrələrinə keçirilmiş, Ülvü Mövlayevin istifadəsində olan 0703337793 saylı nömrəsi ilə 25.09.2012 tarixdən 30.12.2012-ci il tarixədək Türkiyə vətəndaşı Selcuq Ağlayana məxsus 905323402863 nömrəsi arasında 48 dəfə, Gülər Əhmədovanın oğlu Toğrul Əhmədova məxsus 0519333636 nömrəsi arasında 45 dəfə və Gülər Əhmədovanın oğlu Toğrul Əhmədovun dostu Rüfət Hüseynova məxsus 0552192949 nömrəsi arasında 5 dəfə danışıqlar və mesajlaşmalar olmuşdur ki, bu da bir daha Ülvü Mövlayevin ifadəsində göstərdiklərini təsdiq edir.

Cinayət işinin materiallarında olan videogörüntünün şahidə təqdim edilməsi barədə protokoldan görünür ki, Bağırov Hikmət Bağır oğluna təqdim olunmuş aviasiya təhlükəsizlik idarəsindən götürülmüş 22.09.2012-ci il tarixli videogörüntülər üzrə həmin gün Bakıya gələn Selçuk Ağlayanı qarşılayan şəxslərin Mete Kaya, Ülvü Mövlayev və Niyaməddin Mövlayev olduğunu göstərmişdir.

Cinayət işinin materiallarında olan baxış keçirilməsi haqqında protokoldan görünür ki, internet saytlarında yayılan Elşad Abdullayev, Sevinc Babayeva və Gülər Əhmədova arasındakı söhbətin videoyazısına və videoçəkilişinə baxış keçirilmişdir. Düzbucaqlı formasında olan divarları ağ rəngli otaqda itibucaq altında görüntüyə əsasən video təxminən iki metrdən çox hündürlükdən çəkilmişdir. Videogörüntünün müddəti 16 dəqiqə 30 saniyə davam edir. Qapıdan girişdə sol tərəfdə otağın baş hissəsində “T” formalı iş masası yerləşir. İş masasının qarşısında, başda kənarları mebel rəngli, oturacağı və kürəkciyi sarımtıl rəngli stul vardır. Həmin stulun sol tərəfində pəncərələr yerləşən divara paralel qoyulmuş, üzərində surətçıxaran texnikaya oxşar vasitə olan və başda duran divarla iş masasını birləşdirən tumba yerləşir, iş masasının qarşısında qabaq stolunun ətrafında videoçəkilişdən sol istiqamətdə kənarları mebel rəngli, oturacağı və kürəkciyi sarımtıl rəngli iki ədəd stulda iş masasına yaxın bir nəfər dolu bədən quruluşlu, qara saçlara malik, əynində qara rəngli şalvar və qara rəngli gödəkçə olan dialoqlarda “Elşad müəllim” kimi müraciət olunan kişi cinsli şəxs və nisbətən otağın qapısına yaxın isə stulda bir nəfər sarı, uzun saçlara malik açıq və tünd sarımtıl qarışıqlı qadın üst geyimləri olan, dialoqlarda “Seva” və “Sevim xanım” kimi müraciət olunan qadın cinsli şəxs oturmuşdur. Onların qarşısında qara ayaqqabısı, qara rəngli ətəyi, qara rəngli gödəkçəsi, gödəkçənin altında ağ rəng polveri olan, qara rəngli saçlara malik, dialoqlarda “Gülər xanım” və “Qayınana” kimi müraciət olunan qadın cinsli şəxs oturmuşdur. 00:28 saniyəyə kimi qarışıq videoyazılar və kişi səsləri var. 00:28 saniyədən sonra isə ümumi söhbət başlayır. Dialoqda Elşad deputat seçilməsi üçün “Sevinc”in ona “500” dediyini və “500” də verdiyini, bundan sonra isə yenidən 500 istənildiyinin düzgün olmadığını, onlarla belə danışmadığını dəfələrlə təkrar edir. “Gülər” və “Sevinc” adlı qadınlar isə seçkiyə az vaxt qaldığını, onun vaxtında gəlmədiyini, seçkiyə 7 gün qaldığını, “500”-dən keçdiyini, məbləğin artdığını, 500-i verdiyini təsdiq edərək, əlavə vədlər verməklə “500” də verməli olduğunu bildirirlər.

Cinayət işinin materiallarında olan əməliyyat tapşırığından görünür ki, 02 oktyabr 2012-ci il tarixdə keçirilmiş əməliyyat tədbirləri nəticəsində müəyyən edilmişdir ki, məlum videoçəkiliş faktiki Elşad Abdullayevə məxsus olan və ofis kimi istifadə edilən Bakı şəhəri, Yasamal rayonu, Qutqaşenli küçəsi 9 saylı çoxmərtəbəli binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahəsində aparılmışdır və həmin qeyri-yaşayış sahəsi hazırda reklam işləri ilə məşğul olan şirkətin istifadəsindədir.

Cinayət işinin materiallarında olan 02 və 03 oktyabr 2012-ci il tarixli baxış keçirilməsi haqqında protokoldan görünür ki, baxış keçirilən yer Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşenli küçəsi 9 ünvanında yerləşməklə Gülər Əhmədovanın Sevinc Babayeva ilə Elşad Abdullayevin deputat seçilməsinə köməklik edilməsi ilə bağlı aparılan danışıqlar zamanı sonuncu tərəfindən qeydiyyata alınmış videogörüntülərdə əks olunan məkanla həmin ofisin şəraiti uyğunluq təşkil edir. Ofisin giriş dəhlizinin sağ tərəfindəki daha kiçik dəhlizin sağında 3.9x6 m sahəsi olan otaqda palıdı rəngli şkafla, otağın qapısı arasında döşəmədən 280 sm hündürlükdə elektrik naqillərinin qovşağında yerləşdirilmiş texniki qurğu (videokamera), həmin texniki qurğuya birləşdirilmiş ağ, qırmızı, sarı, qara rəngli başlıqdan ibarət naqil, elektrik naqillərinin qovşağının üzərinə yapışdırılmış mərkəzi 0,8 sm diametrində deşik olan ağ rəngli kauçuk qapaq, otağın baş künc nahiyyəsinə yerləşdirilmiş boş tumbanın içərisindən qara və gümüşü rəngli naqillər, o, cümlədən ofisin giriş dəhlizindən sağ tərəfindəki daha kiçik dəhlizin solunda olan daha geniş otağın giriş qapısından sol divarda lambirinlərin altında elektrik naqillərinin qovşağına yerləşdirilmiş arxasında 0086-C01G-A052-102171 ağ kağız üzərində yazısı və obyektivinə ağ rəngli xüsusi maddə bərkidilmiş texniki qurğu (videokamera), həmin texniki qurğuya birləşdirilmiş qara, gümüşü rəngli naqillər və naqillərin uc hissələsinə birləşdirilmiş silindrik formalı cihaz, giriş dəhlizinin sağ tərəfindəki daha kiçik dəhlizin sağında 3.9x6 m sahəsi olan otaqda palıdı rəngli şkafa yerləşdirilmiş gümüşü rəngli “Toshiba” markalı televizorun arxasından bir hissəsi gümüşü rəngli, uc hissəsinə isə qara rəngli qoşa naqillər calaq edilərək texniki vasitələrə qoşulması üçün ağ və qırmızı rəngli başlıqları olan naqil götürülmüşdür.

Cinayət işinin materiallarında olan sənədlərdən görünür ki, 06 oktyabr 2012-ci il tarixdə internet saytlarında Elşad Abdullayevin deputat seçilməsi üçün Milli Məclisin deputatı Gülər Əhmədova və onun rəfiqəsi Sevinc Babayeva arasında gedən söhbətlərin yeni videogörüntüləri yayımlanmış, 06 dəqiqə 55 saniyədən ibarət olan Elşad Abdullayevin deputat seçilməsinə Sevinc Babayeva vasitəsilə Gülər Əhmədovanın köməklik etməsi barədə söhbətin videoyazısına baxış keçirilən zaman müəyyən edilmişdir ki, dialoqda “Elşad” deputatlıqla bağlı ona “500” deyildiyini, “500” də verdiyini, bundan sonra isə yenidən “500” istənildiyinin düzgün olmadığını, onlarla belə danışmadığını dəfələrlə təkrar edir. “Gülər” adlı qadın əvvəlcədən “1” dediyini, ona görə pulun yarısının da verilməli olduğunu, “Sevinc” adlı qadın isə əvvəlcədən “500” deyildiyini, “Elşad”ın “500” verdiyini, əlavə “500” də verilməli olduğunu bildirirlər. “Gülər”, “Sevinc” və “Elşad” arasında dialoqun steonoqrammasının tam mətni baxış protokolunda öz əksini tapmışdır.

Cinayət işinin materiallarında olan Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 24.10.2012-ci il tarixli 10/20-335 məktubdan görünür ki, Gülər Mikayıl qızı Əhmədovanın 2-ci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə 2000-ci il noyabr ayının 5-nə təyin edilmiş seçkilərdə 8 saylı Yasamal-Nəsimi seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş və o, ilk dəfə olaraq Azərbayacan Respublikası Milli Məclisinin üzvü seçilmişdir. 3-cü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə 2005-ci ilin noyabr ayının 6-na təyin edilmiş seçkilərdə G.M.Əhmədovanın namizədliyi 15 saylı Yasamal 1-ci seçki dairəsi üzrə irəli sürülmüş və o, yenidən Milli Məclisin üzvü seçilmişdir. 4-cü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə 2010-cu ilin noyabr ayının 7-ə təyin olunmuş seçkilərdə isə G.M.Əhmədovanın namizədliyi 34 saylı Xətai ikinci seçki dairəsi üzrə irəli sürülmüş və 3-cü dəfə Milli Məclisinin üzvü seçilmişdir. 03.10.2012-ci il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

deputat G.M.Əhmədovanın deputat mandatından könüllü surətdə imtina barədə müraciətinə baxaraq onun deputat mandatından məhrum edilməsi barədə 4/13 saylı qərar qəbul etmişdir.

Abdullayev Elşad İslam oğlu 2-ci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə 2000-ci ilin noyabrın 5-ə təyin edilmiş seçkilərdə 72 saylı Kürdəmir seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş və o, Azərbaycan Respublikası Milli Məclisinin üzvü seçilməmişdir. 3-cü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə 2005-ci ilin noyabr ayının 6-na təyin edilmiş seçkilərdə isə E.İ.Abdullayevin namizədliyi 8 saylı Binəqədi birinci seçki dairəsi üzrə irəli sürülmüş, 25.08.2005-ci ildə onun namizdəliyi həmin seçki dairəsi üzrə qeydə alınmış, lakin o, yenidən Azərbaycan Respublikası Milli Məclisinin üzvü seçilməmişdir. 3-cü çağırış Azərbayacn Respublikasının Milli Məclisinə 2005-cı ilin mayın 13-nə təyin edilmiş təkrar seçkilərdə E.İ.Abdullayevin namizədliyi 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə irəli sürülmüş, 02.03.2006-cı ildə onun namizədliyi həmin seçki dairəsi üzrə qeydə alınmış, lakin Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin 29.04.2006-cı ilə qərarı ilə onun namizədliyi ləğv edilmişdir.

Cinayət işinin materiallarında olan 14 dekabr 2012-ci il tarixli baxış keçirilməsi haqqında protokolundan görünür ki, 14 dekabr 2012-ci il tarixdə Elşad Abdullayevlə Sevinc Babayeva arasında Elşad Abdullayevin deputat seçilməsi ilə bağlı gedən söhbətlərin internet saytlarında yayımlanan videoyazısına baxış keçirilmişdir. 25 sentyabr 2012-ci il tarixdə və 06 oktyabr 2012-ci il tarixdə Gülər Əhmədova, Sevinc Babayeva və Elşad Abdullayevin birgə videogörüntülərində əks olunan məkanla, Elşad Abdullayevin Sevinc Babayeva ilə ikilikdə iştirak etdiyi videogörüntüdəki məkanın şəraiti uyğunluq təşkil edir. “Elşad” və “Sevinc” arasındakı videoyazıdakı dialoqda “Sevinc” “qaynana”nın evdə gözlədiyini, “Elşad” isə ona inanmadığını, gedib öz işlərini həll etdiyini bildirir. “Sevinc” “Gülər”in evdə pulu gözlədiyini, hazırda veriləcək pulla həmçinin komissiyanın həll ediləcəyini, “Elşad”a onun lazımlı kadr olduğunu, deputat seçiləcəyini vəd verərək işi tez həll etməsini bildirir. Bundan sonra “Elşad” istintaq tərəfindən müəyyən edilən, 2005-ci ildə çəkilişin aparıldığı ofisdə hüquqşünas işləmiş Ruslan Əfəndiyev vasitəsilə sürücüsü olmuş Sabir Hüseynovu çağıraraq, ona maşında olan qara çamadanı götürüb, ofisin qarşısındakı “Sevincin maşınının qabaq oturacağının altına qoymasını tapşırır, “Sevinc”ə “500 verdik, bu da 500” deyir. “Sevinc" isə öz maşınının açarını Sabir Hüseynova verir, bir müddət sonra “Elşadla “Sevinc” otağı tərk edirlər. Videogörüntünün 06-cı dəqiqəsinin 13- cü saniyəsində başqa kadrda “Elşadla “Sevincin əlavə dialoqu başlayır. Həmin kadrda “Elşad” 1.000.000 (bir milyon) dollar pul verdiyini, ancaq ortada heç nə olmadığını bildirir, “Sevinc” onun dediklərini təsdiq edərək, artıqlaması ilə pul verdiyini, narahat olmamağı, “Gülər”in işi həll edəcəyini deyir. “Elşad”la “Sevinc”in həmin videogörüntünün 18-ci dəqiqəsinin 40-cı saniyəsində başqa kadrda “Elşad”la “Sevinc”in əlavə dialoqu başlayır. Həmin kadrda “Sevinc” “Elşad”a hansı zəmanə olduğunu, heç kimin onu aldatmadığını, atmadığını, əgər bu dəfə alınmasa altı ay sonra boş qalmış yerlərə əlavə seçkilərə qalacağına və rahat seçiləcəyinə söz verir.

Cinayət işinin materiallarında olan məhkəmə-portret ekspertizasının 15 yanvar 2013-cü il tarixli 20561 saylı rəyindən görünür ki, yuxarıda qeyd olunan videoçəkilişdə əks olunmuş şəxslər Elşad Abdullayev və Sevinc Babayeva olması müəyyən edilmişdir.

Cinayət işinin materiallarında olan audio-video yazıların kompleks ekspertizasının 11 fevral 2013-cü il tarixli rəyindən görünür ki, ekspertizaya təqdim olunmuş 01 ədəd «CD» tipli diskdə qeydə alınmış mübahisəli fonoqramda diktorların hərəkətləri, mimika və jestləri ilə danışıqları sinxronluq təşkil edir. Təqdim olunmuş videoyazı 3 müxtəlif

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

vaxtda eyni yazı qurğusu vasitəsilə ilə yazılmış videoyazıların birləşdirilməsi yolu ilə əldə edilmişdir. Təqdim olunmuş danışıqların auditiv-linqvistik, instrumental və məntiqi analizlərin nəticəsində hazırki diskə yazılmış fonoqramdakı danışıqların əvvəl təqdim olunmuş "CD" və "DVD" disklərdə yazılmış fonoqramlarda olan danışıqlardan sonra yazıldığı müəyyən olunur.

Cinayət işinin materiallarında olan kompleks məhkəmə-kriminalistik və məhkəmə-komputer texniki ekspertizanın 17 dekabr 2012-ci il tarixli 17341 nömrəli rəyindən görünür ki, aparılmış tədqiqatlar nəticəsində təqdim edilmiş 01 ədəd qara rəngli «Proline» markalı «PR-2155RN5AR» modelli videokamera «Pinhole» tipli konus formasında obyektivi olan kiçik ölçülü rəngli videokamera sinfinə aiddir. Həmin qurğu görüntülərin və səslərin qeyd edilməsi üçün istifadə olunur, zavod üsulu ilə hazırlanaraq təqdim edilmiş videokamera hal hazırda işlək vəziyyətdədir və istifadə üçün yararlıdır. Təqdim edilmiş 01 ədəd diqər qara rəngli «Proline» markalı «PR- 2155RN5AR» modelli videokamera «Pinhole» tipli konus formasında obyektivi olan kiçik ölçülü rəngli videokamera sinfinə aiddir. Həmin qurğu görüntülərin və səslərin qeyd edilməsi üçün istifadə olunur, zavod üsulu ilə hazırlanaraq təqdim edilmiş videokamera hal hazırda işlək vəziyyətdədir və istifadə üçün yararlıdır. Videokameraya qoşulmuş 01 ədəd gümüşü rəngli silindrik formada qurğu səs dalğalarının güclənməsi üçün nəzərdə tutulmuşdur. Təqdim edilmiş qurğu hal hazırda işlək vəziyyətdədir və istifadə üçün yararlıdır. Təqdim edilmiş videokameraların çəkiliş xüsusiyyətlərinin və videogörüntülərdə müəyyən edilmiş - kadr tezliyi, kadrların ölçüləri kimi parametrlərin eyni olmasına görə təqdim edilmiş videogörüntülər 02 ədəd «Proline» markalı «PR-2155RN5AR» modelli videokameralar vasitəsi ilə çəkilə bilər. Təqdim edilmiş 02 ədəd «Proline» markalı «PR-2155RN5AR» modelli videokameralarda səs yazma xüsusiyyətləri müəyyən edilmişdir. Təqdim edilmiş qurğular kiçik ölçülü rəngli videokameralara aid olduğuna görə həmin cihazlar vasitəsi ilə qapalı otaq şəraitində səsin yazılması mümkündür. İ.Qutqaşınlı küçəsi 9 ünvanda yerləşən ofisin giriş dəhlizindən sağ tərəfdəki otaqda palıdı rəngli şkafla, otağın qapısı arasındakı döşəmədən 280 sm hündürlükdə elektrik naqillərinin qovşağında yerləşdirilmiş «Proline» markalı «PR-2155RN5AR» modelli videokamerada müəyyən edilmiş çəkiliş xüsusiyyətlərinin və videogörüntülərdə müəyyən edilmiş (kadr tezliyi, kadrların ölçüləri) parametrlərin eyni olmasına görə təqdim edilmiş videogörüntülər yuxarıda qeyd olunmuş videokamera vasitəsi ilə yazılmışdır. Təqdim edilmiş işlək vəziyyətdə olan «Proline» markalı «PR-2155RN5AR» modelli videokamera vasitəsi ilə çəkiliş aparılması mümkündür. Təqdim edilmiş gümüşü rəngli silindrik qurğu, «Proline» markalı «PR2155RN5AR» modelli videokamera cihazına qoşularkən səs dalğalarının güclənməsi üçün nəzərdə tutulmuşdur. Təqdim edilmiş 01 ədəd qara rəngli və 04 ədəd gümüşü rəngli naqillər videokameralara qoşulmaqla, həmin qurğulardan məlumatları «DVR» qurğusuna ötürmək üçün nəzərdə tutulmuşdur. Təqdim edilmiş calaşdırılmış naqilin təyinatı audio və video siqnalları bir qurğudan diqər qurğuya ötürmək üçün nəzərdə tutulmuşdur.

Cinayət işinin materiallarında olan Məhkəmə-fototexniki və məhkəmə-fonoskopik ekspertizasının 17 dekabr 2012-ci il tarixli 15954/16071 saylı ekspertiza rəyindən görünür ki, ekspertiza 25 sentyabr 2012-ci il tarixdə yayımlanmış birinci videogörüntü ilə bağlı keçirilmiş, 01 ədəd «DVD» tipli diskdə olan audio və videoyazı eyni yazı qurğusu vasitəsilə sinxron qeydə alınmışdır və videokamera təxminən 55 dərəcə bucaq altında yerləşdirilmişdir. Videogörüntünün 27-ci saniyəsindən görüntünün sonuna qədər

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

sinxronluq pozulmamışdır. Yazılışın 27-ci saniyədən sonuna qədər olan hissəsində diktorların hərəkətləri, mimika və jestləri ilə danışıqları sinxronluq təşkil edir.

Cinayət işinin materiallarında olan Məhkəmə-fonoskopik ekspertizasının 17 dekabr 2012-ci il tarixli 17337/17338 nömrəli ekspertiza rəyindən görünür ki, 06 oktyabrda yayımlanmış ikinci videogörüntü ilə bağlı keçirilərək alınmış, 01 ədəd «CD-R» tipli diskdə yazılmış videoyazıda audio və video siqnallar eyni yazı qurğusu ilə, birdəfəyə yazılmışdır. Təqdim edilmiş «CD-R» və «DVD» tipli disklərdəki video və audio axınların texniki parametrlərinə (işıqlanma parametrləri, çəkiliş bucağı, kadrların tezlik parametrləri, danışıq məzmunu, danışıq aparanların eyni sayda olması, yazılışda küyün xarakteri), videogörüntüdə müşahidə edilən obyektlərin sayına, onların yazılışın aparıldığı şəraitdə yerləşməsinə əsaslanaraq həmin videogörüntünün eyni qurğu vasitəsi ilə və eyni zamanda aparılması müəyyən edilmişdir. Aparılmış tədqiqatlar nəticəsində ekspertizaya təqdim olunmuş 01 ədəd «CD-R» tipli diskdə qeydə alınmış mübahisəli fonoqramdakı danışıqların videotəsvirlə müqayisə edilməsi əsas mövzu üzrə danışıqda iştirak edən diktorların hərəkətləri, mimika və jestləri ilə danışıqlarının sinxronluq təşkil etdiyini göstərmişdir.

Cinayət işinin materiallarında olan Məhkəmə-fotoportret ekspertizasının 08 dekabr 2012-ci il tarixli 15929/17359 nömrəli rəyindən görünür ki, videogörüntüdə olan şəxslərin Abdullayev Elşad İslam oğlu, Əhmədova Gülər Mikayıl qızı və Sevinc Babayeva olduğu, 17 dekabr 2012-ci il tarixli 17678 nömrəli məhkəmə - fonoskopik ekspertizası rəyi ilə isə ekspertizaya təqdim olunmuş 1 və 2 saylı disklərdə qeydə alınmış mübahisəli fonoqramlardakı diktorların səsi və nitqi eyni bir şəxslərə - Abdullayev Elşad İslam oğluna, Əhmədova Gülər Mikayıl qızına və Babayeva Sevinc Telman qızına məxsusluğu müəyyən edilmişdir.

Cinayət işinin materiallarında olan 04 aprel 2012-ci il tarixli DVD diskə baxış keçirilməsi haqqında protokoldan görünür ki, 03 aprel 2013-cü il tarixdə Abdullayev Elşad İslam oğlu nümayəndəsi vasitəsilə istintaqa 2005-ci ilin oktyabr ayında Gülər Əhmədova ilə onun arasında olan söhbətin videoçəkilişinin tam həcmdə olan versiyasını DVD diskdə təqdim etmiş və həmin videoçəkilişin Gülər Əhmədova ilə söhbətinin əvvəllər yaymış olduğu videogörüntülərin tam versiyası olduğunu, ancaq texniki səbəblərdən görüntünün bir hissəsində pozuntu olmasını bildirmişdir. Gülər Əhmədovanın videoyazının qeyd edildiyi məkanı tərk edənə kimi olan hissəsi əvvəllər yayılmış görüntülərlə tam uyğunluq təşkil edir. Gülər Əhmədova otağı tərk etdikdən sonra Elşad Abdullayevlə Sevinc Babayeva arasında olan danışıqlardan isə görünür ki, Elşad ona 500 deyildiyini, 500-də verdiyini dəfələrlə təkrarlayır, Sevinc isə ikinci 500-ü verməsini bildirir, Elşad isə cavabında Gülər Əhmədovam nəzərdə tutaraq “Bir günün içində, Nə cür verim e? 500 dollar döyül e, 5 min, 50 min dollar döyül e, işin üstünə 500 min dollar pul qoyur. Bunu əvvəldən diyeydin, bele deseydün, bəlkə mən sənə diyeceydim bacı bağışda, mənnik döyül, get işini gör. Dünya dağılmıyıb ki. Deputat olmasam yaşamıram?” deyir, həmçinin qeyd edir ki, “Mən bir milyon pul verirəm, mən bilmiyim kimə verdim, kim apardı?”, Sevinc Babayeva isə Elşada bir milyonun onun üçün əla pul olduğunu bildirir və Gülər Əhmədovam nəzərdə tutaraq “mən çamadanı vermişəm onun əlinə, onnan yapışacam, qutardı getdi. Fsyo. Səni tanıyıram, ona vermişəm” deyir. Videogörüntünün tam versiyasında olan söhbətin məzmunu ekspertiza rəyləri ilə də öz təsdiqini tapmışdır. Baxış zamanı həmçinin videogörüntüdə Gülər Əhmədovanın zəng etməsi, ona zəng gəlməsi, Elşad Abdullayevə zəng gəlməsi, eləcə də Sevinc Babayevaya 3 dəfə zəng gəlməsi müəyyən edilmiş və zəruri ekspertizalar təyin edilərək aşağıdakı rəylər alınmışdır.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Cinayət işinin materiallarında olan məhkəmə-portret ekspertizasının 29 may 2013- cü il tarixli 7705 nömrəli rəyindən görünür ki, videogörüntüdə əks olunan kişi cinsli şəxslər- Elşad Abdullayev, Şamil Hüseynov və qadın cinsli şəxslər - Gülər Əhmədova və Sevinc Babayevadır.

Cinayət işinin materiallarında olan Məhkəmə-fonoskopik ekspertizasının 11 iyul 2013-cü il tarixli 5284 nömrəli rəyindən görünür ki, diktorların səsi və nitqi eyni bir şəxslərə - Abdullayev Elşad İslam oğluna və Babayeva Sevinc Telman qızına məxsusdur.

Cinayət işinin materiallarında olan Məhkəmə-fonoskopik və audio yazıların kriminalistik ekspertizasının 05 iyul 2013-cü il tarixli 4136/4155 nömrəli rəyindən görünür ki, diktorların səsi və nitqi Abdullayev Elşad İslam oğluna və Babayeva Sevinc Telman qızına məxsusdur. Mübahisəli fonoqramda kəsilmə, birləşmə və əlavə etmə kimi montaj əlamətləri müəyyən olunmadı. Ekspertizaya təqdim olunmuş 01 ədəd CD-R diskə yazılmış «youtube.avi» faylında qeydə alınmış mübahisəli fonoqramdakı danışıq K1 və Q1 diktorları arasında aparılan telefon danışığından ibarətdir. Q1 diktorunun danışığı mobil telefonunun dinamikindən gələn səs siqnalı kimi akustik üsulla yazılmışdır. K1 diktorunun danışığı akustik üsulla birbaşa yazı qurğusuna daxil olan səs siqnalı kimi yazılmışdır. Qeyd edilən rəydəki danışığın yazılı mətnindən görünür ki, Sevinc Babayeva Elşad Abdullayevə Gülər Əhmədovanın qorxulu adam olduğunu bildirir. Qeyd edir ki, Gülər Əhmədovanın dələduzluğunu artıq hər kəs bilir, o, da hər kəsə danışır. Bu qədər pulları hara elədiyini bilmir. Gülərin onun əli ilə milyonlar qazandığını bildirir. Ancaq Elşad Abdullayevə, Gülərin onun bir milyonunu qaytaracağını deyir. Həmçinin qeyd edir ki, Gülərə onun pulunu ələ keçirməsi üçün 5 ildir plan qurduğunu irad tutub. Elşad isə Sevincə tez hərəkət etməsini bildirərək, arada onun vasitəçi olduğunu deyir və Gülərdən pullarının qaytarılmasını tələb edir.

Cinayət işinin materiallarında olan Məhkəmə-fonoskopik və audio-video yazıların kriminalistik ekspertizası 11 iyul 2013-cü il tarixli 7705/7707 saylı rəyindən görünür ki, diktorların səsi və nitqi - Əhmədova Gülər Mikayıl qızına, Babayeva Sevinc Telman qızına və Abdullayev Elşad İslam oğluna məxsusdur. Ekspertizaya təqdim olunmuş 1, 2 və 3 saylı disklərə yazılmış fonoqramlardakı danışıqların məzmununun analizi və müqayisəsi 25.09.2012-ci il tarixdə yayımlanmış birinci videofonoqramı əks etdirən elektron daşıyıcı olan bir ədəd DVD disk və 06 oktyabr 2012-ci il tarixdə internet saytlarında yayımlanan ikinci videofonoqramı özündə əks etdirən bir ədəd CD diskdəki videofonoqramların E.Abdullayevin istintaqa tam versiya kimi təqdim etdiyi DVD diskdəki videofonoqramın tərkib hissələridir. Ekspertizaya təqdim olunmuş 01 ədəd DVD diskə yazılmış «Sequence 01_4.3gp» faylında qeydə alınmış videofonoqramdakı danışıqlarda şəxsin səsinin əsas parametrlərini daxil etməklə səsin saxtalaşdırılması mümkün deyil. Qeyd olunan sintezin mümkün olmamasına səbəb nitq aparatının dəqiq riyazi modelini yaratmağın mümkün olmamasıdır. Böyük həcmli və orta keyfiyyətli videofonoqramlarda sinxronluğun pozulmaması şərti ilə səs cığırının videocığıra sintezi isə mümkün deyil. Videofonoqramda iştirak edən şəxslərin hərəkətləri (mimika, jest və s.) ilə danışıqlar sinxronluq təşkil edir. Ekspertizaya təqdim olunmuş 01 ədəd DVD diskə yazılmış «Sequence 01_4.3gp» faylında video və audio cığırlar bir korpusda yerləşən obyektiv və mikrofondan ibarət, şəbəkə kabeli vasitəsi ilə xarici mənbədən qidalanan videokamera vasitəsi ilə eyni vaxtda yazılmışdır. Ekspertizaya təqdim olunmuş 01 ədəd DVD diskə yazılmış «Sequence 01_4.3gp» faylında qeydə alınmış videofonoqramın ekspertizaya təqdim olunmuş «Proline» markalı «PR-2155RN5AR»

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

modelli videokamera və ya eyni texniki parametrli digər videokamera vasitəsi ilə yazılmışdır.

Cinayət işinə əlavə edimiş sənədlərdən görünür ki, Abdullayev Elşad İslam oğlunun nümayəndəsi Adil İsmayılov 04.04.2013-cü il tarixdə istintaqa müraciət edərək Elşad Abdullayevin 2005-ci ildə 0502110535 və 0502158215 saylı nömrələri işlətdiyini, sonuncunun həmin nömrələrlə Gülər Əhmədovanın istifadəsində olmuş 0502227373 və 0552111211, həmçinin Sevinc Babayevanın istifadəsində olmuş 0503004270, 0502107377, 0502129065 və 0504242020 saylı nömrələrlə əlaqə saxladığını göstərmiş və bu barədə müvafiq qeydlər olan əlyazmaları təqdim etmişdir.

Cinayət işinin materiallarında olan 17 yanvar 2013-cü il tarixli telefon məlumatlarına baxış protokolundan görünür ki, 25 sentyabr 2012-ci il tarixdə məlum videogörüntülər internet saytlarında yayımlandıqdan dərhal sonra Gülər Əhmədova Sevinc Babayevanı “Hökumət evi”ndə yerləşən Azərbaycan Respublikası Uşaq Təşkilatının ofisinə çağırmış, gecə saatlarında onu Türkiyə Respublikasının istanbul şəhərinə göndərmişdir. Bu işdə ona oğlu Toğrul Əhmədovun dostu Ülvü Mövlayev kömək etmiş, İstanbulda Sevinc Babayevanı onların hər ikisinin tanışı Selcuk Ağlayan qarşılamış və sonuncu Sevinc Babayeva vəfat edənə kimi ona hamilik etmişdir. Həmçinin Ülvü Mövlayevin ifadəsində göstərdiyi iş üçün əhəmiyyət kəsb edən xüsusatlar onun 0505742086 nömrəsinin məhkəmə qərarı əsasında götürülmüş çıxarışları ilə tam təsdiqini tapmışdır.

Cinayət işinin materiallarında olan 19 fevral 2013-cü il tarixli telefon məlumatlarına baxış protokolundan görünür ki,

1. 506730085 nömrəsi 26.09.2012-ci il tarixdən 30.12.2012-ci ilə kimi Heydərova Səyarə Rövşən qızının istifadəsində olmuş, həmin dövr ərzində Səyarə Heydərovanın Gülər Əhmədovanın istifadə etdiyi 0502139933 və Toğrul Əhmədovun istifadə etdiyi 0519933636 nömrələri ilə məlum videogörüntülərin fonoskopik ekspertizadan keçirilməsi barədə mesajlaşmış və danışmışlar, ancaq sonradan ekspertizanın keçirilməsi ilə bağlı Səyarə Heydərova ilə Toğrul Əhmədov razılığa gələ bilməmişlər.

2. Gülər Əhmədovanın adına qeydiyyatda olmuş 0503619989 saylı mobil nömrəsi 26.09.2012-ci il tarixdən 30.12.2012-ci ilə kimi Gülər Əhmədovanın əri Fikrət Əhmədovun istifadəsində olmuş, həmin dövr ərzində Fikrət Əhmədov Mete Kayanın istifadə etdiyi 00905305428766 türk operatoruna məxsus nömrəyə bir mesaj göndərməsi müəyyən edilmişdir.

3. Gülər Əhmədovanın istifadəsində olan 0502116283 abonent nömrəsindən 26.09.2012-ci il tarixdə saat 11:15 dəqiqədən, saat 14:03 dəqiqəyə kimi Selçuk Ağalayan 5 dəfə zəng etməsi, Sevinc Babayevaya İstanbulda hamilik etmiş Selçuk Ağlayanın isə həmin gün saat 13:17-də Gülər Əhmədovaya zəng edib 148 saniyə danışması və saat 16:23 dəqiqədə mesaj göndərməsi müəyyən edilmişdir.

Cinayət işinin materiallarında olan 04 aprel 2013-cü il tarixli telefon məlumatlarına və videogörüntüyə baxış protokolundan görünür ki, Elşad Abdullayevin təqdim etdiyi Gülər Əhmədova ilə onun arasında olan söhbətin videoçəkilişinin tam həcmdə olan versiyasına və videogörüntüdəki şəxslərin yəni Elşad Abdullayevin, Gülər Əhmədovanın və Sevinc Babayevanın həmin vaxt istifadəsində olmuş nömrələrə gələn zənglərlə onların Qutqaşenli küçəsində olmaları, həmçinin anten dalğaları, videogörüntüdə olan zənglərarası vaxt fərqi, danışıqların müddəti aşağıdakı kimi müəyyən edilmişdir:

1) Videogörüntünün 23:07 – 23:42-ci dəqiqələr aralığında Gülər Əhmədova ona zəng edən istintaqa məlum olmayan şəxslə danışır, 35 saniyə telefon danışığı davam

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

edir. Gülər Əhmədovanın videogörüntünün 04:21 dəqiqəsində zəng etməsindən, ona videogörüntünün 23:07-ci dəqiqəsində gələn zəng arasında 19 dəqiqə vaxt fərqi yaranır;

2) Videogörüntünün 34:38 – 34:51-ci dəqiqələr aralığında Elşad Abdullayevin mobil telefonuna zəng gəlir və 13 saniyə telefonla danışır.

3) Videogörüntünün məzmunundan məlum olur ki, Gülər Əhmədova çəkilişin qeydə alındığı otağı tərk etdikdən bir müddət sonra Sevinc Babayevaya zəng edir. Videogörüntünün 36:06 – 36:14-cü dəqiqələri araığında 08 saniyə danışıq olur.

4) Videogörüntüdəki ümumi danışıqdan məlum olur ki, Gülər Əhmədova Sevincin mobil telefonuna ikinci dəfə zəng edir. Videogörüntünün 36:54 – 36:55-ci dəqiqələr aralığında 1 saniyə danışıq olur.

5) Videogörüntüdə ümumi söhbətdən məlum olur ki, Gülər Sevincin mobil telefonuna zəng edir. Videogörüntünün 39:08 – 39:21-ci dəqiqələr aralığında 13 saniyə danışıq olur.

Elşad Abdullayevin tam versiya kimi istintaqa təqdim etdiyi videogörüntüdəki Elşad Abdullayevin, Gülər Əhmədovanın və Sevinc Babayevanın telefon danışıqları ilə məhkəmə qərarı əsasında Azercell Telekom-dan götürülmüş telefon danışıqlarının "Antena-Zeng.xlsx" faylındakı 30 oktyabr 2005-ci il tarixindəki məlumatların təhlil zamanı üstü-üstə düşməsi istintaqda aşağıdakı kimi müəyyən edilmişdir:

1. 2005-ci il 30 oktyabr saat 13.18 dəqiqədə "Mikayil Mushfig st., Qutqashenli st" anten dalğasının əhatə dairəsində olan Gülər Əhmədova 0502227373 nömrəsindən "Insaatchilar pr." anten dalğasının əhatə dairəsində olan Sevinc Babayevanın həmin vaxt istifadəsində olan 0503004270 nömrəsinə zəng etmiş və 5 saniyə danışıq olmuşdur. Buradan məlum olur ki, S. Babayeva həmin danışıq zamanı Qutqaşenli küçəsinin əhatə dairəsində, yəni konkret olaraq videoçəkilişinn aparıldığı ofisdə olmamışdır ki, videogörüntünün (tam versiya) 04:21-ci dəqiqəsindən də görünür ki, otaqda ancaq Elşad Abdullayevlə Gülər Əhmədovadır, sonuncu bir nəfərə zəng edir və 5 saniyə danışıq olur.

2. Yuxardakı telefon danışığından 19 dəqiqə sonra yəni 2005-ci il 30 oktyabr saat 13.37 dəqiqədə istifadəçisi istintaqa məlum olmayan 0502231369 nömrəsindən "Mikayil Mushfig st., Qutqashenli st" anten dalğasının əhatə dairəsində olan Gülər Əhmədovanın 0502227373 nömrəsinə zəng gəlir və 35 saniyə danışıq davam edir. 04 aprel 2013-cü il tarixdə Elşad Abdullayevin təqdim etdiyi videogörüntüyə baxış zamanı da müyyən edilmişdir ki, videogörüntünün 23:07 – 23:42-ci dəqiqələr aralığında Gülər Əhmədova ona zəng edən istintaqa məlum olmayan şəxslə 35 saniyə danışır.

3. 1-ci bənddəki danışıqdan 30 dəqiqə və 2-ci bənddəki danışıqdan 11 dəqiqə sonra yəni 2005-ci il 30 oktyabr saat 13.48 dəqiqədə istifadəçisi istintaqa məlum olmayan 0502017091 nömrəsindən "Mikayil Mushfig st., Qutqashenli st" anten dalğasının əhatə dairəsində olan Elşad Abdullayevin 0502110535 nömrəsinə zəng gəlir və 13 saniyə danışıq olur. 04 aprel 2013-cü il tarixdə Elşad Abdullayevin təqdim etdiyi videogörüntüyə baxış zamanı da müəyyən edilmişdir ki, videogörüntünün 34:38 – 34:51-ci dəqiqələr aralığında Elşad Abdullayev mobil telefonu ilə 13 saniyə danışır.

4. 1-ci bənddəki danışıqdan 32 dəqiqə, 2-ci bənddəki danışıqdan 13 dəqiqə və 3-cü bənddəki danışıqdan 2 dəqiqə sonra yəni 2005-ci il 30 oktyabr saat 13.50 dəqiqədə "Ayna Sultanova kuc., Seyfəddin Dagli kuc" anten dalğasının əhatə dairəsində olan 0502227373 nömrəsindən Gülər Əhmədova, Sevinc Babayevanın həmin vaxt istifadəsində olmuş 0503004270 nömrəsinə zəng edir və 8 saniyə danışıq olur. Videogörüntüyə baxış zamanı da müəyyən edilmişdir ki, Gülər Əhmədova çəkilişin

getdiyi otağı tərk etdikdən sonra Sevinc Babayevaya zəng edir, videogörüntünün 36:06 – 36:14- cü dəqiqələri aralığında 8 saniyə danışıq olur.

5. 30.10.2005-ci il tarixdə saat 13.50 dəqiqədə "Ayna Sultanova kuc., Seyfeddin Dagli kuc" anten dalğasının əhatə dairəsində olan 0502227373 nömrəsindən Gülər Əhmədova Sevinc Babayevanın həmin vaxt istifadəsində olmuş 0503004270 nömrəsinə zəng edir və 1 saniyə danışıq olur. 1 dəqiqə sonra yəni saat 13.51-ci dəqiqədə Gülər Əhmədova Sevinc Babayevaya yenidən zəng edir və aralarında 49 saniyə danışıq olur. Videogörüntüyə baxış zamanı da ümumi danışıqdan məlum olur ki, Gülər Sevincin mobil telefonuna ikinci dəfə zəng edir. Videogörüntünün 36:54 – 36:55-ci dəqiqələr aralığında 1 saniyə danışıq olur və dərhal Sevinc Babayeva otağı tərk edir, 90 saniyədən sonra otağa qayıdaraq söhbətini davam etdirir.

6. 30.10.2005-ci il tarixdə saat 13.53 dəqiqədə "BDU stadion" anten dalğasının əhatə dairəsində olan 0502227373 nömrəsindən Gülər Əhmədova Sevinc Babayevanın həmin vaxt istifadəsində olmuş 0503004270 nömrəsinə zəng edir və 13 saniyə danışıq olur.

Videogörüntüyə baxış zamanı da məlum olur ki, Gülər Sevincin mobil telefonuna zəng edir. Videogörüntünün 39:08 – 39:21-ci dəqiqələr aralığında 13 saniyə danışıq olur.

Cinayət işinin materiallarında olan 25 aprel 2013-cü il tarixli telefon məlumatlarına baxış protokolundan görünür ki,

1. 26.09.2012-ci il tarixdən Əhmədov Toğrul Fikrət oğlunun istifadəsində olan 0519933636 saylı nömrə ilə Mövlayev Ülvü Kamal oğluna məxsus 0505742086, 0703337793 nömrələri, Niyaməddin Mövlayevin adına olan 0505521898, eyni zamanda onun istifadə etdiyi 0503788910 nömrələri, Ülvü və Niyaməddin Mövlayevlərin yeznəsi Mete Kayaya məxsus türk operatoruna məxsus 905322320642 nömrəsi və Türkiyə Respublikasının İstanbul şəhərində yaşayan, orada iş üzrə təqsirləndirilən şəxs Babayeva Sevinc Telman qızına saxta "Meryem Solmaz" adı ilə himayəçilik edən türk vətəndaşı Selcuk Ağlayanın 905323402863 saylı türk operatoruna məxsus nömrəsi arasında kifayət qədər danışıq və mesajlaşmalar olmuşdur.

2. 18.11.2012-ci il tarixdə saat 18:53-də Toğrul Əhmədovun 0519933636 nömrəsindən Sevinc Babayevanın bacısı Təranə Səfərovanın 0553095201 nömrəsinə göndərdiyi "Menim anam az qalmishdi iki defe elimizden getsin, buna baxmayaraq mubarize aparır ki bu ishi tezdiynen tertemiz qurtarsin, bizim bu saat 1 manat gelirimiz yoxdu, elimizde ne varsa 100 yere vermishik, siz ona pul gonderin ki orda leyaqetle ozunu saxlasin, unutmayin ki, indi orda olmasaydi hebsxanada idi, Bunu siz yaxshi bilirsiz, bizim adimizdan size bu yaxinlarda bir qadin vekil zang vuracaq mutleq onunla gorushuıı, burdaki butun xercleri biz chekirik, xesisdiy etmeyin baciviza komek edin, emin olun ki. biz elimizden geleni de gelmeyeni de edirik. Dushmenimiz gucludur elshadnan tek vurushuruq. Bizim itirdiklerimiz sizinkinden qat qat çoxdur. Siz onunla mashqul olun kı orda rahat yashaya bilsin" mesajı Sevinc Babayevanın axtarışda olmasının Gülər Əhmədova məlum olduğunu bir daha təsdiq edir. Nəzərə alsaq ki, Bakı şəhəı prokurorluğunda məlum videogörüntülərlə bağlı başlanılmış cinayət işinin istintaqı zamanı Sevinc Babayeva 18.11.2012-ci il tarixdə axtarışa verilməmiş, həmin iş üzrə Sevinc Babayeva 17.12.2012-ci il tarixdə axtarışa verilmiş, deməli Gülər Əhmədovanın məhz daxili işlər orqanlarında istintaqı olunan cinayət işi üzrə Sevinc Babayevanın 03.10.2012- ci il tarixdə axtarışa verilməsindən tam xəbəri olmuşdur.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

3. 26.09.2012-ci il tarixdən 29.12.2012-ci il tarixə kimi Mövlayev Ülvü Kamal oğlunun adına qeydiyyatda olmuş 0505742086 saylı mobil nömrə ilə Toğrul Əhmədovun istifadə etdiyi 0502227373, 0519933636 saylı nömrələr, eləcə də türk vətəndaşı Selcuk Ağlayanın 905323402863 saylı türk operatoruna məxsus nömrəsi arasında kifayət qədər mesajlaşmalar və danışıqlar olmuşdur.

4. 24.08.2012-ci il tarixdən 01.10.2012-ci il tarixdə kimi Mövlayev Niyaməddin Kamal oğlunun adına qeydiyyatda olmuş 0505521898 saylı mobil nömrə onun yeznəsi Mete Kayanın istifadəsində olmuşdur. Nömrənin Mete Kaya tərəfindən istifadə olunmasını və Selçuk Ağlayan ilə Mete Kayanın münasibətərini həmin nömrədən 25.08.2012-ci il tarixdə saat 22:19-də Selçuk Ağlayanın 00905323402863 saylı mobil nömrəsinə “Selam selcuk nasilsin mete kaya” mesajının göndərilməsi də təsdiq edir. Mete Kayanın Bakıda olduğu müddət ərzində Toğrul Əhmədov, Gülər Əhmədova, eləcə də Selcuk Ağlayanla aralarında kifayət qədər danışıq və mesajlaşmalar olması müəyyən edilmişdir.

Cinayət işinin materiallarında olan 26 aprel 2013-cü il tarixli telefon məlumatlarına baxış protokolundan görünür ki,

1. Gülər Əhmədovanın istifadəsində olmuş 0559188405 abonent nömrəsindən 10.10.2012-ci il tarixdən 24.11.2012-ci ilə kimi Selçuk Ağlayanın istifadəsində olan 905323402863 nömrəsinə 11 dəfə zəng edilərək uzunmüddətli danışılmış, 26 dəfə isə mesaj göndərilmiş, 22.11.2012-ci il tarixdən 24.11.2012-ci ilə kimi eyni nömrələr altında Selçuk Ağlayan Gülər Əhmədovaya 39 dəfə mesaj göndərmiş, 1 dəfə isə zəng edərək danışmışdır.

2. Gülər Əhmədovanın istifadəsində olmuş 0554145352 abonent nömrəsinin çıxan və daxil olan zənglərinə baxış keçirilən zaman sonuncunun 13.11.2012-ci il tarixdə həmin nömrə altında Selçuk Ağlayanın istifadəsində olan 905323402863 nömrəsinə 5 mesaj göndərdiyi, 13.11.2012-ci il tarixdən 16.11.2012-ci il tarixə kimi Selçuk Ağlayanın Gülər Əhmədovanın istifadəsində olmuş 0554145352 nömrəsinə 13 mesaj göndərdiyi müəyyən edilmişdir.

3. Həmçinin Təranə Səfərova istifadəsində olan 0553095201 nömrəsi ilə Gülər Əhmədovanın nümayəndəsi Zülfiyyə Bayramova ilə, Gülər Əhmədovanın bacısı Gülnar Quliyeva ilə əlaqə saxlamış, Toğrul Əhmədova isə sms-lər göndərmişdir.

Cinayət işinin materiallarında olan 29 aprel 2013-cü il tarixli telefon məlumatlarına baxış protokolundan görünür ki,

1. Ayxan Məmmədovun istifadəsində olan 0776006969 nömrəsi ilə Gülər Əhmədovanın istifadəsində olan 0502116283 nömrəsi arasında 03.10.2012-ci il tarixdən 03.01.2013-cü il tarixə kimi 8 dəfə;

2. Gülər Əhmədova oğlu Toğrul Əhmədovun istifadəsində olan 0519933636 nömrəsi arasında 20.11.2012-ci il tarixdə saat 19.10-dan saat 19:50-ə kimi 8 dəfə əlaqə (danışıq və mesajlar) olmuşdur.

Cinayət işinin materiallarında olan 03 may 2013-cü il tarixli telefon məlumatlarına baxış protokolundan görünür ki,

1. 0504515055 saylı nömrə 01.01.2009-cu il tarixdən 04.04.2013-cü il tarixədək Axundova Rüxsarə İsmayıl qızının istifadəsində olmuş, həmin dövr ərzində Rüxsarə Axundovanın yaxın rəfiqəsi Gülər Əhmədova ilə mesajlaşmaları müəyyən edimişdir. Gülər Əhmədovanın 25.11.2010-cu ildə saat 09:35:17-də Rüxsarə Axundovaya göndərdiyi “Manca isik yavas yavas Sevalashir qapidan qovursan pancaradan girir" mesajı, həmin dövrdə Gülər Əhmədovanın Sevinc Babayevanı qəbul etməməsini təsdiq edir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

2. 2006-cı ilin avqust ayından 2008-ci ilin mart ayına kimi Sevinc Babayevanın istifadəsində olmuş 0504242010 saylı mobil nömrə ilə Gülər Əhmədovanın istifadəsində olmuş 0502227373 (2006-cı il avqustun 7-dən başlayaraq, 2006-cı il oktybarın 4-ə kimi) nömrəsi arasında kifayət qədər qarşılıqlı danışıqlar olmuşdur. Eləcə həmin nömrə ilə Elşad Abdullayevin istifadəsində olmuş 0502110535 nömrəsi arasında 2006-cı il sentyabr ayının 18-də 2573 saniyə, sentyabrın 26-da 3 saniyə, 0502158215 nömrəsi arasında isə 2006-cı il sentyabr ayının 13-ü 29 saniyə danışıq olmuşdur ki, hər dəfə də Elşad Abdullayev ona zəng etmişdir.

3. 0503728730 saylı mobil nömrə 01.01.2009-cu il tarixdən son dövrə kimi Gülər Əhmədovanın deputat köməkçisi işləmiş Şahidov Əhməd Şair oğlunun istifadəsində olmuşdur. Əhməd Şahidovun 26.09.2012-ci il tarixdən sonra Gülər Əhmədova ilə qarşılıqlı mesajlaşmaları var. Həmin mesajlardan məlum olur ki, Əhməd Şahidov Gülər Əhmədovaya səbrli olmağı, onsuz mətbuata heç bir açıqlama verməməyi tapşırır və “skype”la danışmaları üçün öz aralarında vaxt müəyyən edirlər.

4. Gülər Əhmədovanın adına qeydiyyatda olmuş 0503619989 saylı mobil nömrə 08.01.2009-cu il tarixdən son dövrə kimi Gülər Əhmədovanın əri Fikrət Əhmədovun istifadəsində olmuşdur. Mesajlardan görünür ki, həmin nömrədən 2012-ci ilin noyabr ayından 2013-cü ilin mart ayına kimi Gülər Əhmədova istifadə edərək Türkiyə vətəndaşı Mete Kayaya və istintaqa məlum olmayan şəxslərə iş üçün aşağıdakı əhəmiyyətli mesajlar göndərmişdir:

1. 08/04/2012,16:52:53, “Ben mete kavanin arkadasi nuri musait olunca araya bilirmisiniz”,

2. 22/11/2012,21:05:19, “Gulerdir”

3. 05/12/2012,01:54:32, “Mete abi selam, arkadashlara ulashamiyorum cok acil”.

4. Roza Fərzəliyevaya məxsus 0503402607 saylı nömrə ilə Gülər Əhmədovanın, əri Fikrət Əhmədovun, eləcə də, Sevinc Babayevanın istifadəsində olmuş mobil nömrələr arasında kifayət qədər zənglər və danışıqlar müəyyən edildi.

5. 11.06.2005-ci ildə Sevinc Babayevanın adına qeydiyyatda olmuş 0503402002 saylı mobil nömrə ilə Gülər Əhmədovanın istifadəsində olmuş 0502227373 saylı nömrə arasında iki dəfə danışıq olmuşdur. Həmin nömrə Sevinc Babayevanın istifadəsində olan zaman Abdullayev Elşad İslam oğluna məxsus 0502110535 nömrəsi arasında 21.01.2005-ci il, 10.03.2005-ci il və 17.09.2006-cı ildə üç dəfə danışıq olmuşdur.

6. 2005 və 2006-cı illərdə Sevinc Babayevanın istifadəsində olan 0503004270 saylı mobil nömrə ilə Gülər Əhmədovanın həmin dövrdə istifadəsində olmuş 0502227373 və Elşad Abdullayevin həmin dövrdə istifadəsində olmuş 0502110535 saylı nömrələr kifayət qədər qarşılıqlı danışıqlar müəyyən edildi.

7. 18.06.2012 və 14.08.2012 tarixləri arasında Sevinc Babayevanın istifadəsində olan 0502520630 saylı mobil nömrə ilə Gülər Əhmədovanın həmin dövrdə istifadəsində olmuş 0502116283 nömrəsi ilə 11 dəfə danışıq və mesajlaşma olmuşdur.

8. 0502110535 saylı mobil nömrəsi 30.09.2010-ci il tarixədək Abdullayev Elşad İslam oğlunun istifadəsində olmuşdur. Elşad Abdullayevin istifadəsində olmuş həmin nömrə ilə Sevinc Babayevanın istifadəsində olmuş 0502107377 saylı mobil nömrə arasında 04.01.2005-ci ildən 28.11.2008-ci ilə kimi olan dövrdə 247 dəfə (2005-ci ildə seçki ərəfəsində yəni 2005-ci ilin oktyabr- dekabr aylarında 95 dəfə telefon əlaqələri olmuşdur), Gülər Əhmədovanın istifadəsində olmuş 0502227373 saylı mobil nömrə arasında 27.10.2005-ci ildən 26.04.2006-cı ilə kimi olan dövrdə 17 dəfə (zənglərdən 15-i 2005-ci il seçki ərəfəsində olmuşdur) telefon əlaqələri olmuşdur.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

9. Sevinc Babayevanın istifadəsində olan 0502107377 saylı mobil nömrə ilə Gülər Əhmədovanın və Elşad Abdullayevin istifadəsində olmuş mobil nömrələr arasında 2005-ci ildə seçki ərəfəsində və seçkidən sonra kifayət qədər mesaj mübadiləsi və danışıq əlaqələri olmuşdur.

Cinayət işinin materiallarında olan "Azərbaycan Hava Yollan" QSC-nin Aviasiya Təhlükəsizlik idarəsindən daxil olmuş aviagörüntülərə baxış protokolundan görünür ki,

1. 22 sentyabr 2012-ci il tarixdə saat 00.50 dəqiqədə İstanbuldan Bakıya gələn Selçuk Ağlayan və onunla Bakıya gələn adları istintaqa məlum olmayan şəxsləri iş üzrə şahid qismində dindirilmiş Mövlayev Ülvü Kamal oğlu, Mövlayev Niyaməddin Kamal oğlu, onların yeznəsi Mete Kaya və digər bir nəfər şəxs qarşılamışdır.

2. 25 sentyabr 2012-ci il tarixdə saat 20.00-da Selçuk Ağlayan və onunla Bakıya gələn adları istintaqa məlum olmayan şəxsləri iş üzrə şahid qismində dindirilmiş Mövlayev Ülvü Kamal oğlu, onun yeznəsi Mete Kaya və Gülər Əhmədovanın oğlu Toğrul Əhmədov Bakıdan İstanbula yola salırlar və saat 20.01.35-də Selçuk Ağlayan Bakı Hava Limanında sərhəd buraxılış məntəqəsində qeydiyyatdan keçir.

3. 26.09.2012-ci il tarixdə saat 05.44 dəqiqədə Babayeva Sevinc Telman qızı "London" taksisi ilə H.Əliyev adına Bakı Hava limanına tək gələrək, ilk öncə əlində qırmızı və göy rəngli əl çantalarını aeroportun ikinci mərtəbəsində şimal terminalının ümumi nəzarətindən keçirmiş, saat 05.57 dəqiqədə isə sərhəd nəzarət buraxılış məntəqəsindən öz xarici pasportu ilə keçərək ölkəni tərk etmişdir.

4. 10.11.2012-ci il tarixdə saat 04.30 dəqiqədə Sevinc Babayevanın bacısı Səfərova Təranə Telman qızının və oğlu Məmmədov Ayxan Eldar oğlunun İstanbula getmələri üçün Hava Limanındakı nəzarət buraxılış məntəqəsindən eyni vaxtda keçmələri təhlükəsizlik kameraları tərəfindən fiksasiya edilmişdir.

5. 26.12.2012-ci il tarixdə saat 21.20-də anası ilə birlikdə Bakıdan İstanbula gedən Mövlayev Ülvü Kamal oğlunun və onları H.Əliyev adına Beynəlxalq Hava limanında yola salan qardaşı Niyaməddin Mövlayevin yanına 26.12.2012-ci il tarixdə saat 21.15 dəqiqədə Gülər Əhmədovanın oğlu Əhmədov Toğrul Fikrət oğlu gəlir. T.Əhmədov Ülvü və Niyaməddin Mövlayevlərlə mehribancasına görüşdükdən sonra Ülvü Mövlayevlə kənara çəkilərək söhbət edir və saat 21.19 dəqiqədə hava limanının daxilində siqaret çəkmək üçün xüsusi hazırlanmış şüşəbəndə daxil olurlar, bir dəqiqədən sonra oradan çıxıb Ülvü Mövlayev anası ilə birlikdə sərhəd buraxılış məntəqəsindən keçir. Bundan sonra Toğrul Əhmədovla Niyaməddin Mövlayev qısa söhbət edib sağollaşırlar.

Cinayət işinin materiallarında olan "SW Travel"-dən daxil olmuş 18 aprel 2013-cü il tarixli 221/01 saylı məktubdan görünür ki, sərnişin Babayeva Sevinc Telman qızına 26 sentyabr 2012-ci il tarixdə saat 02.54-də, Heydər Əliyev hava limanında AZAL-ın 26.09.2012-ci il tarixində səhər saat 07.50-də uçan J2 087 saylı reysinə birtərəfli elektron aviabilet rəsmiləşdirilmiş, sərnişin Sevinc Babayeva həmin reyslə uçmuş və Türkiyə vaxtı ilə saat 08.40-da İstanbulun Şəbihə Gökçən hava limanına enmişdir.

Cinayət işinin materiallarında olan sənədlərdən görünür ki, Gülər Əhmədova 17 dekabr 2012-ci il tarixdə saat 10.00-da Rüfət Hüseynovun İdarə etdiyi "Prado" markalı 90- RD-778 nömrə nişanlı avtomobillə ölkəni tərk edərək Gürcüstan Respublikasına gedərkən Qazax rayonu 2-ci Şıxlı sərhəd məntəqəsində saxlanılmış və istintaqa təhvil verilmişdir.

Cinayət işinə əlavə edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankınının 13 fevral 2013-cü il tarixli arayışından görünür ki, 2005-ci ilin oktyabr ayında 01 ABŞ dollarının

Azərbaycan manatına qarşı orta aylıq rəsmi məzənnəsi 0.9188, 2005-ci ilin noyabr ayında isə 0.9191 olmuşdur.

Cinayət işinə əlavə edilmiş ilkin istintaqda qəbul edilmiş 13 avqust 2013-cü il tarixli "Sübutların qiymətləndirilməsi haqqında qəraradan görünür ki, görünür ki, 1) Abdullayev Elşad İslam oğlunun iş üzrə zərərçəkmiş şəxs qismində tanınması istisna edilmiş və onun rüşvət verməyə cəhd cinayəti faktına görə Azərbaycan Respublikası CM-nın 29, 312.1 -ci maddəsi ilə başqa cinayət işi ayrılması üçün ayrıca qərar qəbul edilmişdir;

2) Gülər Əhmədova barəsində yayınlanmış videoçəkilişin sübut kimi mötəbərliliyi, videogörüntüdə əks edilmiş hallar cinayət işi üzrə digər sübutlarla təsdiq olunduğundan və əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyin norması pozulmadığından Elşad Abdullayevin barəsində CM-nin 302.2-ci maddəsi ilə cinayət təqibinə xitam verilmişdir;

Cinayət işinə əlavə edilmiş Bakı Ağır Cinayətlər Məhkəməsinin qanuni qüvvəyə minmiş 22.05.2013-cü il tarixli hökmü və Bakı Appelyasiya Məhkəməsinin qanuni qüvvəyə minmiş 01.08.2013-cü il tarixli qərarı ilə Hüseyn Vaqif Əbdülhüseyn oğlu ABU-nun rektoru Elşad Abdullayevin universitetin fəaliyyətinin davam etdirilməsinə nail olmaq üçün vəzifəli şəxslərə çatdırması məqsədi ilə ona verdiyi cəmi 804.300 manat məbləğində külli miqdarda rüşvəti aldatma yolu ilə ələ keçirdiyinə görə Azərbaycan Respublikası CM-nin 178.3.2-ci maddəsi ilə təqsirli hesab edilmiş və 04 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

Cinayət işinə əlavə edilmiş Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının 10 dekabr 2012-ci il tarixli, 33/3-11 saylı məktubundan görünür ki, Hüseyn Vaqif Əbdülhüseyn oğlu 19 may 1993-cu il tarixdən 25 may 2010-cu il tarixədək Azerbaycan Respublikası Nazirlər Kabinetində işləmiş, 1993-cü ilin iyun ayından 1995-ci ilin may ayına qədər Nazirlər Kabinetinin Səhiyyə sosial problemlər şöbəsinin müdir müavini olmuş, qalan illər ərzində isə Baş nazirin müavinin köməkçisi vəzifəsində fəaliyyət göstərmiş, 25 may 2010-cu il tarixdə səhhətində yaranmış problemləri səbəb göstərərək, rəsmi müraciət etdikdən sonra tutduğu vəzifəsindən azad olunmuşdur.

Cinayət işinə əlavə edilmiş «İnsan Haqları Uğrunda» İctimai Birliyin rəhbəri Eynulla Fətullayevin 03 oktyabr 2012-ci il tarixli, 43/ç saylı məktubu ilə Azərbaycan Respublikası Baş Prokurorluğuna göndərilən «14.IV.2010 Vaqif», «11.IV.2010 l)Vaqif 2) Ənvər», «Vaqif ofis 09.», «1. Ənvər 2 Hacı Əyyub 3. Eldar 4 İsmayıl 10.IV.2010.», «12.IV.2010 1.Eldar 2.İsmayıl 3 Elşad 4 Elsevər» videodisklərə baxış protokolundan görünür ki, həmin disklərdə əks olunmuş video görüntülərdə Elşad Abdullayev təqsirləndirilən şəxs Vaqif Hüseynə ABU-nə tələbə qəbulu üçün plan yerinin alınması məqsədilə 1.000.000 ABŞ dolları vermiş, Vaqif vəd etdiyi məsələni həll etmədikdə, həmçinin aldığı pulu qaytarmaqdan imtina etdikdə bununla bağlı onların arasında mübahisələr yaranmış, Vaqif Hüseyn isə danışıq zamanı tələbə qəbulu üçün əlavə plan yerinin ayrılması məsələsinin guya həll edəcəyi məqsədilə Elşaddan 1.000.000 ABŞ dollarını götürməsini etiraf etmişdir.

Cinayət işinə əlavə edilmiş Məhkəmə-fonoskopik və portret ekspertizasının 10.12.2012-ci il tarixli 18478 saylı və 28.12.2012-ci il tarixli 18477 saylı rəylərinə əsasən, təqsirləndirilən şəxs Elşad Abdullayevin jurnalist Eynulla Fətullayevə verdiyi və sonuncu tərəfindən istintaqa təqdim olunan disklərdəki danışıqların məzmununun, səs və görüntülərin eyniləşdirici tədqiqat üçün yararlı olmaqla, Vaqif Hüseynə məxsusluğu müəyyən edilmişdir. Həmçinin, ABU-nə tələbə qəbulu üçün plan yerinin ayrılması

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

məqsədilə, bununla bağlı verilən pulun məbləği ilə əlaqədar Elşad Abdullayev və Vaqif Hüseyn arasında aşağıdakı məzmunda söhbət aparılır;

K1 - İndi Vaqif, qurban olum mənim bu işimi, qardaş, ba eliyəmməsən 2 milyon alacam sənnən;

K2 - Heç 2 milyon almıyassan. Nə mənnən çıxarda bilərsən pul, nə onnan;

K1 - Ə, mənim işimi gör də;

K2 - İntəhəsa, bütün gücümü. Sən mənə helə söz demə.

K1 - Bə nə deyim?»,

K2 - Bir milyon dollar;

K1 - Manat;

K2 - Manat döyüldü;

K1 - Hə, manat. Manatnan işləyir də hamı;

K2- Yox e, mənə dollar vermisən;

K1 - Keçən il, 3 ildi manatnan işdiyirik də;

K2 - Yox e, dollar vermisən də;

K1 - Manat, manat, manat. Nə fərqi var e, bir milyon dollar, 1 milyon manat. Sən manat hesab eləyirsən, yoxsa dollar hesab eliyirsən?

K2 - Yox e, mənim səsimi-zadımı yazma e;

K1 - Yazmıram, yazan erməndi;

K2 - Ay sağ ol. (unison danışıq) Sən mənə bir milyon dollar ...;

K1 - Vaqif, sənə bir dənə söz deyim. Mənim bu plan məsələsi var a, mənim planım alınsın, mənim heç kimə şikayətim - zadım yoxdur. Bura bax, bu 17 ildi mən plan alıram. Gedib bir adama şikayət eləmişəm?;

K3 - Yox. Əşi heç şəxsiyyətinə yaraşmaz axı o.

Cinayət işinə əlavə edilmiş Baxış protokolundan görünür ki, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınli küçəsi 9 ünvanda yerləşən ofis 9 mərtəbəli binanın 1-ci mərtəbəsində yerləşməklə oraya giriş İsmayıl bəy Qutqaşınli küçəsinə baxan iki laylı dəmir qapıdan həyata keçirilir. Qeyd olunan qapıdan içəri keçdikdə dəhlizdən sol tərəf hissədə hər birinin arasında qapı olan dörd ədəd otaq və sanitar qovşaq yerləşmişdir. Dəhlizdən sağ tərəfdə yerləşən hissədə isə ensiz keçiddən sol tərəfdə ağ rəngli plastik və şüşə materialdan qapısı olan otağın orta hissəsində ətrafında stulları ilə birlikdə masa, qapıdan sağ tərəfdə olan divarın önündə divan-kreslo, üzbəüz divarın qarşısında mebel, yuxarı hissədə isə kiçik pəncərələr vardır. Otağın döşəməsi boz rəngli materialdan, divarları, həmçinin tavanı lambirindir, giriş qapısından sol divarda içərisindən naqil sallanan kiçik dəlik vardır. Baxışda iştirak edən Azad Mursaliyev həmin hissədə kamera quraşdırıldığını bildirmişdir. Bundan əlavə qeyd olunan otaqla üzbəüz xidməti otağın giriş qapısının yuxarı sağ hissəsində içərisindən naqil sallanmış kiçik dəlik aşkar olunmuş, Azad Mursaliyevin sözlərinə əsasən həmin dəlikdə də əvvəllər kamera olmuşdur. Hüseyn Vaqif Əbdülhüseyn oğlu ilə Abdullayev Elşad İslam oğlu arasında sonuncunun rəhbərlik etdiyi Azərbaycan Beynəlxalq Universitetinə əlavə tələbə qəbulu yerinin verilməsi məsələsinin həll olunması ilə bağlı aparılan danışıqlar zamanı Elşad Abdullayev tərəfindən qeydiyyata alınmış və sonradan istintaqa təqdim olunan videogörüntülərdə əks olunan məkanla həmin ofisin şəraiti uyğunluq təşkil edir.

Cinayət işinin materiallarına əlavə edilmiş sənədlərin könüllü sürətdə təqdim edilməsi və götürülməsi haqqında protokola əsasən, Vaqif Hüseyn tərəfindən könüllü surətdə istintaqa türk dilində tərtib olunmuş satış sözləşməsinin surətlərindən ibarət sənədlər təqdim olunmuşdur. Türk dilindən azərbaycan dlinə tərcümə olunaraq cinayət işinin materiallarına əlavə olunmuş həmin sənədlərin məzmunundan görünür ki, 19

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

avqust 2011-ci il tarixdə alıcı Elşad Abdullayevin vəkalətnaməsinə uyğun olaraq sonuncunun adından İsmayıl Abdullayev, satıcı Rəşad Hüseyn və şahidlər Erhan, həmçinin Ercan Arıklıların iştirakı ilə imzalanan satış müqaviləsinə əsasən Kipr Türk Respublikasında olan supermarket satıcının 400.000 ABŞ dolları borcu müqabilində alıcının adına rəsmiləşdirilmişdir.

Cinayət işinin materiallarına əlavə edilmiş Bakı Ağır Cinayətlər Məhkəməsinin qanuni qüvvəyə minmiş 1(101)-559/2013 saylı 01.07.2013-cü il tarixli hökmü ilə Ağayev Nəriman Salman oğlu ABU-nun rektoru Elşad Abdullayevin ona verdiyi cəmi 604.403 manat məbləğində külli miqdarda rüşvəti aldatma yolu ilə ələ keçirdiyinə görə Azərbaycan Respublikası CM-nin 178.3.2-ci maddəsi ilə təqsirli hesab edilmiş və 04 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

Cinayət işinin materiallarına əlavə edilmiş təqsirləndirilən şəxs Elşad Abdullayevin Nəriman Ağayevlə apardığı danışıqların qeydə alındığı videodisklərə baxış protokolundan görünür ki, həmin video-görüntülərdə Elşad Abdullayevin təqsirləndirilən şəxs Ağayev Nəriman Salman oğluna yaşadığı Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi, 8a ünvanında yerləşən evinin sənədlərinin düzəldilməsi və həmin evin qarşısındakı torpaq sahəsinin alınması üçün rüşvət qismində vəzifəli şəxslərə çatdırılması məqsədilə 2010-cu ilin əvvəllərində müvafiq dövrün rəsmi valyuta məzənnəsinə uyğun 104.403 manata bərabər 130.000 ABŞ dolları, habelə rəhbərlik etdiyi Azərbaycan Beynəlxalq Universitetinin idman kompleksinin sökülməməsindən ötrü oradan salınması nəzərdə tutulan Bakı metropoliteninin yeni tikiləcək xəttinin kənardan keçirilməsi, sonra isə universitetin fəaliyyətində aşkarlanmış nöqsanlara görə 2010-2011 -ci tədris ili üçün tələbə qəbulu planını qanuni yolla əldə edə bilməyəcəyi səbəbindən, tələbə qəbulu planını və beləliklə universitetin fəaliyyətinin davam etdirilməsini təmin etmək üçün eyni məqsədilə 2010-cu ilin aprel ayında 500.000 manat məbləğlərində pul vəsaitləri verməsi, Nəriman Ağayevin isə guya göstərilən məsələləri həll edəcəyi barədə yalan vəd verərək Elşad Abdullayevin etibarından istifadə etməklə və aldatmaqla həmin məbləğləri ələ keçirməsi səbəbindən bununla bağlı aralarında mübahisələrinin olmasını əks etdirən söhbətlər aparılmışdır.

Cinayət işinin materiallarına əlavə edilmiş məhkəmə-portret ekspertizasının 29 dekabr 2012-ci il tarixli 19450 №-li rəyindən görünür ki, tədqiqata təqdim edilmiş üzərində «3 Nəriman - ofis ($) 25.V.2010» yazıları olan zərfin içərisinə qoyulmuş diskdə əks olunmuş, açıq rəngli şalvar, köynək və tünd rəngli qalstuk geyinmiş, stolun sağ tərəfində əyləşən kişi cinsli şəxsin, üzərində «4 07.IX.2010 Nəriman» yazıları olan zərfin içərisinə qoyulmuş diskdə əks olunmuş stolun baş tərəfində oturan kişi cinsli şəxsin sol tərəfində 2- ci əyləşən kişi cinsli şəxsin, üzərində «5 14.V.2010 Nəriman ofıs» yazıları olan zərfin içərisinə qoyulmuş diskdə əks olunmuş stolun baş tərəfində oturan kişi cinsli şəxsin sol tərəfində əyləşən kişi cinsli şəxsin, üzərində «8 10.IX.2010 Nəriman ofis» yazıları olan zərfin içərisinə qoyulmuş diskdə əks olunmuş, stolun baş tərəfində oturan kişi cinsli şəxslə qarşı- qarşıya, 46:50 saniyədə isə əyləşən kişi cinsli şəxsin, üzərində «16 19.VI.2010 Nəriman pulu qaytar» yazıları olan zərfin içərisinə qoyulmuş diskdə əks olunmuş, 06:00-cı saniyədə gələrək stol ətrafında əyləşən kişi cinsli şəxsin vileo görüntülərdə və video görüntülərindən çıxarılmış fotoşəkillərdə əks olunmuş bir sıra xarici görünüş elementlərinin xüsusiyyətləri və əlamətləri eyniləşdirmə tədqiqatı üçün yararlıdır. Tədqiqata təqdim edilmiş disklərdə əks olunmuş video görüntülərdə və video görüntülərindən çıxarılmış fotoşəkillərdə və Ağayev Nəriman Salman oğlunun eksperimental video çəkilişində və video çəkilişindən çıxarılmış fotokşəkillərində eyni bir şəxs əks olunmuşdur.

Cinayət işinin materiallarına əlavə edilmiş Təqsirləndirilən şəxs Elşad Abdullayevin Nəriman Ağayevlə apardığı danışıqların qeydə alındığı disklərə baxış protokolundan görünür ki, həmin disklərdə əks olunmuş video görüntülərdə Elşad Abdullayev təqsirləndirilən şəxs Nəriman Ağayevə Azərbaycan Beynəlxalq Universitetinin idman kompleksinin sökülməməsindən ötrü oradan salınması nəzərdə tutulan Bakı metropoliteninin yeni tikiləcək xəttinin kənardan keçirilməsi və ABU-ya tələbə qəbulu üçün plan yerlərinin alınması məqsədilə 500.000 manat vermiş, Nəriman Ağayev vəd etdiyi məsələni həll etmədikdə, həmçinin aldığı pulu qaytarmaqdan imtina etdikdə bununla bağlı onların arasında mübahisələr yaranmış, Nəriman Ağayev isə danışıq zamanı Elşaddan evin sənədlərinin düzəldilməsi və həmin evin qarşısındakı torpaq sahəsinin alınması üçün 130.000 ABŞ dolları, tələbə qəbulu üçün əlavə plan yerinin ayrılması məsələsinin guya həll edəcəyi məqsədilə 500.000 manatı götürməsini etiraf etmişdir.

Cinayət işinə əlavə edilmiş 12 oktyabr 2012-ci il tarixli disklərə baxış protokolundan görünür ki,

1) üzərində «Nəriman ofis ($) 25.V.2010» yazıları olan diskdəki videoyazının müddəti 13.03 dəqiqədir. Videogörüntüdə ovalvari masa arxasında 2 nəfərin əyləşdiyi görünür. İştirakçılar Elşad Abdullayev və Nəriman adlı şəxsdir. Birinci Nəriman daxil olur, sonra E.Abdullayev. E.Abdullayev qapıya tərəf naməlum şəxsə müraciət edir və «Gətir» sözünü deyir.

Nəriman: Bunun məsuliyyəti də var.

E.Abdullayev: Ə sən zarafat eləyirsən?! Mən zarafat eləmirəm, mən ciddiyəm bu məsələdə. Nəriman, nə olub sənə, canın pisləşib,nədir?

Nəriman: Qurtarırıq, inşallah.

E.Abdullayev: Yox e pullarım hanı?

Yazının 00.36 dəqiqəsində bin nəfər kişi cinsindən şəxs içəri bir qara rəngli diplomat gətirir və masa üzərinə E.Abdullayevin qabağına qoyur.

E.Abdullayev: Qapını bağla (diplomatı gətirən şəxsə deyir).

Nərimanın telefonuna zəng gəlir, o, telefonu söndürür. Bu zaman E.Abdullayev diplomatı açır. Diplomat açıldıqda içərisi rəngli polietilen paketi ilə örtülmüş vəziyyətdədir. E.Abdullayev polietilen paketini üzərindən götürür və diplomatın içərisində pul bağlamaları görünür.

E.Abdullayev: Bunu saymağa ehtiyac var?

Nəriman: Yox.

E.Abdullayev diplomantdan pulları bank bağlamalarla bağlanılmış vəziyyətdə diplomatdan çıxardıb nərimanın qabağına qoyub sayır:

E.Abdullayev: (birinci bağlamanı çıxardanda sağ əlinin barmağı ilə bağlamada olan pulun paçkalarını sayır) bir, iki, üç, dörd, beş, beşi də bu tərədə.

Nəriman: (bağlamaya baxır, yoxlayır) On dənə.

E.Abdullayev: (ikinci bağlamanı çıxardanda sağ əlinin barmağı ilə bağlamada olan pulun paçkalarını sayır) bir, iki, üç, dörd, beş, beşi də bu tərədə.

Nəriman: (bağlamaya baxır, yoxlayır) On dənə.

E.Abdullayev: (üçüncü bağlamanı çıxardanda sağ əlinin barmağı ilə bağlamada olan pulun paçkalarını sayır) bir, iki, üç, dörd, beş. Saymamışam. Bunu da borca almışam. Allaha and olsun.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

E.Abdullayev: (dördüncü bağlamanı çıxardanda sağ əlinin barmağı ilə bağlamada olan pulun paçkalarını sayır) bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on. On da burda.

Nəriman: (baxır) on dənədir, paçkadı da.

E.Abdullayev: (beşinci bağlamanı çıxardanda sağ əlinin barmağı ilə bağlamada olan pulun paçkalarını sayır) bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on. Sonra masa üzərində Nərimanın qabağında olan pul bağlamaları bir-bir sayır:

E.Abdullayev: bir, iki, üç, dörd, beş. Beş yüz (500) min. Ged denən TQDK-dən planın kopiyasını al, gətir, 250 də verirəm.

Nəriman: Bunlar belə dedilər, onda az verək, mən burdan bir dənə iki dənə, heç kimə verən deyiləm. Bu bir, mən buna cavab verirəm, halım da yoxdur. Danışmışıq. Uje məsələni şey eləyəndə...

E.Abdullayev: Deyirəm, verəcəm sənə, məndən alarsan. Sənə sən öl demirəm, öz canım üçün. Misir məndən plana görə 1 milyon alıb, 700.000 də keçən ildən borcludur. 1.700.000 plana görə Misirdədir. Bir. Sən mənim canım, Ramiz müəllimə çatmasa. Amma özün bil. Onun yaxın qohumu 50 min məndən alıb. Nəriman: Alınsaydı, o deyərdi.

E.Abdullayev: Deməli onların yaxınları moşenniklik eləyir.

Nəriman: Onları buraxmır.

E.Abdullayev: Hə də, buraxmır. Keçən il, o, bu il də bu. Həmin söhbət zamanı Nəriman pul bağlamaları yenidən diplomata yığır, sonra E.Abdullayev bağlamaları daha səliqəli yerləşdirir.

Nəriman: Mən bunlar dünənlərim ... hamısı... çatmayıbsa, desələr

E.Abdullayev: Lap yaxşı.

Nəriman: Götürməyin, havaxt şey olsa onda... Mənə heç nə lazım deyil.

E.Abdullayev: Bilirəm, məndən istə.

Nəriman: Əsas iş düzəlsin. E.Abdullayev: apar Ramiz müəllimə çatdır. Onu Mehriban xanımın köməkçi də ...(başa düşülmür). Nəriman başını yellətməklə bunu inkar edir. Nəriman: Öz arvadı burada iştirak edib.

E.Abdullayev: qaynana?

Nəriman: Özü sonra deyib, bilmirəm ... Sonra danışıb, düşüb aşağa. Mən onlara pul vermirəm, bir şey eləmirəm.

E.Abdullayev: Onun da yanında olmuşam, bunun da yanında. O birilər söz verdi.. Qurban olum, mənim işimdir. Plansız işləyə bilmirəm. Allaha and olsun Ramiz müəllimə pul vermişəm ... ala bilmirəm onu.

Nəriman: Çatmayıb ona. Bu söhbət zamanı E.Abdullayev içərisində pul bağlamaları olan diplomatın üstünü əvvəlki polietiln paketi ilə örtür və diplomatı bağlayır. Sonra pulla olan diplomatı masanın Nərimanın oturduğu tərəfə qoyur.

E.Abdullayev: Ala, halal-xoşları olsun. Qardaş, burada 500 min, Elə deyil. Plan çıxan kimi, 250-ni də verəcəm. Qalsın bunlarda. Qarant mənəm.

Nəriman: (diplomatın tutacağından sol əli ilə tutur sağ əlini isə diplomatın aşağı hissəsinə qoyur) İndi gedirəm. Mən onsuz da, onlarla bu gün söhbət eləməliyəm. Pul zad verən deyiləm.

E.Abdullayev: Bura bax. 200 min metro ilə bağlı səndədir, 200 də... Nəriman: 200 məndə deyil, E.Abdullayev: 130 da evlə bağlıdır.

Nəriman: Bu işlərlə qurtarım (diplomatı göstərir) onu da verirəm sənə.

E.Abdullayev: Bunu həll elə, sən mənim canım.

Nəriman: Amma o 200 şey mənim ayağıma yazma, xahiş edirəm, arvadı

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

E.Abdullayev: Yox, arvadla bu gün danışdıq. Dedi, gəlirəm bu günlərdə. 200 ondadır. Macarıstanda yaxşı işlərim var. Orada səni də ...götürüb gələ bilərsən. Dedim Nəriman sənin haqqında nəsə şübhələnir. Tez gəl. Dedi bu həftə 2-3-cü gün gələcəm....müəyyən işlər olmalıdır. Nəriman: ...

E.Abdullayev: Deməli, Nəriman müəllim, əsas plan məsələsidir. Mənim planımı yekunlaşdır. Sənə söz deyirəm, öz işimdir, Ramiz müəllimə elə də çatdır.

Nəriman: Heç kəsə heç nə çatmayıb.

E.Abdullayev: Götürməyib də.

Nəriman: Belə şey olsaydı bunlar belə (söyüş söyür) eləməzdi.

E.Abdullayev: ... mənim tələbə yoldaşımdır, o da bunun qohumudur...adını çəkirlər.

Nəriman: Bəs niyə ..

E.Abdullayev: Adını çəkmirlər.

Nəriman: Yox, adını çəkmirəm. Mənim camaatla işim yoxdur.

E.Abdullayev: Sən bunu (işarə edir diplomata) planla bağlı denən. Alınandırsa, alınan şeydir. Sən bunu Ramizlə eləyirsən? (Nəriman dürür)

Nəriman: Özü ilə, özü ilə. Başqa adamla mənim işim yoxdur.... Oturub fikirləşibfikirləşib, sonra deyib ki, mən sənə deyəcəm... Dünən bunun jurnalı çıxmalı idi.

E.Abdullayev: Bu gün 25-dir, bu gün çıxmalı idi.

Nəriman: Çıxmadı ki. Jurnalı atdılar qırağa.

E.Abdullayev: Bunu təcili apar qayda qanun yarad orada. Bir də otur sənə bir - iki sözüm var, qardaşımsan. (Nəriman oturur)

E.Abdullayev: Nəriman müəllim, mənim bir qardaşımı oğurlayıblar, onu bilirsən. Universiteti də bağlayırlar. Bu nədir? Dövlətə bizdən çox xidmət eləyən yoxdur. Heydər Əliyevin heykəlini qoymuşuq. Sən Allah, apar qoy qabağlarına. Allaha and olsun, müxəlifətə görədir

Nəriman: Narahat olmayın, girəcəyəm içəri, çalışacağam Sizi qəbul eləsin.

E.Abdullayev: Məni qəbul eləsin. Sonra bax yoldaşı, adamı kimdirsə, ... dursun ağsaqqalıq eləsin.

Nəriman: Özü ilə-özü ilə.

E.Abdullayev: Bilirəm qardaşı kimdir, dəfələrlə yanında oturmuşuq, 4-5 dəfə məndən xahiş eləyib. Yaxşı tanıyır məni . Denən Ramiz müəllim, nə olsun ki, adamı yoxdur. 10 il Adil müəllimlə işləmişik. Bir adam qoşsun işləyək də.

Nəriman: İndi bunu eləyim, sonra özünüz oturub söhbət eləyərsiniz. Çalışacağam ki..

E.Abdullayev: Məni sal onun qəbuluna. Nəriman. Salım özünü ki, onunla tez-tez danış.

E.Abdullayev: Sonra nə problem qalıb? Maşının var?

Nəriman: Var.

E.Abdullayev: Maşın lazımdırsa, uşaqlara deyim aparsın. Nə fikirin var sənin?

Nəriman: Məni sıxtılar...

E.Abdullayev: Bu pulu (diplomata göstərir) bankdan götürmüşəm. Mən 1 dənə vermişəm buna ki, Ramiz müəllimə çatdırsın. Onun oğlu bütün günü yanındadır ... Mən bunlara etibar eləmirəm, ay kişi. ... Mən də getdim gözlədim axşam 10 qədər, sonra dedi get səhər saat 10-da gəl.... O da mənim tələbə yoldaşımdır, verəcək mənə, bu gün sabah. Dedim demirsən ki, işi həll edirəm.... Planı Qəbul komissiyasından ver, bax bu oldu iş. Çünki, orada plan gedəndə orada imzalar olur: Ramiz müəllim, Fatma,

İsmayıl Sadıxov, Elçin Əfəndiyev, Misir Mərdanov. Bir də TQDK Məleykə, qəbul oldu. Bunlar nə yazırlar, o da bunu qəbul eləyir. Məleykəlik burada işi yoxdur. Bu da şey olanda, mən gedirəm Məleykənin yanına ki, mənim planımın kopiyasını ver, o da mənə planın kopiyasını verir. Ya da mənə deyirlər ki, planı ged İsmayıl Sadıxovdan götür, Misirdən götür. Vsyo, mənim işim qurtardı.

Nəriman: İndi mən sizinlə zəngini gözləyim. Mən gedirəm ki, qəbul eləsin.

E.Abdullayev: Qaldı mənim metrom. Arvadla danışdım səhər. Mən hələ arvada ümid eləyirəm. ... bu arvadı bu həftə də oynad, görək nə çıxır.

Nərman: Yox e oynadım...

E.Abdullayev: Nəriman müəllim, mənim 200 nağdı vermişəm ona

Nəriman: (and içir) 250.000 manat vermişəm, kimdən gedib almışam, onu da deyirəm sənə. Mahirdən gedib götürmüşəm. Zamministr yoxdur...

E.Abdullayev: Mahirlə münasibətin var

Nəriman: Var, lap yaxınıq. Kəbriyəyə zəng edib ki, ged götür, yoxsa onlar lap dağıdırdılar

E.Abdullayev: Sonra mənim 100.000 torpağa görə qalıb, 30.000 də evə görə.

Nəriman: ... onu da verirəm, mən burdayam. ...

E.Abdullayev: ... qalan işlərdən danışmıram ki

Nəriman: Danışmaq söhbətindən getmir.

E.Abdullayev: Sən axı..

Nəriman: Mən olsam, mən kiməm?

E.Abdullayev: Ponyatno da, denən mən qarantam da.

Nəriman:Məndədir pul.

E.Abdullayev: Bir universitetin torpağından metro keçir...

Nəriman: Mənim başım çıxmır. Heç kəs fikirləşmir ki, bu metro hələ getsin. .. Mənim başım çıxmır. Niyə, axı bu kompleksdir. Sabah lazım olar, bir var 10 milyon, bir də var 20 milyon. Bununla bunun fərqi var.

E.Abdullayev: Sən canın kim deyir?

Nəriman: Heç kim demir e, hamısı başından eləyir. Birinin bu boyda (barmağı ilə işarə edir) ürəyi yanmır.

E.Abdullayev: Sonra nəyimiz qaldı?

Nəriman: Heç nəyimiz.

E.Abdullayev: Sən bir az ciddi ol bu işdə.

Nəriman: Mən gedirəm tezdəndən.

E.Abdullayev: Sən bu işi həll elə, sənə orada büst qoyacam.

Nəriman: ... Mən bu işləri düzüm-qoşum, gedirəm başqa yerdə işlərim var.

Yazının 11.45-ci dəqiqəsində Nəriman masa üzərində olan E.Abdullayevin verdiyi içərisində 500.000 məbləğində pul olan diplomatı götürür və otağı E.Abdullayevlə tərk edir. Aralarında söhbtət davam edir, lakin dəqiq sözləri eşitmək olmur.

2) Üzərində «07.IX.2010 Nəriman» yazıları olan diskdəki videoyazının müddəti 20.25 dəqiqədir. Videogörüntüdə ovalvari masa arxasında əvvəl 3 nəfərin əyləşdiyi görünür. İştirakçılar Elşad Abdullayev, Nəriman və Sədrəddindir. Söhbət hansısa tikinti işlərindən gedir. Guman edilir ki, metro xəttinin tikintisindən. «Qırmızı palasa»nın (Qırmızı xətt) keçməsindən, hansı istiqamətə dəyişmək mümkün olmasından danışılır. E.Abdullayev 500.000-nin Nərimanda olduğunu deyir, Nəriman da bu faktı təsdiqləyir, metroya görə 200.000-nin isə Nüşabə adlı qadına verildiyindən danışılır və hər iki tərəf bu faktı təsdiqləyir. E.Abdullayev Nərimandan pulun qaytarılmasını tələb edir, Nəriman

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

200.000 ona aidiyyəti olmadığını, qalan pulların qaytaracağını bildirir. Bundan sonra E.Abdullayev Nərimana torpağın rəsmiləşdirilməsi ilə əlaqədar 100.000 verdiyini bildirir, Nəriman bu faktı təsdiqləyərək, sənədlərin hazır olduğunu deyir və sənədlərin gətirəcəyini vəd edir. 30.000 isə evin icazəsinin alınması üçün Nərimana verdiyini bildirir, Nəriman bu faktı da təsdiqləyir. E.Abdullayev evin icazəsinin istəmədiyini və pulun qaytarmaq istədiyini deyir, Nəriman pulun bu məsələ ilə əlaqədar verdiyini bildirir, E.Abdullayev isə «onda icazəni ver» deyərək Nərimana müraciət edir.

Yazının 14.16-cı dəqiqəsində içəri İsmayıl Abdullayev daxil olur. E.Abdullayev İsmayılı Nərimana təqdim edir. Görüşürlər.

E.Abdullayev: Bu işləri təcili yekunlaşdırmaq lazımdır. Bax İsmayıl, 500, 100, 30.

Nəriman: ... sənədlərə görədir....

3) Üzərində «14.V.2010 Nəriman ofis» yazıları olan diskdəki videoyazının müddəti 26.38 dəqiqədir. Videogörüntüdə ovalvari masa arxasında 2 nəfərin - E.Abdullayevin və Nərimanın əyləşdiyi görünür. E.Abdullayevlə Nəriman arasında söhbət əvvəldən verilmiş puldan gedir. E.Abdullayev: 200.000 dolları Nüşabəyə vermişəm. 100.000 sənədə, bir də 200 min sənə vermişəm. Söhbətlərdən başqa ortada bir iş yoxdur.100 torpağa görə vermişəm sənə, torpaq necə oldu?

Nəriman: Orada bir problem çıxdı. Torpağı özəlləşdirdilər, sonra özəlləşməni ləğv elədilər. Məktub almışam oradan ...

E.Abdullayev: 30.000 dollar da vermişəm sənə evə görə o necə oldu?

Nəriman: bu məsələ ilə .. qlavnıy injener var orda ...

E.Abdullayev: düz 130.000 dollar səndə.

Nəriman: Mən etiraz eləmirəm. Problem yoxdur. Mən də vermişəm.

E.Abdullayev: 200.000 da vermişəm...

Nəriman: ... elə verək ki, sabah bunun problemi olmasın.

Sonra onlar metronun tikintisindən və orada yaranan texniki problemlərdən danışırlar.

Nəriman: Məni narahatçılıq edən bu metro məsələsidir. Niyə gətirib vermirsən?

E.Abdullayev: mən də 200 min vermişəm.

Nəriman: ... gətirdi mənə pulu göstərdi də. Dedim, mənə kusok-kusok eləmə, aparım hamısını bir yerdə verim. Metrodan bir xəbər yoxdur, zəng eləmirlər Sizə?

E.Abdullayev: Metronun əsas xətti bizim idman zalının yanından keçir. Düz 67 metr. Universitetə toxunmur. Proyekt var, Prezidentin stolunun üstündə olan proyektdir.

Nəriman: Qəbristanlıq problemi da var, qəbristanlıq problemi çıxıb ortaya.

E.Abdullayev: Proyekt Prezidentin stolunun üstündədir. ... Tağı atdanım düşüb, dedim Tağı bu iş sənlik deyil. ... Mənim bütün problemlərim qardaşımın üstündədir. Dedim ölüsünü, dirisini gətirsinlər ... Məndən başqa onlara çox hörmət eləyən yoxdur.

Nəriman: ...

E.Abdullayev: Məleykənin? Onluq bir şey yoxdur, yuxarıdan deyiblər.

Nəriman: Fatmanın sözü də keçmir.

E.Abdullayev: 200.000 mən qoymuşam, o da deyib 500.000 də mən qoyuram. Bütün koordenatları vermişəm. ..

Nəriman: Yaxşı, nə olacaq bunun axrı?

E.Abdullayev: Sənə deyim, pis adam deyil...Psixologiyanı gözəl bilir.

Nəriman: Kim kimi ilə necə eləməy olar. Falçılıqdan danışırlar

E.Abdullayev: Nəriman, mənim nə qədər işim var. Bax bu metro, travmadı, evin proyekti, torpaq məsələsi. Hamısı açıq qalıb axı.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Nəriman: Yox, torpağınızı həll eləmişik.
E.Abdullayev: Hanı bəs.
Nəriman: Prosto dedi ki, mən onu kupça eləyərəm.
E.Abdullayev: 100.000 dollar vermişəm, hansı o...
Nəriman: ... eləmişəm. .. ona görə gəldik Nərminənin yanına ...
Söhbətləri konkret başa düşmək olmur.
E.Abdullayev: Qoy arvad gəlsin sən ona konkret denən bu məsələni həll eləsin.
Nəriman: Yaxşı deyəcəm.
E.Abdullayev: 200.000 vermədin bunlara, denən kişinin pulunu qaytarsınlar.

4) Üzərində «10.IX.2010 Nəriman ofis» yazıları olan diskdəki videoyazının müddəti 1 saat 25.28 dəqiqədir.
Nəriman: Vəziyyət necədir?
E.Abdullayev: Vəziyyət çox gərgindir. Nəriman, mənə sroçnu, mən bilmirəm, mənə pul ver. İmkan varsa, qaytarmaq şərtilə. Məni öldürürlər, Allaha and olsun Qalmışam belə, mənə kömək elə. ... oyundan çıxaq, ona görə pul lazımdır. ... 1,7 ... iki yüz ona qalacaq, 1,5 .. 10% işləyirlər... Mənim pulum var vermişəm müəyyən işlərlə bağlı...gücləri çatmır...
Nəriman: bəlkəm çerez Bəylər tapşıraq.
E.Abdullayev: ...Özü çıxsa, inanıram alına bilər...
Nəriman: ... mənim yadımdan çıxıb, Ramiz...Denən ki, mənim ehtiyacım var 1-2 milyona
E.Abdullayev: 5 milyona, lap 2 milyona.
Nəriman:... sonra gedək Moskvaya.
E.Abdullayev: 10 milyon bankdan kredit götürək.
Nəriman: Seyid nə dedi?
E.Abdullayev: Prokuror?
Nəriman: yox...işləyən
E.Abdullayev: Denən görüşdürsün...
Yazının 1.18.33 dəqiqəsində içəri İsmayıl Abdullayev daxil olur. Bir daha söhbətin məzmununu aydın eşitmək olmur.
E.Abdullayev: Onda Nəriman sən mənim zəngimi gözlə...
Nəriman: Yaxşı, sən Moskvanı nahaq yerə... sən bunu elə mən polojeniya.. 23 min nağd mən sənə... 100%
E.Abdullayev: ...şoferlə danış, həll eləyə bilərsə eləyək.
Nəriman: Mənə heç nə lazım deyil. .. prosto maşında desin ki, Ramiz müəllim filankəs səninlə görşmək istəyir.
E.Abdullayev: Sənin hörmətini eləyəcəyəm.
Nəriman: ... 100 minə saldırmışam...bir dənə xanımın özü...
Yazının 01.24.40-cı dəqiqədə Nəriman otağı tərk edir, İsmayıl E.Abdullayevin yanında əyləşir. Söhbət davam edir, lakin başa düşülmür.

5) Üzərində «19.VI.2010 Nəriman: Pulu qaytar» yazıları olan diskdəki videoyazının müddəti 49.51-dəqiqədir. Nəriman otağa daxil olur, masa arxasında əyləşir, E.Abdullayev də onunla üzbəüz əyləşir. E.Abdullayev çay sifariş edir. Nərimanın başa düşülməyən sözünə E.Abdullayev kəskin cavab verir.
E.Abdullayev: Sən zarafat eləyirsən? Mən heç kimlə zarafat eləmirəm.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Nəriman: Onlar məni gecəyə qədər saxlayırlar .. sonra otboy verirlər. Bu gün görək, navernoye, bu gün görüşəcəyik. Tam vsyo normalno. Bir də dəyiblər ki, orada bir var, ona görə saxlayıblar. Nəyisə uje təsdiqləsinlər. Sənin adın düşəcək jurnala. 100%.

E.Abdullayev: Denən qurtarın da, yekə oğlansan.

Nəriman: onları da saxlatmışam

E.Abdullayev: Nə dedi sənə?

Nərimian: Dedi ki, bəs Siz pul vermişdiz a, mənə dedi ki, hamısı...

E.Abdullayev: Birinci yoxsa ikinci ?

Nəriman: Yox, ikinci. Dedim hamısı hazırdır, məndədir.

E.Abdullayev: Denən bu nə oyundur. Əvvəl dedin 500, sonra iki yüz, sonra qaldırdın iki milyona, sən özün şübhəli danışırsan.

Nəriman: Yox, yox, mənlik deyil, Sizin də işiniz deyil.

E.Abdullayev: Necə yəni, əvvəl deyirsən 500, sonra 200.

Nəriman: Yazdıra bilirsinizsə, yazdırın, lap mən də kömək edim. Mən başqa söhbətlər etmişəm. Bunu dedilər (sağ əlinin 5 barmağını göstərir) mən dedim başınız xarabdır. Buna görə nə eləmişdin, məndədir bax hazıram. Dedilər, lap yaxşı, maşındadır? Dedim, mənim maşınımdadır. ...Göstərdim... Maşını da yola saldım mən.

E.Abdullayev: Nəriman bu şeylə zarafat eləyirsən sən? Mən zarafat eləmirəm.

Nəriman: Mənim prinsipcə inamım var, dedilər, mən də dedim hazırdı məndədir. Hardadır, nədir, göstərin. Amma iş ondadır, məndə desəydilər ki, gətir, qoy pulu ortalığa, mən onda yanmışdım. ...

E.Abdullayev: 500 onlardadır. Elə deyil? 2 milyon da verəcəyik, elə deyil? (Nəriman təsdiqləyir) Denən, qardaş, narahat olma, denən mən plana baxım,

Nəriman: Siz onu biləcəksiniz, Elşad müəllim. Söhbət ondan getmir. Gör bunlar nə qədər şeydilər ki, onlar məni də qorxudurlar axı.

E.Abdullayev: Denən işinə arxayınsansa, işini həll eləyirsənsə, məni qorumağa ehtiyac yoxdur.

Nəriman: bunu yuxarıda oturan başa düşmür. Buna görə demişik ki, qoy jurnal çıxsın, axşam..

E.Abdullayev: Həmin gün qurtarırıq, həmin dəqiqə, həmin səniyə

Nəriman: hazır ol, jurnalda ki, okey almışıq, onda gəl, təhvil-təslim eləyək. Sənə deyəcəyəm, nə qədər, nədir, hamısı.

Bu mövzuda söhbət davam edir, verilmiş pulun müqabilində Universitet üçün planın alınması, ilkin 500 min manatının çatdırılması, plan çıxandan sonra əlavə 2 milyonun verilməsi ətrafında söhbət təkrarlanır.

Bu söhbət əsnasında aşağıdakı dialoqlar mövcuddur:

E.Abdullayev: Nə vaxt verim pulu?

Nəriman: Bu axşam görüşüm var, bizə deyəcəklər.

E.Abdullayev: Notariusda 3 milyon vermişəm qardaşıma görə

Nəriman: Sizin qardaşınız sağdır.

E.Abdullayev:... buraxsınlar da

Nəriman: Siz axı hər şeyi bilirsiniz.

E.Abdullayev: Bəli mən bilirəm. Qardaşımı Hilal Əsədovun göstərişi ilə aparıblar.

E.Abdullayev: Bu adam kiminlə işləyir, Ramiz Mehdiyevlə ya Nərgiz Paşayeva ilə?

Nəriman: Mən bilmirəm, mənə demirlər.

E.Abdullayev: Nüşabəyə 200 min dollar vermişəm 500 min özü verməli idi, indi telefona cavab vermir. 200 mini sənə görə vermişəm.

Nəriman: Zəng edə (sonra yazı kəsilir, təzdən başlayır)

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Nəriman: Jurnalı sizin məsələnizə görə saxlayıblar.
E.Abdullayev: 500 min vermişəm, 2 milyonu da verim...
Nəriman: Hazır ol, mənə lazım deyil..
E.Abdullayev: sonra demə ki, 3 milyondur.
Nəriman: Sən bilmirsən ki, söhbət 5 milyondan başladı, biz özümüz aşağı saldırdıq. ... Bu vaxta qədər jurnal qalmamışdır. ... Universitetin məsələsi həll olunmasa, söz vermişəm, bu kişini (E.Abdullayevi göstərir) deputat eləyəcəm.
E.Abdullayev: Mənim sabah Nərgiz Paşayeva ilə görüşüm olacaq.
Nəriman: Ehtiyac yoxdur. Onlar (yəni N.Paşayeva və kimsə) düz gəlmir, bir-birlərini görən gözləri yoxdur. .. biz bunu fikirləşmişdik, amma onların bir-biri ilə düz gəlmir.
E.Abdullayev: Sən bunu Nərgizlə ya Ramiz Mehdiyevlə eləmisən?
Nəriman: (barmağla yuxarı işarə ilə göstərir) ora ilə
E.Abdullayev: Ramiz Mehdiyevlə?
Nəriman: Hə.
E.Abdullayev: Amma mən elə bilirəm Nərgizlə eləmisən.
Nəriman: Yox. Mən çıxardım lap (barmağı ilə 1 işarəsini göstərir) prosto bu imkan vermir.
E.Abdullayev: Komisiyanın sədri odur, o razılıq verməlidir.
E.Abdullayev: Sən özün çıxırsan ona yoxsa başqa adam var? (Nəriman cavab vermir)
E.Abdullayev: Qızının əri də məni doladı 2 dəqiqənin içində
Nəriman: Moşennikdir
E.Abdullayev: ...Moşennik reket.. Bütün icra başçılarını tasa otuzdurub
E.Abdullayev: Sən əminsən ki, biz planda olacayıq?
Nəriman: Bəli
E.Abdullayev: Niyə gecikir?
Nəriman: Sizə görə gecikir, vot-vot uje bilinməlidir.
E.Abdullayev: Sən həll elədin?
Nəriman: Onlar elə bilirlər məndədir, onlar deyən kimi həl etməliyəm... Plan çıxsa mən verməliyəm, verməsəm başımı kəsəcəklər.
E.Abdullayev: Bir hissəsini vermisən?
Nəriman: Vermişəm e, onlar bunu hərləmirlər.
E.Abdullayev: Kimə vermisən?
Nəriman: ...nə eləyirsən bunu?
Yazının 33.30-cu dəqiqəsində E.Abdullayev «Abituryent» jurnalını gətirir, Nərimana göstərir və bildirir ki, ABU-nun adı jurnalda çıxmayıb. Jurnal isə həmin gündən bir gün qabaq, axşam çıxmışdır. Nəriman baxır, təəcüblənir. E.Abdullayev bununla bağlı narazılığını bildirir.
Nəriman: bu köhnə variantdır.
E.Abdullayev: Əgər düzəlirsə, qalan pulları verək, düzəlmirsə, gəlin bu kişinin pulunu qaytaraq.
Nəriman: mən bunlarla axşam görüşəcəyəm...
E.Abdullayev: Nə eləyək bu işi..
Nəriman: mən gedirəm,...
E.Abdullayev: Onlar nədir, oyun oynayırlar?
Nəriman: Oyun olsaydı..

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

E.Abdullayev: Bilirsən mən nə qədər oyunlarla rastlaşmışam. Ay Nəriman müəllim, bir dövlətdə ki, notariusdan adamdan pulu ala sonra belə elə (işarə göstərir) bundan nə gözləmək olar?

Nəriman: ... bunlar elə dedilər ki, Elşad müəllimi biz qatmayaq ortaya. Zaminsən, həll eləyirik...Biz blirik, sən verirsən..

E.Abdullayev: Təcili onlarla görüş.

Nəriman: Bu gün görüşəcəyəm. ..Dünən gürüşəcəydim, nəsə..

E.Abdullayev: Desələr, belə-belə, denən kişinin pulunu qaytarın. Ay birisi gün .. konkret vaxt denən...o pul verilən vaxt birdən verilməz eləməz, həmin vaxt biz olacayıq orda.

Nəriman: Mən tərəfdən narahat olma.

E.Abdullayev: Birdən verməz eləməz biz vurmalıyıq onu. Dediyi vaxt verməsə, həmin vaxt olmalıdır ... Vaqif kimi. Uje mən heç bir güzəşt eləmirəm. Bu mövzuda söhbət davam edir, söhbət əsnasında E.Abdullayev yenə də 500 min manatın verdiyini, 2 milyonun da ondan istəməsini, 3 milyonun qardaşına görə ondan alındığını, əvəzinə üstünə adamların töküldüyünü, hədə qorxu gəlindiyini, qardaşının A.Kazımovskinin dəstəsi tərəfindən oğurlandığını və sonuncunun bu dəstənin kassiri (xəzinədarı) olduğunu, Nərimana pulun qaytarılmasının tələb etmək lazım olduğunu bildirir.

Cinayət işinin materiallarına əlavə edilmiş Məhkəmə-fonoskopik ekspertizasının 13 mart 2013-cü il tarixli 19448 №-li rəyi ilə müəyyən edilmişdir ki, ekspertizaya təqdim olunmuş 05 ədəd optik disklərə yazılmış 1, 2, 3, 4 və 5 saylı mübahisəli fonoqramlardakı danışıqların tədqiqi hissədə verilmiş yazılı mətnlərində K2 kimi işarə olunmuş kişi diktorların səsi və nitqi eyni bir şəxsə - Ağayev Nəriman Salman oğluna məxsusdur.

Cinayət işinin materiallarına əlavə edilmiş cinayət işi üzrə keçirilən əməliyyat-axtarış tədbirləri ilə əlaqədar təqdim edilən 16.10.2012-ci il tarixli arayışdan görünür ki, Ağayev Nəriman Salman oğlu Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Abdullayev Elşad İslam oğlunun qanunsuz yolla həyata keçirdiyi maliyyə əməliyyatlarında vasitəçi və iştirakçı olmuş, həmçinin Nəriman Ağayevin tutduğu vəzifədən və vəzifə səlahiyyətlərindən istifadə etməklə vətəndaşların etibarını qazanmaq yolu ilə onlardan külli miqdarda pul alaraq mənimsəməsi barədə məlumatlar əldə edilmişdir. Belə ki, o, işə düzəldəcəyini vəd edərək 2010-cu ildə hissə-hissə Bakı şəhər sakinləri 13.07.1981 -ci il təvəllüdlü Həsənov Samir Mahir oğlundan 30.000 manat, 06.10.1980-ci il təvəllüdlü Əliyev Emin Fərail oğlundan isə 24.000 manat pul alaraq mənimsəmişdir.

Cinayət işinin materiallarına əlavə edilmiş Bakı Ağır Cinayətlər Məhkəməsinin qanuni qüvvəyə minmiş 1(101)-656/2013 saylı 05.07.2013-cü il tarixli hökmü ilə Mirələkbər Seyidov ABU-nun rektoru Elşad Abdullayevin ona universitetin fəaliyyətinin davam etdirilməsinə nail olmaq üçün vəzifəli şəxsə çatdırması məqsədi ilə verdiyi 803.000 manat məbləğində külli miqdarda rüşvəti aldatma yolu ilə ələ keçirdiyinə görə Azərbaycan Respublikası CM-nin 178.3.2-ci maddəsi ilə təqsirli hesab edilmiş və sınaq müddəti ilə 07 il müddətinə şərti azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuşdur.

Cinayət işinin materiallarına əlavə edilmiş 12-18 oktyabr 2012-ci il tarixli baxış protokolundan görünür ki, Abdullayev Elşad İslam oğlu tərəfindən gizli şəkildə çəkilərək Seyidov Mirələkbər Mirismayıl oğlu ilə apardığı danışıqların qeydə alındığı, «İnsan Haqları Uğrunda» İctimai Birliyin rəhbəri Eynulla Fətullayevin 03 oktyabr 2012-ci il tarixli 43/ç nömrəli məktubu ilə Azərbaycan Respublikası Baş Prokurorluğuna

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

göndərilən videodisklərə (DVD) baxış keçirilmişdir. Baxış keçirilərkən Elşad Abdullayevin Azərbaycan Beynəlxalq Universitetinə tələbə planının alınması üçün Binəqədi rayon sabiq prokuroru Mirələkbər Seyidova 500.000 ABŞ dollarının verməsi, bununla əlaqədar danışıqlar aparması, eyni zamanda sonradan da əlavə 500.000 dollarının çatdırılması barədə aralarında razılaşmanın öz əksini tapması müəyyən edilmişdir.

Cinayət işi materiallarında olan 20.09.2005-ci il tarixli müqavilədən görünür ki, Nağıyev Faiq Muxtar oğlunun Azərbaycan Beynəlxalq Universitetinin hüquqşünaslı fakültəsinin qiyabi şöbəsinə qəbul olunması barədə rektor Elşad Abdullayev ilə müqavilə bağlanmışdır.

Cinayət işi materiallarında olan 15.09.2008-ci il tarixli müqavilədən görünür ki, Mehdiyev Turqut Nizami oğlunun Azərbaycan Beynəlxalq Universitetinin Beynəlxalq İqtisadi Münasibətlər fakültəsinin əyani şöbəsinə qəbul olunması barədə rektor Elşad Abdullayev ilə müqavilə bağlanmışdır.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Cinayət işinə əlavə edilmiş 20.09.2005-cü il tarixli müqavilədən görünür ki, Çələbiyev Pərviz Zahir oğlu Azərbaycan Beynəlxalq Universitetinin Dövlət və bələdiyyə idarəetməsi fakültəsinə qəbul edilmişdir.

Cinayət işinə əlavə edilmiş 19.09.2005-cü il tarixli müqavilədən görünür ki, Məmmədova Aygün Bəxtiyar qızı Azərbaycan Beynəlxalq Universitetinin Dizayn fakültəsinə qəbul edilmişdir.

Cinayət işinə əlavə edilmiş 17.09.2005-cü il tarixli müqavilədən görünür ki, Əlicanov Elşən Elxan oğlu Azərbaycan Beynəlxalq Universitetinin Ekologiya fakültəsinə qəbul edilmişdir.

Cinayət işinə əlavə edilmiş 16.09.2005-cü il tarixli müqavilədən görünür ki, Qurbanov Zaur Sədaqət oğlu Azərbaycan Beynəlxalq Universitetinin Maliyyə və kredit fakültəsinə qəbul edilmişdir.

Cinayət işinə əlavə edilmiş 16.09.2005-cü il tarixli müqavilədən görünür ki, Nəzərov Əbil Saday oğlu Azərbaycan Beynəlxalq Universitetinin Əzcaçılıq fakültəsinə qəbul edilmişdir.

Cinayət işinə əlavə edilmiş 10.09.2006-cı il tarixli müqavilədən görünür ki, Cəfərzadə Ayaz Nürəddin oğlu Azərbaycan Beynəlxalq Universitetinin Dizayn fakültəsinə qəbul edilmişdir.

Cinayət işinə əlavə edilmiş 20.09.2005-ci il tarixli müqavilədən görünür ki, Rəsulov Aydın Asif oğlu Azərbaycan Beynəlxalq Universitetinin Ekologiya fakültəsinə qəbul edilmişdir.

Cinayət işinə əlavə edilmiş 20.09.2005-ci il tarixli müqavilədən görünür ki, Bağırova (Allahverdiyeva) Nərmin Bilal qızı Azərbaycan Beynəlxalq Universitetinin Regionşünaslıq fakültəsinə qəbul edilmişdir.

Cinayət işinə əlavə edilmiş Köçürülmə Komissiyasının sədri Rabil Amanovun 15.09.2008-ci il tarixli 842-309 saylı əmrində göstərilir ki, RF Maliyyə və hüquq institutunun "maliyyə və kredit" ixtisasının qiyabi şöbəsinin IV kurs tələbəsi Abduləzizova Ziba Davud qızı fərq imtahanı vermək şərti ilə ABU-nun gömrük işinin təşkili fakültəsini qiyabi şöbəsinin IV kursuna köçürülsün.

Cinayət işinə əlavə edilmiş Köçürülmə Komissiyasının sədri R.A.Amanovun 28.07.2008-ci tarixli X9/842-110 saylı əmrində göstərilir ki, Rusiya Federasiyasının Maliyyə və Hüquq İnstitutunun «maliyyə və kredit» fakültəsinin qiyabi şöbə üzrə II (ikinci) kurs tələbəsi Ramazanov Azad İbrahim oğlu, fərq imtahanlarını vermək şərti ilə ABU-nun « maliyyə və kredit» fakültəsinin əyani şöbə üzrə II (ikinci) kursuna köçürülsün.

Cinayət işinə əlavə edilmiş 21.08.2003-cü il tarixli müqavilədən görünür ki, Şıxlarova Afaq Ağahüseyn qızı Azərbaycan Beynəlxalq Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsinə qəbul edilmişdir.

Cinayət işinin materiallarında olan ABU-nun rektoru Elşad Abdullayevin 08.07.2009- cu il tarixli 3/09-365-1 saylı əmrində qeyd olunur ki, 2008/2009-cu tədris ilinin "Müalicə işi" fakültəsinin əyani şöbəsinin məzunları - Həsənov Tacəddin Fazil oğlu, Həsənova Nərgiz Adil oğlu, Məmmədova Günay Vahid qızı, Məmmədova Oksana Nadir oğlu, Quliyev Sahib Malik oğlu, Hüseynova Aysel Elşad qızı, Məmmədova Fatma Malik qızı, Əsgərova Aysel Şair qızı, Novruzov Əli Ənvər oğlu, Hacıyev Kənan Fərrux oğlu, Babayeva Dilrubə Tahir oğlu, Həsənov Amil Teyyub oğlu, İsgəndərov Mehman Camal oğlu, Zeynalova Xatun Ağa qızı və Məmmədova Təliminə Azadxan qızına Buraxılış Attestasiya İmtahanlarını müvəffəq qiymətlərlə başa vurduqlarına görə Dövlət

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Attestasiya Komissiyasının qərarına əsasən həmin məzunlara HS 190100 “Müalicə işi” ixtisası üzrə ali təhsil haqqında diplom verilsin.

Cinayət işinin materiallarında olan ABU-nun 2007-ci və 2008-ci illər üzrə diplomların paylanması kitablarına baxış keçirilməsi haqqında protokola əsasən birinci kitaba baxş zamanı müəyyən edilmişdir ki, kitabın 177-cı səhifəsində “Məmmədov Nicat Vaqif o” sözləri vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Nicat Məmmədovun diplom alması barədə qeyd yoxdur.

Həmin kitabın 161-cı səhifəsində 11-ci sıra nömrəsi üzrə “Kanayev Şamil Mahama o.” yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Şamil Kanayevin diplom alması barədə qeyd yoxdur.

Həmin kitabın 177-cı səhifəsində 18-ci sıra nömrəsi üzrə “Nuriyev Eşqin Taleh oğlu” yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Mahir Əliyevin diplom alması barədə qeyd yoxdur.

Həmin kitabın 180-cı səhifəsində 7-ci sıra nömrəsi üzrə “Quluzadə Amid Azad oğlu” yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Mahir Əliyevin diplom alması barədə qeyd yoxdur.

Həmin kitabın 159-173-cü səhifələrin yəni “Gömrük İşi” fakültəsinin məzmunlarının adları qeyd olunan səfhələrə baxış zamanı “Kərimov İlkin Yengibar oğlu” barədə qeyd aşkar olunmadı.

Həmin kitabın 27-cı səhifəsində 17-ci sıra nömrəsi üzrə Nuriyev Orxan Nəsrəddin oğlu yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Orxan Nuriyevin diplom alması barədə qeyd yoxdur.

Həmin kitabın 85-cı səhifəsində 9-ci sıra nömrəsi üzrə Əliyev Razi Niyazi o. yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Razi Əliyevin diplom alması barədə qeyd yoxdur.

Həmin kitabın 47-cı səhifəsində 11-ci sıra nömrəsi üzrə Babayev Nazim Nurəddin o yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Nazim Babayevin diplom alması barədə qeyd yoxdur.

Digər kitaba baxış zamanı müəyyən edildi ki,

kitabın 159-cı səhifəsində “Deryabin Oleq Turiyeviç o” sözləri vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Deryabin Oleq Turiyeviç diplom alması barədə qeyd yoxdur.

Həmin kitabın kitabın 97-145cı səhifələrinə baxış zamanı müəyyən olundu ki, kitabda “Neft qaz yataqlarının işlənməsi və istismarı fakültəsinin tələbələrinin adları qeud olunsa da Qasımov Məhərrəm Damət oğlunun adı yoxdur.

Həmin kitabın 127-cı səhifəsində 1-ci sıra nömrəsi üzrə “Əliyev Mahir Nadir oğlu” yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Mahir Əliyevin diplom alması barədə qeyd yoxdur.

Kitabın 337-cı səhifəsində 7-ci sıra nömrəsi üzrə Salmanov Fərid Namiq o yazıları vardır. Onun təhsil almış olduğu fakültənin adı Sənaye və Mülki tikinti adlanır. F.Salmanovun yazı olan qrafadan sonrakı qrafalarda hər hansı qeyd yoxdur.

Həmin kitabda F.Salmanovun diplom alması barədə qeyd yoxdur. Kitabın 156-cı səhifəsində 4-cü sıra nömrəsi üzrə Ağalarov Ruslan Əlağa o Yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur.

Həmin kitabda Ruslan Ağalarovun diplom alması barədə qeyd yoxdur. Kitabın 153-cü səhifəsində 2-ci sıra nömrəsi üzrə İsgəndərov Roman Pirməmməd o yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur. Həmin kitabda Roman İskəndərovun diplom alması barədə qeyd yoxdur.

Kitabın 293-cü səhifəsində 5-ci sıra nömrəsi üzrə Həsənov Murad Həsən o yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur.

Həmin kitabda Murad Həsənovun diplom alması barədə qeyd yoxdur. Kitabın 226-cı səhifəsində 5-cü sıra nömrəsi üzrə İsgəndərov Amid Əyyub o yazıları vardır. Ondan sonrakı qrafalarda hər hansı qeyd yoxdur.

Həmin kitabda Amid İsgəndərovun diplom alması barədə qeyd yoxdur.

Baxış keçirilən hər iki kitabda ABU-nun 2008-ci il məzunları olmuş İsmayılov İsmayıl Rəsul oğluna və Məmmədov Elşad Tofiq oğluna diplomun verilməsi barədə hər hansı qeyd aşkar olunmadı.

Cinayət işinə əlavə edilmiş Azərbaycan Beynəlxalq Universitetinin nizamnaməsindən görünür ki, həmin nizamnamə Universitetin Elmi Şuranın 25.05.1996-cı il tarixli iclasında qəbul edilmişdir. 17.10.1997-ci il tarixdə Rusiya Federasiyası Beynəlxalq idarəetmə, Biznes və Hüquq institutun Bakı filialının bazasında Abdullayev Elşad İslam oğlu tərəfindən və onun ödənişləri əsasında Azərbaycan Beynəlxalq Universiteti təsis edilməklə dövlət qeydiyyatından keçirilmişdir. Nizamnamə təsisçi qismində Elşad Abdullayev tərəfindən təsdiq edilmişdir. Nizamnamədə təsisçinin heç bir mənfəət güdmədiyi, respublikanın və xarici ölkələrin bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yüksək ixtisaslı, xüsusən milli kadrların hazırlanması məqsədi daşıdığı göstərilmişdir.

03.10.2009-cu il tarixli notariat qaydada təsdiq olunmuş bağışlama müqaviləsində qeyd olunur ki, Elşad Abdullayev təsisçisi olduğu "Azərbaycan Beynəlxalq Universiteti"-nin nizamnamə kapitalındakı 100 %-lik payını oğlu Elşən Abdullayevə bağışlamışdır. Təqsirləndirilən şəxs Elşad Abdullayevin ABU kimi böyük bir təşkilatı 21 yaşlı oğlunun adına keçirməsi törətmiş olduğu əməllərinin yaxın vaxtlarda ifşa olunacağını başa düşdüyü üçün gələcəkdə mümkün ola biləcək xüsusi müsadirə kimi hallardan universitetin əmlakını qorumaq niyyəti daşıdığını təsdiq edir. Bununla belə istintaqla sübuta yetirilmişdir ki, ABU-nu tam olaraq son ana qədər Elşad Abdullayev idarə etmiş və bütün fəaliyyətinə nəzarət etmişdir. Və universitet son günə qədər Elşad Abdullayev tərəfindən törədilən korrupsiya cinayətlərinin törədilmə vasitəsi (aləti) kimi çıxış etmişdir.

Cinayət işinə əlavə edilmiş "Kommersiya təşkilatlarının reyesrından çıxarış"dan görünür ki, "Azərbaycan Beynəlxalq Universiteti" fərdi müəssisə kimi Elşad Abdullayev tərəfindən təsis edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 07.11.1997-ci il tarixdə rəsmi dövlət qeydiyyatına alınmışdır.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) 14.05.2015-ci il tarixli məktubunda qeyd olunmuşdur ki, Azərbaycan Beynəlxalq Universiteti tərəfindən TQDKnm əmri olmadan daxili əmrlərə əsasən tələbə qəbulu aparılması faktları TQDK-ya məlumdur. Zənnimizcə, bu hal Azərbaycan Respublikasının qanunvericiliyinə ziddir.

Belə ki, 1992-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Təhsil Qanununun 21-ci maddəsində və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.03.1995-ci il tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmiş Ali təhsil müəssisəsi haqqında Əsasnamənin 11-ci bəndində Azərbaycan Respublikasında ali məktəblərə qəbulun dövlət tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Azərbaycan Respublikası Prezidentinin 21.07.1992-ci il tarixli 74 nömrəli Fərmanı ilə yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 27.10.1992-ci il tarixli 283 nömrəli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamənin 2-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikasında tələbə

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

qəbulunun mərkəzləşmiş şəkildə keçirilməsi, o cümlədən qəbul qaydalarının yaradılması, ali və orta ixtisas tədris qurumlarına tələbə qəbulu və onun qaydalarının elan edilməsi, qəbul imtahanlarının keçirilməsi, ali və orta tədris qurumlarına tələbələrin seçilməsi, toplanan balları və abituriyentlərin arzusunu nəzərə alaraq seçilmiş tələbələrin ali və orta ixtisas qurumlarına yerləşdirilməsinin həyata keçirilməsi vəzifələri TQDK-ya tapşırılmışdır.

Bununla əlaqədar TQDK hər il respublikanın ali və orta ixtisas məktəblərinə, o cümlədən Azərbaycan Beynəlxalq Universitetinə tələbə qəbulu həyata keçirmişdir.

"Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 01.06.2004-cü il tarixli 677-11 Q nömrəli Qanunu ilə Azərbaycan Respublikasının Təhsil Qanununun 21-ci maddəsində aşağıdakı dəyişikliklər edilmişdir:

1. dördüncü hissə aşağıdakı redaksiyada verilmişdir: "ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada həyata keçirilir",

2. altıncı hissə aşağıdakı redaksiyada verilmişdir: "ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq üçün minimal keçid balı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir".

"Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 17.06.2004-cü il tarixli 78 nömrəli Fərmanının 2-ci bəndinə əsasən Azərbaycan Respublikası Təhsil Qanununun 21-ci maddəsində dördüncü və altıncı hissələrində nəzərdə tutulmuş dövlət və qeyri-dövlət ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu qaydası və bu təhsil müəssisələrinə qəbul olunmaq üçün keçid balı Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Nazirlər "Kabinetinin bəzi qərarlarında/dəyişikliklər edilməsi -barədə" 06.09.2004-cü il tarixli 123 nömrəli Qərarı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.03.1995-ci il tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmiş ali təhsil müəssisələri haqqında Əsasnamənin 11-ci bəndinin ikinci abzasında "qəbul dövlət" sözləri "tələbə qəbulu Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası" sözləri ilə əvəz edilmişdir.

Beləliklə, Azərbaycan Respublikasında ali təhsil məktəblərində tələbə qəbulunun birmənalı şəkildə yalnız Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən həyata keçirilməsini birbaşa nəzərdə tutan müddəalar "Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 17.06.2004-cü il tarixli 78 nömrəli Fərmanı və həmin Fərmandan irəli gələrək qəbul edilmiş Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi barədə" 06.09.2004-cü il tarixli 123 nömrəli Qərarı ilə qanunvericiliyə daxil edilmişdir.

Bir çox qeyri-dövlət (özəl) ali təhsil müəssisələrinin isə Azərbaycan Respublikası Təhsil Qanununun 21-ci maddəsinin 6-cı hissəsində nəzərdə tululmuş: Qeyri-dövlət ali məktəblərinə tələbə qəbulu onların nizamnamələri əsasında aparılır, müddəasına istinad edərək 2004-cü ilədək TQDK-nm əmri olmadan tələbə qəbulunu aparmaq səlahiyyətlərinin olmasının iddia etmələri əsassızdır. Beləki, ali məktəblərin Nizamnamələri Azərbaycan Respublikasının qanunvericiliyinə, o cümlədən Azərbaycan

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Respublikasının Prezidentinin Fərmanlarına zidd olmamalıdır. Qeyri-dövlət ali məktəblərinin Nizamnamələrində həmin ali məktəblərin özləri tərəfindən tələbə qəbulunun aparılmasına dair müddəalar isə Azərbaycan Respublikasının Prezidentinin 27.10.1992-ci il tarixli 283 nömrəli Fərmanına zidd olduğu üçün qanunsuzdur və bu müddəalar əsasında verilmiş əmrlər də qanuni hesab edilə bilməz.

Araşdırmalar göstərir ki, Azərbaycan Beynəlxalq Universitetinin daxili əmrlərilə qəbul edilən abituriyentlərin çoxu TQDK tərəfindən keçirilən imtahanlarda iştirak etmiş lakin müsabiqə şərtlərini ödəməyərək ali məktəblərə qəbul edilməmişdirlər. Bu da Azərbaycan Respublikası Təhsil Qanunun 21-ci maddəsinin 2-ci hissəsinə ziddir: qəbul imtahanlarının sayı və sorğu sistemi müəyyən olunarkən, habelə imtahanlar keçirilərkən ixtisas biliyi və bacarığına üstünlük verilir. Tələbə qəbulunda heç bir imtiyaza yol verilmir. Bu tələbələrin isə bilik və bacarığının Azərbaycan Beynəlxalq Universiteti tərəfindən hansı qaydada yoxlanması aydın deyil, hətta onların TQDK tərəfindən keçirilən imtahanlarda aşağı nəticələr göstərməsi bu tələbələrin müvafiq ixtisaslara yerləşdirilməsinə mane olmamışdır.

Yuxarıda göstərilənlərə əsasən TQDK-nın qəbul əmri olmadan ali təhsil müəssisələri tərəfindən tələbə qəbulunun aparılması qeyri-qanuni hesab edilir.

Təhsil Nazirliyinin dövlət və qeyri - dövlət ali təhsil müəssisələrinin rəhbərlərinə ünvanlanan 03.02.2003-cü il tarixli məktubunda qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Hərbi Komissarı məktubla Təhsil Nazirliyinə müraciət edərək son illərdə Gürcüstan Respublikasının ali məktəblərində təh.sil alan tələbələrə hərbi çağırışdan möhlət verilməsi ilə bağlı müraciətlərin kəskin surətdə artdığına görə bu məsələnin Azərbaycan və Gürcüstan Respublikasının Müdafiə Nazirliklərinin nümayəndələrindən ibarət işçi qrupu tərəfindən araşdırıldığını və müvafiq aktın tərtib edildiyini bildirmişdir.

Təqdim olunmuş aktdan görünür ki, Gürcüstanın əsasən azərbaycan vətəndaşlarının təhsil aldıqları 5 (beş) ali məktəbdə keçirilən araşdırmalar zamanı bu tələbələrin heç birinin dərslərdə olmadıqları aşkar olunmuş və onların məqbul, imtahan sessiyalarında iştirak etmələri haqqında təsdiqedici sənədlər təqdim edilə bilməmişdir.

Beləliklə də bu qəbildən olan tələbələrə həmin təhsil müəssisələri tərəfindən verilən 26 №-li forma və akademik arayışların formal xarakter daşıdığı müəyyən olunmuşdur.

Belə halların mövcudluğu Gürcüstan, Dağıstan və MDB ölkələrinin digər təhsil müəssisələrindən Respublika ali məktəblərinə köçürülmək üçün Təhsil Nazirliyinə müraciət etmiş şəxslərin sənədləri araşdırılarkən də müəyyən edilmişdir.

Qeyd olunanları nəzərə alaraq bildiririk ki, MDB, o cümlədən Gürcüstan, Rusiya Federasiyası və digər xarici ölkələrdə təhsil alan tələbələrin Azərbaycan Respublikası ali təhsil müəssisələrinə köçürülməsi və bərpası Azərbaycan Respublikası Təhsil Nazirliyinin razılığı əsasında həyata keçirilə bilər.

Təhsil Nazirliyinin dövlət və qeyri - dövlət ali təhsil müəssisələrinin rəhbərlərinə ünvanlanan 21.01.2004-ci il tarixli məktubunda qeyd olunmuşdur ki, Azərbaycan və Rusiya hökumətləri arasında təhsil sənədlərinin tanınması barədə sazişin müddəalarına uyğun olaraq Rusiya Federasiyasının ali və orta ixtisas məktəblərinin məzunları və ya müvafiq kursdan sonra təhsilini Azərbaycanın ali və orta ixtisas məktəblərində növbəti pillədə və ya kursda davam etdirmək istəyən hər bir şəxsin sənədi Rusiya Federasiyasının Təhsil Nazirliyində «apostil» möhürü vurdurulmaqla leqallaşdırılmalıdır. Digər ölkələrdən alınmış təhsil sənədləri isə Azərbaycan Respublikasının təhsil haqqında sənəd verilən ölkədəki səfirliyində (konsulluğunda) və ya Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin konsulluq idarəsində

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

leqallaşdırılmalıdır. Təhsil sənədləri leqallaşdırılmayan şəxslərə təhsilini növbəti pillə və ya kursda davam etdirməyə icazə verilməyəcəkdir.

Təhsil Nazirliyinin qeyri - dövlət ali təhsil müəssisələrinin rəhbərlərinə ünvanlanan 22.07.2004-cü il tarixli məktubunda qeyd olunmuşdur ki, 1999-cu ildən başlayaraq Təhsil Nazirliyində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri ilə bağlı məlumat bankı yaradılmışdır. Hər tədris ilinin əvvəlində ali məktəbə qəbul olunanlar, xaric olunanlar, bərpa və köçürülənlər, ali məktəbi bitirənlər barədə təhsil müəssisələri rəhbərləri tərəfindən Nazirliyə təqdim olunan məlumatlar əsasında bankda olan informasiyalar yeniləşdirilir. Bununla yanaşı hər bir təhsil müəssisəsinə qəbul olunan tələbələrin siyahısı Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından da alınır. TQDK-a tərəfindən təqdim olunan siyahı Təhsil Nazirliyində olan məlumatlarla müqayisə olunur. Bununla da Təhsil Nazirliyi tərəfindən ali məktəblərdə tələbə kontingentinin yerdəyişməsinə tam nəzarət olunur.

Lakin, son illərin araşdırmaları zamanı Nazirliyin məlumat bankında adları olmayan şəxslərin bir ali məktəbdən digərinə köçürülməsi, ali təhsil müəssisələrinin möhür və blanklarının, Təhsil Nazirliyinin dövlət nümunəli akademik arayışlarının saxtalaşdırılması faktları aşkar olunmuş, nəticə olaraq həmin tələbələrin köçürülməsi barədə əmrlər ləğv olunmuşdur.

Qeyd olunanlarla bağlı nəzərinizə çatdırırıq ki, rəhbərlik etdiyiniz təhsil müəssisəsinə qeyri-dövlət müəssisəsindən tələbənin köçürülməsi məsələsinə yalnız onun həmin təhsil müəssisəsində təhsil aldığı barədə Təhsil Nazirliyinin arayışı təqdim edildiyi halda mövcud əsasnamənin və Nazirliyin 02.06.2004 tarixli 46-11-2590/16 №-li təlimati məktubunun tələblərinə riayət etməklə baxıla bilər. Tələbələrə ali məktəbdən köçürülmə ilə bağlı akademik arayışlar isə yalnız həmin arayış təqdim edildiyi halda yazıla bilər.

Əgər rəhbərlik etdiyiniz ali məktəbdə yay tətili müddətində bu qəbildən olan tələbələrin köçürülməsi məsələsinə baxılıbsa, onda həmin tələbələrin siyahısı araşdırılmaq üçün təcili olaraq Təhsil Nazirliyinə təqdim olunmalıdır.

Təhsil Nazirliyinin Azərbaycan Beynəlxalq Universitetinin rektoru Elşad Abdullayevə ünvanlanan 13.12.2004-cü il tarixli məktubunda qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının bəzi qanunlarına dəyişiklik edilməsi barədə» 17 iyun 2004-cü il tarixli 78 saylı Fərmanının 2.1. bəndi ilə respublikanın ali məktəblərinə tələbə qəbulunun aparılması yalnız Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının səlahiyyətlərinə aid edilmişdir. Fərmanın icrasını təmin etmək məqsədilə, ali məktəb müəssisələrinin rəhbərlərinə, Təhsil Nazirinin 28.07.2004-cü il tarixli 682 saylı əmri ilə tələbə qəbulunda yalnız TQDK-nın müəyyən etdiyi qaydalara ciddi riayət etmək tapşırılmışdır. Əlavə olaraq, Təhsil Nazirliyinin 46-03-4190/14 nömrəli 24.08.2004-cü il tarixli məktubu ilə Sizə təkrar olaraq bu barədə xəbərdarlıq edilmişdir. Qeyd olunanlarla bağlı nəzərinizə çatdırırıq ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sərəncamı olmadan hər hansı ali məktəbə tələbə qəbulu aparmaq qəti qadağandır.

Təhsil Nazirliyinin dövlət və qeyri - dövlət ali təhsil müəssisələrinin rəhbərlərinə ünvanlanan 09.01.2007-ci il tarixli məktubunda qeyd olunmuşdur ki, Təhsil Nazirliyi tələbələrin köçürülməsi prosesində şəffaflığı təmin etmək məqsədi ilə xarici ölkələrdə təhsil alan tələbələrin respublikanın ali məktəblərinə köçürülməsi zamanı Nazirliyin 28.01.2002-ci il tarixli 80 №-li əmrinə, 21.01.2004-cü il tarixli 46-03-274/16 №-li təlimati məktubuna və qüvvədə olan əsasnamənin tələblərinə ciddi əməl etməyi Sizə tapşırır. Eyni zamanda bildiririk ki, köçürülmə ilə bağlı rəhbərlik etdiyiniz ali məktəbə daxil olan

ərizələrə qiymət kitabçasından çıxarışla yanaşı tələbənin xarici pasportunun surəti və təhsil aldığı ölkədə müvəqqəti pasport qeydiyyatı haqqında sənəd də əlavə olunmalıdır. Göstərilən sənədlər təqdim olunmadığı halda köçürülmə məsələsinə baxılmayacaqdır.

Cinayət işinə əlavə edilmiş Təhsil Nazirliyinin 24.10.2011-ci il tarixli məktubundan görünür ki, 2005-ci ildə Rusiya Federasiyası Elm və Təhsil Nazirliyi tərəfindən Azərbaycan Beynəlxalq Universitetinin Moskva filialının fəaliyyətinə 05.04.2005-ci il tarixli, A № 164599 saylı lisenziya verilmişdir. 2007-ci ildə isə bunun əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən filialın fəaliyyətinə 12.11.2007-ci il tarixli, 031972 saylı lisenziya verilmişdir. 2010-cu ildə Azərbaycan Beynəlxalq Universitetin fəaliyyəti dayandırıldığı üçün bu ali məktəbin Moskva filialının fəaliyyəti dayandırılmışdır. Mövcud qanunvericiliyə əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən hər hansı xarici ölkəyə məxsus və respublikadan kənarda fəaliyyət göstərən təhsil müəssisəsinə lisenziyanın verilməsi nəzərdə tutulmayıbdır.

Cinayət işinə əlavə edilmiş Təhsil Nazirliyi tərəfindən verilmiş 019002 nömrəli lisenziyadan görünür ki, 11.06.1999-ci ildə Təhsil Nazirliyi tərəfindən altı il müddətinə Azərbaycan Beynəlxalq Universitetinə ali təhsil və magistr pillələrində mütəxəssis hazırlığının həyata keçirilməsinə icazə verilmişdir.

Cinayət işinə əlavə edilmiş Təhsil Nazirliyi tərəfindən verilmiş 003283 nömrəli lisenziyadan görünür ki, 30.05.2005-ci ildə Təhsil Nazirliyi tərəfindən beş il müddətinə Azərbaycan Beynəlxalq Universitetinə ali təhsil və magistr pillələrində mütəxəssis hazırlığının həyata keçirilməsinə icazə verilmişdir.

Azərbaycan Respublikası Təhsil nazirinin 1058 saylı, 08.07.2010-cu il tarixli əmri ilə yaradılmış ekspert qrupunun Azərbaycan Beynəlxalq Universitetinin fəaliyyətinə Təhsil Nazirliyi tərəfindən verilmiş lisenziyanın müddətinin bitməsi ilə əlaqədar aparılan araşdırmalar nəticəsində ABU-nin fəaliyyəti haqqında rəydən görünür ki, fəaliyyət göstərdiyi son üç il ərzində ABU-dən ümumilikdə 8975 tələbənin dövlət attestasiya imtahanına buraxılması ilə bağlı müraciət olunmuşdur. Araşdırma aparıldıqdan sonra həmin tələbələrdən yalnız 3540 nəfəri yekun dövlət attestasiya imtahanına buraxılmış, onlardan da 3246 nəfər məzuna Nazirlik tərəfindən dövlət nümunəli diplomlar verilmişdir. Tələbələrin dövlət attestasiyasına buraxılmamasının əsas səbəbləri ali məktəbə 2004-cü ildə Azərbaycan Respublikasının «Təhsil haqqında» Qanununa edilən dəyişikliklərdən sonra Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sərəncamı olmadan qəbul olunması və ya Nazirliyin razılığı olmadan, sənədləri qaydasında olmadığı halda digər ali məktəblərdən köçürülməsi, tələbələrin tədris planında nəzərdə tutulanları tam yerinə yetirməməsi (istehsalat təcrübəsinin təşkil olunmaması və ya formal təşkil olunması) olmuşdur. Belə ki, 2005 və 2006-cı illərdə Azərbaycan Beynəlxalq Universitetinin rəhbərliyi Rusiya Federasiyasının müxtəlif ali məktəblərindən, o cümlədən Dağıstanın Maliyyə və Hüquq İnstitutu, Açıq Sosial Universiteti və digər ali məktəblərində təhsil alan bir qrup tələbənin köçürülməsinə razılıq verilməsi ilə bağlı Təhsil Nazirliyinə müraciətinə cavab olaraq Nazirliyin 16.09.2005-ci il tarixli 46-03-4610/17 №-li məktubu ilə ABU-nin rəhbərliyinə bildirilmişdir ki, xarici ölkə ali məktəblərindən tələbələrin köçürülməsi məsələsinə yalnız Nazirliyin 21.01.2007-ci il tarixli, 46-03-274/16 №-li məktubunun və 07.08.1996-cı il tarixli 402 saylı əmri ilə təsdiq olunmuş Əsasnamənin tələbləri gözlənilməklə baxılmalıdır. Təhsil Nazirliyinin 21.01.2007-ci il tarixli, 46-03-274/16 №-li məktubuna əsasən təhsilini Azərbaycanın ali və orta ixtisas məktəblərində davam etdirmək istəyən hər bir şəxsin sənədi Rusiya Federasiyasının Təhsil Nazirliyində «apostil» möhürü vurulmaqla leqallaşdırılmalıdır. Sənədləri leqallaşdırılmayan şəxslərə təhsilini Azərbaycanda

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

davam etdirməyə icazə verilmir. 2005-ci ilin oktyabr-noyabr aylarında Nazirliyə təqdim olunan sənədlərin araşdırılması zamanı məlum olmuşdur ki, ABU-nə köçürülməsi nəzərdə tutulan tələbələrin sənədləri Rusiya Federasiyasının Təhsil Nazirliyində deyil, Dağıstan Respublikası Ədliyyə Nazirliyində «apostıl» möhürü vurulmaqla leqallaşdırılmışdır.

Təhsil Nazirinin Azərbaycan Beynəlxalq Universitetinin fəaliyyətinə verilmiş xüsusi razılığın (lisenziyanın) qüvvədə olma müddətinin uzadılmaması barədə 02.09.2010-cu il tarixli, 1200 №-li əmrindən görünür ki, Təhsil Nazirliyi tərəfindən ABU-nin fəaliyyətinə verilmiş 30.06.2005-ci il tarixli, 003283 №-li lisenziyanın vaxtının uzadılması qeyrimümkün hesab edilmiş və «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar»ın 3.3 bəndinə əsasən müddəti bitdiyinə görə lisenziya etibarsız sayılmışdır.

Təhsil Nazirliyindən 17.01.2013-cü il tarixdə daxil olmuş cinayət işinin materiallarına əlavə olunmuş 2007-2010-cu illərdə Təhsil Nazirliyinin məktubu əsasında Azərbaycan Beynəlxalq Universitetinə köçürülən tələbələrin siyahısından görünür ki, həmin illər ərzində Təhsil Nazirliyinin razılığı əsasında başqa ali məktəblərdən Beynəlxalq Universitetə 296 nəfər tələbənin köçürülməsi rəsmiləşdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, ibtidai istintaq dövrü üçün Azərbaycan Beynəlxalq Universitetində tələbələrdən rüşvətin toplandığı 2000-2010-cu illərdə ABŞ dolları ilə manatın rəsmi məzənnə fərqi əhəmiyyət kəsb etdiyinə görə Azərbaycan Respublikası Mərkəzi Bankının internet səhifəsi olan “cbar.az” saytına baxış keçirmiş və qeyd edilən dövrdə 1 ABŞ dollarının 0.7979 - 0.9178 manat aralığında dəyişdiyi müəyyən edilmişdir. İstintaq zamanı təqsirləndirilən şəxs Elşad Abdullayev çoxlu sayda tələbələrdən rüşvət alması epizodu üzrə ələ keçirdiyi rüşvət məbləğləri hesablanarkən 1 ABŞ dollarının məbləği 0.9178 manat ekvivalenti ilə əsas götürülmüşdür.

Cinayət işinin materiallarından görünür ki, cinayət işi üzrə müvafiq qaydada əldə edilməklə üzərilərində hadisənin izlərini saxladığına görə cinayət təqibi üzrə mühüm əhəmiyyət kəsb etdiyindən – tələbə qəbulu, təhsil sənədlərinə dair 13 ədəd qovluq, davamiyyət və diplom təhvil jurnalları, Pəsəyərov İxtiyar Möhübbət oğluna, Rüstəmov Sadiq Mənsur oğluna, Məmmədov Elnur Mustafa oğluna, Hümmətov Bəhruz Ehtibar oğluna, Fərəcov Elgiz Novruz oğluna, Fərəcov Mübariz Cabir oğluna məxsus tələbə biletləri, Pəsəyərov İxtiyar Möhübbət oğluna, Şirəliyev Rüfət Qarayeviçə, Həsənov Lətif Elşad oğluna, Fərəcov Elgiz Novruz oğluna, Məmmədov Elnur Mustafa oğluna, Hümmətov Bəhruz Ehtibar oğluna, Rüstəmov Sadiq Mansur oğluna məxsus qiymət kitabçaları, Məmmədov Nicat Vaqif oğluna, Əliyev Razi Niyazi oğluna, İsgəndərov Roman Pirməmməd oğluna, Qasımov Məhərrəm Damət oğluna, Nuriyev Orxan Nəsrəddin oğluna, Həsənov Murad Həşim oğluna, Ağalarov Ruslan Əlağa oğluna, Ağayev Ramil Rafiq oğluna, Hüseynov İbrahim Əliqulu oğluna, Mütəllimli Dilqəm Mehman oğluna, Qurbanov Raqif Rauf oğluna, Sayadov Kamal Lətif oğluna, Aslanov Ehtibar Mübarək oğluna diplomlar, Rabil Amanov, Xudayar Həsənov və Tavat Şirvanovun ifadələrinə əlavə olunmuş 03 ədəd DVD disk, 03 ədəd “Kitabxana”, “Kassa H2” və ingilis rus azərbaycan dillərində “Azərbaycan Beynəlxalq Universiteti” məzmunlu mətn olan ştamplar, içərisində azərbaycan dilində “Dəftərxana”, rus dilində “Beynəlxalq hüquq” və “cinayət işi” məzmunlu mətn olan dairəvi möhürlər, rus dilincə “Daxil olma” məzmunlu mətn olan düzbucaqlı möhür cinayət işi üzrə maddi sübut qismində tanınmışdır və Baş Prokurorluğun İstintaq idarəsinin maddi sübutlar otağında saxlanılır.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Cinayət işinin materiallarından görünür ki, ibtidai istintaq zamanı 30.05.2025-ci il tarixdə qiyabi icraatın açılması barədə məlumat verilmiş təqsirləndirilən şəxs Elşad Abdullayev 04.06.2025-ci il tarixdə elektron qaydada müraciət edərək onun barəsində çıxarılacaq qiyabi məhkəmə qərarının, Bakı şəhərində ABU-nun inzibati binası və torpaq sahələri, eləcə də Moskva şəhərində yerləşən ABU-nun Moskva filialının və Bakı şəhərində yerləşən bütün əmlaklarının Azərbaycan dövlətinin hesabına keçirilməsinə (müsadirəsinə) etiraz etmədiyini göstərmişdir. (cild 165, vərəq 71)

Cinayət işinin materiallarından görünür ki, Bakı şəhəri, Binəqədi rayonu, 7-ci mkr, X.Dairəvi küçəsi 179 ünvanında 76313 kv. metr ölçüdə torpaq sahəsi 26.02.2001-ci il tarixli 134 nömrəli şəhadətnamə əsasında Universitetin adına özəlləşdirilmiş, daha sonra Universitet tərəfindən qeyd edilən torpaq sahəsinin 72220 kv. metr hissəsi 23.03.2001-ci il tarixdə təqsirləndirilən şəxs Elşad Abdullayevin qayınatası (Universitetin prorektoru işləmiş, hazırda rəhmətə getmiş) Əhmədov Hüseyn Mustafa oğluna satılmış, Universitetin mülkiyyətində yalnız tikililərin altında qalan 4092,7 kv. metr torpaq sahəsi qalmışdır. Bu bölgüyə baxmayaraq Universitet faktiki olaraq öz cinayətkar fəaliyyətini son günə qədər 4092,7 kv.metr deyil, məhz 76313 kv. metr ölçüdə torpaq sahəsi üzərində təşkil etmişdir. Hüseyn Əhmədovun adına sənədləşdirilən 72220 kv.metr torpaq sahəsinin 30257 kv. metr hissəsi onun özündə qalmış, 38033 kv. metr hissəsi “Dərnəgül” elektrik deposunun tikintisinin layihələndirilməsi üçün 19.06.2015-ci il tarixli Ayrıc aktına əsasən Bakı Metropoliteninin istifadəsinə verilmiş, 2800 kv. metr hissəsi isə ümumi həyət kimi ictimai istifadə olunmaqdadır. İstintaq dövründə Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən qeyd olunan torpaq sahəsinin 4092,7 kv.metr hissəsi 1.200.000 – 1.500.000 manat, 30257 kv.metr hissəsi 5.800.000 – 6.100.000 manat, Bakı Metropoliteninin istifadəsinə verilmiş 38033 kv.metr hissəsi isə 7.300.000 – 7.600.000 manat dəyərində qiymətləndirilmişdir.

Qeyd olunan ünvanda torpaq sahəsinin 38033 kv.metr hissəsi Bakı Metropolitenə verildiyinə görə həmin hissənin dövlət nəfinə alınması mümkün deyil. Belə ki, Binəqədi Rayon Məhkəməsinin qərarı ilə cinayətin törədilmə vasitəsi olaraq Universitetin 18.100.000 manat dəyərində əmlakları üzərinə həbs qoyulmuş, amma hadisə vaxtı cinayətin törədilmə vasitəsi olmuş hazırda isə Bakı Metropoliteninin istifadəsinə verilmiş 7.300.000 - 7.600.000 manat dəyərində 38033 kv.metr torpaq sahəsi həbsdən kənarda qalmışdır.

Həmçinin müəyyən edilmişdir ki, təqsirləndirilən şəxs Elşad Abdullayevin 1.637.816,8 manat (rüşvət alma), 1.319.772,3 manat (vergi ödəməkdən yayınma) və 104.676 manat (transplantasiya) olmaqla cinayət yolu ilə əldə etdiyi əmlakın ümumi dəyəri 3.062.265,1 manat təşkil etmişdir.

Həmçinin müəyyən edilmişdir ki, təqsirləndirilən şəxsə məxsus (faktiki sahibliyində olan) digər əmlaklar araşdırılarkən müəyyən edilmişdir ki, 04.02.1994-cü il tarixdə təqsirləndirilən şəxs Elşad Abdullayev tərəfindən təkbaşına “ERA-94” kiçik müəssisəsi təsis edilmiş, həmin kiçik müəssisə də 10.07.1998-ci il tarixdə başqa bir hüquqi şəxsin - “ERA” Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsində 67.5 % payla iştirak etmişdir (19.10.2022-ci il tarixdə payı 74.5%-ə artırılmışdır). Bakı şəhəri Nərimanov rayonu Aerodrom küçəsi 2093-cü məhəllə 20/94 ünvanında yerləşən 33142 kv.metr ölçüdə torpaq sahəsi 30.04.2001-ci il tarixli 173 nömrəli şəhadətnamə əsasında “ERA” şirkətinin adına rəsmiləşdirilmiş, şirkət həmin torpaq sahəsində yerləşən anbar tipli tikililərin ayrıayrı şəxslərə icarəyə verilməsi fəaliyyəti ilə məşğul olmuşdur. Qeyd olunan şirkətin mülkiyyətində olan əmlakın və icarə haqqı şəklində gəlirlərin faktiki sahibliyi

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

dolayı yolla təqsirləndirilən şəxs Elşad Abdullayevə məxsusdur. Bunu "ERA" şirkətinin adındakı hərflərin E.lşad və (arvadı) R.eyhan A.bdullayevlərin baş hərflərindən təşkil olunması da bir daha sübut edir. Qeyd olunan əmlak istintaq dövründə Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 4.500.000 – 5.000.000 manat dəyərində qiymətləndirilmişdir.

Bundan başqa təqsirləndirilən şəxs Elşad Abdullayevin cinayət yolu ilə əldə etdiyi əmlakın dəyəri həcmində əmlakın, habelə dövlət nəfinə alınması mümkün olmadığına görə həmin dəyər həcmində ona məxsus başqa əmlakın xüsusi müsadirəsinin təmin edilməsi məqsədilə təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğlunun, eləcə də onun arvadı Abdullayeva Reyhan Hüseyn qızının, "Azərbaycan Beynəlxalq Universiteti"nin və "ERA" ASC-nin adlarına rəsmiləşdirilməklə faktiki olaraq Elşad Abdullayevə məxsus - 65.000 – 70.000 manat dəyərində Bakı şəhəri Səbail rayonu Ş.Şamil küçəsi ev 11 mənzil 8, 20.000 – 25.000 manat dəyərində Bakı şəhəri Xəzər rayonu Dübəndi bağ sahəsində yerləşən 26 saylı bağ sahəsi, 140.000 – 160.000 manat dəyərində Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 609 saylı bağ evi, 1.250.000 – 1.450.000 manat dəyərində Bakı şəhəri Səbail rayonu Qədirli küçəsi 8a (birləşdirilənədək 8a və 8b) ünvanında yerləşən fərdi yaşayış evi, 30.000 – 35.000 manat dəyərində Bakı şəhəri Səbail rayonu Cəfərov qardaşları küçəsi ev 12 mənzil 15/3, Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 707D saylı bağ evi, 1.467.900 manat dəyərində Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə 10 ünvanında yerləşən qeyri-yaşayış sahəsi, 793.450 manat dəyərində Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə 10 ünvanında yerləşən qeyri-yaşayış sahəsi, 208.236 manat dəyərində Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə ev 10 mənzil 52, 285.760 manat dəyərində Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4,6 mənzil 23 (yeni qaydalarla Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4 M8 mənzil 3), 86.400 manat dəyərində Bakı şəhəri Sabunçu rayonu Vişnyovka-1 bağ sahəsində yerləşən 1234 saylı bağ sahəsi olmaqla cəmi 4.346.746 – 4.581.746 manat, eləcə də yuxarıda qeyd olunduğu kimi Elşad Abdullayevin faktiki rəhbərlik etdiyi "ERA" ASC-nin əmlakı da daxil olmaqla ümumi dəyəri 8.846.746 – 9.581.746 manat təşkil edən əmlakın üzərinə Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs qoyulmuşdur. Qeyd olunan əmlakların ümumi dəyəri yuxarıda da göstərildiyi kimi iş üzrə xüsusi müsadirəyə yönləndirilə biləcək əmlak həcmi ilə (10.362.260,4 – 10.662.260,4 manat) tam əhatə olunur.

Təqsirləndirilən şəxs Elşad Abdullayevə məxsus və ya onun faktiki sahibliyində olan əmlaklara dair cədvəl № Mülkiyyətçi (faktiki sahib), əmlakın növü və ölçüləri, əmlakın dəyəri, əmlakın qeydiyyat sənədi

1. Abdullayev Elşad İslam oğlu - Bakı şəhəri Səbail rayonu Ş.Şamil küçəsi ev 11 mənzil 8 (23 kv.metr) 65.000 – 70.000 manat (28.10.1996-cı il tarixli 3M/A-405 reyestr nömrəli alqı-satqı müqaviləsi əsasında)

2. Abdullayev Elşad İslam oğlu Bakı şəhəri Xəzər rayonu Dübəndi bağ sahəsində yerləşən 26 saylı bağ sahəsi (500 kv.metr torpaq sahəsi), 20.000 – 25.000 manat (11.04.1988-ci il tarixli "Fialka bağçılıq təsərrüfat üzvlərinin iclas protokolu və üzvlük kitabçası, 14.05.2007-ci il tarixli "Torpaq sahəsinin planı və ölçüsü" sənədi əsasında),

3. Abdullayev Elşad İslam oğlu Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 609 saylı bağ evi (16 kv.metr tikili və 1200 kv.metr torpaq sahəsi) 140.000 – 160.000 manat (06.12.2002-ci il tarixli 29217 nömrəli "Bağın icarəyə verilməsi haqqında müqavilə" əsasında)

4. Abdullayeva Reyhan Hüseyn q. (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Səbail rayonu Qədirli küçəsi 8a ünvanında yerləşən fərdi yaşayış evi (920.6 kv.metr tikili və 1378.9 kv.metr torpaq sahəsi) 1.250.000 – 1.450.000 manat (12.12.2000-ci il tarixli FM seriyalı 9740 saylı qeydiyyat vəsiqəsi əsasında)

5. Abdullayeva Reyhan Hüseyn q. (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4,6 mənzil 23 (yeni qaydalarla Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4 M8 mənzil 3); 285.760 manat (13.08.2020-ci il tarixli 603725 nömrəli “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış” əsasında)

6. Abdullayeva Reyhan Hüseyn q. (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141- ci məhəllə 10 ünvanında yerləşən qeyri-yaşayış sahəsi 1.467.900 manat (29.03.2020-ci il tarixli 410701 nömrəli “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış” əsasında)

7. Abdullayeva Reyhan Hüseyn q. (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141- ci məhəllə 10 ünvanında yerləşən qeyri-yaşayış sahəsi 793.450 manat (25.03.2020-ci il tarixli 410756 nömrəli “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış” əsasında)

8. Abdullayeva Reyhan Hüseyn q. (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141- ci məhəllə ev 10 mənzil 52 208.236 manat (16.03.2018-ci il tarixli 1262331 nömrəli “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış” əsasında)

9. Abdullayeva Reyhan Hüseyn q. (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Səbail rayonu Cəfərov qardaşları küçəsi ev 12 mənzil 15/3 (11 kv.metr) 30.000 – 35.000 manat (08.10.1998-ci il tarixli 3M-A/1533 reyestr nömrəli alqı-satqı müqaviləsi əsasında)

10. Abdullayeva Reyhan Hüseyn q. (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 707D saylı bağ evi (16 kv.metr tikili və 1200 kv.metr torpaq sahəsi) Yarımtikili olması və yerinin müəyyən edilə bilməməsi nəzərə alaraq bazar qiymətinə dair məlumat təqdim edilməmişdir. (05.08.2003-cü il tarixli 31730 nömrəli “Bağın istifadəyə verilməsi haqqında müqavilə” əsasında)

11. Abdullayeva Reyhan Hüseyn q. (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Sabunçu rayonu Vişnyovka-1 bağ sahəsində yerləşən 1234 saylı bağ sahəsi 86.400 manat (19.01.2021-ci il tarixli 614353 nömrəli “Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrindən çıxarış” əsasında)

12. “Azərbaycan Beynəlxalq Universiteti” (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Binəqədi rayonu 7-ci mikrorayon X.Dairəvi küçəsi 3123-cü məhəllə 1604-cü keçid 11 ünvanında yerləşən 5334.5 kv.metr ölçüdə tikili və 7629.2 kv.metr ölçüdə torpaq sahəsi 4.300.000 – 5.000.000 manat (20.09.2002-ci il tarixli 2342 nömrəli və 24.10.2002-ci il tarixli 206 nömrəli şəhadətnamələr əsasında)

13. “Azərbaycan Beynəlxalq Universiteti” (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Nərimanov rayonu A.M.Cümə küçəsi 16 ünvanında yerləşən 4718.9 kv.metr ölçüdə tikili və 2522.6 kv.metr ölçüdə torpaq sahəsi 5.200.000 - 5.500.000 manat (29.10.2001-ci il tarixli 536 nömrəli və 04.12.2001-ci il tarixli 45 nömrəli şəhadətnamələr əsasında)

14. 1. “Azərbaycan Beynəlxalq Universiteti” (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Binəqədi rayonu 7-ci mikrorayon X.Dairəvi küçəsi 179 ünvanında yerləşən 1757.6 kv.metr ölçüdə tikili və onun altında qalan 4092.7 kv.metr ölçüdə torpaq sahəsi

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

1.200.000 – 1.500.000 manat (23.03.2001-ci il tarixli 873 nömrəli şəhadətnamə əsasında)

2. Əhmədov Hüseyn Mustafa oğlu (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Binəqədi rayonu 7-ci mikrorayon X.Dairəvi küçəsi 179 ünvanında yerləşən 30257 kv.metr ölçüdə torpaq sahəsi (həmin torpaq sahəsinin "Bakı Metropoliteni" QSC-yə ayrılmış hissəsi nəzərə alınmır) 5.800.000 – 6.100.000 manat (23.03.2001-ci il tarixli 875 nömrəli şəhadətnamə əsasında)

15. "ERA" ASC (faktiki sahib Elşad Abdullayev) Bakı şəhəri Nərimanov rayonu Aerodrom küçəsi 2093-cü məhəllə 20/94 ünvanında yerləşən 33142 kv.metr ölçüdə torpaq sahəsi və 5349.9 kv.metr ölçüdə tikili 4.500.000 - 5.000.000 manat (30.04.2001-ci il tarixli 173 nömrəli şəhadətnamə əsasında)

16. "Azərbaycan Beynəlxalq Universitetinin "Moskva filialı" Rusiya Federasiyasının Moskva şəhəri Odinsovu rayonunun Marfino kəndində 26B ünvanında yerləşən 20000 kv.metr torpaq sahəsi və 1000 kv.metr tikili.

İbtidai istintaq dövründə ABU-nun xüsusi mülkiyyətində olan əmlaklara, eləcə də təqsirləndirilən şəxs Elşad Abdullayevin faktiki istifadəsində olan "ERA" ASC-nin əmlakına baxış keçirilib hazırki vəziyyətləri öyrənilmişdir.

"Azərbaycan Beynəlxalq Universiteti"

Baxış zamanı ərazinin (həm torpaq, həm tikililərin daxili sahələrinin) istifadəsiz olduğu, hazırki vəziyyətində istismara yararsız, tullantılarla dolu bir vəziyyətdə saxlanıldığı müəyyən edilmiş, rəsmi kadastr sənədləri ilə müqayisə etdikdə Universitet tərəfindən şəhadətnamədə ayrılan torpaq sahəsindən əlavə sahənin özbaşına tutulma (zəbt etmə faktı) halı aşkar edilməmişdir.

"ERA" tam orta ümumtəhsil məktəbi

Ərazidə təmirli vəziyyətdə istismara tam yararlı halda beşmərtəbəli "ERA" tam orta məktəb və üçmərtəbəli "Təbəssüm" uşaq baxçasının fəaliyyət göstərdiyi aşkar edilmişdir.

"Aristokrat" tibb mərkəzi

Ərazidə təmirli vəziyyətdə istismara tam yararlı halda "Aristokrat" tibb mərkəzinin fəaliyyət göstərdiyi aşkar edilmişdir.

"ERA" Açıq Tipli Səhmdar Cəmiyyəti

Ərazidə istismara tam yararlı halda 21 anbarın ayrı-ayrı sahibkarlarla bağlanmış icarə müqavilələri əsasında fəaliyyət göstərdiyi aşkar edilmişdir.

Beləliklə, cinayət işinin materialları ilə müəyyən edilmişdir ki, 16.500.000 – 18.100.000 manat dəyərində Azərbaycan Beynəlxalq Universitetini təşkil edən 1) Bakı şəhəri, Binəqədi rayonu, 7-ci mkr, X.Dairəvi küçəsi 179 ünvanında 34349,7 kv. metr ölçüdə torpaq sahəsi (4092,7+30257) və 1757.6 kv.metr ölçüdə tikilidən ibarət daşınmaz əmlak (hazırda istifadəsiz), 2) Bakı şəhəri Nərimanov rayonu A.M.Cümə küçəsi 16 ünvanında yerləşən 4718.9 kv.metr ölçüdə tikili və 2522.6 kv.metr ölçüdə torpaq sahəsindən ibarət daşınmaz əmlak (hazırda Aristokrat tibb mərkəzi) və 3) Bakı şəhəri Binəqədi rayonu 7-ci mikrorayon X.Dairəvi küçəsi 3123-cü məhəllə 1604-cü keçid 11 ünvanında yerləşən 5334.5 kv.metr ölçüdə tikili və 7629.2 kv.metr ölçüdə torpaq sahəsindən ibarət daşınmaz əmlak (hazırda Era tam orta məktəb və baxça), 8.846.746 – 9.581.746 manat dəyərində faktiki olaraq Elşad Abdullayevə məxsus – 4) Bakı şəhəri Səbail rayonu Ş.Şamil küçəsi ev 11 mənzil 8, 5) Bakı şəhəri Xəzər rayonu Dübəndi bağ sahəsində yerləşən 26 saylı bağ sahəsi, 6) Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 609 saylı bağ evi, 7) Bakı şəhəri Səbail rayonu Qədirli küçəsi 8a (birləşdiriləndək 8a və 8b) ünvanında yerləşən fərdi yaşayış evi, 8) Bakı

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

şəhəri Səbail rayonu Cəfərov qardaşları küçəsi ev 12 mənzil 15/3, 9) Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 707D saylı bağ evi, 10) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə 10 ünvanında yerləşən qeyri-yaşayış sahəsi, 11) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə 10 ünvanında yerləşən qeyri-yaşayış sahəsi, 12) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə ev 10 mənzil 52, 13) Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4,6 mənzil 23 (yeni qaydalarla Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4 M8 mənzil 3), 14) dəyərində Bakı şəhəri Sabunçu rayonu Vişnyovka-1 bağ sahəsində yerləşən 1234 saylı bağ sahəsi, 15) "ERA" şirkətinin adına rəsmiləşdirilmiş Bakı şəhəri Nərimanov rayonu Aerodrom küçəsi 2093-cü məhəllə 20/94 ünvanında yerləşən 33142 kv.metr ölçüdə torpaq sahəsi, eləcə də 16) «Azərbaycan Beynəlxalq Universitetinin Moskva filialı»nın adına rəsmiləşdirilmiş Rusiya Federasiyasının Moskva şəhəri Odinsovu rayonunun Marfino kəndində 26B ünvanında yerləşən 20000 kv.metr torpaq sahəsi və 1000 kv.metr tikilidən ibarət daşınmaz əmlak üzərinə Bakı Şəhəri Binəqədi Rayon Məhkəməsinin 13.06.2025-ci il tarixli və 04.07.2025-ci il tarixli qərarları ilə həbs qoyulmuş və həmin əmlaklar xüsusi müsadirə üçün təklif edilmişdir.

Elektron Prokurorluq İnformasiya Sistemi Məhkumluq Məlumatları və cinayət işinin materiallarından görünür ki, Abdullayev Elşad İslam oğlu əvvəllər məhkum olunmamışdır.

Birinci instansiya məhkəməsi hesab etmişdir ki, təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğlunun qəsdən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələri ilə nəzərdə tutulmuş cinayət əməllərini törətməsi cinayət işinin materialları ilə sübu ta yetirilmişdir. O, qeyd edilən cinayət əməllərini törətməkdə təqsirlidir. Onun cinayət məsuliyyətindən və cəzadan azad olunması üçün əsaslar yoxdur. Təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğluna qanunla müəyyən edilmiş qaydada, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələrinin sanksiyaları həddində azadlıqdan məhrum etmə növündə cəza təyin edilməlidir.

Birinci instansiya məhkəməsində Azərbaycan Respublikası CM-nin 59-cu maddəsinə əsasən təqsirləndirilən şəxs Abdullayevin Elşad İslam oğlunun cəzasını yüngülləşdirən hallar müəyyən edilməmiş, Azərbaycan Respublikası CM-nin 61.1.1-cı maddəsinə əsasən həmin Məcəllənin 308.2-ci maddəsində nəzərdə tutulmuş cinayətin təkrar törədilməsi, CM-nin 61.1.6-cı maddəsinə əsasən həmin Məcəllənin 213.2.2 və 29, 312.2-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin tamah məqsədi ilə törədilməsi, CM-nin 61.1.13-cü maddəsinə əsasən həmin Məcəllənin 137 və 311-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin qulluq mövqeyinə əsasən təqsirkara göstərilən etimaddan istifadə etməklə törədilməsi, CM-nin 61.1.1-cı maddəsinə əsasən həmin Məcəllənin 137-ci maddəsində nəzərdə tutulmuş cinayətin təkrar törədilməsi və CM-nin 61.1.3-cü maddəsinə əsasən həmin Məcəllənin 137-ci maddəsində nəzərdə tutulmuş cinayətin qabaqcadan əlbir olmuş bir qrup şəxs tərəfindən törədilməsi təqsirləndirilən şəxs Elşad Abdullayevin cəzasını ağıraşdıran hallardır.

Məhkəmə kollegiyası birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşır və apellyasiya şikayətinin dəlillərinə qiymət verərək bildirir ki, Azərbaycan Respublikasının Konstitusiyasının 60-cı maddəsinə əsasən - hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6.1-ci maddəsinə əsasən - hər kəs, ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 351.2-ci maddəsinə əsasən ittiham hökmü ehtimallara əsaslana bilməz və yalnız məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin təqsiri sübuta yetirildiyi halda çıxarılır.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 144-cü maddəsinin tələblərinə müvafiq olaraq cinayət təqibi üzrə toplanmış sübutlar tam, hərtərəfli, obyektiv yoxlanılmalıdır. Həmin Məcəllənin 145.1, 145.2, 145.3-cü maddələrinin tələblərinə müvafiq olaraq hər bir sübut mənsubiyyəti, mümkünlüyü, mötəbərliyi üzrə qiymətləndirilməlidir. Cinayət təqibi üzrə toplanmış bütün sübutların məcmusuna isə ittihamın həlli üçün onların kifayət etməsinə əsasən qiymət verilməlidir. O cümlədən, hakim qanunu və vicdanını rəhbər tutaraq sübutların məcmusuna hərtərəfli, tam və obyektiv baxılmasına əsaslanmaqla öz daxili inamına görə sübutları qiymətləndirməlidir.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 139-cu maddəsinə əsasən cinayət təqibi üzrə icraat zamanı cinayət hadisəsinin baş vermə faktı və halları, cinayətin törədilmə üsulu, təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsi, əməldə cinayət tərkibinin əlamətləri, təqsirliliklə bağlı məsələlər yalnız sübutlar əsasında müəyyən edilməlidir.

“Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair” 17 mart 2011-ci il tarixli qərarda Konstitusiya Məhkəməsinin Plenumu cinayət əməlinin tövsifi ilə bağlı hüquqi mövqeyini belə ifadə etmişdir ki, hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamasını müəyyənləşdirməyə, habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir. Əks hal təqsiri olmayan şəxsin məsuliyyətə cəlb edilməsinə, yaxud da cinayət törətməkdə təqsirli olan şəxsin məsuliyyətdən kənarda qalmasına, cəzanın düzgün olmayan tətbiqinə səbəb ola bilər. Bu isə öz növbəsində Cinayət Məcəlləsinin əsaslandığı qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinin pozulmasına gətirib çıxara bilər.

Qərarda həmçinin göstərilir ki, cinayətin tövsifi dedikdə törədilən konkret cinayət əməlinin cəhətləri ilə cinayət-hüquq normasının dispozisiyasında nəzərdə tutulan tərkib əlamətləri arasında uyğunluğu müəyyən etməklə, müvafiq prosessual sənəddə öz əksini tapan və cinayət-hüquqi nəticələrə səbəb olan əmələ verilən cinayət hüquqi qiymətdir. Cinayətin tövsifi mühüm sosial və hüquqi əhəmiyyətə malikdir. Tövsif Cinayət Məcəlləsində müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi baxımından, cinayət qanununu tətbiq etməyə səlahiyyəti olan vəzifəli şəxslər tərəfindən həyata keçirilən mühüm məntiqi proses olub, onun yekununda konkret sosial hadisəyə, cəmiyyət üçün təhlükəli olan insan davranışına hüquqi qiymət verir. Bu isə ilk növbədə işin faktiki hallarının hərtərəfli öyrənilməsini, cinayət hüquq normasının seçilməsini və onun məzmununun izah edilməsini tələb edir.

Birinci instansiya məhkəməsində dövlət ittihamçısı Yaqubov Tural Qaraxan oğlu vəsatət (çıxış) verərək, təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğluna CM-in 137.5.1, 137.5.2, 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələri ilə irəli sürülmüş ittihamdan CM-in 137.5.1 və 137.5.2-ci maddələri ilə olan

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

rəqəm ifadəsini əks etdirən hissəsi çıxarılmaqla barəsində cinayət təqibinin CM-in 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29, 312.2-ci maddələri ilə davam etdirilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 41.3-cü maddəsinə əsasən dövlət ittihamçısı məhkəmədə cinayət təqibini istisna edən və bu Məcəllənin 40.3-cü və 40.4-cü maddələrində göstərilən cinayət təqibinin həyata keçirilməməsinə imkan verən halları aşkar edərsə, təqsirləndirilən şəxs barəsində cinayət təqibindən imtina edilməsini bildirməlidir.

Həmin Məcəllənin 84.6 və 84.6.9-cu maddələrinə görə bu Məcəllənin 41.3-cü maddəsində nəzərdə tutulmuş hallarda dövlət ittihamçısının təqsirləndirilən şəxsə qarşı cinayət təqibindən imtina etmək hüququ vardır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 137.5.1 və 137.5.2-ci maddələri 22 iyun 2022-ci il tarixli 553-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinə yeni redaksiyada verilən zaman ağırlaşdırıcı tərkib əlaməti kimi xüsusi formatda əks etdirilmişdir.

Cinayət işinin materiallarından görünür ki, təqsirləndirilən şəxs Elşad Abdullayevin donor orqanlarının alqı-satqısı, transplantasiya məqsədilə götürülməsi və transplantasiyasının həyata keçirilməsi üzrə əməlləri 2009-cu ilin mart ayından dekabr ayına qədər olan dövrü əhatə edir. Həmin əməllərin törədildiyi müddətdə zərərçəkmiş şəxsin təqsirləndirilən şəxsdən maddi, xidməti və ya sair cəhətdən asılı olmasından istifadə etməklə insan orqanlarının alqı-satqısı, transplantasiya məqsədilə götürülməsi və transplantasiyasının həyata keçirilməsi cinayəti 2009-cu ilin mart ayından dekabr ayınadək olan dövrdə qüvvədə olan cinayət qanununun 137.3-cü maddəsində təsbit olunsa da, həmin əməllərin təkrar və qabaqcadan əlbir olan bir qup şəxs, mütəşəkkil dəstə və cinayətkar birlik tərəfindən törədilməsi ayrıca tərkib əlaməti kimi maddənin dispozisiyasında nəzərdə tutulmamışdır.

Azərbaycan Respublikası CM-nin 10.1-ci maddəsinə əsasən əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza, bu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir. Törədildiyi zaman cinayət sayılmayan əmələ görə heç kəs cinayət məsuliyyətinə cəlb oluna və cəzalandırıla bilməz.

Həmin Məcəllənin 10.2-ci maddəsinə əsasən ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilmə vaxtı, onun nəticələrinin baş verdiyi andan asılı olmayaraq, cinayətin törədildiyi vaxt sayılır.

Həmin Məcəllənin 10.3-cü maddəsinə əsasən əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılmasını və bu əmələ görə cəzanı aradan qaldıran, cəzanı yüngülləşdirən, yaxud cinayət etmiş şəxsin vəziyyətini başqa cür yaxşılaşdıran cinayət qanununun geriyə qüvvəsi vardır, yəni həmin qanunun qüvvəyə minməsindən əvvəl müvafiq əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxslərə, habelə cəza çəkən, yaxud cəzasını çəkmiş, lakin məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslərə şamil edilir.

Həmin Məcəllənin 10.4-cü maddəsinə əsasən əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılmasını və həmin əmələ görə cəza müəyyən edən, cəzanı ağırlaşdıran, yaxud cinayət törətmiş şəxsin vəziyyətini başqa cür ağırlaşdıran cinayət qanununun geriyə qüvvəsi yoxdur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137-ci maddəsində (köhnə redaksiyada) insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

transplantasiya məqsədi ilə götürülməsinə məcbur etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Həmin Məcəllənin 137.3-cü maddəsində eyni əməllər, zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə və ya onun təqsirkar şəxsdən maddi, xidməti və ya sair cəhətdən asılı olmasından istifadə etməklə törədildikdə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur.

Hazırda qüvvədə olan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137.5.3-cü maddəsində zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə və ya onun təqsirkar şəxsdən maddi, xidməti və ya sair cəhətdən asılı olmasından istifadə etməklə törədildikdə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur.

Göründüyü kimi, hazırki iş üzrə cinayət əməli törədilən zaman, yəni 2009-cu ildə qüvvədə olmuş Cinayət Məcəlləsinin 137.3-cü maddəsinin dispozisiyası ilə hazırda qüvvədə olan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137.5.3-cü maddəsinin dispozisiyası eyni olsa da, hazırda qüvvədə olan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137.5.3-cü maddəsinin sanksiyasında 2009-cu ildə qüvvədə olmuş Cinayət Məcəlləsinin 137.3-cü maddəsinin sanksiyasına nisbətdə daha yüngül cəza nəzərdə tutulmuşdur.

Birinci instansiya məhkəməsi dövlət ittihamçısının çıxışını nəzərə alaraq hesab etmişdir ki, hazırkı iş üzrə təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğluna CM-in 137.5.1, 137.5.2, 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələri ilə elan edilmiş ümumi ittihamdan Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 137.5.1 və 137.5.2-ci maddələri ilə olan rəqəm ifadəsini əks etdirən hissəsi xaric edilməli, Azərbaycan Respublikası CM-nin 61.1.1 və 61.1.3-cü maddələrinə əsasən cinayətin təkrarən törədilməsi və qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi cəzanı ağırlaşdıran hallar kimi nəzərə alınmalı, təqsirləndirilən şəxs hazırda qüvvədə olan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137.5.3-cü maddəsi ilə təqsirli bilinərək, ona həmin maddənin sanksiyasında nəzərdə tutulan cəza təyin edilməlidir.

Bundan başqa, birinci instansiya məhkəməsi hökmdə qeyd etmişdir ki, təqsirləndirilən şəxs Elşad Abdullayevə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2 və 311.3.3-cü maddələri ilə ittiham verilmişdir ona görə ki, o, vəzifəli şəxs olmaqla özü və üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edərək xidməti vəzifəsinin icrası ilə əlaqədar qabaqcadan əlbir olduğu bir qrup şəxslə qanunsuz hərəkətlərə görə birbaşa və dolayı yolla, şəxsən və vasitəçidən istifadə etməklə külli miqdarda maddi neməti pul şəklində təkrarən rüşvət kimi istəmiş və almışdır.

Cinayət işinin materiallarından görünür ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2 və 311.3.3-cü maddələri ilə verilmiş ittiham üzrə cinayət əməlləri 1999-2010-cu illəri əhatə edir.

Cinayət işinin materiallarından görünür ki, 20.08.2013-cü il tarixdə Abdullayev Elşad İslam oğlunun barəsində axtarış elan edilməklə Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin 4(006)-732/2013 saylı qərarı ilə 03 (üç) ay müddətinə həbs qətimkan tədbiri seçilmiş və “İnterpol” vasitəsilə beynəlxalq axtarışa verilmişdir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

Abdullayev Elşad İslam oğlunun barəsində 20.08.2013-cü il tarixdə axtarış elan edilməsini nəzərə alaraq birinci instansiya məhkəməsi hesab etmişdir ki, ona CM-in 311.3.1, 311.3.2 və 311.3.3- cü maddələri ilə elan edilmiş ittiham üzrə 1999-cu ildən 20.08.2001-ci ilədək olan müddət ərzində törədilmiş cinayət əməlləri üzrə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyindən həmin hissədə ona cəza təyin edilməməlidir.

Belə ki, qanunvericiliyin tələblərinə əsasən Abdullayev Elşad İslam oğlunun təqsirləndirildiyi CM-in 311.3.1, 311.3.2 və 311.3.3-cü maddələri cinayətlərin təsnifatına görə ağır cinayət hesab olunur.

Azərbaycan Respublikası CM-nin 75.1.3-cü maddəsinə əsasən ağır cinayətin törədildiyi gündən on iki il keçdikdə şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz.

CM-in 311.3.1, 311.3.2 və 311.3.3-cü maddələri ilə elan edilmiş ittiham üzrə 1999-cu ildən 20.08.2001-ci ilədək olan müddət ərzində törədilmiş cinayət əməlləri üzrə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyindən cinayət işinin icraatına həmin hissədə bəraətverici əsaslar olmadan xitam verilməsi ilə bağlı müdafiə tərəfindən məhkəməyə heç bir ərizə və müraciət daxil olmamışdır.

Azərbaycan Respublikası CPM-nin 44.2.1-ci maddəsinə əsasən bəraət hökmü və ya cinayət təqibinə xitam verilməsi barədə qərar çıxarılması üçün müvafiq olaraq bu Məcəllənin 42 və 43-cü maddələrində göstərilən əsaslar mövcud olmadıqda, məhkəmə bu Məcəllənin 39.1.3-cü maddəsində nəzərdə tutulmuş halda təqsirləndirilən şəxsə cəza təyin etməməklə ittiham hökmü çıxarır:

Həmin Məcəllənin 39.1.3-cü maddəsinə əsasən cinayət məsuliyyətinə cəlbetmə müddətləri keçdikdə (cinayət məsuliyyətinə cəlbetmə müddətinin dayandırılması halları istisna edilməklə) cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir (o cümlədən cinayət işi başlana bilməz, başlanılmış cinayət işi üzrə icraata isə xitam verilməlidir)

Göründüyü kimi birinci instansiya məhkəməsi düzgün olaraq hesab etmişdir ki, təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğlunun qəsdən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələri ilə nəzərdə tutulmuş cinayət əməllərini törətməsi cinayət işinin materialları ilə sübuta yetirilmişdir. O, qeyd edilən cinayət əməllərini törətməkdə təqsirlidir. Onun cinayət məsuliyyətindən və cəzadan azad olunması üçün əsaslar yoxdur. Təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğluna qanunla müəyyən edilmiş qaydada, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələrinin sanksiyaları həddində azadlıqdan məhrum etmə növündə cəza təyin edilməlidir.

Bundan əlavə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 99-1.2-ci maddəsinə əsasən, məhkəmə hər bir cinayət işi üzrə Cinayət Məcəlləsinin 99-1.1-ci maddəsində nəzərdə tutulmuş müsadirə edilməli əmlakın olub-olmaması məsələsini həll etməlidir. Bu səbəbdən məhkəmə hazırki iş üzrə xüsusi müsadirə ilə bağlı məsələlərə də hüquqi qiymət verməyi zəruri hesab edir. Cinayət Məcəllənin 99-1.1.3-cü maddəsində isə cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın mülki-hüquqi əqdlərin bağlanması və ya digər üsullarla tam və ya qismən çevrildiyi digər əmlak və ya onun müvafiq hissəsi məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 183.2-ci maddəsinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1, 383.1, 408.3-cü maddələri və

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.4-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair 24 fevral 2022-ci il tarixli Qərarında göstərilir ki, cinayət törətmiş şəxslər cinayət yolu ilə əldə etdiyi əmlakı gizlətməyin müxtəlif yollarından, o cümlədən əmlakı digər şəxslərin adına rəsmiləşdirməkdən istifadə edirlər. Bununla əlaqədar digər şəxslərin mülkiyyətində olan əmlakın cinayət yolu ilə əldə edilmiş əmlak olaraq üzərinə həbs qoyulması məsələsi Azərbaycan Respublikasının beynəlxalq-hüquqi öhdəlikləri nəzərə alınmaqla həyata keçirilməlidir.

Belə ki, Birləşmiş Millətlər Təşkilatının "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasına görə, əgər cinayətdən əldə olunan gəlirlər qismən və ya tam şəkildə digər əmlaka çevrilibsə və ya dəyişdirilibsə, onda bu maddədə nəzərdə tutulan tədbirlər həmin əmlaka münasibətdə də görülür. Əgər cinayətdən əldə olunan gəlirlər qanuni əsaslarla əldə edilmiş əmlaka qatılıbsa, onda hər hansı bir həbs qoyma və ya götürmə səlahiyyətlərinə xələl gətirmədən, əmlakın yalnız cinayət nəticəsində əldə olunmuş gəlir qatılmış hissəsinin mütənasib qiymətləndirilmiş hissəsi müsadirə edilir. Cinayət nəticəsində əldə olunan gəlirlərə tətbiq edilən tədbirlər eyni zamanda cinayət nəticəsində əldə olunan gəlirlərdən alınmış hasilata və ya mənfəətə, cinayətdən əldə edilən gəlirlərə çevrilmiş və ya əvəz edilmiş əmlakdan alınmış hasilata və ya mənfəətə və ya cinayətdən əldə edilən gəlirlərin qatıldığı əmlakdan alınmış hasilata və ya mənfəətə də eyni qaydada və həcmdə tətbiq edilir (Konvensiyanın 12-ci maddəsinin 3, 4 və 5-ci bəndləri).

Konvensiyada məhkəmələr tərəfindən cinayət törətmiş şəxsin cinayətdən əldə olunması güman edilən gəlirlərinin və ya müsadirə edilməli digər əmlakının qanuni mənbəyinin araşdırılaraq müəyyən edilməsi xüsusilə vurğulanmışdır.

Konvensiyanın tələblərinə uyğun olaraq Cinayət-Prosessual Məcəlləsinin 248.3-cü maddəsinə əsasən də əmlakın cinayətin törədilməsində alət və ya vasitə kimi istifadə edilməsinə, cinayətin predmeti olmasına, cinayət yolu ilə əldə edilmiş vəsait hesabına əldə edilməsinə və ya artırılmasına kifayət qədər sübutlar olduqda, həbs bütün əmlakın, yaxud onun çox hissəsinin üzərinə qoyulur.

Azərbaycan Respublikası CM-nin 99-2-ci maddəsinə əsasən həmin Məcəllənin 99- 1.1-ci maddəsində nəzərdə tutulmuş müsadirə edilməli olan əmlak istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində cinayət törətmiş şəxsə məxsus olan digər əmlak məhkəmənin yekun qərarı ilə xüsusi müsadirə edilir.

Birinci instansiya məhkəməsi cinayət işi üzrə toplanmış sübutları bir-biri ilə əlaqəli şəkildə təhlil və müqayisə edərək, tam, hərtərəfli və obyektiv yoxlamaqla, cinayət, cinayət-prosessual qanunvericiliyin normalarını, habelə Konstitusiya Məhkəməsi Plenumunun qərarının müddəalarını nəzərə almaqla belə nəticəyə gəlmişdir ki, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 13.06.2025-ci il tarixli və 04.07.2025-ci il tarixli qərarları ilə üzərlərinə həbs qoyulmuş 16.500.000-18.100.000 manat dəyərində Azərbaycan Beynəlxalq Universitetini təşkil edən 1) Bakı şəhəri, Binəqədi rayonu, 7-ci mkr, X.Dairəvi küçəsi 179 ünvanında 34349,7 kv. metr ölçüdə torpaq sahəsi (4092,7+30257) və 1757.6 kv.metr ölçüdə tikilidən ibarət daşınmaz əmlak (hazırda istifadəsiz), 2) Bakı şəhəri Nərimanov rayonu A.M.Cümə küçəsi 16 ünvanında yerləşən 4718.9 kv.metr ölçüdə tikili və 2522.6 kv.metr ölçüdə torpaq sahəsindən ibarət daşınmaz əmlak (hazırda Aristokrat tibb mərkəzi) və 3) Bakı şəhəri Binəqədi rayonu 7-ci mikrorayon X.Dairəvi küçəsi 3123-cü məhəllə 1604-cü keçid 11 ünvanında yerləşən 5334.5 kv.metr ölçüdə tikili və 7629.2 kv.metr ölçüdə torpaq sahəsindən ibarət daşınmaz əmlak (hazırda Era tam orta məktəb və baxça), 8.846.746 – 9.581.746

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

manat dəyərində faktiki olaraq Elşad Abdullayevə məxsus – 4) Bakı şəhəri Səbail rayonu Ş.Şamil küçəsi ev 11 mənzil 8, 5) Bakı şəhəri Xəzər rayonu Dübəndi bağ sahəsində yerləşən 26 saylı bağ sahəsi, 6) Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 609 saylı bağ evi, 7) Bakı şəhəri Səbail rayonu Qədirli küçəsi 8a (birləşdiriləndək 8a və 8b) ünvanında yerləşən fərdi yaşayış evi, 8) Bakı şəhəri Səbail rayonu Cəfərov qardaşları küçəsi ev 12 mənzil 15/3, 9) Bakı şəhəri Binəqədi rayonu Novxanı qəsəbəsində yerləşən 707D saylı bağ evi, 10) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə 10 ünvanında yerləşən qeyriyaşayış sahəsi, 11) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə 10 ünvanında yerləşən qeyri-yaşayış sahəsi, 12) Bakı şəhəri Yasamal rayonu Mirəli Seyidov küçəsi 3141-ci məhəllə ev 10 mənzil 52, 13) Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4,6 mənzil 23 (yeni qaydalarla Bakı şəhəri Yasamal rayonu Qurban Xəlilov küçəsi 4 M8 mənzil 3), 14) dəyərində Bakı şəhəri Sabunçu rayonu Vişnyovka-1 bağ sahəsində yerləşən 1234 saylı bağ sahəsi, 15) "ERA" şirkətinin adına rəsmiləşdirilmiş Bakı şəhəri Nərimanov rayonu Aerodrom küçəsi 2093-cü məhəllə 20/94 ünvanında yerləşən 33142 kv.metr ölçüdə olan torpaq sahəsi, 16) eləcə də «Azərbaycan Beynəlxalq Universitetinin Moskva filialı»nın adına rəsmiləşdirilmiş Rusiya Federasiyasının Moskva şəhəri Odinsovu rayonunun Marfino kəndində 26B ünvanında yerləşən 20000 kv.metr torpaq sahəsi və 1000 kv.metr tikilidən ibarət daşınmaz əmlak xüsusi müsadirə tətbiq edilməklə dövlət nəfinə alınmalıdır.

Məhkəmə kollegiyası hesab edir ki, təqsirləndirilən şəxs Abdullayev Elşad İslam oğlunun Cinayət Məcəlləsinin 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələri ilə nəzərdə tutulmuş cinayət əməllərini törətməsi iş materialları ilə sübuta yetirilmiş və apellyasiya baxışı zamanı təqsirləndirilən şəxsə bəraət verilməsi üçün əsaslar müəyyən edilmədi.

Məhkəmə kollegiyası tərəfindən birinci instansiya məhkəməsi tərəfindən maddi və prosessual qanunvericiliyin normalarının tətbiqi ilə bağlı pozuntulara yol verilməsi halları müəyyən edilməmişdir.

Azərbaycan Respublikası CPM-in 398.1.1-ci maddəsinə əsasən apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışı nəticəsində apellyasiya instansiya məhkəməsi birinci instansiya məhkəməsinin hökm və ya qərarını dəyişdirmədən, apellyasiya şikayətini və ya apellyasiya protestini isə təmin etmədən saxlanılması haqqında qərar qəbul etmək səlahiyyətinə malikdir.

Göstərilənləri nəzərə alaraq məhkəmə kollegiyası belə qənaətə gəlir ki, apellyasiya şikayəti əsassız olduğundan təmin edilməməli, Abdullayev Elşad İslam oğlunun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələri ilə təqsirləndirilməsinə dair Bakı Ağır Cinayətlər Məhkəməsinin 23.12.2025-ci il tarixli, 1(101)-1640/2025 saylı qiyabi hökmü qanuni və əsaslı olduğundan verilmiş apellyasiya şikayətinə münasibətdə dəyişdirilmədən saxlanılmalıdır.

Məhkəmə kollegiyası həmçinin hesab edir ki, məhkumun hüquqlarının məhkəmə iclaslarında müdafiə xərcləri Azərbaycan Respublikası CPM-in 193.2 və 193.3-cü maddələrinə, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01 fevral 2001-ci il tarixli, 31 saylı qərarına əsasən (həmin qərara 28 aprel 2025-ci il tarixli, 141 saylı dəyişikliklər nəzərə alınmaqla) dövlət büdcəsindən ödənilməlidir.

Bakı Apellyasiya Məhkəməsinin cinayət kollegiyası şərh olunanları və Azərbaycan Respublikası CPM-in 193, 397, 398.1.1 və 410-cu maddələrini rəhbər tutaraq,

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007

**QƏRARA ALDI:**

Apellyasiya şikayəti təmin edilməsin.

**Abdullayev Elşad İslam oğlunun** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137.5.3, 213.2.2, 308.2, 311.3.1, 311.3.2, 311.3.3 və 29,312.2-ci maddələri ilə təqsirləndirilməsinə dair Bakı Ağır Cinayətlər Məhkəməsinin 23.12.2025-ci il tarixli, 1(101)-1640/2025 saylı qiyabi hökmü verilmiş apellyasiya şikayətinə münasibətdə dəyişdirilmədən saxlanılsın.

Abdullayev Elşad İslam oğlunun hüquqlarını müdafiəsi ilə əlaqədar məhkəmədə göstərilmiş cəmi 15 (on beş) iş saatı hüquqi xidmətə görə Quliyeva Kamilə Şiraslan qızına 165 (yüz altmış beş) manat məbləğində pul vəsaiti Azərbaycan Respublikası dövlət büdcəsi hesabından işlədiyi Bakı şəhəri 18 saylı Vəkil Bürosunun hesabına ödənilsin.

Qərar elan olunduğu andan dərhal sonra qanuni qüvvəyə minir, ondan Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 408-412-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına kassasiya şikayəti və kassasiya protesti verilə bilər.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı:**
Sədrlik edən hakim Emin Mehdiyev imzaladı,
Hakim Elmar Rəhimov imzaladı, Hakim Mehriban. Qarayeva imzaladı
**Məhkəmənin adı: Bakı Apellyasiya Məhkəməsi**
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=49c388fd5c194e34925a5b1c73ea891d
**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
S/N: 007